AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

TALEH CƏFƏROV

# ERMƏNİ DİASPORU

*(Dərs vəsaiti)*

ADPU-nun Tədris Metodik Şurasının 10 aprel 2019-cu il tarixli iclasının 4 nömrəli protokoluna əsasən nəşr olunur.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Elm və təhsil"
Bakı-2019

63.3(0=Ирм)+63.3(5Ата)6-36
C 50

*Elmi redaktor:* **O.B.Sultanov**
*tarix üzrə elmlər doktoru, professor*

*Redaktor:* ***Ə.V.Tanrıverdi***
*filologiya üzrə elmlər doktoru, professor*

*Rəyçilər:* **Ə.İ.Muxtarova**
*tarix üzrə elmlər doktoru, professor*
**A.A.Məmmədli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**R.Ə.Əliyev**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Taleh Cəfərov. Ermənі diasporu *(dərs vəsaiti)***
***Bakı, "Elm və təhsil", 2019, 232 səh.***

Dərs vəsaitində erməni diasporunun formalaşmasının ilkin mərhələsi, erməni diasporunun coğrafiyası, strukturu, əlaqələri və maliyyə mənbələri, ermənіçiliyin mahiyyəti və diasporun antitürk fəaliyyətindəki yeri və rolu, erməni kilsəsinin mürtəce fəaliyyəti faktoloji materiallar əsasında tədqiq edilmişdir.

Həmçinin dərs vəsaitində Erməni diasporunun təşkilatlanması, yaxın Şərq Avropa, Amerika, Cənub-Şərqi Asiya ölkələrində və Avstraliyada antitürk, anti-Azərbaycan fəaliyyəti faktlar və arxiv sənədləri əsasında tədqiq edilmişdir. Eyni zamanda dərs vəsaitində erməni diasporunun antitürk fəaliyyətində qondarma soyqırımı iddiaları, erməni terrorizmi, Ermənistan-diaspor əlaqələrinin imkişafı və bunun Azərbaycana qarşı yönəlməsi, bütövlükdə erməni diasporunun antitürk fəaliyyətinin siyasi-strateji hədəfləri araşdırılmışdır.

Dərs vəsaitindən ali və orta ixtisas məktəblərinin tələbələri, diplomatik sahədə çalışan mütəxəssislər, magistr, doktorant və disertantlar faydalan bilərlər.

**ISBN 978-9952-8305-2-1**

**© «Elm və təhsil», 2019**



## MÜNDƏRİCAT

ÖN SÖZ ..... 4
GİRİŞ ..... 9

FƏSİL I. ERMƏNİ DİASPORUNUN FORMALAŞMASININ İLKİN MƏRHƏLƏSİ
1.1. Erməni diasporunun coğrafiyası, strukturu, əlaqələri və maliyyə mənbələri ..... 15
1.2. Erməni diasporunun formalaşmasında erməni kilsəsinin rolu ..... 35
1.3. Diasporun formalaşmasında erməniçilik əsas faktor kimi ..... 45

FƏSİL II. ERMƏNİ DİASPORUNUN TƏŞKİLATLANMASI VƏ ONUN ANTİTÜRK FƏALİYYƏTİ
2.1. Postsovet ölkələrində erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyətinin istiqamətləri ..... 57
2.2. Yaxın Şərq ölkələrində erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyətinin səciyyəvi xüsusiyyətləri ..... 79
2.3. Avropa ölkələrində erməni diasporu: təşkilati strukturu və fəaliyyət istiqamətləri ..... 101
2.4. Amerika ölkələrində erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyəti. Erməni diasporunun dövlət strukturlarında yeri və rolu ..... 124
2.5. Cənub-Şərqi Asiya ölkələrində və Avstraliyada erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyəti ..... 151

FƏSİL III. ERMƏNİ DİASPORUNUN ANTİTÜRK FƏALİYYƏTİNİN SİYASİ-STRATEJİ HƏDƏFLƏRİ
3.1. Erməni diasporunun antitürk fəaliyyətində qondarma "erməni soyqırımı" iddiaları ..... 162
3.2. Erməni terrorizmi diaspor fəaliyyətinin başlıca istiqamətlərindən biri kimi ..... 179
3.3. Ermənistan-diaspor əlaqələrinin fəallaşması və Azərbaycana qarşı birgə mübarizəsi (XX əsrin 90-cı illəri) ..... 192

NƏTİCƏ ..... 204

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ..... 211

## ÖN SÖZ

Ermeni meselesi, Osmanlı döneminden başlayarak Türkiye Cumhuriyeti dönemine uzanan, Türk devletleriyle Batı ülkelerin arasında genelde siyasi bir yaklaşımla ele alınan bir konudur.

Ermeni meselesi önceleri Ermenilerin "beraber yaşadıkları komşu toplumlara karşı korunması ve Ermenilerin sözde verilmeyen hak ve özgürlüklerinin verilmesi" anlamında kullanılıyordu.

Avrupa'da ise "Ermeni sorunu" terim olarak diplomatik çevreler ve zamanın popüler basınında, 1878 Berlin Kongresi'nden başlayarak Ermenilerin Osmanlı İmparatorluğundaki konumlarını ve yaşadıklarını ifade ettikleri haksız, hukuksuz muameleleri ifade etmekteydi.

I. Dünya Savaşı içinde, 1915 yılında, yaşanan Ermeni tehcirinin yaşanması ve tehcirde Osmanlı İmparatorluğu'ndaki Ermenilerin devlet yönetimi tarafından kasıtlı ve emirler dahilinde öldürüldüğü ve bu öldürmelerin soykırım niteliğinde olduğu iddiaları ile siyasi ve hukuki açıdan daha da karmaşıklaştı. Bu yeni iddialara ilişkin olarak Türkiye tarafından yapılan, ölümlerin karşılıklı olduğu ve Ermeni ölümlerinin sistemli bir devlet politikası değil, savaş koşulları, hastalıklar, iklim, bölgedeki çete ve aşiretlerin saldırıları ve Ermenilerin zorunlu göçünü kolaylaştıracak imkanların bulunmaması gibi etkenlerin sebep olarak gösterilen açıklamalarla Ermeni sorunu bugüne kadar tartışılmaya devam etti.

Ermeni meselesi, günümüzde de güncelliğini korumaktadır. Meseleye siyasi açıdan yaklaşıldığı sürece de gündemdeki yerini koruyarak sürekli önümüze gelecek bir mesele olacaktır. Türkiye





bu durum karşısında haklı olmaktan kaynaklanan vakarlı ve savunmada kalan sessiz tutumunu sürdürmeye devam etmektedir. Ne var ki Türkiye'nin haklı sessizliği adeta suçlu insanların sessiz kalışı gibi gösterilmeye çalışılmaktadır.

Dünyada Türkiye ve Türkler hakkında bu algının yaratılması ve yayılmasında Ermenistan dışında yaşayan Ermeniler, yani Ermeni Diasporası, birinci önceliklidir. Sovyetler Birliğinin dağılmasına kadar Türkiye ve Türkler hakkında olumsuz faaliyetleri yönlendirip icra edenler Diaspora Ermenileriydi. Bunlara Sovyetler Birliğinin dağılmasından sonra Ermenistan devleti de katılmıştır.

Biz Anadolu Türkleri bir gerçeği kabul etmeliyiz. 1915 yılında yaşanan olayların ne olduğunu toplumumuzun büyük çoğunluğu bilmiyor. Bilmediğimiz için de gerçekleri dünyaya anlatmakta büyük sıkıntılar yaşadık ve yaşamaya devam ediyoruz. Bizim bu zaafımızdan yararlanan Ermeni diasporası ise olayları istediği gibi yönlendirip, saptırıp dünyayı tek yanlı olarak kendi tezlerine inandırma konusunda oldukça başarılı oldu.

Bu gerçeği de dikkate alarak Ermeni diasporasının yakından tanınması bir gereklilik olarak ortaya çıktı. Çünkü Ermeni Diasporası toplumumuzda çok az tanınmaktaydı.

Diaspora kavramı 1990'lı yıllarla birlikte sıkça duyulan bir kavram olarak karşımıza çıktı. Bir halkın, bir toplumun dünyanın çeşitli ülkelerine dağılışını anlatan bir kavramdı. İlk kullanımı, özellikle Filistin dışında daha sonra da İsrail'in dışında yaşayan Yahudileri belirlemek içindi. Ama Diaspora'nın günümüz sosyolojisinde ve politikasında anlaşılan manası "farklı topraklara dağılan bütün göçmen toplulukları" şeklindedir.

Türkiye'de tartışmalar daha çok sözde Ermeni soykırımının gerçekleşip gerçekleşemediği üzerinde yapılırken, Ermeni diasporası kendi aralarında bu tartışmanın çok ötesine geçmiş ve amaçlarını gerçekleştirmek hususunda daha ileri adımlar atmış bulunuyorlar. Maalesef Türkiye'de ve Azerbaycan'da konu ile ilgilenenler dışında çok kimse bu adımları, yeni Ermenilerin isteklerini tam olarak bilmiyor, bilemiyor.

Ermeni Diasporası tabiri ile, Ermenistan dışında ve dünyanın birçok ülkesinde o ülkelerin vatandaşları olarak yaşayan Ermeniler kastedilmektedir. 1980'li yılların sonlarından itibaren özellikle Avrupa ülkelerinde ve Amerikan Birleşik Devletlerinde yapılan bütün yayınlarda Ermeni Diasporası kavramının kullanıldığını görüyoruz. Büyük bir çoğunluğunu Ermeni asıllı yazarların hazırlayıp yayınladığı ve yayınlattığı bu kitaplarda Ermeni Diasporası dediğimiz ve yazımızın başında Ermenistan dışında ve dünyanın birçok ülkesinde dağınık ve o ülkelerin vatandaşları olarak yaşayan Ermeniler kastedilmekle birlikte, Ermenilerin bu kavrama bilerek iki yeni anlam yüklemeye çalıştıkları da görülmektedir.

Bunlardan birincisi Ermeni Diasporasının, Ermenistan Devleti dışında yaşayan Ermeniler olarak değil, Anadolu'dan göç ettirilen ve bir daha Anadolu'ya dönmelerine izin verilmediği için dünyanın çeşitli ülkelerine dağılan ve oralarda yaşayan Ermeniler olarak takdim edilmesidir.

Ermeni Diasporasına Avrupa ve ABD'de yaşayan Ermenilerin Ermeni diasporasına verdikleri veya vermeye çalıştıkları ikinci bir anlam da: Ermenistan dışında, dünyanın çeşitli ülkelerine dağılmış olarak yaşayan Ermenilerdir. Ancak buradaki "Ermenistan" sadece Kafkasya'daki Ermenistan Devleti değildir. Ermenistan sözü, Kafkasya'daki Ermenistan'la birlikte Türkiye'deki, İran'daki, Azerbaycan'daki ve Gürcistan'daki Ermenilerin kendilerine ait olduğunu iddia ettikleri toprakları da içine alır.

Ermeni Diasporası dini inançları ve politik tercihleri ne olursa olsun, ortak payda olarak belirledikleri ve gerçekleşmesi için çalıştıkları hedeflerini şöyle belirtiyor:

"...Vatanımız Türk Ermenistanı, Türkiye tarafından göçler ve katliamlar sonucu boşaltıldı. Bizim asıl problemimiz bu toprakları geri almaktır. Bunu gerçekleştirmek için de Ermeni Diasporasının bütün kaynakları ve bütün enerjilerinin birleştirilmesi gereklidir... " Ermeni Diasporasını folklorik bir müze malzemesi olmaktan kurtarmanın yolu, onlara atalarının topraklarını mekan olarak vermektir...„.Ermeni Diasporası bu nihai amaçları için de bir plan uygulaması içindedirler:

"1. Kafkas Ermenistan'ı, Ermeni toplumunun garantisi durumundadır. Kimlik açısından Ermeni olarak, kalmak isteyenler oraya göç etmelidirler.

2. Ermeni Soykırımının uluslararası platformda tanınması Ermenilerin isteklerini tatmin ve ruhlarını yatıştırıcı bir faaliyettir. Sonuç olarak bu tanınma kabul edilmiş sayılır. O konuda yapacak çok fazla bir şey kalmamıştır.

3. Ermeni soykırımının tanınması Ermeni problemini çözmez. Vatanımızın geri alınması ve Ermenilerin ata topraklarında toplanması Ermeni Diasporasının yüce hedefidir. Diaspora bu amaca yönelik bir şekilde teşkilatlanmalıdır".

Dünyanın çeşitli yerlerine dağılan Ermeni Diasporasının ne oldukları, ne düşündükleri ve ne istediklerinin ortaya konulması, hiç şüphesiz, Türk dünyasını yakından ilgilendirdiğini düşündüğümüz Ermeni meselesinin daha iyi anlaşılıp değerlendirilmesi konusunda son derece önemlidir. Ermenilerin hak iddia ettiği toprakların Ermenilerin değil, Türklerin ata toprakları olduğunu ancak bu tür çalışmalarla anlatıp ortaya koyabilir ve böylece Ermenilerin de akıllarını başlarına toplamalarına yardımcı olabiliriz.

İşte Azerbaycan'dan tanıdığım değerli araştırmacı Taleh Caferov'un elimizdeki çalışmasını bu çerçevede değerlendirmek gerekir. Taleh Caferov bilimsel esaslar çerçevesinde ele aldığı "Ermeni Diasporu" adlı çalışmasında Ermeni Diasporasını çok çeşitli yönleriyle incelemiştir.

3 Bölümden oluşan çalışmada 1. Bölümde Ermeni Diasporasının oluşmasının ilk dönemleri ele alınmış, bu çerçevede Ermeni Diasporasının coğrafyası, yapısı, çalışma alanları, mali kaynakları ve Diaspora'nın oluşmasında Ermeni Kilisesi'nin rolü üzerinde durulmuştur.

2. Bölümde Ermeni Diasporasının organizasyonu, teşkilatlanması ve Diasporanın Türkler aleyhine yaptığı faaliyetler incelenmiştir. Özellikle Ortadoğu ve Avrupa ülkeleri, ABD ve Avustral-

ya'daki Ermeni Diasporasının yapısı, teşkilatı ve Türkler aleyhine olan faaliyetleri detaylı olarak irdelenmiştir.

3. Bölüm olan son bölümde ise dünyadaki Ermeni diasporasının siyasi ve stratejik hedefleri, Ermeni sözde soykırımı iddiaları, Ermeni terörizmi ve Ermeni Diasporasının Azerbaycan Türklerine karşı yürüttüğü faaliyetler ele alınmıştır.

Taleh Caferov'un bu çalışması alanında bir boşluğu dolduracak mahiyette ciddi ve bilimsel bir çalışmadır. Kendisini tebrik eder, daha başka çalışmalarını da görmek istediğimizin bilinmesini isterim.

Ankara, 25.04.2019

**Prof.Dr.Cemalettin TAŞKIRAN**
Ankara Hacı Bayram Veli Üniversitesi
İktisadi ve İdari Bilimler Fakültesi
Uluslararası İlişkiler Bölümü Öğretim Üyesi





# GİRİŞ

XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin süqutunun sürətlənməsi və ictimai-siyasi şəraitin dəyişməsi ilə əlaqədar olaraq ermənilərin türk dünyasına qarşı gizli və aşkar surətdə həyata keçirdiyi siyasətin ətraflı öyrənilməsi üçün münbit şərait yarandı. Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra azərbaycanlılara qarşı soyqırımların və deportasiyaların törətdiyi ağrı-acıların araşdırılması aktuallıq kəsb etməyə başladı. Ümummilli lider Heydər Əliyevin imzaladığı sənəd və fərmanlar tarixçilər qarşısında yeni vəzifələr qoydu. İdeoloji buxovlardan azad olan tarixçilər qısa müddət ərzində bu istiqamətdə milli ruhda əsərlər nəşr etdirdilər. Bu əsərlərdə uzun illər gizli qalan məsələlər, "tamamilə məxfi" yarlığı ilə arxivlərdə saxlanılan sənədlər tədqiqata cəlb olundu. Lakin XIX əsrin ortalarından Azərbaycan torpaqlarında məskunlaşmağa başlayan ermənilərin, xaricdəki erməni diaspor təşkilatlarının antitürk, anti-Azərbaycan siyasəti işıq üzü görən əsərlərdə tədqiq olunmadığından problemin aktuallığın artırmışdır.

XIX-XX əsrlərdə xalqımızın üzləşdiyi ağrı-acıların, xüsusilə də erməni daşnak birləşmələrin etnik-milli zəmində həyata keçirdiyi deportasiya və soyqırımı siyasətinin arxasında duran başlıca siyasi qüvvələrdən biri də erməni diasporudur. Bu gün iki əsrlik tarixi dövr ərzində türk dünyasına qarşı təcavüzkarlıq, işğalçılıq planlarından əl çəkməyən erməni diasporunun dağıdıcı fəaliyyətinin dərindən araşdırılması və ifşası xüsusi aktuallıq kəsb edir. Problemin müxtəlif aspektləri bir çox türk, erməni, rus və Qərb tədqiqatçıları tərəfindən araşdırılsa da, Azərbaycan tarixşünaslığında ayrıca tədqiqat predmetinə çevrilməmiş, vətən tarixşünaslığında "Erməni diasporu" problemi kompleks və sistemli araşdırılmamışdır.

XX əsrin 80-90-cı illərindən başlayaraq diaspor institutu ilə bağlı çoxsaylı elmi araşdırmalar aparıldı. S.Arutyunov,

P.L.Kazaryan, A.Vişnevskiy, A.Qapeeva, E.Bajanov, S.Qradirovskiy, S.Qradirovskiy və A.Tupişın., V.Dyatlov, V.Dyatlov və E.Melkonyanın əsərlərində gəlinən ümumi nəticəyə görə, "diaspor" xalqın və ya etnik birliyin müəyyən hissələrinin mənsub olduğu ölkənin hüdudlarından kənarda yaşamasıdır. Bu tip əsərlər, öz növbəsində diaspor probleminin nəzəri aspektlərini özündə əks etdirdiyi üçün elmi əhəmiyyətini qoruyub saxlamaqdadır.

Erməni diasporunun təşəkkülü və formalaşması prosesi XIX əsrin əvvəllərindən başlamış, XX əsrin 90-cı illərində başa çatmışdır. Diasporun formalaşmasına bir sıra amillərin mühüm təsiri olmuşdur. İlk növbədə, kilsənin təsiri altında olan mühacir ermənilər məskunlaşdıqları ərazilərdə kilsə tikintisi, ticarət evlərinin inşası, mətbəə sahəsinin inkişafına xüsusi maraq göstərirdilər. Tədricən həmin yerlərdə mühüm infrastruktura malik iri erməni koloniyaları salınmaqda idi. Erməni koloniyaları öz mahiyyəti etibarilə antik yunan və müasir Qərb koloniyalarından tamamilə fərqlənirdi. Erməni koloniyaları heç bir zaman hərbi və ya siyasi güc mərkəzinə çevrilə bilmədiyi kimi, mədəni bir üstünlük də əldə edə bilmədi. Erməni koloniyalarında əhali mühacir ermənilərin kütləvi köçü nəticəsində sürətlə artırdı. Vaxtilə "Erməni vilayəti"ndə gəlirlər və dövlət mülkiyyəti idarəsinin keçmiş sədri olmuş İ.Şopenin hesablamalarına görə, 1852-ci il üçün dünyanın müxtəlif yerlərində koloniyalarda yaşayan ermənilərin sayı 2 milyon təşkil etmişdir. XX əsrin 50-60-cı illərində isə bu rəqəm 3-3,5 milyon nəfərə qədər yüksəlmişdir. Nəticədə bir əsr müddətində diasporun dinamikasında 60%-lik artım tempi qeydə alınmışdır. Müasir dövrdə dünyanın 5 qitəsində təqribən 70-dən artıq ölkədə 5-6 milyon nəfərə yaxın təşkilatlanmış erməni diasporu fəalyyət göstərir.

Erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyəti bütün regionlarda eyni vaxtda, bərabər sürətdə getməmişdir. Belə ki, XX əsrin əvvəllərində diasporun siyasi mərkəzini Suriya-Livan-Misir ölkələri təşkil edirdisə, II dünya müharibəsindən





sonra mərkəz Parisə köçmüş, əsrin sonlarından etibarən ABŞ-ın Kaliforniya ştatı diasporun ağırlıq mərkəzinə çevrilmişdir.

XX əsrdə türk dünyası terrorçu erməni diaspor təşkilatlarının maliyyə dəstəyi ilə bir çox faciələrin hədəfinə çevrilmişdir. Əsrin əvvəllərində Azərbaycanda baş vermiş hadisələrə şahidlik etmiş M.B.Məmmədzadə, M.S.Ordubadi, M.M.Nəvvab və digərləri 1905-1907-ci illərdə daşnak quldur dəstələrinin Bakı ilə yanaşı, digər bölgələrdə azərbaycanlılara qarşı həyata keçirilmiş terror, milli qırğın siyasətinin arxasında terrorçu diaspor təşkilatları və onlara bu işdə havadarlıq edən böyük dövlətlərin dayandığını göstərirdilər. M.M.Nəvvab erməni millətçilərinin əvvəl Osmanlı dövlətində, sonra isə Rusiya şəhərlərində xüsusi qımdatxanalar (müasir erməni diaspor mərkəzləri nəzərdə tutulur-T.C) yaratdığını və onlara ziyalılar, cavanlar, sənətkarlar və erməni icmasının başqa nümayəndələri cəlb olunduğunu yazırdı. Qımdatxanalarda Osmanlı və Azərbaycan türklərinə qarşı təbliğatda, təxribatda, sui-qəsddə, eləcə də silahlı toqquşmalarda istifadə etmək üçün hərbi sursat, çar məmur və zabitlərinin rüşvətlə ələ keçirilməsi məqsədilə varlı erməni təbəqələrindən pul toplanılırdı. XX əsrdə Qərbi Azərbaycandan azərbaycanlıların tarixi etnik torpaqlarından deportasiyanın əsas təşəbbüskarları erməni kilsəsi, xaricdəki erməni siyasi-terror təşkilatları və onların havadarları oldu.

Erməni tarixçilərinin əsərlərində birmənli olaraq erməni diasporunun xarici və daxili diaspor şəklində formalaşdığı fikri öz əksini tapmış, xüsusilə 1980-ci illərin sonlarından etibarən Avropa ölkələri və ABŞ-da nəşr edilən bütün nəşrlərdə yer almışdır. Bu əsərlərdə xarici diaspor kimi Ermənistanı tərk edərək Qərbə və Amerika ölkələrinə köçüb gedən və orada yaşayan ermənilər, daxili diaspor isə keçmiş SSRİ məkanına köç edən ermənilər nəzərdə tutulur. Erməni müəllifləri Yaxın Şərq ölkələrinə köç edən və orada yaşayan erməniləri də daxili diaspora aid edirlər. Onların yekdil fikirinə görə daxili diaspor xarici diaspora nisbətən təşkilatlanma baxımından geri qalmaqdadır.

Mövzunun aktuallığını əsaslandıran əsas məsələlərdən biri də erməni tədqiqatçılarının, hətta bəzi qərb tarixçı-politoloqlarının saxtalaşdırdığı Osmanlı sultanının imzaladığı 1915-ci il "Köç" haqqında qanundur. Ümumerməni düşüncəsinə görə, sultanın qəbul etdiyi bu qanunla 1,5 milyon erməni bilərəkdən "məhv" edilmiş, yerdə qalan yüzminlərlə erməni isə Yaxın Şərqdən tutmuş Latın Amerikası ölkələrinə qədər çox geniş coğrafiyaya səpələnmiş, bu yolla xaricdəki erməni diasporunun ilkin rüşeymləri formalaşmağa başlamışdır. Buradan belə nəticə çıxır ki, guya, 1915-ci ilə qədər dünyada bir dənə də olsun erməni koloniyası, icması, diasporu deyilən qurumlar mövcud olmamışdır. Məhz mövzunun aktuallığını artıran başlıca amillərdən biri də bu kimi əsassız iddiaların tutarlı faktlarla ifşa edilməsidir.

Müasir dövrdə yəhudi, erməni, ərəb, yunan, çin, hind diasporları güclü diasporlar hesab olunur. Onların içərisində erməni diasporu etnosunun tarixdə vətənlərinin olmaması, öz ətrafında mənsub olduğu xalqı daha çox təmsil edən nümayəndələrini cəlb edə bilməsi, mütəşəkkilliyi, milli həmrəylik və milli birlik ideyalarını bacarıqla mənimsəməsi və təbliğ etməsi, ümummilli mənafelərini şəxsi mənafelərindən üstün tutması, mənsub olduğu təşkilatların çıxardığı qərarları dönmədən yerinə yetirməsi və fəaliyyətini öz xalqı, dövləti ilə sıx əlaqəli şəkildə qurması ilə digər diasporlardan fərqlənir.

Son illərdə Türkiyə və Azərbaycanın iqtisadi cəhəddən sürətlə inkişafı, hər iki ölkənin beynəlxalq və regional layihələrdə yaxından iştirakı erməni diaspor təşkilatlarını, eyni zamanda terrorçu Ermənistan hökumətini daha çox narahat etməsidir. Azərbaycan Respubliksının Prezidenti İlham Əliyevin dünya siyasətinə ciddi təsiri olan böyük dövlətlərlə müntəzəm və məhsuldar iş aparması, onilliklər boyu formalaşmış stereotipləri, yanlış yanaşmaları dağıtmağa çalışması, ikili standartlara və ermənipərəst qüvvələrin təzyiqlərinə baxmayaraq, beynəlxalq ictimaiyyətin aşkar faktlar qarşısında həqiqəti tez-tez etiraf etmələri, son illər





Azərbaycanın Cənubi Qafqazın lider dövlətinə çevrilməsi ölkəmizin hərtərəfli inkişafının təntənəsi kimi qiymətləndirilməlidir.

Tələbələrin ixtiyarına verilən dərs vəsaiti giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

**Birinci fəsil** erməni diasporunun formalaşmasının ilkin mərhələsindən başlayaraq "erməniçilik" ideologiyasının meydana gəlməsi və erməni ictimaiyyəti arasında genişlənməsinə kimi olan bir dövrü əhatə edir. Burada diaspor anlayışı və onun nəzəri aspektləri, xaricdə ilk erməni koloniyalarının yaranması və kolonizasiyalaşma prosesinin sürətlənməsi, eyni zamanda erməni diasporunun coğrafiyası, diaspor təşkilatlarının strukturu, dövlət və qeyri-hökumət təşkilatları ilə əlaqələri, erməni diasporunun maliyyə mənbələri, diasporun formalaşmasında erməni kilsəsinin fəaliyyəti, erməniçiliyin əsasları, onun fəlsəfi-ideoloji aspektləri ilə yanaşı erməniçiliyin diasporun təşəkkülü, təşkilatlanması və inkişafındakı rolundan bəhs olunur.

**İkinci fəsil** "Erməni diasporunun təşkilatlanması və onun antitürk fəaliyyəti" mərhələsini əhatə edir. Fəsildə xaricdəki erməni diaspor təsisatlarında təşkilatlanma işinin sürətləndirilməsindən, diaspor təşkilatları arasında əməkdaşlığın səviyyəsindən, erməni diasporunun türk dünyasına, o cümlədən Azərbaycana qarşı çirkin fəaliyyətindən bəhs olunur. Eyni zamanda fəsilin ayrı-ayrı yarımfəsillərində postsovet ölkələrində erməni diasporunun türk dünyasına, o cümlədən Azərbaycana qarşı çirkin fəaliyyəti, Yaxın Şərq ölkələrində erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyətinin səciyyəvi xüsusiyyətləri, eyni zamanda Avropa ölkələrində erməni diasporu, onların təşkilatı strukturu və fəaliyyət istiqamətləri, Amerika ölkələrində erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyəti, həmçinin erməni diasporunun dövlət strukturlarında yeri və rolu, ən nəhayət Cənub-Şərqi Asiya ölkələrində və Avstraliyada erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyəti işıqlandırılmışdır.

**Üçüncü fəsil** "Erməni diasporunun antitürk fəaliyyətinin siyasi-strateji hədəfləri" adlanır. Fəsildə xaricdəki erməni dias-

por təşkilatlarının Türkiyəyə qarşı qondarma "soyqırımı" iddialarından, Azərbaycana və Türkiyəyə qarşı erməni terrorunun kütləvi hal alması və onun nəticələrindən, o cümlədən ötən əsrin 90-cı illərində Ermənistan-diaspor əlaqələrinin fəallaşması və Azərbaycana qarşı birgə mübarizəsindən bəhs olunur.

Vəsaitin Nəticə hissəsində ümumiləşdirmələr öz əksini tapmışdır.





# I FƏSİL

## ERMƏNİ DİASPORUNUN FORMALAŞMASININ İLKİN MƏRHƏLƏSİ

### *1.1. Erməni diasporunun coğrafiyası, strukturu, əlaqələri və maliyyə mənbələri*

Erməni tarixinin səciyyəvi xüsusiyyətlərindən biri də ermənilərin əksəriyyətinin bir neçə əsr ərzində özünün etnik ərazilərindən kənarda yaşaması, başqa sözlə, diasporda təmsil olunmasıdır. Avropadan-Asiyaya, Amerikadan-Afrikaya qədər uzanan geniş coğrafiyada ermənilərin miqrasiya izlərinə rast gəlmək mümkündür. Erməni diasporunun coğrafiyasının tədqiqinə keçməzdən öncə, qısaca olaraq "diaspor" termini, onun mənası və mənşəyini, diasporu formalaşdıran amilləri nəzərdən keçirək.

"Diaspor" yunan dilindəki "diaspora" terminindən götürülmüşdür. Bu termin "diasreikein"-səpələnmə, dağılma, yayılma, parçalanma sözlərindən alınmışdır. "Dia" ön morfemi ilə "speirein" felinin birləşməsindən yaranan "diaspeira" termini antik yunan əsatirlərində, dini ədəbiyyatlarda məhz səpələmək (ordunu), dağıtmaq (burada pul nəzərdə tutulur) və yaymaq mənasında işlədilib.

Erməni tədqiqatçıları, adətən, diaspor ifadəsi əvəzinə, xaricdə yaşayan ermənilər mənasını ifadə edən "spyurk" sözündən istifadə edirlər. Problemin tədqiqi ilə məşğul olan tədqiqatçıların gəldikləri yekdil fikrə görə, "diaspor" xalqın və ya etnik birliyin müəyyən hissələrinin mənsub olduğu ölkənin hüdudlarından kənarda yaşamasıdır. Bu sahənin tanınmış tədqiqatçılarından biri olan V.Dyatlov israr edir ki, diaspor öz milli dövlətindən kənarda yaşayan etnosun bir hissəsidir. Onun fikrincə, diasporu olan hər bir dövlət mütləq onlara öz vətəndaşları kimi yanaşmalı, onların problemlərini özününkü hesab etməlidir.

Azərbaycan Sovet Ensiklopediyasında "diaspor" termini haqqında qeyd edilir ki, Diaspora-(diaspor) xalqın (etnik birli-

yin) xeyli hissəsinin yaşadığı ölkədən xaricdə olmasıdır. Diaspora zorla köçürtmə, genosid təhlükəsi, iqtisadi və coğrafi amillərin təsiri nəticəsində yaranmışdır.

Diasporun təşəkkülü və formalaşmasında iki mühüm amili xüsusilə qeyd etmək lazımdır: birincisi, hər hansı bir xalqın nümayəndələrinin öz ölkəsinin etnik qruplarından kənara, xaricə mühacirət etməsi; ikincisi, artıq onun xaricdə, qürbətdə olan hissəsinin təbii-bioloji yolla artıb çoxalmasıdır. Lakin burada baş verən proseslərin ilkin şərhi və əhəmiyyətli çıxış nöqtəsini məhz mühacirət aktının baş verməsi təşkil edir. Mühacirət hallarının kütləvi xarakter alması isə öz növbəsində diasporun istər-istəməz yaranıb ortaya çıxmasını zəruri və qaçılmaz edir.

Görkəmli tədqiqatçı Konner Valker də diaspor anlayışı haqqında çox maraqlı fikirlər irəli şürür. Onun fikrincə, diaspor anlayışı öz tarixi torpaqları hüdudlarından (Məsələn, Rusiyadakı çuvaşlar, tatarlar, buryatlar, başqırdlar) kənarda yaşayan etnik icmalara aid edilir. O, diaspor əlamətlərini aşağıdakı qaydada sıralayır: etnik eynilik; mədəni dəyərlərin ümumiliyi; etnik və mədəni özünəməxsusluğu qoruyub saxlamaq cəhdi; ümumi tarixi vətən haqqında təsəvvürlər. Digər diaspor tədqiqatçısı Bajanov da diasporun müxtəlif əlamətlərini təhlil etməyə cəhd göstərmişdir. Onun fikrincə, diasporun əsas əlamətləri aşağıdakılardır:

1. Tarixi vətəndən kənarda yaşayan əhali; 2. Milli kökə bağlılıq, milli varlığını, milli sərvətini qorumaq, ana dilində danışmaq, tarixi vətən barədə təsəvvürlər; 3. Tarixi vətənlərini başqalarına tanıtmaqla onu təbliğ etmək.

Diaspor haqqında qısaca məlumatdan sonra ermənilərin məskunlaşdıqları ərazilər, miqrasiyaları, yerdəyişmələri haqqında məlumat verməyi məqsədəuyğun hesab edirik. Bu günə qədər ermənilərin mənşəyi, yerdəyişməsi, tarixi haqqında kifayət qədər əsərlər yazılmışdır. Ayrı-ayrı müəlliflər tərəfindən qələmə alınan bu əsərlərdə çoxlu sayda təhriflərə yol verilmişdir. Ermənilərin mənşəyi, onların miqrasiyaları və bunu doğuran səbəblər haqqında qısaca məlumat vermək lazım gəlir. Bu baxımdan, ilk



- 23141-



növbədə, erməni tarixinin "atası" sayılan M. Xorenatsiyə müraciət edək. Müəllifə əsasən, Nuhun oğlu Yafəsin oğul və nəvə nəticələrindən olan Homer, Aşkenaz, Rifat, Toqarma və Hayk ermənilərin əcdadları sayıla bilər. Alban tarixçisi Musa Kalankatuklunun "Albaniya tarixi" əsərində Homer hamirlərin (kimmerlər), Aşkenaz-sarmatların, Rifat-sovromatların və yalnız Toqarma (əsərdə Foqarma) ermənilərin əcdadı kimi göstərilir. Əsərdə göstərilən Homer, Aşkenaz qədim kimmerlər və skiflərin mənbələrindəki adlarından biridir ki, onlar da, fikrimizcə, qədim türk tayfalarıdır. Erməni tarixçilər arasında problemin bu şəkildə qoyulmasının əleyhinə çıxanlar da vardır. Məsələn, D.Dağavaryan istər Aşkenaz, istərsə də Toqarmanın erməni xalqına yad olduğunu və qədim erməni müəlliflərinin səhvən ermənilərin əcdadlarını Nuhun nəsli ilə bağladığını göstərmişdi.

Antik yunan müəlliflərinin əsərlərində də ermənilər haqqında, az da, olsa məlumat verilmişdir. "Tarixin atası" Herodot coxcildlik "Tarix" əsərində yazırdı: "Makedoniyalıların sözlərinə görə, friqlər hələ Avropada (Makedoniyada) yaşadıqları müddətdə öz qonşuları tərəfindən friq adlandırılırdılar". Herodot friqlərin pafloqoniyalı kimi geyindiklərini və Kiçik Asiyaya köçdükdən sonra isə adlarını dəyişdiklərini göstərmişdir.

Ermənilər hələ orta əsrlər dövründən başlayaraq dünyanın dörd bir tərəfində məskunlaşmaqda idilər. Özlərinə vətən axtarışına çıxan ermənilərin köç etdirilməsi və sürgünlərinin bir çox səbəbləri vardır. Erməni tarixçisi E.Melkonyanın fikrincə, digər xalqlar kimi ermənilərin də mühacirəti, ilk növbədə, iqtisadi, dini və siyasi amillərlə şərtlənmişdir.

Erməni diasporunun formalaşmasında erməni köçlərinin səbəblərini türk tarixçisi Erdal İlter aşağıdakı kimi müəyyənləşdirmişdir:

1. Ermənilərin pula (ticarətə) və sərvətə olan hərislikləri; 2. Ermənilərdə olan macərapərəstlik ruhu; 3. Xristianlıqdakı məzhəb ayrı-seçkiliyi, ermənilərin Ortodokslar tərəfindən yaxşı qarşılanmaması və dini təzyiqlər; 4. Ermənilərin tarix boyunca himayədarlarına qarşı xəyanət etmələri.

...kası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

XIX əsrin əvvəllərindən etibarən ermənilər daha çox Amerikaya mühacirət etməyə başladılar. Amerikanın iri şəhərlərində məskunlaşan miqrant ermənilər burada özlərinin bir neçə icma və birliklərini yaratdılar. Amerikan missionerləri tərəfindən onlar üçün yaradılan şəraitdən istifadə edən ermənilər bu ölkədə bir neçə məktəb, kitabxana, dini və mədəni cəmiyyətlər, tanınmış universitetlərdə erməni dili və ədəbiyyatı kafedraları açdılar. Deməк olar ki, bütün sahələrdə kadr hazırlayan erməni diasporu yəhudilərdən sonra Amerikada özlərinə müsbət imic qazanan etnik qrup olmağa çalışırlar.

XX əsrin 20-ci illərində erməni diasporunun coğrafiyasına nəzər saldıqda ermənilərin dünyanın dörd bir tərəfinə yayıldıqlarını görmək mümkündür. Bəhs olunan dövrdə ermənilərin əksəriyyəti Ermənistandan daha çox xaricdə yaşayırdılar.

Konkret desək, erməni diasporunun coğrafiyası daha çox Postsovet ölkələri, Yaxın Şərq, Avropa, Amerika regionu ilə əhatə olunurdu. Erməni tarixçisi N.B.Şahgəldiyan 1926-ci il üçün ermənilərin dünyaya səpələnmə coğrafiyasını bu cür təxmin etmişdir. Onun hesablamalarına, görə bu illər ərzində Sovet Ermənistanında 750 min, digər SSRİ ölkələrində 820 min, ABŞ və Kanadada 120 min, Livanda 50 min, İranda 140 min, Fransada 35 min, Suriyada 115 min, Türkiyədə 125 mindən artıq erməni qeydə alınmışdır. N.B.Şahgəldiyanın hesablamalarına görə, sadəcə 1922-ci ildə Hələbə Anadoludan köç yolu ilə gələn ermənilərin sayı 15 mindən artıq olmuşdur. 1923-cü ildə isə Suriyaya gələn erməni miqrantların sayı 20 mini ötmüşdür. Bu siyahıya Kipr adası, Misir, Yunanıstan, Bolqarıstan, Avstriya, Çexiya, İtaliya, Polşa, Braziliya, Fələstin, Argentina kimi ölkələri də əlavə etsək, ermənilərin sayının daha artıq olduğunu görmüş olarıq. Təkcə bu illərdə Bolqarıstandakı ermənilərin sayının 22 mini ötdüyünü qeyd edə bilərik. Türk tarixçisi Hikmet Özdemir və digər tarixçilərin hesablamalarına görə, bu illərdə Bolqarıstanda 46 min, Rumıniyada 43 min, Yunanıstan və Kipr adasında 79 min nəfər erməni yaşayırdı. II Dünya müharibəsinə qədər





Yunanıstandakı ermənilərin sayı 100 mini ötmüşdür. Digər erməni tarixçisi Panossiyanın verdiyi məlumatda 1920-ci illərin ortalarında Yaxın Şərq regionunda 300 min, Balkan yarımadasında 300 min, Rusiya Federasiyasında 183 min, Gürcüstanda 307 min, Azərbaycanda 282 min ermənininin yaşadığı öz əksini tapmışdır. Həmçinin müəllif Şimali Amerika, Qərbi Avropa və Avstraliyada yaşayan ermənilərin sayının da 250-300 min arasında olduğunu göstərmişdir. Qeyd edək ki, XIX əsrin 20-30-cu illərində dünyadakı erməni əhalisinin ümumi sayı 2 milyon nəfər olduğu halda, XX əsrin I rübündə bu rəqəmin 2,5-2,8 milyon nəfərə qədər artdığını görmüş olarıq. Beləliklə, bir əsr müddətində erməni əhalisinin sayında orta hesabla 40%-lik artım tempi qeydə alınmışdır. Maraqlıdır ki, miqrant ermənilərin əksəriyyəti dillərini bilmədikləri, mədəniyyətlərinə bələd olmadıqları ölkələrə gedirdilər. Ermənistanın keçmiş dövlət müşaviri G.Libaridiyan bu barədə yazır: "Fransada erməniləri "sal Armenien" (pis erməni), ABŞ-da "starving Armenian" (ac erməni), Cənubi Amerikada "Turko" (Türk), bəzi ərəb ölkələrində "şafet erməni"(erməni parçası) sözləri ilə tanıyırdılar.

Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra da miqrasiya halları daha geniş vüsət aldı. Təkcə 1924-cü ildə 100 mindən çox erməni SSRİ-dən və Türkiyədən Amerikaya köç etdi. Lakin 30-40-cı illərdə Stalinin birbaşa səyləri nəticəsində xaricdəki ermənilərin Ermənistan SSR-də məskunlaşdırılması haqqında "Ana vətənə dönüş" kampaniyasına başlandı. Erməni tarixçisi Ağayan yazırdı ki, kampaniya çərçivəsində 1946-1949-cu illər ərzində müxtəlif ölkələrdən (Livan, Bolqarıstan, İran, Suriya, Rumıniya, Fransa, Fələstin, ABŞ, Misir) Sovet Ermənistanına 100 minə yaxın erməni köçürüldü. Bu isə ümumi erməni diasporunun 10%-nə yaxındır.

XX əsrin II rübündə Anadoludan kütləvi şəkildə köçürülən qiyamçı ermənilərin əksəriyyəti daha çox Qafqaz, Yaxın Şərq ölkələrinə (xüsusilə Suriya və Livan) və Balkan yarımadasına (Yunanıstan, Rumıniya və b.) üz tutdular. Balkan ölkələrində

özlərinə yer tapa bilməyən ermənilər buradan 3-cü ölkələrə, xüsusilə Fransa, Ermənistan, Şimali və Cənubi Amerika ölkələrinə köç etmək məcburiyyətində qaldılar. Bütövlükdə, Livandan Fransaya, buradan Ermənistana, ardından da ABŞ-a köç edən ermənilər beləcə 20-30 il ərzində 4-5 ölkə dəyişmək məcburiyyətində qalmış, nəticədə on minlərlə erməni ailəsi köç dövründə dünyaya gəlmişdir.

Geniş coğrafiyaya malik erməni diasporunu təşkil edən icmalar mənşə, formalaşma, psixologiya, təşkilatlanma, yaşam tərzi və status baxımından bir-birilərindən tamamilə fərqlənir. Buna səbəb kimi ermənilərin köç etdikləri ölkələrin heç birində hegemon rola malik olmamasıdır. Türk, rus, ərəb, fars, hətta kürd dillərində danışan erməni miqrantların arasında erməni dili bilənlərin azlıq təşkil etməsi onların assimilyasiyasına yol açmışdır. Eyni zamanda erməni dilinin şərq və qərb qollarına bölünməsi də erməniləri bir sıra çətinliklərlə qarşı-qarşıya qoymuşdur. Həmçinin erməni icmaları arasında bir sıra məzhəb fərqliliklərinin mövcud olması da diasporun formalaşmasına mənfi təsir göstərən əsas amillərdən biridir.

Bu gün erməni diasporunda hansı regionda yaşayan erməninin daha ideal, daha elit erməni olması, ən əsası diasporda liderlik problemi mövcuddur. Bu barədə G.Libaridiyan yazır: "İdeal və qarışığı olmayan erməni heç bir zaman mövcud olmamışdır, bundan sonra da olmayacaqdır. Amma 1950-ci illərdən bəri Yaxın Şərq, getdikcə Hələb-Beyrut modeli ideal olaraq təqdim edilmiş, bu bölgədən olan ermənilər dünya çapındakı liderliyi öz əlinə keçirmişlər. Nəticədə erməni diasporu daxilində icmalararası iyerarxiya formalaşmışdır. Əgər Suriya-Livan icmaları iyerarxiyanın zirvəsində qərar tutduqları halda, Türkiyəli və Ermənistanlı ermənilər də iyerarxiya nərdivanının alt qatında yer almaqdadırlar.

Müasir dövrdə coğrafi baxımdan erməni diasporunun yayılma arealını aşağıdakı kimi müəyyənləşdirmək olar:

1. Yaxın Şərq regionu;





2. Postsovet məkanı;
3. Avropa ölkələri;
4. Amerika ölkələri;
5. Avstraliya və Cənub-Şərqi Asiya ölkələri.

2004-cü ilin məlumatına görə, dünyada təxminən 8 milyona yaxın erməni yaşayır. Bunlardan 3 milyonu Ermənistanda, qalanları isə digər ölkələrdə yaşayır. Həmçinin, Ermənistan Xarici İşlər Nazirliyinin dəstəyi ilə hazırlanmış diaspora internet səhifəsi dünyadakı ermənilərin sayının 9 milyondan çox, başqa bir müstəqil mənbə isə dünyanın 79 ölkəsində 15 milyona yaxın erməninin olduğunu bildirir. Fikrimizcə, müasir dövrdə dünyanın 70-dən artıq ölkəsində 5-6 milyon nəfərə yaxın təşkilatlanmış erməni diasporu mövcuddur.

XX əsrin 80-90-cı illərində ABŞ, Kanada, Fransa Rusiya, Avropa, Yaxın Şərq, Avstraliya və Cənubi Amerikada böyük erməni icmaları formalaşmışdır. Fərqli coğrafi məkanlarda formalaşmış bu erməni icmaları arasında ABŞ və Avropa erməni icmaları xüsusilə fərqlənir. Avropa ermənilərinin ABŞ ermənilərindən fərqi ondadır ki, birincilər özlərini Ermənistanın siyasi həyatında daha gərəkli təbəqə kimi qəbul edirlər, digər tərəfdən, onların siyasi proseslərə müdaxilə etmək imkanları da böyükdür. Bu baxımdan Fransa kimi bir dövlətin mövcudluğu Avropa ermənilərinin daha iddialı olmasına birbaşa təsir edir. Bundan başqa, Avropa ermənilərində türk toplumunda nifrət və nifrəti aşılamaq həvəsi daha güclüdür. Bu da sözsüz ki, Türkiyənin hər zaman Avropada güc sahibi olması və sivlizasiyaların toqquşması ilə bağlıdır. Avropa ermənilərinin xristian bayrağından daha çox istifadə etməsinin başlıca səbəbi də məhz budur.

Erməni diasporunun coğrafiyasını müəyyənləşdirən erməni tarixçisi A.Şaqinyan aşağıdakı cədvəldə Dağlıq Qarabağı Ermənistan ərazisi kimi götürməklə yanaşı oradakı erməni icmasını da Ermənistanın ümumi əhalisi kimi qeyd edir, təbii ki, bu yolverilməz və kobud bir səhvdir.

| | |
|---|---|
| **ASİYA QİTƏSİ** | 5.746.490 |
| Ermənistan (Dağlıq Qarabağ daxil) | 3.300.000 |
| Azərbaycan | 10.000 |
| Əfqanıstan | 300 |
| Banqladeş | 200 |
| Birləşmiş Ərəb Əmirlikləri | 6.500 |
| Birma | 100 |
| Çin | 500 |
| İndoneziya | 300 |
| Fələstin | 250 |
| Güney Koreya | 400 |
| Gürcüstan | 400.000 |
| Hindistan | 250 |
| İraq | 20.000 |
| İran | 200.000 |
| İsrail | 5.600 |
| Yaponiya | 200 |
| Qazaxıstan | 20.000 |
| Kipr | 4.000 |
| Qırğızıstan | 5.000 |
| Küveyt | 5.000 |
| Şimali Koreya | 400 |
| Livan | 125.000 |
| Özbəkistan | 60.000 |
| Sinqapur | 1.000 |
| Səudiyyə Ərəbistanı | 8.000 |
| Suriya | 140.000 |
| Tacikistan | 3.000 |
| Tailand | 100 |





| | |
|---|---|
| Tayvan | 90 |
| Türkiyə | 70.000 |
| Türkmənistan | 60.000 |
| İordaniya | 2.000 |
| Yəmən | 400 |
| **AVROPA QİTƏSİ** | 3.271.610 |
| Almaniya | 30.000 |
| Andorra | 100 |
| Albaniya | 500 |
| Avstriya | 3.500 |
| Belçika | 5.000 |
| Belarus | 4.000 |
| Bolqarıstan | 25.000 |
| Cexiya | 12.000 |
| Danimarka | 1.500 |
| Estoniya | 2.000 |
| Finlandiya | 1.700 |
| Fransa | 450.000 |
| Hollandiya | 4.000 |
| İngiltərə | 15.000 |
| İspaniya | 2.800 |
| İsveç | 6.000 |
| İsveçrə | 3.000 |
| İtaliya | 3.000 |
| Latviya | 4.500 |
| Litva | 2.000 |
| Lüksemburq | 100 |
| Macarıstan | 8.500 |
| Malta | 150 |
| Maldova | 225.000 |
| Polşa | 40.000 |
| Portuqaliya | 900 |
| Rumıniya | 6.000 |
| Rısiya Federasiyası | 2 480 000 |

| | |
|---|---|
| Slovakiya | 1 600 |
| Ukrayna | 1.30.000 |
| (Keçmiş) Yuqoslaviya | 2.600 |
| Yunanıstan | 15 000 |
| **AFRİKA QİTƏSİ** | 16.070 |
| Əlcəzair | 250 |
| Cibuti | 50 |
| Çad | 70 |
| Efiyopva | 1.000 |
| Fas | 900 |
| Qana | 100 |
| Güney Afrika | 300 |
| Keniya | 5Q |
| Konqo | 100 |
| Kotivuar (Fildişi Sahili) | 30 |
| Liberiya | 120 |
| Liviya | 300 |
| Madaqaskar | 100 |
| Misir | 12.000 |
| Nigeriva | 150 |
| Somali | 200 |
| Tunis | 100 |
| Zair | 100 |
| Zimbabve | 150 |
| **AMERİKA QİTƏSİ** | 1.291.150 |
| ABŞ | 1.000.000 |
| Argentina | 130.000 |
| Braziliya | 42.000 |
| Kanada | 100.000 |
| Kolumbiya | 250 |
| Kuba | 200 |
| Meksika | 1.500 |
| Çili | 1.200 |
| Uruqvay | 14.000 |





| | |
|---|---|
| Venesuela | 2.000 |
| **AVSTRALİYA QİTƏSİ** | 43.800 |
| Avstraliya | 42.000 |
| Yeni Zelandiya | 1.800 |
| **CƏMİ:** | **10.369.120** |

***Mənbə: Seyit Sertçelik. Rus ve ermeni kaynakları ışığında ermeni sorununun ortaya çıkış süresi(1678-1914) // TBMM kültür, Sanat ve yayın kurulu yayınları, Ankara, №131, 2009***

Erməni diasporunun strukturu geniş şəbəkəyə malik olması ilə diqqəti cəlb edir. Erməni diasporunun strukturunu belə qruplaşdırmaq olar:

1.Diaspor təşkilatları, onların sayı, məqsəd və fəaliyyətləri;
2.Diaspordakı erməni kilsələri və onların ideoloji əhəmiyyəti;
3.Diasporda fəaliyyət göstərən siyasi partiyalar;
4.Diaspor nəzdində yaradılan kütləvi informasiya vasitələri və orqanları.

Erməni diasporunun strukturunun əsasında diaspor ermənilərinin yaratdıqları çoxsaylı təşkilatlar şəbəkəsi dayanmaqdadır. İstər Amerika, Avropa və Yaxın Şərq, istərsə də Cənub-Şərqi Asiya ölkələri və Postsovet məkanında erməni təşkilatları məqsəd və fəaliyyət prinsipləri baxımından möhkəm əlaqələrə malikdirlər. Diaspor təşkilatları Amerikadakı elmi institut və araşdırma mərkəzləri ilə, siyasətçilər, kilsə, mədəniyyət evləri və digər ictimai təşkilatlar, yəni bütün sahələrdə fəaliyyət göstərən QHT ilə qarşılıqlı yardım və əməkdaşlıq adı altında münasibətlər yaradırlar.

Qeyd etmək lazımdır ki, Rusiya, Fransa, Almaniya, İtaliya, Böyük Britaniya və digər ölkələrlə müqayisədə Avropa və Amerikadakı erməni təşkilatları fəaliyyətləri etibarilə daha böyük, güclü və təsirlidir. Diaspor təşkilatları içərisində araşdırma mərkəzləri, elmi-tədqiqat müəssisələri, sosial yardım quruluşları, xeyriyyə cəmiyyətləri güclü təsiretmə mexanizminə malikdir. Araşdırma mərkəzlərinin əsas məqsəd və vəzifələri Ermənistan-

Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Ermənistanın haqlı tərəf olduğunu, münaqişənin yalnız qondarma "DQR"-in müstəqilliyinin tanınması yolu ilə həllinin mümkünlüyünü elmi baxımdan əsaslandırmaq, Dağlıq Qarabağ və digər Azərbaycan torpaqlarını "elmi cəhətdən" erməniləşdirməkdən ibarətdir.

Erməni diaspor təşkilatları içərisində sosial yardım quruluşlarının fəaliyyəti də əhəmiyyətli dərəcədə fərqlənir. Qeyd edək ki, 1906-cı ildə Nyu-Yorkda qurulan "Erməni Milli Yardımsevərlər Birliyi" (Armenian General Benevolent Union) və 1910-cu ildə təsis edilən "Erməni Yardım Cəmiyyəti" (Armeniane relief Seciety/ARS) diaspor ermənilərinin iki qüvvətli sosial yardım quruluşlarıdır. Erməni Milli Xeyirsevərlər Birliyinin məqsədi ermənilərin təhsil, mədəniyyət, mənəvi və əxlaqi inkişafını dəstəkləmək, yardıma ehtiyacı olanların müəyyən edilməsi və rifah səviyyəsinin yüksəldilməsi, iş və məslək qazandırmaqdır. Kimsəsiz insanlara təmənnasız olaraq yardım etmək və ya borc pul vermək, şagirdlər üçün ibtidai və orta məktəblər açmaq kimi fəaliyyətlər yürütməkdədir.

Avropa ermənilərinin başlıca sosial yardım təşkilatı olan "Erməni Əməkdaşlığı Fondu" isə 1998-ci ildən (The Forum of Armenian Assaciations in Europa/FAAE) fəaliyyətə başladı. Təşkilat beynəlxalq əlaqələr, insan haqları problemləri, iqtisadi əməkdaşlıq və üzv təşkilatların problemləri ilə maraqlanmaqdadır. Həmçinin bu təşkilat indi də erməni dilinin inkişafından qondarma "erməni soyqırımı"na uzanan cizgidə mədəni, tarixi və siyasi mövzularda layihələr yürütməkdədir. Əlavə edək ki, diasporun vahid, bütöv şəkildə formalaşması üçün ortaq dil, qondarma soyqırımı və Qarabağ probleminin həyati önəm daşıdığı və bütün ermənilərin bunları mənimsəməsinin vacibliyi də vurğulanır.

Müasir dövrdə erməni diasporunun strukturunda öndə gələn təşkilatlar arasında xeyriyyə cəmiyyətləri xüsusi yer tutur. Maraqlıdır ki, hal-hazırda dünyada Azərbaycana və bütövlükdə türk dünyasına qarşı irili-xırdalı 869 erməni diaspor təşkilatı fəa-





liyyət göstərməkdədir. "Xeyriyyəçilik" adı altında fəaliyyət göstərən bu hərbi-siyasi, strateji qurumların maliyyə yardımları, proqram və sənədləri, dünyaya "diplomatik" çıxışları bilavasitə aşağıdakı erməni diaspor mərkəzləri tərəfindən tənzimlənməkdədir: 1. Erməni Katolik Kilsəsi (Dünyanın 56 ölkəsində mərkəzi var. 2001-ci ilin iyun ayının 4-dən Xankəndində özəyi yaradılıb); 2. Amerika Erməni Assambleyası (ABŞ-ın 22 ştatını əhatə edir. 2001-ci il iyul ayının 14-də Dağlıq Qarabağda mərkəzi yaradılıb); 3. Erməni Hüquqçularının Assambleyası (Avropa ölkələri üzrə); 4. Erməni Ümumi Xeyriyyə İttifaqı (Mərkəzi Nyu-York, London. 2001-ci il iyul ayının 29-da Dağlıq Qarabağda şöbəsi yaradılıb); 5. Erməni Ümumdünya Yevangelist Şurası (Avropa ölkələri üzrə); 6. Amerikanın Erməni Missioner Assosiasiyası (Postsovet ölkələri istiqamətində 2001-ci il avqust ayının 3-də Dağlıq Qarabağda yaradılıb); 7. Amerikanın Erməni Milli Komitəsi; 8. Humanitar yardım göstərilməsi üzrə Şimali Amerika Erməni Cəmiyyəti (Dağlıq Qarabağda 2001-ci il martın 3-də yaradılıb); 9. Erməni Apostol Kilsəsinin Şərqi Yeporxiyası; 10. Erməni Apostol Kilsəsinin Qərbi Yeporxiyası; 11. Vartan cəngavərləri (2001-ci ildə Dağlıq Qarabağda rəsmi leqal qaydada fəaliyyətə başlayıb).

Erməni diasporunun strukturuna erməni kilsəsi və bir sıra aparıcı siyasi partiyalar da daxildir. Erməni kilsəsi tarixən və o cümlədən indi də erməni etnik kimliyinin formalaşması və erməni ideyalarının təbliğində aparıcı rol oynayır. Lakin kilsə bu istiqamətdə müəyyən vaxtlarda bir sıra uğursuzluqlarla da qarşılaşmışdır. Təsadüfi deyildir ki, hələ orta əsrlər dövründə ermənilərin katolikosu Nerses (1166-1173) ermənilərə müraciətlə demişdi ki, ermənilər "bizim günahlarımız üzündən dünyanın bütün uzaq ölkələrinə yayılmışlar.

Xaricdə təsis edilmiş diaspor partiyalarına misal olaraq Erməni İnqilab Federasiyası (Daşnaksütyun), Sosial Demokrat Hnçaq Partiyası və Erməni Liberal Demokrat Partiyasını (Ramqavar) göstərmək olar. Diaspor ermənilərinin ən böyük siyasi par-

tiyası olan Daşnaksütyun 1890-cı ildə Tiflis şəhərində təsis edildi. Beləliklə, əhalinin geniş kütlələrinə təsir uğrunda mübarizədə "Hnçaq" birincilik çələngini "Daşnaksütyun"a verməli oldu. Qısa zaman kəsiyində partiyanın iki bürosu–Şərq və Qərb büroları yaradıldı. Şərq bürosu Girəsun–Diyarbəkr, Zaqafqaziya, Rusiya və İran, Qərb bürosu isə Balkanlarda, Amerika, Misir və digər qərb ölkələrində fəaliyyət göstərməli idi. Daşnaksütyun partiyasının proqramında başlıca məqsəd kimi sosialist sisteminin hakim olduğu müstəqil Ermənistanın yaradılması göstərilsə də, bu başqa xalqları həqiqətdən yayındırmaq məqsədi güdürdü. Əsl məqsəd isə dənizdən-dənizə "Böyük Ermənistan" yaratmaq idi.

Müasir erməni diasporunun başlıca mərkəzləri olan ABŞ, Fransa və Rusiyada fəaliyyət göstərən digər erməni siyasi partiyası "Sosial Demokrat Hnçaq"dır (Hunchakian Social Democrat Party). Partiyanın əsas məqsədi "Türkiyə Ermənistanı"nı qurmaq, burada rus (Qafqaz Azərbaycanına məxsus hissəsi, daha doğrusu, Dağlıq Qarabağ) və "İran Ermənistanı"nı (İranın nəzarəti altında olan Güney Azərbaycan əraziləri) birləşdirən müstəqil, "Böyük Ermənistan" yaratmaqdan ibarətdir. Partiyanın proqramında terror qurumları ilə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Tarixçi E.Məmmədovun fikirincə, hər iki partiya terroru əsas mübarizə vasitələrdən biri kimi qəbul etmiş, antitürk ideologiyası zəmnində yaranmış və bu gün nəinki ABŞ, eləcə də digər Qərb ölkələrində erməni iddialarını təbliğ etmək, ictimai rəyi manipulyasiya etməklə Türkiyə və Azərbaycanın maraqları əleyhinə mübarizə aparmaq, ABŞ-da və bütünlüklə dünyada "türk imici"ni sarsıtmaq istiqamətində çox aktiv və demək olar ki, effektli iş aparır.

Erməni diasporunun fəal üzvləri tərəfindən təsis edilmiş aktiv siyasi partiyalardan biri də Ramqavar Partiyasıdır (Armenian Democratic Liberal Organizations). 1921-ci ildə təsis edilmiş bu partiyanın mərkəzi qərargahı Massaçusetsdə yerləşir və Miçiqan, Uotertoun, Kaliforniyada regional şöbələri mövcuddur. Partiya sıralarına daha çox elmli, ziyalı insanları toplamağı bacarmış, dini mövqe baxımından Eçmiədzin kilsəsinə meyilli olması ilə diqqət çəkmişdir. Təşkilat həm ölkə daxilində, həm də ölkə xaricində ermənilərin maraqları ilə bağlı olan məsələlər üzrə Konqres və ştatlar səviyyəsində lobbiçilik fəaliyyətini həyata keçirir. G.Libaridiyanın hesablamalarına görə, bu günə qədər bu üç siyasi partiya erməni diasporu üçün çox önəmli qərarlara imza atmış, mədəni, siyasi və intellektual sahələrin inkişafında mühüm rol oynamışdır. Bütövlükdə, partiyaların 1988-ci ildə bütün dünyadakı üzvlərinin sayı 12 min nəfərdən ibarət idi ki, bunun da ¾ hissəsini Daşnaksütyun partiyasının üzvləri təşkil edirdi.

Erməni diasporunun gücünü müəyyənləşdirən əsas faktorlardan biri də KİV və onların fəaliyyətinə nəzarət mexanizminin yüksək səviyyədə qurulmasıdır. Bu baxımdan erməni diasporu geniş informasiya şəbəkəsinə malikdir. Buraya gündəlik və həftəlik qəzetlər, elmi broşürlər, bülleten və jurnallar, radio və televiziya proqramları, internet saytları daxildir.

Qeyd etmək lazımdır ki, ermənilər özlərini daha yaxşı tərəfdən tanıtmaq, diasporda yaşayan ermənilərin birliyi və bərabərliyini təmin etmək məqsədilə öz qəzetlərini nəşr etdirməyə başladılar. XIX əsrin II yarısından etibarən qəzet və broşürlər yayınlandı. XX əsrin əvvəllərində Avropa, Rusiya və Yaxın Şərqdə dərc edilən ifrat milliyətçi erməni qəzetlərin səhifələrində türkləri mütəmadi aşağılayan və erməni toplumuna türk düşmənçiliyini alovlandıran yazılar dərc edilirdi. Xaçatur Malumyanın baş redaktoru olduğu və daşnak partiyasının rəsmi yayın orqanı olan "Droşak" qəzetindən başlayaraq "Banvok", "Dzayn" (Səs), "Murc" (Çəkiç), "Kayn" (Qığılcım), "Nor"(Yeni), "Hosk" (Söz), "Mşak" (İşçi), "Horizon" (Göyqurşağı) və "Arev" (Günəş) kimi qəzetlərin ortaq nöqtəsi türk düşmənçiliyi idi. "Böyük Ermənistan" ideologiyasını ilk dəfə milliyətçi qəzetlər ortaya atmışdır və sovetlər dövründə "Garmir Troşak", "Sovetakan Hayastan", "Kommunist" və b. qəzetlər daimi olaraq bu fikri təkrarlamağa davam etmişlər. Bu gün "İravunk", "Azg", "Haykakan Jamanak", "Yerkir", "Çorord İsxanutyun", "Hayastanı Han-

rapetutyun", "Hayots Aşhar", "Yerort Uj", "Zinvor" qəzetləri daimi olaraq türk-erməni əməkdaşlığını gündəmdə tutaraq çox sayda xəbər və izaha yer verməkdədir.

Hal-hazırda erməni diasporunun siyasi mərkəzi olan ABŞ-da nəşr edilən, ən qədim erməni qəzeti 1899-cu ildən erməni dilində buraxılan "Hairenik Weekly"dir. Daha sonra "Eritassart Hayastan", "Asbarez Armenian Daily", "Baikar Monthly" və s. qəzet və jurnallar buraxıldı. Qəzetlərlə yanaşı, digər dövri nəşrlərin fəaliyyəti də diasporun diqqət mərkəzindədir. Bu gün ABŞ-da təxminən 17 adda dövri nəşr fəaliyyət göstərməkdədir. Bunlardan 5-i Kaliforniyada, 3-ü Nyu-Yorkda, 4-ü Massacusetsdə, 2-si Ohayoda, digərləri isə Vaşinqton, Miçiqan və İllinoisdə nəşr edilməkdədir. Dövri nəşrlərin 4-ü erməni və ingilis dillərində, digərləri isə yalnız ingilis dilində yayınlanmaqdadır.

Bu gün "Armenian Reporter", "Hairenik Weekly", "Armenian Sentinel", "Asbarez", "Massis Weekly" kimi qəzet və jurnallar, "Voice of America: News: Armenian (Amerikanın səsi: Erməni xəbərləri) radiostansiyası, "Ardzagang Armenian TV", "Horizon Armenian TV" kimi televiziya proqramı və kanalları, broşürlər, dövri nəşrlər Amerikada fəaliyyət göstərən erməni KİV-nin geniş şəbəkəsinə daxildir. Diaspor strukturuna ABŞ-da ermənilərlə bağlı araşdırmalar aparan 17 dövri mətbuat orqanı da daxildir. Onlardan bəziləri-"Journal of Armenian Studies", "Aspora", "Annual of Armenian Linguistics", "Armenian Review" və s-dir. ABŞ və Kanadada ermənilərə aid toplum 118 bülleten və jurnal nəşr olunur. Onlardan 5-i Kanadada, digərləri isə ABŞ-da buraxılır.

Bu gün xaricdəki erməni diaspor təşkilatları ilə digər ölkələrin (yəhudi, yunan, çin, ərəb) diaspor qurumları, dövlət və qeyri-hökumət təşkilatları arasında sıx əlaqələr qurulmuşdur. Xüsusilə ABŞ-da yunan lobbisi uzun illərdir ki, erməni lobbisi ilə sıx əməkdaşlıq edir, hər iki xalqın lobbisinin birgə ümumi mənafelər mövqeyindən çıxış etməsi onların Türkiyəyə qarşı ümumi münasibətindən irəli gəlir. Bununla yanaşı, diaspor nümayəndələri daha çox bu ölkələrin tanınmış ziyalıları, millət vəkilləri, dövlət və qeyri-hökumət nümayəndələri ilə əməkdaşlıq edərək onların diqqətini diasporun mövcud problemlərinə, qondarma "erməni soyqırımı"nın tanınmasına, işğal olunmuş Azərbaycan torpaqlarının əzəli erməni torpaqları kimi təqdiminə və xarici sərmayənin Ermənistana gətirilməsinə yönəltməkdədirlər. Son illər xarici ölkələrdə məskən salmış erməni diasporunun başqa millətlərə məxsus diasporlarla əlaqələri də genişlənir və bu əlaqələr, adətən, üç istiqamətdə (ticarət, mədəni, hərbi) inkişaf edir.





Erməni diasporunun güclü sütunlara və fəaliyyət imkanlarına malik olmasının başlıca səbəbi dayanıqlı maliyyə qaynaqlarına malik olmasıdır. Erməni diasporunun maliyyə mənbələrini şərti olaraq aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. İri erməni maqnatları tərəfindən edilən yardımlar;
2. Erməni Xeyriyyə Fondları tərəfindən edilən yardımlar;
3. Erməni Kilsəsi tərəfindən edilən yardımlar;
4. Erməni lobbi təşkilatlarının ayırdığı yardımlar;
5. Ermənistan hökuməti tərəfindən edilən yardımlar;
6. Ermənipərəst dövlətlər tərəfindən edilən gizli yardımlar;
7. Telemarafonlardan əldə edilən vəsaitlər və s.

II Dünya müharibəsindən sonra ümumdünya erməni təşkilatları və siyasi birliklərinə ciddi maliyyə yardımları ayıran xeyriyyə təşkilatlarının sayı durmadan atmaqda idi. Belə təşkilatlardan biri də mərkəzi qərargahı Portuqaliyada yerləşən "Gülbənkyan Fondu"dur(Foundation Calouste Gulbenkyan). Qeyd edək ki, Fond dünyanın zəngin şəxslərindən olan Gülbənkyanın vəsiyyəti ilə yaradılmışdır. Görkəmli türk tarixçisi Esat Uras bu barədə yazır: "1953-cü il tarixli vəsiyyətnamədə fondun irq, məzhəb və ölkə fərqi qoyulmadan xeyir işlərə, sənət, təhsil, elmi mütəxəssislərə vəsaitlərin ayrılması öz əksini tapmışdır. Araşdırmalar fondun vəsaitlərinin yalnız ermənilərə ayrılmadığını təsdiq edir. Xeyriyyə Fondunun vəsaitlərinin təxmini olaraq 47%-nin Portuqaliyaya, 12%-nin isə İngiltərəyə ayrıldığı da öz əksini tapmışdır. 1956-cı ildə fəaliyyətə başlayan fond bir sədr və 9 nə-

fərdən ibarət İdarə Heyəti tərəfindən idarə olunur. Fondun 1966-ci il raportunda dünyadakı erməni təşkilatlarına toplam 1 milyon 548 min 330 dollar ayrıldığı qeyd edilmişdir. Ayrılmış pullar raportda qeyd olunduğu kimi, dünyanın müxtəlif ölkələrinə səpələnmiş ermənilərin təhsil, mədəniyyət və müxtəlif sənət sahələrinin inkişafına və sosial yardım məqsədilə lazımı ehtiyacların qarşılanması məqsədilə ayrılmışdır. Bir maraqlı faktı da qeyd etmək lazımdır ki, Gülbənkyan Fondunun fəaliyyətə başladığı 18 iyul 1956-ci il tarixindən 31 dekabr 1966-cı il tarixinə qədərki dövrdə dünyadakı erməni vətəndaşlarına ayrılan pulların ümumi məbləği 9.781.730 milyon dollar olmuşdur. Türkiyədəki erməni dərnəklərinin daha səmərəli fəaliyyəti üçün və xüsusilə təhsil sektoruna ayrılan məbləğin 69 min 744 dollar olduğunu və bu məbləğin 65 min 310 dollarının nağd şəkildə ödənildiyini qeyd etmək olar. Türkiyəyə ayrılan bu vəsaitlərin kimlərin vasitəçiliyi ilə, hansı təşkilatlara ayrıldığı haqqında əlimizdə dəqiq məlumat yoxdur.

XX əsrin 70-80-ci illərində erməni terror təşkilatlarına külli miqdarda maliyyə vəsaiti ayıran xeyriyyə fondlarından biri də "Qara Xaç Cəmiyyəti"dir. Cəmiyyət 1872-ci ildə Vanda təşkil olunmuşdur. Qeyd etmək lazımdır ki, bu dövrdə erməni diasporunun antitürk fəaliyyətində taktiki dəyişiklik edilmiş, türk missionerlərinə, təşkilatları və missiyalarına qarşı terror cinayətləri ilə yadda qalmışdır. Bəhs olunan dövrdə dünyanın bir çox ölkələrində yaşayan ermənilərin yaratdıqları ictimai birlik, fond və hərəkatlar erməni terrorizminin aparıcı qüvvəsi və maliyyə qaynağına çevrildi. Bu mənada Qara Xaç Cəmiyyətinin əsas məqsədi milli mənafelərə xələl gətirmədən gəncləri silahlandırmaq və silahlı çıxışlara təşviq etməkdən ibarət idi. Bu istiqamətdə fəaliyyət göstərən digər iri şirkətlərə misal olaraq İngiltərəyə məxsus "British Airways", dünyanın 77 dövlətində xüsusi nümayəndəliyə malik "HSBC" Bankı, ABŞ-a məxsus "AKSA Sığorta Şirkəti"ni və digər bankları qeyd etmək olar. Bu təşkilatlar xüsusilə beynəlxalq səviyyədə uydurma "erməni soyqırımı" haqqında elmi konfransların keçirilməsinə və bu istiqamətdə nəşr edilən kitablara maliyyə dəstəyi verməkdədir. Qeyd edək ki, "HSBC" bankın dünyanın müxtəlif regionlarını birləşdirən 120 milyon nəfər müştərisi vardır. Bu maliyyə sektorlarının Türkiyədə çox geniş şəbəkələri mövcuddur. Türkiyədə qazanc əldə edən bu şirkət və banklar öz gəlirlərinin bir hissəsini uydurma "erməni soyqırımı"nın tanıdılmasına xərcləməkdədirlər.





Dünyada zəngin maliyyə resurslarına malik iri şirkətlərdən biri də "AKSA" Sığorta Şirkətidir. Şirkət hər il diaspor ermənilərinə təzminat şəklində külli miqdarda vəsait ayırmaqla onların təhsil almaq imkanlarını daha da yaxşılaşdırmağa çalışır. Bu gün mərkəzi ofisi ABŞ-da yerləşən "AKSA" Sığorta Şirkətinin dünyanın əksər dövlətlərində xüsusi nümayəndəliyi fəaliyyət göstərir. "AKSA" Sığorta Şirkətinin Türkiyənin əksər şəhərlərində xüsusi təsisatları mövcuddur. Şirkət əldə etdiyi gəlirlərin böyük bir hissəsini ABŞ, Fransa, Livan və digər dövlətlərdə yaşayan qaçqın ermənilərə, onların ailə üzvlərinin hesablarına yönəltməkdədir.

Erməni diasporuna külli miqdarda maliyyə yardımları ayıran təşkilatlardan biri də ABŞ-a məxsus "Nyu York Life" Sığorta Şirkətidir. Bu şirkət uzun illərdir ki, ABŞ, Fransa və digər dövlətlərdə 1915-ci il qurbanları barədə müvafiq sənədlər toplamaqla məşğuldur. Şirkətin əsas hədəfi 26 dövlətdə yaşayan ermənilərə 119 milyon dollar həcmində təzminatın ödənilməsini təmin etməkdir. Bu günə qədər bu istiqamətdə bir sıra yardım kampaniyaları həyata keçirilmişdir. Hal-hazırda 20 milyon dollar həcmində 2 min 500 erməni vətəndaşına maliyyə yardımlarının ödənilməsi planlaşdırılır. Çünki bu vətəndaşların əcdadı olmuş şəxslər vaxtilə Osmanlı dövlətində yaşamaqla, həm də ABŞ-a məxsus sığorta şirkətlərinin üzvü olublar.

Erməni diasporunun maliyyə resurslarından biri də vaxtilə ABŞ-a mühacirət etmiş Aleks Manukyana məxsus yerli avtomobil zavodları üçün komplektləşdiricilərin istehsalı ilə məşğul olan "Masko" şirkətidir. II Dünya müharibəsi illərində hərbi si-

farişlər hesabına "Masko" şatışlarının həcmi ilk dəfə olaraq milyon dolları ötüb keçdi. Həmçinin şirkət 1975-ci ildə ilk dəfə Amerikanın iri korporasiyaların siyahısına "Fortuna-500" adı ilə daxil oldu. Onun 250 müəssisəsi dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərir, satışlarının həcmi isə 2003-cü ildə 10 milyard dolları keçmişdir. Erməni tədqiqatçısı E.Manukyan şirkətin erməni diasporu üçün əhəmiyyətini, eyni zamanda Aleks Manukyanın önəmli bir sima olduğunu belə şərh edir: "Aleks Manukyanın uğurlu karyerası öz-özlüyündə çox maraqlıdır, lakin onu digər bu cür müvəffəqiyyət qazanmış erməni sahibkarlardan fərqləndirən əsas cəhət öz gəlirlərinin 50 il ərzində daima və səxavətlə diasporda ən müxtəlif mədəni-maarifləndirici və digər proqramların həyata keçirilməsinə sərf edilməsi idi". Qeyd edək ki, Aleks Manukyan 1954-cü ildə və daha sonra 1968-ci ildə iki xeyriyyə fondu yaratmışdır. Bu fondların vasitəsilə 1953-cü ildən bəri onun tərəfindən başçılıq edilən Erməni Ümumi Xeyriyyə İttifaqının fəaliyyəti çərçivəsində ən müxtəlif ölkələrdə ABŞ, Kanada, Fransa, Livan, Suriya, İran, Argentina, Avstraliya və digər ölkələrdə erməni məktəbləri, mədəniyyət və gənclər mərkəzləri, kilsələr və Universitetlərdə Ermənişünaslıq kafedraları yaradılmışdır.

Diaspor təşkilatları Ermənistana böyük dövlətlərin və beynəlxalq təşkilatların yardımlarını istiqamətləndirməklə yanaşı, eyni zamanda varlı ermənilər və bəzi qurumlar da bu cür yardımlar edirlər. Belə maliyyə resurslarından biri də "Hayastan" Ümumerməni Fondudur(Armenia Fund, İnc.). Mərkəzi Los-Ancelesdə yerləşən və dünya üzrə 19 filialı olan fond 1994-cü ildə təsis edilmişdir. Fondun əsas məqsədi dünyadakı bütün erməni cəmiyyətlərinin köməyilə Ermənistan və Dağlıq Qarabağda dağıdılmış infrastrukturu bərpa etmək və Ermənistanın inkişafını təmin etməkdən ibarətdir. Fond Ermənistana və separatçı Qarabağ rejiminə çirkin məqsədlərin həyata keçirilməsi üçün 120 milyon dollar vəsait ayırmışdır. Bu məqsədlə Ermənistana külli miqdarda vəsait ayıran "Erməni Yardım Komitəsi", "ABŞ Erməni Assambleyası", "Erməni Ümumi Xeyriyyə Birliyi", "Qalust Gülbəkyan", "Aleks Manukyan" və "Kirk Krikoryan" fondları öz tələblərini hökumətə qəbul etdirməyə çalışırlar.





Göründüyü kimi, xaricdə erməni diasporunun yaratdığı müxtəlif xarakterli ictimai-siyasi təşkilatlar onlara dəstək verən maliyyə resursları barədə məlumatları məxfi saxlamağa çalışırlar. Buna səbəb həmin fondların, maliyyə resurslarının böyük dövlətlərə məxsus olması və onların bu çirkin fəaliyyətdə iştirakını ört-basdır etməkdir. Diaspora yönəldilən bu vəsaitlərin böyük bir hissəsi təzminat olaraq qondarma "erməni soyqırımı" qurbanlarının sağ qalmış ailə üzvlərinə verilməkdədir. Eyni zamanda erməni terrorizminə dəstək məqsədilə milyonlarla vəsaitin Dağlıq Qarabağdakı terrorçu qruplaşmalara, millətçi ekstremistlərə ötürülməsi nəticəsində çoxsaylı terror aktları həyata keçirilmiş, minlərlə insanın həyatına son qoyulmuşdur.

### *1.2. Erməni diasporunun formalaşmasında erməni kilsəsinin rolu*

Məlumdur ki, tarixən erməni millətçiliyinin ilhamvericisi və başlıca təşkilatçısı erməni kilsəsi olmuşdur. Əsrlər boyu dövlətçiliyin atributlarından kənarda qalan və siyasi hakimiyyətsizliyin mövcud olduğu dövrlərdə erməni xalqının üz tuta biləcəyi yeganə mərkəz məhz milli erməni kilsəsi olmuşdur. Tarixən erməni kilsəsi dünyaya səpələnmiş erməni xalqının birliyinə, onun irqçi milli ideologiyasının formalaşmasına, türk dünyasına qarşı antitürk fəaliyyətinin həyata keçirilməsinə nail olmaq üçün bütün təşəbbüskarlıq və təşkilatçılığı öz üzərinə götürmüşdü. Erməni kilsəsinin digər xidmətləri barədə tarixçi M.Süleymanov yazır: "Bütün dünyaya səpələnmiş olan ermənilərin milli xislətinin qorunması, vətən axtarışı xülyalarının beyinlərdən silinməsinə yol verilməməsi erməni kilsəsinin adına yazılacaq xidmətlərdir. Onun yeganə milli qurum olaraq qalması isə erməni kilsəsini həm dini, həm sivil, həm də ideoloji işlərin mərkəzinə çevir-

mişdi. Təxminən XIX əsrin ortalarına kimi milli əmlak, məktəblər, xeyriyyə cəmiyyətləri, hətta ermənilərin ədəbiyyatı, mədəniyyəti, məhz erməni kilsəsinin nəzarətində olmuş və onun rəhbərliyi altında formalaşıb fəaliyyət göstərmişdir".

Özündə bir neçə siyasi elementləri birləşdirən erməni kilsəsi daim güclü milli dövlətin axtarışında olmuşdur. Çünki özünüqoruma instinkti, milli-etnik planların həyata keçirilməsi istəyi erməni kilsəsində milli dövlətin mövcudluğuna ehtiyac yaratmışdı. Ona görə də Osmanlı imperatorluğunun və Azərbaycan ərazisindəki müsəlman dövlətlərinin xristianlığa və kilsələrə qarşı dözümlü münasibətindən sui-istifadə edən erməni kilsəsi milli dövlətin əldə edilməsi üçün ən təcavüzkar vasitələrə belə əl atmaqdan çəkinmirdi. İstər XIX əsr, istərsə də XX əsrin əvvəllərində Osmanlı Türkiyəsi və Azərbaycanda baş verən dəhşətli faciələrin törədilməsində erməni kilsəsinin özünəməxsus yeri və rolu vardır.

Bir cəhəti də qeyd etmək lazımdır ki, XIX-XX əsrlərdə xaricdəki erməni icmalarının təşəkkülü və formalaşmasında, eləcə də diaspor qurumlarının təşkilatanmasında erməni kilsəsinin əvəzedilməz xidmətləri olmuşdur.

Məlumdur ki, xristianlıq I-II əsrlərdə Fələstində meydana gəlmiş və buradan bütün dünyaya yayılmışdı. Xüsusi olaraq ermənilərin dini inanc sisteminə nəzər saldıqda məlum olur ki, xristianlıqdan qabaq ermənilər farsların təsiri altında günəşə, aya, suya, torpağa, küləyə, Ağrı, Sübhan, Nemrut kimi alov saçan dağlara və ulduzlara, bürclərə, itlərə, göyərçin və şahin kimi quşlara, ağaclara, qayalara, yəni qısaca, təbiətə sitayiş edirdilər. Onlar yaxşı və pis ruhlara, dünyanın bir öküzün buynuzu üzərində durduğuna, zəlzələnin də bu öküzün buynuzunu tərpətməsilə baş verdiyinə inanardılar. Eyni zamanda ibadət etdikləri mövcud bir yerləri olmadığından dini ibadətlərini açıq havada yerinə yetirər, ayı təbiətin anası, ağac və bitkilərin bəsləyicisi olaraq qəbul edirdilər. Ermənilər ruhların pisliklərinə uğramamaq üçün sehr və ofsuna da əhəmiyyət verirdilər. Hətta bu dövrlərdən qalma və digər xristian məzhəblərində olmayan adətlər ermənilər arasında geniş yayılmışdır. Belə ki, xristian məzhəbində olmayan "Madaq" deyilən nəzir qurbankəsmə kimi adətlər ermənilər arasında hələ də qalmaqdadır. Məhz bu ayin erməniləri digər xristianlardan ayıran başlıca xüsusiyyətlərdən biridir.





Ermənistanda xristianliğin yayılması İsus Xristosun şagirdlərinin–apostollarının fəaliyyəti ilə bağlıdır. Erməni mənbələrində xristianlığın Ermənistanda yayılması Apostol Faddeyin adı ilə bağlıdır. Faddeylə yanaşı, Varfolomey və Qriqorinin də adları çəkilir. Göründüyü kimi, Ermənistan ərazisində xristianlığın yayılması I əsrdə yaşamış şəxslərin fəaliyyəti ilə bağlı olmuşdur. Ermənilər xristianlığı qəbul etdikdən sonra Zərdüştlük, bütpərəstliyin müsbət keyfiyyətlərini də saxladılar.

Erməni mənbələrinə görə, 301-ci ildə Ermənistan xristianlığı qəbul etmişdi. Əslində, xristianlığı xalq deyil, erməni knyazı Arşaki III Tridat qəbul etmişdir. Knyaz Tridat xristianlığı dövlət dini elan edən ilk knyaz olmuşdur. Türk tarixçisi Saray Mehmet bu hadisəni "ermənilərin həyatında önəmli bir dönüş nöqtəsi" kimi qiymətləndirmişdir.

Dünya dinlərinin yarandığı ilk gündən cəmiyyətin siyasi sisteminin onlara dayaq olmasına ehtiyacları olmuşdur. Xristianlıq Roma imperiyasında imperator Konstantin tərəfindən (313-cü ildə) rəsmiləşdirilmiş və dövlətin dayağına çevrilmişdir. Beləliklə, dövlətin qüdrəti dinin dövlət ideologiyasına çevrilməsini təmin edə bilər. Lakin dindən dövləti möhkəmləndirmək üçün bir vasitə kimi istifadə etmək də mümkündür. Erməni kilsəsi tarixdə məhz ikinci yolu tutdu. Erməni dövləti ideyasının yaradıcısı erməni kilsəsi oldu.

Erməni Apostol Kilsəsi (Eçmiədzin) erməni diasporunun rəhbərliyi, siyasi elita, ideoloqlar və "tarixçilər" ilə birlikdə dünya ermənilərini miflər aləmində saxlamaqla davam edir. Erməni kilsəsi tolerant dünyaya əsrlər boyu bunu təlqin etməyə çalışır ki, xristianlığı dövlət dini kimi ilk dəfə qəbul edən məhz Ermənistan olub. Bununla belə, fakt faktlığında qalır-onlar ikinci və

ya üçüncü olmaq istəmirlər. Yalnız birinciliyə-hətta onların vərdiş etdikləri kimi, tarixi saxtalaşdırmalar bahasına olsa belə, can atırlar.

Ermənilərin müstəqil kilsəyə sahib olmaları, Romanı əvəz edən Bizans rəhbərliyini və xüsusilə yunan kilsəsini olduqca narahat etmişdir. Kilsənin də təsiri ilə Bizans rəhbərliyi öz hakimiyyəti altında yaşayan xalqından olan bir çox ailələri Balkan yarmadasına köçürmüşdür. Lakin Bizansın aramsız təzyiqlərinə baxmayaraq, erməni kilsəsi erməniləri bir arada tutmağa çalışmış və müəyyən bir dövrə qədər uğur qazanmağa müvəffəq olmuşdur. Eyni zamanda Ermənistanın iki imperiyadan–Roma və Sasanilərdən daimi asılılığı, eləcə də dövlət quruluşunun zəif olması, 428-ci ildə isə onun tamamilə ləğv edilməsi, ölkənin vahid etnik tərkibi IV-V əsrlərdə və sonrakı yüzilliklərdə erməni kilsəsinin mövqeyini möhkəmləndirmiş, beləliklə də, xristianlığın ümumxalq dininə çevrilməsinə gətirib çıxarmışdı. Məhz buna görə də erməni kilsəsi xalqı birləşdirən əsas təşkilat kimi çıxış edir, bütün qanunverici və məhkəmə hakimiyyətini öz əlində saxlayırdı.

Erməni kilsəsinin başçısı adətən katalikos (kataqiqos) adlanır və bu söz ermənicə "millətin təmsilçisi" mənasını ifadə edir. Yeni erməni katalikosluğu irsi olaraq verilirdi. XI-XVIII əsrlərdə erməni kilsəsi ermənilər arasında ən zəngin qurumlardan birinə çevrilmişdi. Digər tərəfdən də, müxtəlif mərasimlərlə, tədbirlərlə əlaqədar erməni kilsəsinə böyük torpaq sahələri verilmişdi. Onlardan gələn gəlirlər isə erməni kilsəsinin rəhbərlərini ən iri feodallara çevirdi. Bəhs olunan dövrdə Ermənistanda kilsə rəhbərləri o qədər varlandılar ki, ən aşağı yeri tutan kənd ruhaniləri də erməni rabatları səviyyəsində dövlət və sərvət sahiblərinə çevrildilər.

Bizans kilsəsi ilə erməni kilsəsi arasında əlaqələrin kəsilməsi və ermənilərin vahid kilsəyə deyil, qriqoriyan kilsəsinə bağlı qalmaları ermənilər arasında dövlətçilik hisslərinin güclənməsinə yol açmış oldu. Bu haqda türk tarixçisi Kamuran Gürün





yazır: "Əgər Bizans kilsəsi ilə Erməni kilsəsi arasında hər hansı bir ayrılma olmasaydı, erməni dövləti yaratmaq düşüncəsi meydana gələrdimi? Əsla yox, çünki belə olan təqdirdə erməni-qriqoriyan kilsəsi erməni əhalisini Bizans kilsəsi və yunan mədəniyyəti təsirindən qoruyacaqdı. Əslində, Bizans kilsəsi ilə erməni kilsəsi arasındakı münasibətlərin normallaşması doğurdanmı teoloji düşüncədən doğmuşdur, yoxsa erməni kilsəsi və bu kilsənin başında duranlar ikinci dərəcəli ruhanilər olacaq yerdə müstəqil varlıqlarını davam etdirmək üçün qərarlarını vermiş və teoloji fikir ayrılıqlarını bəhanə etmişdilərmi? Əslində, üzərində dayandığımız məsələ də bundan ibarətdir və burada da ikinci ehtimal daha qüvvətlidir".

Tarix boyunca ermənilər öz üzərilərində hiss etdikləri kilsənin mövqeyi və rolunu yüksək qiymətləndirmişlər. Erməni ideoloqu Pastırmacıyan erməni kilsəsinin rolunu qiymətləndirərək yazır: "Erməni kilsəsi erməni millətinin kilsə tərəfindən can verilən ruhunun yenidən dünyaya gəlmək üçün yaşadığı vücuddur". Nalbandyanın da kilsə haqqındakı fikirləri çox maraqlıdır. O yazır: "Bu millətçilik mübarizəsində ən böyük rol bəzi müstəsna liderləri və monastrları vasitəsilə həm dini, həm də intelektual bir güc olaraq çalışan erməni kilsəsi tərəfindən oynanmışdır. Siyasi müstəqilliyin mövcud olmadığı dövrdə katalikos millətinin maraqlarını təmsil etməklə yanaşı, diaspordakı ermənilərlə anavətəndəki ermənilər arasında körpü rolunu oynamışdır".

XI əsrdə Bizans imeriyası daxilində erməni-qriqoriyan kilsəsinin nüfuzu getdikcə sarsılmaqda idi. Bu dövrdə Şərqi Anadoluda ermənilərin siyasi birlik nümayiş etdirmək cəhdlərinin qarşısı imperator II Vasili (976-1025) və IX Konstantin Monomax (1042-1055) tərəfindən qətiyyətlə alındı. II Vasili Vaspurakanı ilhaq etdikdən sonra burada yaşayan 40 mindən artıq ermənini Sivas və Kayseri bölgələrinə köçürdü. IX Konstantin Monomax da bir çox erməni rəhbəri və din xadimini Anadolunun daxili bölgələrinə köçürməyə müvəffəq oldu. Bu azmış kimi Bi-

zans imperatorları tərəfindən erməni-qriqoriyan kilsəsinin tamamilə ortadan qaldırılmasına bir neçə dəfə cəhdlər edildi.

Tarix boyu erməniləri digərlərindən fərqləndirən başlıca amillərdən biri də dini ənənələr idi. Din erməniləri müsəlmanlardan dəqiq ayırır, lakin eyni zamanda onları erməni kilsəsini dönük (kafir) hesab edən yunan-pravoslav xristianlardan da fərqləndirirdi. Ermənilərin ibadəti, dini təcrübəsi, eləcə də dini incəsənəti ancaq onlara məxsus olan dəbdəbəli ənənə kimi müstəsnalıq təşkil edirdi. XIX əsrədək "erməni" anlayışı məhz kilsənin sayəsində qalmışdı.

Amerika tarixçiləri Castin və Karolin Makkartilər erməni kilsəsini erməni ənənələrinin qoruyucusu kimi qəbul edir, erməni millətçiliyinin inkişafının ilk aldımlarını bu qurumla bağlayırlar. Erməni-qriqoriyan kilsəsi və Qərb missionerləri ilkin dövrdə millətçiliyin inkişafına böyük xidmətlər göstərirdilər. Göründüyü kimi, böyük dövlətlərin kilsənin irqçi fəaliyyətinin inkişafına maddi və mənəvi dəstəyi Osmanlı imperatorluğunda nəzərəçarpacaq dərəcədə hiss olunmaqda idi. Qeyd edək ki, Osmanlı imperiyası ermənilərin və digər qrupların dini fərdiliyini müdafiə edirdi. Bu, kilsənin mövcud olmasına imkan verirdi. Lakin bu, həm də osmanlılar üçün sərfəli idi. İstanbullu erməni patriarxın başçılıq etdiyi erməni din xadimləri hökumətdən asılı idilər. Onlar bütünlüklə Osmanlı sistemini müdafiə edir, əvəzində özləri üçün imtiyazlı vəziyyət, öz kilsələri və xalqı üçün isə xeyir əldə edirdilər. XIX əsrin sonunadək dini eyniləşdirmə sistemi saxlandı, lakin köklü şəkildə milli eyniləşdirmə istiqamətində dəyişdi.

Bəhs olunan dövrdə erməni millətçiliyi missioner təşkilatların sayəsində daha da alovlanmaqda idi. Bu işə daha böyük dəstəyi erməni qriqoriyan kilsəsi və erməni təbəsi verməkdə idi. Erməni burjuaziyası missionerlərin bölücü fəaliyyətini azaltmaq üçün kilsəyə öz dəstəyini daha da artırdı. Xüsusilə XIX yüzilliyin ikinci yarısından etibarən erməni camaatının içində özünə Hayk deyən bir topluluq Qriqoriyan kilsəsinə, məzhəbinə tək başına sahib olmağa çalışırdı. XIX yüzilliyin ortalarına qədər ermənilər, Ermənistan olaraq tərif edilən coğrafiyada bir millət olaraq deyil, qriqoriyan camaatı olaraq yaşayırdı. Qriqoriyan kilsəsinin ermənilərin milli kilsəsi olduğu tezisi monomilliyətçi erməni ideologiyasını gücləndirmək üçün ortaya atılmışdır.





Tanınmış rus tarixçisi V.L.Veliçko Qafqazda xristian amilinə ciddi şəkildə toxunmuş və tərkibinə həm indiki Yelizavetpol quberniyası, həm də Tiflis quberniyası və Dağıstanın bir hissəsi daxil olan bu diyarı ermənilərdən xristianlığı qəbul edən, lakin erməni mənşəli olmayan xalqların məskəni adlandırmışdır. XIX əsrin əvvəllərinə qədər burada Eçmiədzin katalikosu ilə rəqabət aparan, bəzən də tamamilə ondan asılı olmayan ayrıca Ağvan, yaxud Qandzasar katalikosluğunun mövcudluğunu qeyd etmişdir. Vaxtilə Ağvan katalikosunun dindarları olmuş xristianların indi erməni hesab edildiyi və onlarla qarışaraq xüsusiyyətlərini götürdüklərini qeyd edir.

Erməni kilsəsi uzun əsrlər boyu erməniləri birləşdirən yeganə ümummilli qurum olub onda milli müstəsnalığın, millətçiliyin təbliğində, beyinlərə yeridilməsində onun yeri aydın görünə bilər.

XX əsrin I yarısında prokuroru rus hökuməti tərəfindən təyin olunan Eçmiədzin kilsəsinin başında katalikos dururdu. Veliçko Eçmiədzinin geniş ərazilərə, mülklərə sahib olduğu barədə yazırdı: "Eçmiədzin son dərəcə müəmmalı idarə olunan çox böyük və geniş mülklərə sahibdir. Monastrlarda avadanlıqların, əmlakların, məlumatların siyahısı və s. əsaslı surətdə gizlədilir". Göründüyü kimi, XX əsrin I yarısında artıq Eçmiədzin kilsəsi böyük mülklərə və müstəsna səlahiyyətlərə malik mexanizmi xatırladırdı. Dövlətçiliyin mövcud olmadığı bir dövrdə kilsənin ön plana çıxaraq geniş səlahiyyət sahibinə çevrilməsi dünya ermənilərini müəyyən mənada bir mərkəzdə birləşməyə sövq etdi.

II Dünya müharibəsi başa çatdıqdan sonra vaxtilə böyük dövlətlərin arxa plana keçirmiş olduğu "erməni məsələsi" 60-cı illərdən etibarən yenidən gündəmi zəbt etməyə başladı. Qondarma "erməni soyqırımı"nın 50-ci ildönümü ərəfəsində diaspor

təşkilatları daxilində gərginlik artdıqca kilsə xadimləri ilə diaspor təşkilatları arasındakı fikir ayrılıqları da dərinləşməkdə idi. Artan gərginliyi bir qədər yumşaltmaq məqsədilə 1964-cü ilin 16 avqustunda Ermənistan SSR-də fəaliyyət göstərən və Moskvanın təsir dairəsində olan ermənilərin böyük patriarxı, Eçmiədzin Katalikosu I Vazgenin bütün dünya ermənilərinə müraciəti yayımlandı. Üç gün sonra 19 avqust 1964-cü ildə mərkəzi Livanda yerləşən və ABŞ-ın təsir dairəsində olan Antilyas Patriarxı və yaxud "Böyük Kilikiya Katalikosu" I Xoren tərəfindən daha geniş müraciət yayımlandı. Katalikos I Xorenin xaricdəki erməni icmalarına, siyasi partiya və təşkilatlarına müraciəti onlar arasında böyük ruh yüksəkliyi ilə qarşılandı. Hər iki patriarx 1915-ci il köçünün 50-ci ildönümünün yaxınlaşdığını fürsət bilərək dünya ermənilərini Türkiyəyə qarşı səfərbər etdilər. Lakin patriarxların dünya ermənilərinə müraciəti Türkiyənin hakim siyasi dairələri tərəfindən ciddi qarşılanmadı. "Böyük Patriarx" I Vazgenin dünya ermənilərinə müraciəti türk-erməni ziddiyyətlərini bir qədər də gərginləşdirdi. Katalikos I Vazgen Kilikiya, Qüds və İstanbul patriaxlarına, eyni zamanda bütün dünya ermənilərinə müraciətində 1915-ci ildə baş vermiş hadisələr zamanı türklər tərəfindən 2 milyona qədər ermənin qətlə yetirildiyi və "böyük faciə"nin 50-ci ildönümünün yaxınlaşdığı xatırladılır, faciənin türklər tərəfindən qabaqcadan planlanlaşdırıldığı və həyata keçirildiyi iddiaları irəli sürülürdü. Həmçinin müraciətdə erməni memarlar tərəfindən salınmış kənd, qəsəbə və kilsələrin məhv edildiyi iddiaları öz əksini tapmışdır. Katalikos I Vazgenin bütün dünya ermənilərinə müraciətində aşağıdakı məsələlərə xüsusilə diqqət yetirilirdi:

1. Bütün erməni kilsələri və erməni xalqı yaxınlaşmaqda olan 1965-ci ili "beynəlxalq matəm və dua ili" elan etməlidir;

2. Bütün erməni kilsələrində 24 aprel günü dini mərasimlər keçirilməli və şəhidlər üçün dua oxunmalıdır;





3. Şəhidlərin ruhunu yaşatmaq üçün bütün erməni kilsələrinə təcili yanacaq lampaları qoyulmalı və hər il 24 apreldə dini anım mərasimləri təşkil olunmalıdır;

4. Aprel "soyqırımı"nı anmaq üçün istisnasız bütün erməni birlikləri və koloniyaları, erməni dərnəkləri əl-ələ verib ermənilərə və erməni olmayanlara izdihamlı mitinqlər, nümayişlər, konfranslar və ədəbiyyat sərgiləri təşkil olunmalıdır;

5. Erməni dini icmaları, beynəlxalq təşkilatları, tarix, ədəbiyyat və mədəniyyət dərnəkləri və erməni mətbuatı "böyük soyqırım"da canlarını vermiş erməni ölülərinin müqəddəs xatirələrini sözlə və həqiqi canlandırıb yaşatmaq üçün tarixi dəlilləri, sənədləri, araşdırmaları, xatirələri, erməni və erməni olmayan yazarların ədəbiyyat və sənət əsərlərini yayımlamağı vacib bir məsələ bilməlidirlər.

Mərkəzi Livanda yerləşən Antilyas və yaxud da Kilikiya Patriarxı I Xorenin müraciəti eynilə I Vazgenin çağırışları ilə üst-üstə düşürdü və bir növ, onun təkrarı idi. Eynilə I Xoren də bütün dünya ermənilərinə "böyük aprel faciəsi"ndə bir milyondan artıq ermənin öldürüldüyünü, bu insanların erməniçilik ruhunu əbədiyyən yaşatmaq üçün can verdiklərini bildirirdi. I Vazgendən fərqli olaraq I Xoren "böyük faciə" zamanı 1 milyon ermənin məhv edildiyini qeyd edirdi. Həmçinin I Xoren 24 aprel tarixinin erməniçilik üçün matəm günündən daha çox zəfər gününə çevrilməsinə çalışırdı. Erməni xalqı 1965-ci ilini "birlik və qardaşlıq ili elan etməli, apardığı mücadilədən zəfərlə çıxmalıdır". I Xoren vahid erməni xalqının, vahid erməni mədəniyyətinin, tarixinin, erməni dilinin, erməni dininin, vahid erməni kilsəsinin, vahid erməni yurdunun olmasını arzu-istək olaraq qeyd edirdi. Müraciətində, həmçinin əsas erməni hədəflərindən olan Ağrı dağının erməni yurdu olacağına inamını gizlətmirdi. Türk tarixçisi Bilal Şimşir yazır ki, "hər iki patriarx dünya ermənilərinə Ağrı dağını və Türkiyəni hədəf kimi göstərdilər. Daha doğrusu, Eçmiədzin Patriarxı I Xoren 1915-ci il köçünü qeyd edərək Türkiyə Cümhuriyyətinə açıq şəkildə müharibə elan etdi. Patri-

arxlar, xüsusilə Eçmiədzin patriarxı erməni camaatının gözündə papa kimidir, onların hər çağırışı əmr sayılır və dindar olsun-olmasın hər kəs bu çağırışa tabe olmağı dini və milli bir vəzifə bilir".

Qeyd etmək lazımdır ki, I Vazgen SSRİ tərəfindən, I Xoren isə ABŞ tərəfindən dəstək almaqda idi. Hər iki patriarxın əsas məqsədi dünya ermənilərini ayağa qaldırmaq, onlarda türklərə qarşı düşmənçilik hisslərini daha da alovlandırmaq, Türkiyənin Avropaya inteqrasiyasını ləngitmək və bütövlükdə prosesin qarşısını almaq, regionda ABŞ və Qərbin mövqeyini birmənalı şəkildə möhkəmləndirmək idi. Bu işdə onlara havadarlıq edən ABŞ və SSRİ Türkiyəyə qarşı erməni kartından bir təzyiq vasitəsi kimi istifadə etməkdə idi.

Hər iki patriarxın çağırışlarından bu günə qədər baş vermiş hadisələri aşağıdakı kimi sistemləşdirmək olar:

1. Osmanlı türklərini qondarma soyqırımla günahlandıran sistemli və əsası olmayan kampaniyanın başladılması;

2. Qondarma "erməni soyqırımı" qurbanlarının xatirəsini əbədiləşdirmək üçün, əslində isə Türkiyəyə qarşı kin və nifrət duyğularını qamçılamaq məqsədilə müxtəlif ölkələrdə "soyqırımı" abidələrinin ucaldılması;

3. Türk təşkilatları, missiyaları və diplomatlarının terrorla üz-üzə qalması;

4. Əsassız erməni iddialarının siyasi müstəvidə müzakirəsi və müxtəlif ölkələrin qanunvericilik orqanlarında "soyqırımı tanıma" qərarlarının qəbul edilməsi;

5. AB və BMT-dən Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə olunması;

6. Türkiyə daxilində peyda olan bəzi iş adamları və media vasitəçilərindən erməni maraqları üçün istifadə olunması.

Bir faktı xüsusi olaraq qeyd edək ki, 1955-1994-cü illərdə katalikos vəzifəsində oturan I Vazgen kilsədə mühüm islahatlar aparmış, diaspor erməniləri ilə əlaqələri möhkəmləndirmiş və Qriqoriyan Erməni Kilsəsini 1962-ci ildə Dünya Kilsələr Birliyinə qəbul etdirmişdir. Nəticədə 1988-1990-cı illərdə (ermənilər bu illəri milli-azadlıq mübarizəsinin ilk illəri kimi qəbul edirlər-T.C) kilsə siyasi mübarizə meydanlarında yenidən ön plana çıxmış, ancaq sonrakı mərhələdə öz mövqeyini siyasi partiya və qeyri-hökumət təşkilatlarına təslim etmişdir.





Bu gün dünyanın 70-dən artıq ölkəsində mövcud olan erməni diaspor təşkilatları kilsə tərəfindən idarə olunmaqdadır. Kilsə xəzinəsinə toplanmış ianələr hesabına bu ölkələrin hər birində erməni kilsələri inşa edilmiş və kilsələr arasında əlaqələr yüksək səviyyədə qurulmuşdur. Lakin bu gün Eçmiədzin ilə mərkəzi Livanda yerləşən Antilyas katalikosluqları arasında dünya ermənilərinə nəzarət uğrunda çox ciddi mübarizə gedir. Katalikosluqlar arasındakı ziddiyyət və mübarizənin başlıca səbəbi Eçmiədzinin Hnçaq və Ramqavar partiyalarının, Antilyas katalikosluğunun isə daşnakların nəzarətində olmasıdır. Lakin bir məsələni xüsusi vurğulamaq lazımdır ki, bu gün erməni diasporu daha çox Eçmiədzin katalikosluğunun dini təsiri altındadır. Erməni kilsəsi mövcud olduğu dövrdən bu günə qədər bir çox vəhşilik və qətliamların əsas səbəbkarı və təşəbbüskarı olmuşdur. Bəllidir ki, XX əsrdə türk dünyasına qarşı bir çox soyqırımlara imza atmaqla azərbaycanlıların tarixi torpaqlarından deportasiya olunması, xalqımıza qarşı etnik-milli təmizləmə siyasətinin planlı şəkildə yerinə yetirilməsi birbaşa erməni kilsəsinin adı ilə bağlıdır. Tarix boyu öz çirkin əməllərini müxtəlif üsullarla ört-basdır etməyə çalışan terrorçu erməni diaspor təşkilatları bu gün Ermənistan Respublikasından daha çox erməni kilsəsindən dəstək almaqdadır.

### *1.3. Diasporun formalaşmasında erməniçilik əsas faktor kimi*

Azərbaycan tarixşünaslığında bir çox müəlliflər erməniçilik və ya ermənilik anlayışı, onun sosial-fəlsəfi mahiyyəti barədə müəyyən tədqiqat işləri aparmışlar. Problem ətrafında sanballı iş

görmüş Ə.İsmayılov belə qənaətə gəlmişdir ki, uydurulmuş faktları, evdə hazırlanan erməni nağıllarını yenidən və bir daha yenidən bəşəriyyət qarşısında irəli sürməklə faşistlik edən ideoloqlar bununla da dünya ictimaiyyətinin diqqətini bütün bəla və faciələrin əsas mənbəyi olan-əsrlər boyu formalaşmış, millətin çox böyük bir hissəsinin düşüncə və iradəsini zədələyən, türk dünyasının məhv edilməsini, dünya ictimai fikrinin aldadılması və onlara yanlış məlumat verilməsini, digər xalqların, xüsusən də xristianların inamının və mənəvi hisslərinin istismar edilməsini, bir məqsəd və məsələ olaraq qarşısına qoyan ideoloji-psixoloji hadisə olan erməniçilikdən yayındırır. Müəllif haqlı olaraq erməniçiliyi məhz ideoloji-psixoloji hadisə kimi qeyd edir və faşizm, terrorizm, ekstremizmi, digər xalqlara qarşı, xüsusilə də türk və azərbaycanlılara qarşı törədilən sonsuz soyqırımı aktlarını erməniçilik adlanan çirkin hadisənin tərkib hissəsi hesab edir.

Q.Çaxmaqlı erməni elmi-fəlsəfi ədəbiyyatına istinad edərək erməniçiliyin ideoloji-fəlsəfi aspektləri barədə yazır: "Erməniçilik–bilik və inancların milli-dini sistemi, təkallahlığı qəbul edən və milli tarixi və ata baba torpaqlarının müqəddəsliyini qoruyan ideoloji təlimdir. Müəllif erməniçilik ideologiyasının əsaslarının onilliklər ərzində işlənib hazırlandığını və bu işdə daha çox kilsənin xidmətlərinin olduğunu da qeyd edir. Q.Çaxmaqlının qeyd etdiyi kimi, "bu ideoloji nəzəriyyə on illər boyu bir çox erməni alimləri tərəfindən müstəqil şəkildə, bir-birindən xəbərsiz işlənib hazırlanmışdır. "Erməni çox erkən zamanlardan xristianlığı "erməniləşdirmişdi". "Ermənінin əsl dini elə erməniçilikdir". Erməni millətinin tanınmış ideoloqlarından hesab olunan Qaregin Njdenin bu təsbiti bütün ermənilər üçün əsas olaraq götürülmüşdür. Çünki Njde də digər erməni filosoflar kimi erməni xalqının xristianlıqdan öncə də ali bir irqə məxsus olduğunu iddia edənlərdəndir. Onlar xəyallarında təkəbbürlü bir erməni obrazı canlandırır və bu fikri başqalarına da sırımağa çalışırlar ki, ermənilər başqa xalqlardan daha üstün və daha ağıllıdır.





Osmanlı Türkiyəsinə qarşı lokal əməliyyatların icrası məqsədilə XIX əsrdə fövqaldövlətlər tərəfindən yaradılmış bu etnokorporasiya mahiyyəti etibarilə xristianlığın ilk ali toplantısı olan Xalkidon məclisinin lənətlədiyi xırda əsirətlər-hayların, koptların, nasturilərin, Hindistandan köç etmiş xaçpərəst qaraçıların və digər batil təriqətlərin süni toplumu olduğu alimlər tərəfindən sübuta yetirilmişdir. Etnokorporasiya mənəvi kasadlığı üzündən öz qınına çəkilən, cəmiyyətin rədd etdiyi icmaları insanlığa nifrət bayrağı altında birləşdirdi.

Bu gün erməniçilik bəşəriyyət üçün qlobal bəlaya çevrilməkdədir. Konkret desək, Türkiyənin, Azərbaycanın, Gürcüstanın, Rusiya və İsrailin, bəzi Balkan dövlətlərinin tarixən üzləşdiyi "erməniçilik" anlayışı və bu anlayışdan yaranan arzuolunmaz proseslər, təəssüf ki, bir çox hallarda hələ də dar, etnik çərçivədə izah olunmaqdadır. Məsələyə belə qüsurlu münasibət və erməniçilik ideologiyasının düzgün dəyərləndirilməməsi bu mürəkkəb sistemlə qarşıdurmaya, qeyri-real proqnozların verilməsi ilə nəticələnir. Bu baxımdan "erməniçilik" anlayışına yalnız etno-mədəni mövqedən deyil, ilk növbədə, politoloji müstəvidən yanaşılmalıdır.

XVIII əsrdən etibarən din pərdəsi altında formalaşmış erməniçilik ideologiyasının əsaslarını mifologemlər, yəni sonradan hazırlanmış saxta mif və rəvayətlər təşkil etmişdir. Bu baxımdan "qədim erməni dövlətçiliyi", "erməni sivlizasiyası", "Böyük Ermənistan", "armenoid irqi", "erməni soyqırımı" və bu kimi elmi əsaslara, tarixi gerçəkliklərə söykənməyən miflər işlənib hazırlanmış, beynəlxalq aləmdə dövriyyəyə buraxılmışdır. İnformasiya texnologiyalarından istifadə edərək, uzaqgörən siyasət erməni etnokorporasiyası tərəfindən həyata keçirilirdi.

Kütləvi şüurun mifolojiləşdirilməsi prosesi müəyyən mənada bəşəriyyətin bütün tarixini müşaiyət etsə də, müasir dövrdə xüsusi əhəmiyyət kəsb edir. Təəssüf ki, bu proses tarix kimi ciddi elmdən də yan keçməyib və yalançı erməni alimlərinin "Böyük Ermənistan", "əzabkeş Ermənistan" haqqında "ermənilərin

birinci xristian millət" olması barədə və digər bir sıra miflərin kütləvi şüura yeridilməsi cəhdlərində çox gülünc formada təzahür edib.

Erməniçiliyin fəlsəfəsi, yaranma səbəbləri, dinamikasından bəhs edən R.Mustafayev erməniçiliyin biososioloji təzahür olaraq, nestorian, aysor, qaraçı, assuriyalı, kopt, yezidi kürdləri və Osmanlı Türkiyəsinin digər qeyri-müsəlman icmalarından ibarət aqlomeratın-qriqoriyan kilsəsi ətrafındakı yığnaqın "vahid qədim etnos"un subyekti kimi qələmə verilməsinə imkan verən konkret eksperiment nəticəsində yaradıldığını qeyd edir.

Erməni etnokorporasiyasının tətbiqi zamanı erməni ideoloqları, əsasən, aşağıdakı metodlardan istifadə edirdilər:

–region xalqlarının gerçək tarixini saxtalaşdırmaq və bununla bağlı yazılı sənəd və maddi mədəniyyət abidələrini məhv etmək;

–digər xalqların maddi-mənəvi dəyərlərini mənimsəmək və onları "erməni sivilizasiyasının nailiyyətləri" kimi dünya ictimaiyyətinə çatdırmaq;

–tarixi sənədlərdə, əlyazmalarda, xüsusilə də saxtakarlığa yol verməyən erməni tarixçilərinin salnamələrində düzəlişlər etmək. Məsələn, Movses Xorenatsinin "Erməni xalqının tarixi" kitabı bu yolla "Ermənistan tarixi"nə çevrilmiş, əsərlərində türk xalqlarına daha çox yer verən Favstos Buzandın kitablarının əsas hissələri yox edilmişdir .

Araşdırmalar göstərir ki. erməniçilikdə qaraçıların etnik psixologiyasının ən iyrənc elementləri, faşizmin insansevməz ideologiyası, digər xoşagəlməz hallar birləşir və bir yerdə cəm olur. Ermənilər yüzilliklər ərzində günahsız görünməyə çalışıb, dünya ictimaiyyətindən onlara rəhm edilməsini tələb edib. Erməniçiliyin sosial-psixoloji mahiyyəti barədə Ə.İsmayılov yazır: "Erməniçilik dini, mənəvi, ideoloji və psixoloji hadisə olaraq, özünün sosial-tarixi əsaslarına, köklü surətdə formalaşan ənənələrə malikdir, bütün həyatı boyunca dünya ictimaiyyətini aldatmağa çalışaraq, doğru və həqiqəti qəti olaraq rədd edir. Erməniçiliyin əsas ideoloji və praktiki məsələlərindən biri dünya ictimai fikrinə təsirin icazə verilən və verilməyən bütün vasitələrindən istifadə edilməsidir. Özünün bütün tarixi cinayətləri və caniliklərinə baxmayaraq, ermənilər özlərini elə aparırlar ki, onların üzərindəki maskanı çıxarmaq olduqca çətin bir məsələdir. Göründüyü kimi, ermənilər bu cür iyrənc, heç bir məntiqə sığmayan, heç bir əsası olmayan hadisələri ortalığa ataraq onları dünya ictimaiyyətinə sistemli şəkildə "sırımağa" çalışırlar.





Erməniçilik fəlsəfəsinin əsasında siyasiləşmiş miflər mühüm yer tutur. XIX əsrdən etibarən etnik korporasiyaya çevrilməkdə olan erməniçilik dünya ilə coxcəhətli münasibətlərdə möhkəm struktura malikdir. Məhz bu baxımdan miflərin ictimai rəydə dövriyyəsinə söykənən erməniçilik bu gün geniş şəbəkə ilə əhatə olunmaqdadır. Təəccüblüsü ondan ibarətdir ki, onlar regionun tarixini açıq-aşkar saxtalaşdıraraq, tamamilə qeyri-müəyyən, normal məntiqə sığmayan yeni miflərin yaradılması və "erməni reallıqları" kimi dünyaya təqdim olunması istiqamətində yeni-yeni addımlar atırlar. Belə yalanlardan biri də, guya, tarixən ermənilərin 22 paytaxtının olmasıdır. Onların arasına isə 1918-ci ildə paytaxt qismində Azərbaycan tərəfindən Ermənistana verilmiş İrəvan şəhərindən başqa, Qars, Armavir, Tbilisi, Bakı, Diyarbəkr, Odessa, Kiyev, Qüds, Soçi, hətta Macarıstanın və Almaniyanın bəzi şəhərləri də daxil edilmişdir. Bu sərsəm, gülüş doğuran fikrlərin müəllifi Serqey Vardanyanın "Ermənistan paytaxtları" adlı kitabı bu gün Vatikan kitabxanasında xüsusi güşədə saxlanılmaqdadır. Təbii ki, region tarixini bilməyən oxucu bu kitabla tanış olduqda onda tamamilə yanlış təsəvvür yaranacaqdır.

Avstriya alimi E.Fayql erməni yalanlarını bütövlükdə mifomaniya adlandırır və bu ifadəni pataloji baxımdan yalançılıqla üzvi surətdə bağlı olan psixi xəstəlik kimi qələmə verir. O, daha sonra hər bir xəstəliyin müalicəyə ehtiyacı olduğunu vurğulayır, yayılan erməni yalanları və böhtanlarının məhz mifomaniyanın təzahürü olduğunu qeyd edir.

XIX əsr fransız səyyahı Aleksandr Düma erməniçilikdə hədsiz "vətən sevgisi" (psevdopatriotizm) barədə qeyd edir ki, ermənilər güman edirlər ki, guya yer üzündə cənnət Ermənistanda olmuşdur. Yer kürəsini suvaran ilk dörd çay da, guya, öz başlanğıcını orada tapmışdır. Nuhun gəmisi də Ermənistanda ən uca dağın başında dayanmışdı. Məhv olmuş dünyamız, guya, yenidən orada canlanmağa başlamışdı. Erməni ideoloqları tərəfindən uydurulan bu cür əsassız yalanlara fransız səyyahı Düma ironiyalı şəkildə münasibətini bildirmişdir.

Erməniçiliyin başlıca üsul və metodları sırasında assimilyasiya xüsusi yer tutur. Erkən orta əsrlər dövründə Dağlıq Qarabağın yerli alban əhalisi yaranmış şəraitə və qan-qardaşlarının öyüd-nəsihətlərinə baxmayaraq, bu prosesə cəlb edildi. Lakin istənilən halda bütün təhlükəli vəziyyətləri ram etməklə öz genetik koduna yad elementlərin daxil edilməsinə yol verməyən, əzəldən Dağlıq Qarabağ ərazisində yaşayan albanlar mənəvi dəyərlərinə və alban katalikosluğunun etno-mədəni irsinə aşkar iddialı olan tərkidünya səciyyəli qriqoriyan kilsəsini də qəbul etmədilər. Bu barədə professor R.Mustafayevin fikirləri olduqca maraqlıdır. Onun fikrincə, "yalnız öz "ermənioid mənşəyini" etiraf etməkdən və "erməni sivilizasiyasının genetik davamçıları" sayılmaqdan boyun qaçıran Osmanlı Türkiyəsi yəhudiləri erməniçiliyin assimilyasiya təhdidlərindən qoruya bildilər". İcmaların imkanları bu işə səfərbər edilməklə qərblə çox mühüm əlaqələr qurulmağa başlandı. Müəllif fikirlərinə davam edərək qeyd edir ki, beləliklə, erməniçilik çox tez bir zamanda Osmanlı Türkiyəsinin qeyri-müsəlman əhalisi ilə Rusiya da daxil olmaqla Qərb sivilizasiyası arasında vasitəçi rolunu oynamağa başladı. Gürcü tədqiqatçılarının fikrincə, ermənilik yuxarıda göstərilən üsulla Gürcüstan ərazisində də etnik gürcülərin bir hissəsini assimilyasiya etmiş oldu. Sonrakı dövrdə assimilyasiyanın gedişi prosesində tədrici enmələr müşahidə olunmağa başladı. Bu haqda məşhur qafqazşünas alim V.L.Veliçko yazırdı: "Məlum olduğu kimi, sonralar assimilyasiya olduqca səthi gedirdi və müvəqqəti idi.





Erməniçilik ayrı-seçkilik kini saxlayırdı və bu kin əvvəlcə hiss edilmədən, XIX əsrin ikinci yarısında isə açıq-aşkar, başgicəlləndirici sürətlə artmışdı".

Erməniçiliyin strukturunu formalaşdıran kilsə daima bu işi gizli saxlamağa çalışmışdır. Daxili struktur qaydaları açıqlandığı halda erməniçiliyin "düşmənləri" bu gizli sistemin mahiyyətini mənimsəyəcək və onu öz silahı ilə məhv etməyə çalışacaqdır. Təsadüfi deyildir ki, XIX yüzilliyin ortalarında erməni komitələri qriqoriyan kilsəsinin başçısına öz moizəsində aqlomeratın müxtəlif icmalarının dindarlarının adlarını çəkməyi qadağan etmişdi.

Erməniçiliyin ən mühüm hədəflərindən biri də iri imperiya və dövlətlərin yüksək vəzifələrində təmsil olunmaqdır. Əbəs yerə deyildir ki, Osmanlı hakimiyyətinin strukturlarında erməniçilik yetərincə sıx təmsil olunur, onlar öz əməl və hərəkətlərində heç bir narahatlıq hiss etmirdilər. Məsələn, 1860-cı il tarixli kodifikasiya sənədi İstanbul KİV-də "kürd", yaxud "assuriya", hətta "yəhudi" konstitusiyası kimi təqdim olunmamışdı. Hətta Sultanın özünün icazə verdiyi bu qanunvericilik aktı məhz "erməni konstitusiyası" adlanmışdı". Ona görə də Osmanlı imperiyasında xüsusi konstitusiya hüquqlarının ayrıldığı erməniçilik birinci dünya müharibəsi dövründə regionun bütün etnik icmalarına üz verən bədbəxtliklərə görə həm hüquqi, həm də mənəvi məsuliyyət daşıyır. Onların çoxu təkcə özərinə yaxın olan qan və din qardaşlarını itirmədi, həm də öz tarixlərindən, mədəniyyətlərindən, erməniçiliyin oğurladığı müqəddəs adlarından da məhrum oldular. Göründüyü kimi, erməniçilik öz məqsədlərinə nail olmaq üçün ən çirkin metodlarından istifadə etməyə qadirdir. Erməni etnokorporasiyası işi daimi davam edir və öz nəticələrini verir.

Erməniçiliyin siyasi mahiyyəti haqqında Saleh bəy yazır: "Erməniçilik-hadisədir. Qeyri-adi, fövqəladə, müstəsna hadisədir. Onda hər şey adi dünyada olduğundan sadəcə yaxşı və ya pis deyil, tamamilə başqa cürdür-tərsinə, ziddiyyətli, anticismə

bənzər olaraq adi cisimlə toqquşarkən annigilyasiyanın (qarşılıqlı məhv etmə) baş verdiyi hadisədir. Belə ki, erməni həqiqəti yalan, humanizmi–insana nifrət, sülhsevərliyi-ekspansiya, müdafiəsi-təcavüzkarlıq, qəhrəmanlığı-quldurluq, soyğunçuluq, məntiqi-mənasızlıq, məntiqsizlikdir. Ermənilərin ümidləri, arzuları da fenomenaldır: onlar hesab edirlər ki, az qala indiki on dövlətin ərazisi onların "Ocağı", gələcək "Böyük Ermənistan"dır. Göründüyü kimi, erməni xalqı, dünyada ən rəzil, ən bədbəxt, ilk soyqırıma məruz qalan xalq kimi təbliğ olunmaqdadır. Onlar bu iyrənc yollarla dünyanın fəvqəl güclərinin diqqətini özlərinə tərəf yönəldə bilir və öz məqsədlərinə də nail olmağı bacarırlar. Türklərlə yanaşı, digər qonşu xalqlara qarşı da irqi ayrı-seçkilik, etnik-milli təmizləmə, aşağılama, deportasiya, terror kimi qeyri-insani hərəkətlər erməniçiliyin əsas metodlarındandır.

Bu gün Qərb və erməni milli düşüncəsində erməniçiliyin mahiyyəti belə ümumiləşdirilmişdir: erməniçilik mədəni bir ideologiyadır, mahiyyəti etibarilə də sivil və demokratikdir. Ona görə də uzun əsrlərdir davam edir və qarşıya qoyulan məqsədə də gec-tez nail olunur. Ermənilərin bundan başqa bir nəzəriyyələri yox kimidir. Bu, zərərli də olsa, nəzəriyyədən yapışmaq zorundadırlar. Onlar dünyanın müxtəlif ölkələrinə yayılmış erməni diaspor təşkilatlarını birləşdirmək üçün bundan yaxşı nəzəriyyəyə malik deyildir.

Min bir fitnə, kələk yolu ilə qonşu xalqlara qarşı iyrənc işlərlə məşğul olan ermənilərə ən tutarlı cavabı məşhur gürcü alimi İlya Çavçavadze özünün "Erməni alimləri və fəryad edən daşlar" adlı sanballı əsərində vermişdir. Onun fikirlərinə görə, bizi yer üzündən tamamilə silib atmaq üçün onlar adımızı biabır edib, bizi milli heysiyyatdan məhrum etməklə kifayətlənməyərək bütün tariximizi də, salnaməmizi də, tarixi qalıqlarımızı və abidələrimizi də al-qana bulanmış bütün şeylərimizi də məhv edirlər, tarixi var-dövlətimizi, bizə məxsus hər şeyi müxtəlif fırıldaqlar yolu ilə özlərinin adına çıxırlar. Düzdür, yalan ayaq tutar, amma yerimər və başqasının mənliyini əlindən almaqla, yaxud alçaltmaqla özününkünü artıra bilməzsən.





Bu gün erməniçiliyin təşkilatlandırılması və möhkəmləndirilməsində diaspor təşkilatları ilə yanaşı, böyük dövlətlərin də xüsusi xidmətləri vardır. Ən əsası fövqəl güclər öz maraqları uğrunda bu kimi iyrənc etnokorporasiyaları maliyyələşdirir, onların silahlandırılması və düşmənçilik toxumlarının səpilməsində yaxından iştirak edirlər. Belə ki, tarixi təcrübə göstərir ki, bu gün fövqəldövlətlər erməniçilik amilindən sivilizasiyalararası münaqişələrin kəskinləşdirilməsində alət kimi istifadə edirlər. Mifik, məntiqdən kənar illüziyalara söykənən, özündə nasional-sosializm və eqo-sentrizm ideyalarını yaşadan bu alət təkcə Türkiyə və Azərbaycana deyil, Cənubi Qafqaz, Yaxın Şərq regionu dövlətlərinə, eləcə də Rusiyaya qarşı yönəldilmişdir. Erməni ictimai və siyasi xadimlərinin çıxışlarının təhlili göstərir ki, onlar öz məqsədlərinə çatmaq üçün müntəzəm olaraq ayrı-ayrı xalqlar arasında ədavət salmaqla yanaşı, onlara bütövlükdə erməniçilik ideologiyasına əsas düşmən kimi yanaşmışlar, Xristian dünyası yalnız Qafqazda deyil, dünyada ermənilərin kompakt şəkildə yaşdıqları bölgələrdə də sabitlik üçün gizli təhlükə yaradan erməniçiliyin mahiyyətini heç cür dərk edə bilmir. Hələ ki və nə qədər ki, vicdanın səsi, ağlın səsi erməni təbliğat maşınının-erməniçilik ideyalarının aktiv bələdçisinin azğın fəaliyyətinə qarşı qoyulmamışdır, Qafqazda yeni millətlərarası toqquşmaların baş verməsi təhlükəsi qalmaqdadır. Müəllif bir qədər də irəli gedərək hətta erməniçilk ideologiyasının birbaşa türklərə qarşı deyil, eyni zamanda qeyri-müsəlmanlara, beynəlxalq təşkilatlara qarşı yönəldildiyini də etiraf edir. O yazır: "Ruslar və türklər, fransızlar və ərəblər, azərbaycanlılar, gürcülər, ispanlar, ləzgilər, kürdlər, ümumilikdə bütün xristian, müsəlman və yəhudi dünyası, o cümlədən onların fikirləri ilə razılaşmayan ermənilər də etnokorporasiyanın hədəfinə çevrilmişdir. Kommunist və kommunizm,

demokratiya, NATO, BMT, ATƏT, ümumiyyətlə bütün ideologiya və anlayışlar erməniçilik üçün əbədi əsas rəqibdir.

Erməniçiliyin formalaşdırılması və siyasiləşdirilməsində, sözsüz ki, ən böyük "əmək", "zəhmət" diasporun üzərinə düşür. Diasporla yanaşı, erməni kilsəsinin bu işdə fəaliyyəti də xüsusi işıqlandırılmalıdır. Kilsənin bu işə verdiyi töfhələr barəsində türk tədqiqatçısı Sedat Laçınerin gəldiyi qənaət olduqca maraqlıdır: "Kilsənin ermənilər üzərindəki təsiri digər ölkələrin dini qurumları ilə olan əlaqəsindən daha çox şey ifadə etməkdədir. Kilsə demək erməniçilik deməkdir, erməniçilik isə kilsədir. Erməni kilsəsinə bağlı olmayan bir erməninin erməniçilik düşüncəsinə daha çox şübhə ilə yanaşılır. Bu, tarixi bir mirasdır və kilsə ilə bağlı olmaq həqiqi dindar olmaq deyil, erməni olmaqla əlaqələndirilir. Eyni zamanda ermənilərdən kənarda öz fəaliyyətini sürdürməyən erməni kilsəsi də öz mövcudluğu üçün erməniçiliyə borcludur".

Erməniçilik etnokorporasiyasının ən böyük "uğur"larından biri də əzəli Azərbaycan torpağı olan indiki Ermənistan ərazilərindən azərbaycanlıların zorla deportasiya olunması(1918-1920, 1948-1953, 1988-ci illər) və yalnız ermənilərdən ibarət monoetnik dövlətin yaradılmasıdır. Deportasiyanın sürətlə həyata keçirilməsində ən mühüm səbəb kimi diaspor təşkilatlarının maliyyə resurslarının gizli formada ötürülməsi idi. Erməni diasporunun əsas maliyyə mənbələri olan Gülbənkyan fondu, Qara Xaç və digər cəmiyyətinin ayırdığı külli miqdarda vəsait xaricdəki ermənilərin Ermənistanda yerləşməsinə yönəldilmişdi. Nəticədə zor gücünə boşaldılmış evlərdə ermənilərin məskunlaşdırılması prosesi planlı şəkildə həyata keçirilirdi. Bu haqda türk tarixçısı Sedat Laçıner yazır: "1970-ci illərin sonlarında Ermənistan əhalisinin təxminən 90%-i ermənilərdən ibarət idi və digər Sovet respublikalarına nisbətən burada vəziyyət daha dözülməz xarakter almışdı. Xüsusilə, Ermənistan erməniləri din və dilləri mövzusunda olduqca şovinist idilər və ruslaşdırma dövründə əhalinin





əsas hissəsi rus dilini öyrənmiş olsa da, onların böyük əksəriyyəti ana dili olaraq erməni dilindən istifadə edirdilər". Ə.İsmayılovun bu haqda fikirləri də Sedat Laçınerin fikirləri ilə üst-üstə düşür. O yazır: "Ermənistan-ermənilərdən başqa digər millətlərin yaşamadığı dünyada yeganə dövlətdir. XX əsrdə quldur Andronikin həmtayfaları tərəfindən təşkil edilən genosidlər seriyası və etnik baxımdan təmizlənmə siyasətinin ardıcıl şəkildə aparılması nəticəsində Ermənistan monoetnik respublikaya çevrilmişdir. Ermənilər son dərəcə qeyri-tolerant millət olaraq yalnız Ermənistanda deyil, həm də kompakt şəkildə yaşadıqları digər ölkələrdə də başqa millətlərin nümayəndələrinə münasibətdə yolagetməzlik, bədrəftarlıq nümayiş etdirirlər, onların rəqabət mübarizəsi isə qeyri-erməni millətindən olanların daha çox gəlir gətirən sahələrdən sıxışdırılıb çıxarılması ilə nəticələnir.

Erməniçiliyin dövriyyəyə buraxdığı yeni miflərdən biri də "Dağlıq Qarabağ", eləcə də Naxçıvanın əzəli erməni torpaqları olması iddiasıdır. Düzdür, bu iddiaların hələ ötən əsrin əvvəllərindən irəli sürülməsinə baxmayaraq, əsrin sonlarına doğru daha da alovlandırıldı. Qeyd edək ki, prosesin kökündə saxta tarixi-siyasi mif dayanır. 1988-ci ildə Dağlıq Qarabağ ilk dəfə olaraq, bu mifik mücərrədlikdə təzahür etmiş və sonradan reallığa çevrilmişdir. Baş verən prosesləri çılpaqlığı ilə qələmə alan Amerikalı tədqiqatçı Səmyuel A. Üimz bu barədə yazır: "1980-ci illərin axırlarında Sovet İttifaqı çatlar verəndə ermənilər müsəlman Azərbaycanının Qarabağdakı xristianlara ayrı-seçkilik etməsi iddiasını qaldırmağa başladılar. Bu, sadəcə olaraq doğru deyil. Əsl səbəb o idi ki, ermənilər öz cırtdan ölkəsini böyütmək istəyirdi. Nəticədə Qarabağda yaşayan ermənilər öz Ermənistan ölkəsindən olan dostlarının fitvası ilə müsəlmanları ev-eşiklərindən bir daha qovdu və heç kim tərəfindən tanınmamış de-fakto "Dağlıq Qarabağ Respublikası"nı yaratdı. Erməni liderləri bu regionun daxilində baş vermiş qiyamın onlara qətiyyən dəxli olmadığını bəyan etdilər. Öz etnik təmizləmə hərəkətlərinə münasibətdə

dünya ictimaiyyətini aldatmaq istəyən ermənilərin daha bir uydurma nağılı beləcə dövriyyəyə buraxıldı.

Bütövlükdə, tarixin müxtəlif dövrlərində erməniçilik siyasi-ideoloji hadisə olaraq Azərbaycan və Türkiyənin ərazi bütövlüyünə, milli-mənəvi dəyərlərinə, maddi mədəniyyət abidələrinə qarşı yönəldilmişdir. Erməniçilik bu gün də Azərbaycana qarşı daha ciddi mübarizə aparmaqdadır.





# II FƏSİL

# ERMƏNİ DİASPORUNUN TƏŞKİLATLANMASI VƏ ONUN ANTİTÜRK FƏALİYYƏTİ

## *2.1. Postsovet ölkələrində erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyətinin istiqamətləri*

Tarixdə erməniləri daha çox miqrasiya, köç etmiş xalqlar sırasına aid etmək olar. Bu barədə Azərbaycanın görkəmli ziyalıları C.Əliyev və B.Budaqov müəllifi olduqları "Türklər, Azərbaycanlılar, Ermənilər: tarixi həqiqətin soyqırımı" kitabında qeyd etmişlər: "Belə köçlər can qurtarmaq üçün qaçmaqla "müqəddəs torpaq" axtarışı xarakteri daşıyırdı. Bu köç prosesi fasiləsiz olaraq sonrakı əsrlərdə də davam etmişdir". Yalnız Krıma köç edən erməniləri rus knyazları bir şərtlə qəbul edirdilər ki, onlar qıpçaqlara qarşı mübarizədə ruslarla birgə mübarizə aparmalı idilər.

Ermənilərin rus torpaqlarına miqrasiyasının nə zamandan başlanması haqqında mənbələrdə müfəssəl məlumat verilmir. Lakin erməni və rus tarixçilərinin (Ç.P.Ağayan, P.L.Kazaryan, C.Patkanov, T.Poloskova və digərləri) verdikləri məlumatlara görə ermənilərin rus torpaqlarına ilk köçü XI əsrdən etibarən başlanmışdır. Mərkəzləşdirilmiş rus dövlətinin hüdudlarında ermənilərin görünməsi haqqında ilkin məlumatlar isə XIII əsrə təsadüf edir. Artıq XIII əsrin sonlarından etibarən rus məskənlərinin tədricən inkişaf etməsi, xüsusilə sənətkarlıq və ticarət mərkəzlərinə çevrilməsi Qara dəniz sahillərində məskunlaşmış ermənilərin buraya axınına səbəb oldu. Ticarət yolları üzərində yerləşən belə mərkəzlər içərisində Vladimir, Qaliç, Volın, Yazloveç, Moskva, Ryazan, Həştərxan və Lvov öz inkişaf səviyyəsinə görə digərlərini üstələməkdə idi. Bu barədə H.Cabbarlı yazır: "Ticarət yolları üzərində yerləşən belə məskənlərdən biri də Yazloveç idi. XIII yüzillikdə Noqay Ordasına məxsus Krımda

yaşayan ermənilərin bir çoxu burada yerləşmişdilər. Ermənilər burada Müqəddəs Boqorodiçi Kilsəsini, daha sonra Balaqoveşenya Saat Qülləsini və Müqəddəs Qriqor Monastırını inşa etdilər. Yazloveç ermənilərinə dair qəbul edilmiş qanunlara görə, onların torpaq sahibi olmalarına, ev inşa etmələrinə, sənətkarlıqla məşğul olmalarına icazə verilirdi. Həmçinin yerli məhkəmələrdə özlərinin müstəqil məhkəmələri də var idi". Yazloveçdə mühüm imtiyazlar əldə edən ermənilərin bir qismi buradan digər cənub məskənlərinə–Vladimir, Tismeniç, Obertin, Stanislava köç etməyə başladılar.

"Erməni xalqının tarixi"ndə XI-XIV əsrlərdə Moldova, Qalisiya, Bukovina və Transilvaniyada iri erməni koloniyalarının salınması haqqında məlumat verilir. XIV əsrin ortalarında artıq Moskva şəhərində də yüzlərlə erməni miqrantın məskunlaşması barədə məlumatlara rast gəlmək mümkündür. Moskva ermənilərinin sosial tərkibi, əsasən, tacirlər, zərgərlər, həkimlər, tikintidə çalışanlar, hərbçilər, saray rəssamları və tərcüməçilərdən ibarət idi. Moskvaya gələn ilk erməni mühacirlər arasında tacirlər üstünlük təşkil edirdilər. Məlumat üçün qeyd edək ki, Moskvaya ilk gələn ermənilər hələ XIV əsrdə çar İvan Qroznının əmri ilə Ağ şəhər (Belqorod) rayonunun Nikolska Stalpov küçəsində məskunlaşdılar. XIX əsrdə burada erməni kilsəsinin inşaası ilə əlaqədar olaraq Nikolska Stalpov küçəsi "Erməni küçəsi" adlanmağa başladı.

XVI-XVIII əsrlərdə digər etnoslar kimi ermənilər də bir sıra imtiyazlar əldə etdilər. İlk növbədə, ermənilərin ticarət və sənətkarlıq sahələri ilə sərbəst şəkildə məşğul olmaları üçün hər cürə şərait yaradıldı. Az sonra ermənilərin gömrük və vergi rüsumlarından müəyyən müddətə azad edilməsi, şəhər idarəçiliyində müvafiq vəzifələrin tutulmasında onlardan istifadə olunmasına icazə verildi. XVIII əsrin sonlarından etibarən Rusiya bazarlarında ermənilərdən alınan vergi rüsumunun adambaşına 5 qəpik müəyyən edilməsi onların burada sərbəst fəaliyyətinə müsbət təsir göstərdi.





XVII əsrdə sosial tərkibi, əsasən, tacir və sənətkardan ibarət erməni diasporunun rüşeymləri meydana gəldi. Bəhs olunan dövrdə Moskva ilə yanaşı cənub şəhərlərində erməni koloniyalarının genişlənməsi və burada erməni miqrantların məskunlaşması prosesi sürətləndi. Koloniyalarda yaradılmış əlverişli şərait diaspor ermənilərinin sosial-iqtisadi və mədəni inkişafına müsbət təsir göstərdi. Çar Aleksey Mixailoviçin hakimiyyəti dövründə (1645-1676) erməni tacirləri əvvəlki dövrlərlə müqayisədə daha firavan yaşamağa başladılar. 1648-ci ilə aid "Kilsə külliyyatı"nda bu barədə məlumatlara rast gəlmək mümkündür.

Saray çevrilişi nəticəsində hakimiyyətə gələn Anna İoannovna sələfi I Pyotrdan fərqli olaraq ermənilərə lazımı səviyyədə yardım göstərməkdən imtina etdi. Anna İoannovnadan sonra hakimiyyətə gələn rus çarları (III Pyotr, II Yekaterina nəzərdə tutulur - T.C) I Pyotr qədər erməni maraqlarını müdafiə etdi. Bu haqda V.L.Veliçko yazırdı: "Anna İoannovnadan fərqli olaraq II Yekaterina öz sarayında mənəviyyatca pozğun və olduqca dəbdəbəli yaşayan ermənilərə son dərəcədə iltifat göstərirdi".

Düşdükləri şəraitdən öz məqsədləri üçün faydalanmağa çalışan ermənilər rus çarlarından aldıqları siyasi və iqtisadi imtiyazlardan maksimum dərəcədə yararlanmaqda idilər. Bu barədə G.Nəcəfli yazır: "Hələ, I Pyotr dövründən Rusiyada bir sıra imtiyazlara malik olan erməni tacirləri xərçəng kimi regionun müxtəlif yerlərində kök salaraq özlərinə yeni-yeni məskənlər yaradır və bu məskənlərə ələ keçirmək arzusunda olduqları Azərbaycan şəhərlərinin adlarını verirdilər. Belə ki, Rusiyada məskunlaşan ermənilər Həştərxanda koloniyalar və Qızlar (indiki Qızılyar şəhəri nəzərdə tutulur–T.C) şəhərində xüsusi erməni məhəlləsi yaratmışdılar. İ.Arqutinskinin "xüsusi canfəşanlığı" nəticəsində II Yekaterinanın 14 noyabr 1779-cu il fərmanı ilə Krımdan Xerson quberniyasına köçürülən ermənilər üçün Don çayı sahilində xüsusi idarəetmə statusuna malik olan yaşayış məskəninin əsası qoyuldu. Ermənilər həyata keçirəcəkləri məkrli niyyətləri naminə tarixi Azərbaycan torpaqlarına, toponimlərinə gələcək iddia-

larına zəmin hazırlamaq məqsədilə bu qəsəbəni "Yeni Naxçıvan" adlandırmağa başladılar. Salınmaqda olan "Yeni Naxçıvan" şəhərinə Krımla yanaşı, Türkiyənin də müxtəlif regionlarından əhalinin kütləvi şəkildə köçürülməsinə başlandı. Nəticədə qısa müddət ərzində burada 15 mindən çox erməni yerləşdirildi. Köçürülmə zamanı miqrant ermənilərə hökumət tərəfindən bir sıra imtiyazlar verilmişdi. Bu haqda V.L.Veliçko yazırdı: "Təzə yerə köçürülənlərə kifayət qədər–Krımdan bütün əmlakın dövlət hesabına daşınması, 12 min desyatin əlverişli torpaq sahəsi, bütün mükəlləfiyyətlərdən on il müddətində, mənzil mükəlləfiyyətindən azad olma kimi üstünlüklər verilmişdi. Hər bir ev sahibinə 30 desyatin torpaq sahəsi ayrılmış, meşə və tikinti ləvazimatı bağışlanılmış, toxumlar, mal-qara və avadanlıq isə on ildən sonra qaytarılmaq şərtilə verilmişdi".

I Aleksandrın ölümündən sonra taxta yiyələnmiş I Nikolay sələfləri kimi ermənilərə olan sevdasını gizlədə bilməmişdir. Bu haqda İ.Sadıq yazır: "Ermənilərin əsl böyük qardaşı I Nikolay olmuşdur. O, 21 mart 1828-ci il tarixli fərmanı ilə ermənilərin üstündən "qul" adını götürmüşdür. Həmin vaxta kimi ermənilər yer üzündə rəsmən qul adlanan iki xalqdan biri olmuşdur.

Qafqazdakı erməni icmasının fəal üzvləri tərəfindən ilk dəfə olaraq 1846-cı ildə Tiflisdə "Kovkas (Qafqaz), 1851-ci ildə "Ararat" qəzetləri yayına başladı. Ermənilər təhsil sahəsinə də xüsusi önəm verirdilər. Qısa müddət ərzində burada ermənidilli məktəblərin inşasına başlandı. Nəticədə 1824-cü ildə Tiflisdə Nersisyan məktəbi, 1832-ci ildə İrəvan bölgə məktəbi, 1837-ci ildə İrəvan Mərkəzi məktəbi və 1838-ci ildə Şuşa ruhani məktəbi fəaliyyətə başladı.

XIX əsrin sonlarından etibarən ermənilərin rus şəhərlərinə köçü daha geniş vüsət aldı. Proses ötən əsrin 20-30-cu illərində daha da intensivləşdi. II Dünya müharibəsindən sonrakı dövrdə də dünyanın müxtəlif ölkələrində yaşayan ermənilərin Rusiya şəhərlərinə köçü davam etməkdə idi. 1988-ci ildə Ermənistanda baş vermiş güclü zəlzələ nəticəsində minlərlə erməni Rusiyaya





köçməyə başladı. Daha doğrusu, 1988-ci ildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin baş verməsi ilə Ermənistandan və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağdan, eləcə də ətraf ərazilərdən minlərlə erməni Rusiya ərazilərinə köçməyə başladı.

Müasir dövrdə dörd yüz mindən artıq ermənin yaşadığı Moskva şəhərində mövcud erməni diaspor qurumlarının təşkilatlanmasına hələ ötən əsrin 80-90-cı illərindən başlanıldı. Bu dövrdən etibarən Moskva şəhərində onlarla erməni diaspor təşkilatları təsis edildi. Bəhs olunan dövrdə saxta erməni tarixi və mədəniyyətini təbliğ edən belə təşkilatların sayı sürətlə artmaqda idi. Moskvada təsis edilmiş "Milli müqəddəratın müstəqil təyin edilməsi birliyi" və "Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi" də Azərbaycan əleyhinə fəal iş aparırdı. Həmçinin təşkilatların yaradılmasında əsas məqsəd erməni əsilli siyasi məhbusların hüquqlarını müdafiə etmək və onların sosial durumunun yaxşılaşdırılmasına dəstək olmaqdan ibarətdir.

1988-ci ildə təsis edilmiş "Rusiya Erməniləri Birliyi" (REB) də bəhs olunan dövrdə Rusiya ermənilərinin təşkilatlanması prosesində müstəsna rol oynamağa başladı. Təşkilatın yaradılmasında əsas məqsəd Rusiyadakı erməniləri vahid mərkəzdə birləşdirmək, buradakı erməni və rus iş adamlarının Ermənistana yardım göstərmələrinə nail olmaq, Qarabağ məsələsini ermənilərin lehinə rus ictimaiyyətinin diqqətində saxlamaq və qondarma "erməni soyqırımı" məsələsinin Dövlət Dumasında müzakirəsini təmin etməkdən ibarətdir. Həmçinin təşkilat Moskva ermənilərinin dini və milli bayramlarını mütəmadi şəkildə təşkil etmək missiyasını da öz üzərinə götürmüşdür. Bir cəhəti qeyd edək ki, REB rəhbəri Ara Abramyan 2002-ci ildən etibarən "Dünya Erməniləri Konqresi"nin qurulması məqsədilə 30-a yaxın ölkəyə səfər etmiş və bu ölkələrdəki diaspor nümayəndələri və dövlət məmurları ilə görüşlər keçirmişdir. Fransanın keçmiş prezidenti Jak Şirakla Abramyanın Parisdə baş tutmuş görüşündə bu şəhərdə REB-in regional ofisinin açılması barədə razılıq

əldə olundu. 2003-cü ilin 6-7 oktyabrında 38 ölkədən 114 nümayəndənin iştirakı ilə Moskvada "Dünya Ermənilərі Konqresi"nin təsis toplantısı keçirildi. Konfransın işi rus dilində aparıldı və rus televiziyalarında "12 milyon erməni Moskvadan birləşməyə başladı" kimi fikirlər səsləndirildi. Toplantıya Rusiya Federasiyasının prezidenti Vladimir Putin, Xarici İşlər naziri İqor İvanov, Moskva meri Yuri Lujkov, Ermənistan prezidenti Robert Köçəryan və hər iki ölkədən millət vəkilləri qatıldılar. Toplantı iştirakçıları tərəfindən REB sədri Abramyanın DEK sədrliyinə namizədliyi irəli sürüldü və səs çoxluğu ilə o, yeni yaranmış təşkilatın sədri seçildi. Aram Abramyan DEK-in qarşısında duran əsas vəzifənin dünyadakı erməni diaspor təşkilatlarını bir bayraq altında birləşdirmək və fərqli coğrafiyalarda dağınıq halda fəaliyyət göstərən erməni diaspor qurumları arasındakı mövcud əlaqələri daha da möhkəmləndirməkdən ibarət olduğunu qeyd etdi.

Müasir dövrdə Rusiya Federasiyasında bir sıra erməni diaspor təşkilatları və mətbuat orqanları fəaliyyət göstərir: Məsələn: "Rus-Erməni Dərnəyinin Müdafiə Fondu", "Erməni Mədəniyyəti Dostları Cəmiyyəti", "Moskva Erməniləri Birliyi", "Erməni Gənclər Mərkəzi "Aragak"(Günəş), "Beynəlxalq Erməni Tələbələr Birliyi", "Rusiya Erməni Əlaqələr Mərkəzi", "Rusiya-Erməni Dostluq Federasiyası", "Yusisapayl" qəzeti, "Armeniya i Mir" (Ermənistan və Dünya), "Armyanskiy pereulok" (Erməni döngəsi) və s.

Son illər Rusiyada məskunlaşmış ermənilər daha çox sosial və mədəni sahələrdə çalışmağa üstünlük verməkdədirlər. Moskva və digər iri şəhərlərdə fəaliyyət göstərən erməni diaspor təşkilatlarının əksəriyyəti burada çalışan erməni sahibkarları və ziyalılar tərəfindən maddi olaraq dəstəklənməkdədir. Erməni sahibkarlar Moskvadakı şəxsi bizneslərini və siyasi maraqlarını qorumaq məqsədilə mətbuat sahəsinə yardım etməkdədirlər". "Ermənistan və Dünya" dərgisi bu sahədə xüsusi çəkiyə malikdir. Dərginin işıq üzü görməsində əsas məqsəd dünyanın dörd bir tərəfinə səpələnmiş diaspor ermənilərini bir araya toplamaq





və onları Ermənistanda və dünyada baş verən siyasi hadisələrlə məlumatlandırmaqdan ibarətdir. Belə siyasi və mədəniyyət mərkəzlərinin sayına görə Rusiyada yəhudi, ukraynalı və tatarlardan sonra ermənilər dördüncü sırada yer alırlar".

Ermənilərin Moskvadan sonra daha çox məskunlaşdıqları ikinci böyük şəhər Sankt-Peterburq şəhəridir. XVIII əsrin əvvəllərindən başlayaraq kiçik qruplar şəklində buraya üz tutan ermənilər şəhərin sosial-iqtisadi həyatında mühüm rol oynamağa başladılar. İlk növbədə, ermənilər şəhərin təhsil, səhiyyə ocaqlarında mövqe tutmağa çalışırdılar. Ən nüfuzlu universitetlərə belə asanlıqla yol tapmağı bacaran ermənilər, ilk növbədə, burada erməni dili və ədəbiyyatı fakültəsinin açılmasına nail oldular. Bu haqda H.Cabbarlı yazır: "1842-ci ildə Kazan universitetində, 1849-cu ildə isə Peterburq universitetində erməni dili və ədəbiyyatı fakültəsi açıldı. Ermənilər özlərini yaxşı tərəfdən tanıtmaq, burada yaşayan ermənilərin birliyi və bərabərliyini qorumaq məqsədilə özlərinin mətbəələrini yaratmağa başladılar. XIX əsrin II yarısından etibarən qəzet və broşürlərin buraxılmasına müvəffəq oldular. İlk işıq üzü görən dövrü mətbuat orqanları içərisində 1863-cü ildə "Yusis" (Şimal), ədəbiyyat və incəsənət jurnalı "Araks", 1903-1904-cü illərdə "Banber Qrakanutyun yev Arvest" (Ədəbiyyat və İncəsənət Xəbərləri), "Arçunker" (Göz yaşı) və "Sapriçi" (Bərbər) qeyd etmək olar".

Rusiyadakı erməni diaspor təşkilatlarının mütəşəkkil şəkildə fəaliyyət göstərdiyi bölgələrindən biri də Rusiyanın cənubunda yerləşən Krasnodar əyalətidir. Krasnodar əyalətinə ermənilərin miqrasiyası XVIII əsrin sonlarından başlamış, XIX əsrin 70-80-ci illərindən etibarən daha da sürətlənmişdi. Krasnodar əyalətində erməni icmalarının yaranması və formalaşması prosesi iki əsrdən artıq müddətdə davam etmişdir. Nəhayət, XX əsrin 80-90-cı illərində burada da çoxsaylı erməni təşkilat və cəmiyyətləri yaranmağa başladı.

XX əsrin 90-cı illərində diaspor erməniləri tərəfindən yaradılmış mühüm təşkilatlardan biri də "Krosnodar Erməni Mədə-

niyyət Mərkəzi"dir. Mərkəzin məqsədi mədəni tədbirlər keçirməklə buradakı ermənilərin birlik və bərabərliyinin qorunub saxlanılmasına yardım etmək, həmçinin dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni diaspor təşkilatlarının fəaliyyət istiqamətlərini müəyyən etmək və antitürk təbliğatını daha da gücləndirməkdən ibarətdir. Məlumat üçün qeyd edək ki, Krosnodardakı erməni diasporunun yayınladığı "Erkramas" ("Əyalət") adlı qəzetdə Rusiyadakı erməni diasporunun antitürk və anti-Azərbaycan fəaliyyəti barədə geniş məlumat verilməkdədir. "Erkramas" qəzeti Kislavodsk şəhərində qondarma "erməni soyqırımı" qurbanlarının xatirəsinə" ucaldılmış abidənin açılışı barədə geniş məlumat vermiş, abidənin açılışında Sevastopol şəhər rəhbərliyinin, Kislavodsk meri, Cənubi Rusiya Erməni Kilsəsi yepiskopu ilə yanaşı, Ermənistandan gəlmiş nümayəndə heyyətinin də yaxından iştirak etdiyini göstərmişdir.

Rusiyanın cənub ərazilərindən fərqli olaraq, şimalında dağınıq şəkildə yaşayan ermənilər daha çox Çelyabinsk və Murmansk şəhərlərində məskunlaşmışlar. Burada ermənilərin məskunlaşması prosesi II dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Rusiyanın cənubundan fərqli olaraq, şimalında yaşayan ermənilər daha zəif təşkilatlanmış və nisbətən zəif fəaliyyət göstərməkdədirlər. Son zamanlar şimal şəhərlərində fəaliyyət göstərən erməni diaspor təşkilatlarının antitürk, anti-Azərbaycan fəaliyyətində nəzərəçarpacaq dərəcədə aktivlik müşahidə olunmaqdadır.

Ermənilərin nisbətən zəif məskunlaşdığı ərazilərdən biri də Yakutiya, Altay və Sibir əraziləridir. Buraya miqrasiya edən ilk erməni qrupları bilavasitə Ural arxası ərazilərdə məskunlaşmışdılar. XIX əsrdə ermənilərin Sibirə miqrasiyası daha geniş vüsət aldı və sonrakı illərdə davamlı şəkildə həyata keçirildi.

2000-ci ildə Ümumrusiya erməni ictimai təşkilatı olan "Rusiya Erməniləri İttifaqı" təsis edildi. 11 iyun 2000-ci ildə isə bu təşkilatın Yakutiya şöbəsi yaradıldı. Bu təşkilat ermənilərin ən çox məskunlaşdığı şəhərlərdə Yakutsk, Mirnin, Aldanda aktiv şəkildə fəaliyyət göstərməkdədir. Təşkilatın məqsədi Yakutiyadakı ermənilərin hüquqlarını qorumaq, onların təhsil almaq, işlə təmin olunmaq, eləcə də Yakutiya ermənilərilə Rusiyanın digər ərazilərindəki diaspor erməniləri arasındakı əlaqələrin möhkəmləndirilməsinə yardım etməkdən ibarətdir.





2002-ci ildə keçirilmiş ümumrusiya əhalisinin siyahıyaalınmasına görə, 1998-ci ildə Altayda 174 nəfər erməni qeydə alınmış, 2002-ci ildə onların sayı 193-ə yüksəlmişdir. Beləliklə, 13 il ərzində Altayda erməni əhalisinin 2,8 dəfə artım dinamikası qeydə alınmışdır.

Hal-hazırda Rusiyadakı erməni diasporu ermənilərin xaricdəki ən böyük diasporudur. Belə ki, hər il təxminən 20 000 erməni Ermənistandan Rusiyaya köç etməkdədir. Rusiyadakı erməni diasporunun 2/3-ni son 10 ildə bu ölkəyə köç etmiş ermənilər təşkil etməkdədir. Həmçinin bu ölkədəki erməni diasporu Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsi, Abxaziya, Şimali Qafqaz və Mərkəzi Asiyadakı etnik qarşıdurmalardan qaçıb Rusiyada yerləşən köçkünlər ilə Ermənistandan iş dalınca Rusiyaya gələn köçkün miqrantlardan formalaşmışdır. "Rusiya Erməniləri Birliyi"nin verdiyi son məlumatlara görə, RF-də köçkün statusu alan ermənilərin sayı 2,5 milyon nəfərdən artıqdır. Rusiyadakı erməni diasporunun 350 min nəfəri Azərbaycandan, 250 mini Gürcüstandan, 180 mini Türkmənistan və Tacikistan olmaqla Mərkəzi Asiya respublikalarından, 850 mini Ermənistandan gələn ermənilərdən təşkil olunmuşdur. Bu gün Moskva şəhərində 600 min, Krosnadarda isə təxminən 1 milyon nəfərə yaxın erməni yaşamaqdadır.

Rusiyada erməni diasporunun formalaşması prosesi XIX əsrin əvvəllərindən başlamış, iki əsr müddətində yüksələn xətlə inkişaf etmişdir. Qarabağ müharibəsi nəticəsində minlərlə erməni əvvəlcə Azərbaycandan Ermənistana, oradan da Rusiyaya, Avropaya və ABŞ-a köç etmişdir. Türk tarixçisi Sedat Laçınerin fikrincə, "məlum rəqəmlərə güvənsək, dünyadakı ən böyük erməni diasporu Rusiyadadır və təxminən 1 milyondan artıq ermə-

nini öz ətrafında birləşdirmişdir. Bəzi qaynaqlara görə, Rusiyada erməni diasporunun ümumi sayı hətta 1,5 milyonu ötməkdədir. Məlumdur ki, Ermənistan müstəqillik əldə etdikdən sonra da buradan ən böyük köç məhz Rusiya Federasiyasına edilmişdir. Belə ki, 1992-93-cü illərdə Ermənistandan 250 min nəfər erməni ölkənin düşdüyü ağır sosial-iqtisadi vəziyyətdən qurtulmaq üçün Rusiyaya, Avropaya köç etdi. Məhz bu hadisə erməni tarixşünaslığına "böyük köç" kimi daxil olmuşdur. Rusiya XİN-nin Diplomatik Akademiyasının əməkdaşı T.Poloskovanın fikrincə, bu gün Rusiyada təxminən 2 milyon erməni yaşamaqdadır. Bunların 2/3-si 1988-ci il zəlzələsindən sonra və iqtisadi səbəblər üzündən ölkəni tərk edən ermənilərdir. Göründüyü kimi, istər türk, istərsə də rus tədqiqatçıların apardığı təhlillər fərqli rəqəmlər ortaya çıxarmaqdadır. Fikrimizcə, bu gün Rusiya Federasiyasında ümumi sayı təxminən 1-1,5 milyon nəfərdən artıq olan güclü erməni diasporu mövcuddur.

Müasir dövrdə Pribaltika ölkələri olan Latviya, Litva və Estoniyada da azsaylı erməni diasporu mövcuddur. Dörd milyondan artıq əhalinin yaşadığı Litvada təxminən 1000 nəfərə yaxın xırda erməni icması fəaliyyət göstərməkdədir. Xüsusilə, hər ilin mart-aprel aylarında diasporun fəaliyyətində nəzərəçarpacaq dərcədə aktivlik hiss olunmaqdadır. Bu aylarda diaspor erməniləri paytaxtın müxtəlif küçə və prospektlərində türk dünyası əleyhinə mitinq və yürüşlər keçirməklə yanaşı, konsert, rəsm sərgiləri və konfransların keçirilməsində xüsusi fəallıq nümayiş etdirirlər. Burada bir cəhəti vurğulayaq ki, 13 dekabr 2005-ci ildə qondarma "soyqırımı" iddialarının bu ölkənin parlamenti tərəfindən qəbul olunması Litva-Türkiyə münasibətlərinə ağır zərbə vurmuş oldu. Belə ki, Litva parlamentinin 141 deputatından 55-nin iştirakı ilə müzakirələr keçirildi, səsvermədə iştirak edən 55 deputatdan 48-i qərarın lehinə səs verdi. Qərardan sonra ölkə prezidenti Valdes Adamkusun Türkiyəyə nəzərdə tutulan rəsmi səfəri may ayına təxirə salındı. Bu qərardan sevincini gizlədə bilməyən Ermənistanın Xarici İşlər naziri Vardan Oskanyan





Litvaya 18 oktyabr 2005-ci ildə etdiyi səfərində bu ölkədəki azsaylı erməni diaspor nümayəndələri ilə görüşlər keçirdi, soyqırımı məsələsi ətrafında fikir mübadiləsi apardı, hətta Soyqırımı və Müqavimət Muzeyini də gəzmiş oldu.

Litva ilə yanaşı, digər Pribaltika ölkələrində də (Latviya və Estoniya) buna bənzər qərarların qəbul edilməsi təhlükəsi qalmaqdadır. Belə ki, Estoniya Xarici İşlər naziri Urmas Paetin "Postimus" qəzetinə verdiyi açıqlamasında Türkiyənin "erməni soyqırımı"nı tanımasının vacibliyi vurğulanmışdır. Bununla yanaşı, Latviya prezidenti Vayra Vike Freibergin 2005-ci ilin oktyabr ayında İrəvana səfəri zamanı İrəvan Dövlət Universitetində etdiyi çıxışında da Türkiyənin AB-ə girməzdən öncə, bəzi nöqsanların aradan qaldırılmasının vacibliyi bildirilmişdir.

Mötəbər mənbələrə istinadən demək mümkündür ki, hal-hazırda Latviyada 3 min nəfərlik güclü erməni diasporu fəaliyyət göstərməkdədir. Bunun 2500 nəfəri paytaxt Riqa şəhərində yaşamaqdadır. Ölkədəki azsaylı erməni icması hələ ötən əsrin əvvəllərindən etibarən buraya üz tutmuş və sosial həyata uyğunlaşmağa başlamışlar. Bu dövrdən başlayaraq Latviyada erməni diasporuna məxsus bir neçə kilsə, məktəb, müxtəlif profilli dərnəklər, araşdırma mərkəzləri, qəzet və jurnallar, restoranlar fəaliyyət göstərməkdədir. Maraqlıdır ki, bu gün təkcə paytaxt Riqada 20-dən artıq erməni restoranı fəaliyyət göstərir. Həmçinin paytaxt Riqada diaspora məxsus "Ararat" (Ağrı dağı) adlı gündəlik qəzet də yayınlanmaqdadır. Latviya ilə bağlı maraqlı məsələlərdən biri də bu ölkənin Ermənistanın müstəqilliyini tanıyan ilk ölkə olmasıdır. Müasir dövrdə ABŞ, Kanada, Fransa ilə yanaşı Latviya parlamentində də güclü erməni lobbisi mövcuddur. Bu ölkədəki erməni lobbistləri sağçı millət vəkilləri tərəfindən də dəstəklənməkdədirlər. Təəssüf ki, erməni lobbistlərinə dəstək olanlar arasında parlamentin sədri İngrida Uderin də adı hallanmaqdadır. Diaspor təşkilatlarının və lobbistlərin səyləri nəticəsində 2006-cı ilin 24 aprelində paytaxt Riqanın müxtəlif idarə və müəssisələrində sərgi, konfrans, nümayişlər keçirilmiş və bu

azmış kimi parlamentdə də qondarma "erməni soyqırımı"nın qəbul edilməsinə cəhdlər edilmişdir. Lakin sənəd 100 millət vəkilindən sadəcə 15-nin dəstəyini almışdır. Qeyd edək ki, sənədə imza atan millət vəkillərindən 11-i sağçı, 4-ü isə solçu rus millət vəkilləri idi. Göründüyü kimi, erməni lobbistləri bu uğursuzluqlardan heç də ruhdan düşməmiş, əksinə, parlamentarilərlə bu sahədə təbliğati işləri daha da gücləndirmişlər.

Postsovet məkanında erməni diasporunun güclü struktura malik olduğu ölkələrdən biri də Ukraynadır. Ukrayna ərazilərinə ermənilərin ilk gəlişi XI-XII əsrlərə təsadüf edir. Bu barədə tarixçi Atamoğlan Məmmədli yazır: "Bizans hakim dairələrinin təqibləri nəticəsində ermənilər XI əsrdən başlayaraq daha uzaq yerlərdə, hətta Krım dağlarında özlərinə sığınacaq tapmışdılar. Bəhs olunan dövrdə Van gölü ətrafından bu ərazilərə xeyli sayda erməni əhalisi köçmüşdü". Sonrakı əsrlərdə bu köç prosesi fasiləsiz olaraq davam etmişdir. XIV əsrin I yarısında Krıma erməni köçkünlərinin yeni kütlələri gəldilər. Əvvəlcə Krıma gəlmiş ermənilər 1374-cü ildən Lvovda, Kamenets-Podolskda da məskunlaşmağa başladılar. Bu şəhərlərdə onların sayı ilbəil artmaqda idi. Ermənilər Qərblə Şərq arasında ticarət vasitəçisi olduqlarını nümayiş etdirdilər.

XIII-XIV əsrlərdə Ukrayna ərazilərində erməni tacir və sənətkarların məskunlaşması və sərbəst fəaliyyəti üçün əlverişli zəmin yaranmışdı. O zaman Qaliç və Volın knyazı Daniil (1211-1264) yeni şəhərlərin salınmasına, sənətkarlıq və ticarət sahələrinin genişləndirilməsinə və öz torpaqlarında ermənilərin məskunlaşdırılmasına icazə verirdi. Bununla əlaqədar olaraq əvvəlcə Kiyev şəhərinə gələn ermənilər burada möhkəmləndikdən sonra digər iri şəhərlərə axışmağa başladılar.

XVIII əsrin ortalarında Ukrayna ərazilərinə erməni axınları başlamış və miqrant ermənilərin böyük əksəriyyəti Zoloçevedə, Berejanda, Podqayskda, Buçaçda, Jvanetsdə, Kubaçnovada, Dubrovitsada, Studenitsedə, Baredə, Umanidə və digər ərazilərdə məskunlaşmışdılar. XVIII əsrin sonlarında isə Satanovoda,





Moqilyov-Podolskda, Raşkovedə, Yuzefqradda (Baltda) yeni erməni koloniyaları salındı. Bəhs olunan dövrdə erməni koloniyalarının coğrafiyası Qalitskə, eləcə də Şərqi Podoliyeyə qədər uzanırdı. Nəticədə XIII-XVIII əsrlərdə təkcə Qərbi Ukraynada 30 erməni koloniyası yaranmışdı.

XVIII əsrin sonu XIX əsrin əvvəllərində Ukraynanın müxtəlif ərazilərində erməni icmaları təşəkkül tapmaqda, diaspor təşkilatlarının hüquqi bazası formalaşmaqda idi. Bu dövrdə Kiyevlə yanaşı, ermənilərin daha çox məskunlaşdıqları ikinci böyük şəhər Lvov idi. Erməni dilində olan kilsə sənədlərinə görə, Lvovda çoxsaylı böyük və inkişaf etmiş erməni icmaları mövcud idi. Qeyd edək ki, Lvov ermənilərinin əsas məşğuliyyətini şərq ölkələri ilə ticarət təşkil edirdi. Buna səbəb şəhərin əlverişli coğrafi mövqedə yerləşməsi idi. Həmçinin Lvovda zərgərlik, dəriçilik, toxuculuq, boyaçılıq işləri tamamilə ermənilərin əlində cəmləşmişdi. Ermənilər Lvov sakinləri ilə bərabər xüsusi imtiyaza malik deyildilər. Lakin XIX əsrin əvvəllərində Lvov erməniləri gömrük vergisindən tamamilə azad edildi. Ermənilər bu imtiyazı alana qədər digər xalqlardan alınmayan gömrük vergisi ödəyirdilər.

XIX əsrdə Ukraynanın bir sıra iri sənaye şəhərlərində (Kiyev, Volqaqrad, Xarkov, Donetsk və s.) on minlərlə erməni miqrant məskunlaşmaqda idi. I Dünya müharibəsindən sonra Türkiyədən köçüb gələn erməni əhalisi hesabına bu ölkədəki ermənilərin sayında kəskin artım (100 000 nəfər) qeydə alındı. 2001-ci ildə aparılan əhalinin siyahıyaalınmasına görə, Ukraynadakı milli azlıqlar ölkə əhalisinin 22,5%-ni təşkil etmişdir. 2003-cü ilin statistik məlumatına əsasən, Ukraynadakı erməni əhalisinin ümumi sayı 130 000 nəfəri ötmüşdür.

Ukraynadakı erməni diaspor təşkilatlarının strukturu XX əsrin 90-cı illərində formalaşmaqda idi. Bu dövrdə, Lvov şəhəri Ukraynadakı diaspor təşkilatlarının başlıca siyasi mərkəzinə çevrildi. 1988-ci ildə Lvovda "Ağpür" (Pinar) adlı dərnək erməni mədəniyyətinin təbliği, xalqlar arasındakı mövcud əməkdaşlı-

ğın daha da möhkəmləndirilməsi istiqamətində fəaliyyətə başladı. Bununla yanaşı, əsası 1918-ci ildə qoyulmuş "Hosank" (Cari), eləcə də 1920-ci ildə təsis edilmiş "Asdğ" (Ulduz) dərgiləri geniş oxucu kütləsinə malikdir. Hal-hazırda Ukraynadakı erməni diaspor təşkilatlarının mədəni quruculuq sahəsindəki fəaliyyətini, eləcə də elm, sənət sahələrinin mövcud vəziyyətini vaxtilə 1855-1858-ci illərdə Parisdə ermənicə və fransızca, 1860-1865-ci illərdə isə Feodosiyada ermənicə və rusca yayınlanan "Masyats Ağavni" (Masiyu göyərçini) qəzeti müəyyən edir. Stavropolda "Surp Xaç" (Müqəddəs Xaç) dərgisi də 1996-ci ildən etibarən ölkə üzrə yayınlanmaqdadır. Simferopolda və bir çox şəhərdə regional şöbəsi olan "Luys" (İşıq) Mədəniyyət Dərnəyi isə 1993-cü ildən başlayaraq erməni camaatının Krıma qayıdışını, eyni zamanda erməni icmaları daxilində sosial və mədəni prosesləri tənzimləməkdədir.

XX əsrin 90-cı illərində Ukraynadakı erməni diaspor təşkilatları qondarma "erməni soyqırımı"nın Ali Radada qəbul edilməsi məqsədilə səylərini gücləndirdilər. Ali Radaya Ana Vətən Partiyasından millət vəkili seçilmiş Arsen Avakov və Regionlar Partiyasının üzvü Vilen Şatvoryan tərəfindən 1915-ci il hadisələri ilə bağlı hazırlanan sənəd parlamentin gündəliyinə daxil edildi. Müzakirədə iştirak edən erməni millət vəkillərinin əsas tələbi 24 aprel tarixinin qondarma "erməni soyqırımı" günü olaraq qəbul etdirilməsi idi. Lakin Ukraynada güclü struktura malik Azərbaycan, eləcə də türk diaspor təşkilatlarının birgə fəaliyyəti nəticəsində erməni diasporunun bu ölkədəki antitürk, anti-Azərbaycan fəaliyyəti uğursuzluqla nəticələndi.

Postsovet məkanında güclü erməni diasporuna malik olduğu ölkələrdən biri də Gürcüstan Respublikasıdır. Qara dəniz sahilində yerləşən Gürcüstan Cənubi Qafqazın ən mühüm geostrateji mövqeyə malik ölkəsindən biridir.

1783-cü il iyunun 24-də Georgiyevski traktatı ilə (Şimali Qafqaz) Kartli-Kaxetiya çarlığı Rusiya dövlətinin "himayəsini" qəbul etdi. İşğalı davam etdirən rus ordusu 1801-ci ildə Şərqi





Gürcüstanı da ilhaq etdi. Buraya general Lazarevin başçılığı altında ilk erməni ailələri köçürülməyə başlandı. 1807-1808-ci illərdə Tbilisinin ətrafına və Havlabar mahalına 338 erməni ailəsi (1906 nəfər), 1809-1811-ci illərdə Qarabağdan Bolnisiyə 428 erməni ailəsi (2140 nəfər) köçürüldü. Həmçinin Osmanlı ərazilərindən Trialetə və Cavaxetiyaya ermənilərin köçürülməsinə başlanıldı.

Köçürülməni tam təhlükəsiz şəraitdə yerinə yetirmək üçün 1829-cu il dekabrın 3-də general Paskeviç tərəfindən Xüsusi Köçürmə Komitəsi yaradıldı. Komitəyə mülki qubernator Zavilyevski sədrlik edirdi. Komitə tərəfindən Köçürmə Əsasnaməsi işlənib hazırlandı. Komitənin ilkin hesablamalarına görə, Qars, Ərzurum və Bəyazid vilayətlərindən Gürcüstana 8 min erməni ailəsi köçürülməli idi. Lakin köçürülmə başlanandan sonra erməni ailələrinin sayı 14 minə çatdı. Tanınmış gürcü alimi Q. Marxuliyanın qeyd etdiyi kimi, əvvəlcədən müəyyənləşdirilmiş ərazilərə belə sürətlə ermənilərin köçürülməsi Qafqazda ümumrus işinin əsas prioriteti olub regionun etnik mənzərəsini erməni miqrantları hesabına dəyişdirməkdən ibarət idi. Belə ki, bəhs olunan dövrdən etibarən erməni əhalisi yerli gürcü əhalisini açıq-aşkar üstələməyə başladı. Çar Rusiyasının hakim dairələri Türkiyədən gələn çoxsaylı erməni ailələrini yerli əhali ilə birlikdə Axalkələk quberniyasında məskunlaşdırmaqda idi. Ermənilərdən fərqli olaraq yerli gürcü əhalisi daha çox kiçik talalarda, kəndlərdə yaşayırdı. Göründüyü kimi, Çarizmin əsas məqsədi Gürcüstanda etnik rəngarənglik yaratmaq idi.

I Nikolay Qribayedovun məsləhətlərini qəbul etdi və Türkiyədən qovulmuş erməniləri rus torpaqlarında deyil, Gürcüstan ərazisində məskunlaşdırdı. Həmin illərdə bölgəyə 40 mindən artıq erməni ailəsi köçürüldü. Bundan sonra ermənilərin sayı nahiyədə, zorla çıxarılmış gürcülərin sayını üstələdi. Tanınmış gürcü alimi B.Arveladzenin qeyd etdiyi kimi, belə davranışın alt qatında siyasi baxışlar dururdu. Əsas məqsəd, ilk növbədə, Cavaxetiyada yaşayan yerli aborigen xalqları gürcüləri və türkləri

(burada məshəti türkləri nəzərdə tutulur-T. C) bölgədən sıxışdırıb çıxarmaq, ermənilərin nahiyədə sayını artırmaqdan ibarət idi.

XIX əsrin I yarısında Osmanlı imperiyasından Gürcüstana köçürülən katolik ermənilərin böyük əksəriyyəti Axalkələk, Axalsıx, Azqur, Xertvis və digər ərazilərdə məskunlaşdırıldı. Bu illərdə Axalkələk və Axalsıx əhalisinin əksəriyyətini ermənilər təşkil edirdi. Bununla yanaşı, Samtsxe-Cavaxetiya bölgəsi digər ərazilərə nisbətən sürətlə erməniləşdirilməkdə idi. Hökumət zorakı üsullardan istifadə etməklə Gürcüstana 1897-1902-ci illərdə təxminən 55 min ermənini köçürməyə müvəffəq oldu. Bununla Tiflisdə ermənilərin sayı 47,6 mindən 124,9 minə qədər yüksəldi ki, bunun da təqribən 68 mini yeni gələnlər idi.

Birinci Dünya müharibəsi və sonrakı dövrdə Qafqaza ermənilərin köçü daha da sürətləndi. Artıq onlar bölgənin yerli əhalisi üçün ciddi problemlərə səbəb olmaqda idi. Köçürülmə prosesi Qafqaza İ. Vorontsov-Daşkovun yeni canişin təyin olunmasından sonra dayandırıldı və ermənilərlə bağlı planlar tədricən dəyişməyə başladı. Tarixçi V.L.Veliçko bu barədə yazırdı: "erməni sənaye firmaları və bankları Potidə və Batumda hakim mövqe tutmuşdular. Beləliklə, Qara dənizin sonuncu məntəqələri də tamamilə onların əlinə keçmişdi. Xüsusilə, Bakını və Tiflisi iqtisadi cəhətdən əllərinə almış ermənilər bu işdən müstəsna dərəcədə qazanmışdılar.

1903-cü ildə Cənubi Qafqazda daşnakların hökumətə və onun yerlərdəki nümayəndəliklərinə qarşı yüzlərlə basqın hadisəsi və terror aktları qeydə alınmışdı. Qatarların qəzaya uğradılması, partlayışlar, qəsdlər, nümayişlər, ayrı-ayrı yaşayış məntəqələrində hakimiyyətin zorla qəsb edilməsi adi hala çevrilmişdi: bu haqda məlumatlar o zaman nəşr olunan qəzetlərin səhifələrini başdan-başa doldurmuşdu. Erməni azğınlığı soyğunçuluqla, cinayətkarlıqla, ən başlıcası isə azərbaycanlı və gürcü əhalisindən zorla torpaq sahələrinin qopardılması ilə həyata keçirilirdi.

7 dekabr 1918-ci ildə Türkiyənin Ərzurum şəhərindən Axalkələkə yeni erməni axınları başlandı və Gürcüstanın bu tarixi bölgəsi bütövlükdə erməniləşdirilməkdə idi. Axalkələk və Ninotsminda bölgələri ermənilərin Gürcüstanda yığcam yaşadıqları yerlərdir və ermənilər burada əhalinin 96 faizini, etnik gürcülər isə cəmi 4 faizini təşkil edirdilər. 1926-cı ildə əhalinin siyahıyaalınmasına görə, Axalkələk əhalisinin 73%-ni, Axalsıx bölgəsinin isə 16%-ni etnik ermənilər təşkil edirdi. Həmçinin Borçalı qəzasının 88000 nəfərlik əhalisinin 58,9 %-ni "türk"lər, 17,3%-ni ermənilər, 9,2 %-ni gürcülər, Tiflis qəzasının 34%-ni gürcülər, 28,4 %-ni ermənilər, Tiflis əhalisinin 34%-ni (100148 nəfər) etnik ermənilər təşkil edirdi. Həmçinin ermənilər Gürcüstanın Saatabaqo vilayətini, yəni atabəy Cakelinin torpaqlarını (indiki Axaltski qəzasını) özlərinin adına çıxmağa cəhd edirdilər. Tanınmış gürcü alimi İ.Çavçavadze bu barədə yazır: "...qəzanın müsəlman əhalisi gürcü dilində danışan türkləşmiş gürcülərdən ibarətdir və ermənilər ora XIX yüzilliyin birinci yarısında gəlməyə başlamışlar. Həm də onlar Türkiyədən qaçan ermənilərdir, yerli sakinlər deyildir".

1960-cı illərdən etibarən erməni diaspor nümayəndələri Gürcüstanın Cavaxetiya və Axalkələk bölgələrinə qarşı ərazi iddiaları ilə çıxış etməyə başladı. Ermənilərin ardı-arası kəsilməyən və əsassız iddiaları öz nəticələrini, gec də olsa, verməyə başladı. SSRİ-nin süqutundan sonra siyasi, sosial və mədəni müstəqilliyə nail olan Axalkələkə 1995-ci ildə Rusiya Federasiyasının təzyiqləri nəticəsində 4 rus korpusundan biri yeridildi. Hərbi eşalonun şəxsi heyətinin 70-90%-ni Rusiya Federasiyasının vətəndaşı olan ermənilər təşkil edirdi. Bununla Rusiya ermənilərin regionda mövqeyini gücləndirməklə bölgə iqtisadiyyatına nəzarət etmək və yerli əhali ilə hökumət arasında yaranmış uçurumu daha da dərinləşdirmək niyyətində idi. Rus strateqləri bununla Rusiyanın bölgəyə hərbi müdaxiləsi üçün zəmin hazırlayırdılar.

Ermənilərin Gürcüstanda daha sıx məskunlaşdıqları bölgələrdən biri də Abxaziya və Qara dənizin şərq sahilboyu əraziləridir. XIX əsrin II yarısından etibarən Abxaziyanın dağlıq və dağ-

ətəyi ərazilərində məskunlaşan ermənilərin sosial tərkibi tacir, sənətkar, pinəçi və zərgərlərdən ibarət idi.

I Dünya müharibəsindən sonra Türkiyənin bir sıra şəhərlərindən buraya ermənilərin yeni miqrasiyası başladı. Bundan sonra Qara dənizin sahilboyu zolağında məskunlaşan ermənilərin sayı yerli əhalini xeyli üstələdi. 1944-cü ildə ermənilər Sovet hökümətinə xarici ölkələrdə yaşayan soydaşlarının repatriasiyasına icazə verilməsi haqqında müraciət etdilər. Sovet höküməti onların bu xahişini təmin etdi. Ermənilər bu fürsətdən istifadə edib Abxaziya və Acarıstanda məskunlaşdılar. Qeyd edək ki, 1989-cu ildə Abxaziyada aparılan əhali siyahıyaalmasına görə, bölgə əhalisinin 45,7%-i gürcülərdən, 17,8%-i (70 min nəfər) yerli abxazlardan ibarət idi. Əhalinin qalan hissəsini isə ermənilər (14,6%) və ruslar (14,3%) təşkil edirdi. 1992-1993-cü illərdə gürcü-abxaz müharibəsi nəticəsində gürcü əhalisinin əksər hissəsi Abxaziyanı tərk etmək məcburiyyətində qaldı. Hal-hazırda Abxaziyada təxminən 70 min nəfərə yaxın erməni yaşamaqdadır.

Ermənilərin daha sıx və kompakt şəkildə məskunlaşdığı bölgələrdən biri də ölkənin cənub-qərb hissəsində yerləşən Samtsxe-Cavaxetiya (Axalkələk) bölgəsidir. Samtsxe-Cavaxetiya bölgəsi Türkiyənin Ərdahan əyaləti ilə həmsərhəddir. Ermənilərin bu ərazilərə miqrasiyası XIX əsrin əvvəllərindən başlayaraq XX əsrin əvvəllərinə qədər davam etdi. Gürcüstanda yerli gürcülərdən sonra ən böyük etnik qrupu təşkil edən ermənilər, əsasən, ölkənin cənub-qərbində, daha dəqiq desək, Samtsxe-Cavaxetiya bölgəsində və Tiflis şəhərində məskunlaşmaqda idilər. 1989-cu il əhalinin siyahıyalınmasına görə, ermənilər Gürcüstan əhalisinin 8,1%-ni təşkil etmişdir. Gürcüstan erməniləri kompakt şəkildə, əsasən, Cavaxetiya və Mesxetiya bölgələrində yaşayırlar. İki vilayətin erməni əhalisi ümumi əhalinin 40%-ni təşkil etməkdədir. Bu gün Gürcüstanda erməni əhalisi müxtəlif mənbələrə görə, Cavaxetiya vilayətinin 91%-ni, Məshəti vilayətinin isə 30%-i təşkil etməkdədir. Hal-hazırda Gürcüstandakı erməni icmasının ümumi sayı 400 000-600 000 arasında dəyişməkdədir. Bunun əsas səbəbi hər iki vilayətdə bütövlükdə 220 kənddə yaşayan 115 000 ahıska türkünün 14-17 oktyabr 1944-cü il tarixində SSRİ rəhbərliyi tərəfindən Mərkəzi Asiyaya sürgün etdirilməsidir.





1944-cü ildə Samtsxe ərazisi Cavaxetiyaya birləşdirildi. Buna səbəb Cavaxetiyadakı erməni əhalisinin sıxlığını bu yolla azaltmaq idi. Ancaq birləşmə Cavaxetiya ilə sərhəddə yaşayan ermənilərin muxtariyyət istəklərini daha da gücləndirdi. Nəticədə Samtsxe-Cavaxetiya bölgəsi mədəni muxtariyyət əldə etmiş oldu. Burada gürcülər erməni dilində rahat danışa bildiyi halda, ermənilər gürcü dilini demək olar ki, bilmirlər. Cavaxetiya əyaləti Gürcüstan əyalətləri arasında iqtisadiyyatı ən zəif, quru yolları bərbad, yaşayış səviyyəsi aşağı, işsizliyin ən yüksək olduğu əyalətdir və hələ də burada özəlləşdirmə aparılmamışdır. Əhali, əsasən, əkinçilik və kənd təsərrüfatının digər sahələri ilə məşğul olur.

SSRİ-nin süqutundan sonra Gürcüstanda erməni diasporunun fəaliyyətində mühüm dəyişikliklər baş verdi. Bu illər ərzində ölkə ərazisində çoxsaylı siyasi və separatçı təşkilatlar yarandı. Yeni yaranmış təşkilatların fəaliyyətinin stimullaşdırılması məqsədilə dünyadakı digər erməni diaspor qurumlarının açıq və gizli formada yardımları yerli ermənilərdə gürcü hökumətinə qarşı aqressiyanı daha da gücləndirdi. Terrorçu Ermənistan iqtidarı Gürcüstandakı ermənilərin sosial-iqtisadi, mədəni və siyasi təşkilatlanmasını dəstəkləməklə bu ölkədəki diaspor təşkilatlarının fəaliyyətini koordinasiya etməkdədir.

90-cı illərin əvvəllərində Ermənistanda hakimiyyətdə olan Levon Ter-Petrosyan Gürcüstandakı separatçı ermənilərin fəaliyyətini qeyri-leqal adlandırmış və Gürcüstanın ərazi bütövlüyünü tanıdığını qeyd etmişdir. O, öz çıxışlarında yalnız buradakı ermənilərin sosial-iqtisadi problemlərinin olduğunu vurğulayırdı. 1997-ci ildə baş tutmuş Şevardnadze-Petrosyan görüşündə daha çox Gürcüstandakı erməni məktəblərində Ermənistan tarixi

fənninin tədrisi məsələsi barədə fikir mübadiləsi aparıldı. Qarşılığında Ter-Petrosyan Samtsxe-Cavaxetiya ermənilərinin separatçı fəaliyyətini dəstəkləyən və bölgənin Ermənistana birləşdirilməsinin vacibliyini əks etdirən Daşnaksütyun partiyasının mətbuat orqanı "Lragir"in nəşrini dayandırdı.

1988-ci ildən başlayaraq Dağlıq Qarabağ ermənilərinin separatçılıq fəaliyyətinin güclənməsi və Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları Gürcüstan ermənilərində ruh yüksəkliyinə gətirib çıxardı. Məhz bu dövrdə Gürcüstanın müxtəlif şəhərlərində fəaliyyət göstərən erməni diaspor təşkilatlarında təşkilatlanma işində nəzərəçarpacaq dərəcədə aktivlik hiss olunmağa başlandı. Bütövlükdə, Cavaxetiya ermənilərinin təşkilatlanma prosesi 1990-cı illərin əvvəllərinə təsadüf edir. Gürcüstanın Ermənistanla sərhəd bölgəsi hesab olunan Cavaxetiyada yeni erməni təşkilatları meydana gəlməyə başladı. Belə təşkilatlara misal olaraq Ermənistan hökuməti tərəfindən maliyyələşdirilən "Cavax Xalq Hərəkatı"nı və "Virk" təşkilatını qeyd etmək olar. Hərəkatın başlıca məqsədi Cavaxetiyaya muxtariyyət statusunun verilməsi və gələcəkdə bu bölgənin Ermənistana birləşdirilməsidir. Hərəkat Ermənistanla əlaqələrin daha da gücləndirilməsi məqsədilə 8 avqust 1990-cı ildə Ermənistanda şöbəsini açmağa müvəffəq oldu. 1991-ci ildən başlayaraq hərəkat daxilində siyasi aktivlik yüksəlməyə başladı. Bölgədə ilk siyasi gərginlik 1991-ci ildə bir qrup silahlı erməni tərəfindən hökumət nümayəndələrinin əraziyə buraxılmaması oldu. Vəziyyətin getdikcə nəzarətdən çıxdığını görən hökumət 1994-cü ildə Prezidentin 237 saylı əmri ilə ermənilərin kompakt şəkildə məskunlaşdığı Məshəti və Cavaxetiya vilayətlərini birləşdirilərək Samtsxe-Cavaxetiya vilayəti təşkil olundu. Bölgədəki azsaylı gürcü ordusunu çıxmaq şərtilə 1991-ci ildən etibarən buraya Gürcüstan ordusunun daxil olmasına imkan verilmədi. Nəticədə Samtsxe-Cavaxetiya bölgəsi hər iki təşkilatın silahlı dəstəsi hesab olunan Pervantın 10 min silahlı birləşmələri tərəfindən mühafizə edilir. Eyni zamanda Qafqazda Rusiyanın 4 hərbi birləşməsindən biri, 62-ci rus hərbi





birləşməsi Cavaxetiya vilayətinə yeridildi. Bölgənin erməni əhalisi rus ordusunun gəlişini sevinclə qarşıladı, Cavaxetiyanın müstəqil quruma çevrilməsinə qədər ordunun burada qalmasını məqsədəuygun hesab etdi.

"Cavax Xalq Hərəkatı"nın nəzdində yaradılan "MİTK-Cavax Araşdırma Mərkəzi" Gürcüstan ermənilərinin separatçılıq fəaliyyətini daha da gücləndirməkdədir. Bu gün "MİTK-Cavax Araşdırma Mərkəzi"nin dəstəyi ilə Gürcüstanda erməni diasporuna məxsus 28 ictimai təşkilat fəaliyyət göstərməkdədir. Bu təşkilatlardan bəzilərini qeyd etmək lazımdır: 1. Gürcüstan Erməniləri Birliyi; 2. Gürcüstan Erməniləri Kilsələr Şurası; 3. Gürcüstan Erməni Ziyalıları Birliyi; 4. Gürcüstan Erməni İşadamları Birliyi; 5. Gürcüstan Erməni Məktəbləri Şurası; 6. Gürcüstan Erməni Gəncləri İttifaqı; 7. Gürcüstan Erməni Qadınları Birliyi; 8. Gürcüstan Erməni Yazıçıları Birliyi; 9. Gürcüstan Erməni Tarixi Abidələrinin Qorunması Federasiyası; 10. Gürcüstan Erməni Dini Məktəbləri Birliyi; 11. Gürcüstan Erməni Cavax İctimai Hərəkatı; 12. Şarl Aznavur adına Erməni Gənclər Birliyi; 13. Nor Eçmiədzin Kilsələr Şurası; 14. Gürcüstan Erməniləri Cəmiyyəti; 15. Gürcüstan Erməniləri Birliyi Təşkilatı; 16. Tbilisi Erməni İcması; 17. "Poros" Erməni Qadınlar Təşkilatı; 18. Gürcüstan Erməniləri Xristian Demokrat Hərəkatı; 19. "Pryuktun" Təşkilatı; 20. "Sayat Nova" Erməni Mədəniyyət Mərkəzi; 21. "Cavax" Erməni Milli Sosial-Siyasi Hərəkatı; 22. "Virk" Erməni Milli Partiyası; 23. "Vurnatun" Gürcüstan Erməni Gənclər Təşkilatı; 24. Ovanes Tumanyan Fondu; 25. Gürcüstan Erməniləri Rəssamlar Birliyi; 26. Gürcüstan Erməni Apostol Kilsəsi; 27. Erməni Dövlət Dram Teatrı və s. Bundan əlavə, bu gün Gürcüstanda 100-dən çox məktəb, 189 erməni dilində kitabxana, 5 erməni dilində qəzet, 15 kilsə fəaliyyət göstərməkdədir. Həmçinin bölgənin mühafizəsi üçün gizli "Erməni Cavax Ordusu" da yaradılmışdır. Ordunun şəxsi heyətinin əksəriyyəti yerli ermənilərdən təşkil olunmuşdur. "Birləşmiş Cavax" təşkilatında bir araya gələn erməni palitoloqların əksəriyyətinin fikrincə, Gür-

cüstanda erməni dili rəsmi dövlət dilləri statusuna malik olmalıdır. Eyni zamanda Cavaxetiya vilayətinə milli muxtariyyət statusunun verilməsilə yanaşı, bütün orta məktəblərdə, vilayət televiziyasında, regional mətbuatda, Axalkələk rayonundakı Universitetdə, dövlət idarələrində yazışmalar erməni dilində aparılmalı, vilayətin parlamenti yaradılmalıdır. Cavaxetiya ermənilərinin fikrincə:

–Gürcüstan bu bölgədə yaşayan etnik qruplara qarşı ayrı-seçkilik siyasəti aparmaqdadır;

–bölgədəki iqtisadi, sosial və mədəni mühit digər bölgələrdən daha çox geridə qalır;

–bölgəyə mədəni və siyasi müstəqillik statusu qazandırmaq üçün mövcud vəziyyət müzakirəyə çıxarılmalıdır.

Ermənistan Konstitusiya Məhkəməsi Aparatının keçmiş rəhbəri Anuşavan Akopyan problemin həllinin yalnız qanunvericilik əsasında mümkün olduğunu, sadəcə, bütün mexanizmlərdən istifadə etmək lazım gəldiyini qeyd edir. Həmçinin Akopyan regionun statusu, tarixi, siyasi quruluşu ilə bağlı məsələləri Gürcüstan parlamentinin erməni deputatlarının köməyilə həll etməyin mümkünlüyünü də qeyd edir.

Son illər Gürcüstan hökuməti Cavaxetiyadakı siyasi vəziyyətə tamamilə nəzarət etmək məqsədilə bir sıra sosial-iqtisadi layihələr həyata keçirməkdədir. Eyni zamanda Azərbaycandan Türkiyəyə çəkilən dəmir yolu xəttinin (Bakı-Tbilisi-Qars-Axalkələk), eləcə də Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin Axalkələkdən keçməsi də Gürcüstan dövlətinin bölgəyə nəzarətinin daha da gücləndirilməsinə gətirib çıxaracaqdır. Bundan əlavə, hökumət bölgənin yerli əhalisi olan axıska türklərini yenidən bu torpaqlarda məskunlaşdırmaqla bölgənin etnik müxtəlifliyini öz xeyrinə dəyişə bilər. Ermənistanın Cavaxetiya vasitəsilə Qara dənizə çıxış imkanlarının qarşısının alınmasında Azərbaycan və Türkiyə dövlətləri Gürcüstan respublikasına hər cürə dəstək verməkdədir. Son illər rus hərbi birləşmələrinin Gürcüstan əraziləri-ni tərk etməsi də Cavaxetiya ermənilərində ruh düşkünlüyünə





səbəb olmuşdur. Rusiyanın bölgəyə birbaşa təsir imkanları aradan qalxmış olsa da, bu ölkənin Gürcüstan-Ermənistan sərhədində bufer zona yaratmaq istəyi hələ də qalmaqdadır. Əgər Rusiya Ermənistan vasitəsilə Cavaxetiyanı zəbt edərsə, ölkənin birbaşa Qara dənizə çıxış imkanları yaranır və buradan keçən regional iqtisadi layihələrin gələcək taleyi tamamilə təhlükə altına düşmüş olur. Bununla da Ermənistan düşdüyü ağır iqtisadi böhran və blokadadan çıxmış olur. Bu kimi halların baş verməməsi üçün, ilk növbədə, Türkiyə-Gürcüstan-Azərbaycan dövlətləri öz güclərini səfərbər etməli və regionda yeni bir təhlükə ocağının yaranmasının qarşısını birlikdə almalıdırlar.

## *2.2. Yaxın Şərq ölkələrində erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyətinin səciyyəvi xüsusiyyətləri*

Münbit və məhsuldar torpaqlara malik Yaxın Şərq tarixin müxtəlif dönəmlərində bir çox etnosların, xalqların ən çox miqrasiya etdiyi, zəngin etnik tərkibə malik regionlardan biridir. Ən qədim dövrdən başlayaraq müxtəlif dillərdə danışan tayfaların sığınacaq yerinə çevrilmiş Yaxın Şərqdə bu proses uzun müddət davam etmiş, davamlı xarakter almışdır.

Yaxın Şərq ərazilərinə miqrasiya etmiş etnoslardan biri də ermənilərdir. Ermənilərin bu ərazilərə nə vaxt gəldikləri barədə mənbələrdə müfəssəl məlumat yoxdur. Lakin bir çox erməni müəlliflərinin iddialarına görə, ermənilərin Yaxın Şərqə ilk axınları XI əsrdən başlamışdır. 1061-ci ildə Ani qalası uzun sürən mühasirədən sonra səlcuq qoşunları tərəfindən təslim edilmiş və burada sığınacaq tapmış ermənilərin bir qismi Yaxın Şərqə köç etmək məcburiyyətində qalmışdır.

XIII-XIV əsrlərdə monqol yürüşləri nəticəsində ermənilərin Kiçik Asiyanın bir sıra vilayətlərindən Suriya, Livan, Misir, İran, İraq və digər ərazilərə köçü başlandı. Düzdür, bəhs olunan dövrdə monqol yürüşləri nəticəsində bu yerlərin əksəriyyəti xa-

rabalığa çevrilmiş, təsərrüfat sahələrinin çoxu məhv edilmişdir. Lakin bu ölkələrin əksəriyyəti ipək yolları üzərində yerləşdiyindən ermənilər daha çox beynəlxalq ticarət yollarına yığışırdılar.

Monqol yürüşləri zamanı yaşadıqları əraziləri tərk etmək məcburiyyətində qalmış ermənilərin böyük əksəriyyəti İrana köç etdi. Buraya ilk gələn ermənilərin sosial tərkibi, əsasən, tacir və sənətkarlardan ibarət idi. Həmçinin boyaqçılıq və zərgərliklə məşğul olan ermənilərin də köçdüyünü qeyd etmək lazımdır. Artıq XVII əsrdə Səfəvi hökmdarı I Şah Abbas Culfadan köçürdüyü erməniləri yerləşdirmək məqsədilə İsfahan şəhərinin şərq hissəsində böyük bir ərazi ayırdı. Bu barədə erməni tarixçisi E.Melkonyan yazır: "1604-1605-ci illərdə I Şah Abbas tərəfindən 300 minə yaxın ermənının zorla köçürülməsi öz miqyasına görə daha əhəmiyyətli hadisə idi. Bu köçürülmə hərbi-siyasi məqsədlərdən savayı sənətkarlığın inkişafına, ən başlıcası isə öz əlaqələri ilə məşhur olan Culfa tacirlərinin vasitəçiliyi ilə beynəlxalq ticarətin inkişafına şərait yaratmalı idi". Burada əhalisi tacirlərdən ibarət yeni bir şəhər salındı ki, bu yerə də Yeni Culfa (Nor Cuqi) adı verildi. I Şah Abbasın əmri ilə şəhərdə çoxsaylı erməni ailəsi məskunlaşdırıldı. Burada müəllifin 300 min ermənının zorla köçürülməsi haqqındakı fikirləri həqiqəti əks etdirmir. O zaman İranda bu qədər ermənının yaşaması inandırıcı görünmür.

XIX əsrin sonlarında İranda yaşayan ermənilərin ümumi sayı 100 min nəfər olduğu halda, 1993-cu ildə əhalinin siyahıyaalınmasına görə, İrandakı erməni icmasının sayı 170 min nəfəri ötdü. Türk Tarix Qurumunun apardığı araşdırmalara görə XX əsrin əvvəllərində İranda yaşayan ermənilərin sayı 70 min nəfərə yaxın idi. İrandakı ermənilərin 24 min nəfəri müxtəlif şəhərlərdə, 46 mini isə kənd və qəsəbələrdə məskunlaşmışdı. Müasir dövrdə İranda bütün dünya ermənilərinin 0,4%-i, təxminən 200 min nəfərə yaxın etnik ermənının (bəzi mənbələrə görə, 70 və ya 100 min) yaşadığı ehtimal olunur. Ümumilikdə, bu ölkədəki erməni icması 70 milyonluq İran əhalisinin 1%-i təşkil etməkdədir. İrandakı erməni icmasının təxminən 60-70%-i paytaxt Tehran şəhərinin payına düşür.





1922-ci ilin noyabrında İsveçrənin Lozanna şəhərində təşkil edilmiş sülh konfransından sonra daşnakların ABŞ və Avropa dövlətlərinə bağladıqları ümidlər tamamilə puça çıxdıqdan sonra, İran erməni millətçilərinin əsas fəaliyyət meydanına çevrildi. Ararat-Erməni hökumətinin süqutundan sonra isə erməni millətçiləri Təbrizə üz tutaraq bu şəhəri daşnak partiyasının Yaxın Şərqdəki ən mühüm mərkəzinə çevirdilər. Onlar İran daxilində bir çox mühüm vəzifələrdə, xüsusən də parlament və orduda yüksək mövqelərə yiyələnə bildilər. Məhz bu dövrdən başlayaraq İranda erməni icmasına məxsus mühüm təşkilatlar, milli-mədəni müəssisələr, iqtisadi və ictimai təşkilatlar, ermənidilli məktəblər, teatr və qəzetlər fəaliyyətə başladı. Onlar İranın bir çox mülki və hərbi idarələrinə soxulur, Rza şah Pəhləvinin hakimiyyətə gəlməsindən istifadə edərək Cənubi Azərbaycanda iqtisadi və ticarət imtiyazları, həmçinin bu sahədə mövcud hegemonluğu öz əllərinə keçirməyə çalışırdılar. Bir sözlə, ermənilər İranda xüsusi iqtisadi, ticarət və mədəni imtiyazlar əldə edirdilər. Hər yerdə olduğu kimi, burada da ermənilərin terrorçuluq fəaliyyəti ön plana çəkilir, ermənilərə xas təcavüzkarlıq siyasəti daha da şişirdilirdi.

1925-ci ildə İranda Qacarlar sülaləsinin devrilməsi bu ölkədəki erməni diaspor təşkilatlarının fəaliyyətində müəyyən canlanmaya səbəb oldu. Milliyətcə erməni olan Davudyanın SSRİ-nin Tehrandakı səfiri təyin olunmasından sonra erməni millətçiləri Cənubi Azərbaycanda iqtisadiyyat və ticarət sahəsində hegemonluğu ələ keçirməyə cəhd göstərdilər. Qısa zaman içərisində iqtisadiyyat, ticarət sahələri erməni millətçilərinin əlində cəmləşməyə başladı. Bu haqda tarixçi S.Onullahi yazır: "Təbrizdə fəaliyyət göstərən daşnakların bir hissəsi Avropada olduğu kimi, daşnak partiyasından ayrılaraq erməni "Arur" təşkilatını yaratdılar. Mühacir ermənilərdən təşkil edilmiş "Arur" təşkilatı Cənubi Azərbaycanda bütün sovet idarələrini ələ almış, Təbriz, Urmiya,

Marağa, Xoy və digər şəhərlərdə müxtəlif ticarət, nəqliyyat və iqtisadi müəssisələr təşkil etmişlər. Bütövlükdə, ermənilərin fəaliyyəti İranda getdikcə siyasi mahiyyət alır, ona yeni rəng və boyalar verilirdi. Müəllif həmçinin ötən əsrin 20-30-cu illərində hökumətin İranda nəşr olunan qəzet və digər dərgilərdə erməni millətçilərinə istənilən formada dəstək verildiyini təəssüf hissi ilə qeyd edərək yazır: "Onlar qədim ifratçı, şovinist millətçi, təcavüzkar əməllərini İran şəraitində qüvvətləndirirlər. Belə ki, Rza şah hakimiyyətə keçdikdən sonra İran mətbuatından bəzisi, o cümlədən "Təbriz", "Pərvəreş" və s. mətbuat ermənilərin millətçilik fəaliyyətlərini müdafiə edir və onların məqalələrini fars dilində nəşr edib yayırlar. O dövrün tanınmış tədqiqatçısı M.B.Məmmədzadə hökumətin erməni daşnaklara olan isti münasibətinə toxunaraq qeyd edir ki, təəssüflər olsun ki, İranın "Təbriz", "Pərvəriş" kimi qəzetləri də erməni daşnaklarının dəyirmanına su tökür, türklərə, o cümlədən azəri türklərinə qarşı təbliğatda onların əlində vasitəyə çevrilirlər. Bəhs olunan dövrdə hətta Rəşt şəhərində "Alik" adlı erməni qəzetinin nəşrinə icazə verildi. Bu da erməni millətçilərinin İran mətbuatına getdikcə daha çox nüfuz etməyə başladıqlarını sübut edir.

1931-ci ildə Rza şah gözlənilmədən İrandakı erməni məktəblərini bağladı və ermənilərə aid imtiyazları aradan qaldırdı. Lakin bütün bunlara rəğmən İran erməniləri istənilən fürsət düşən kimi bu ölkəni özlərinə vətən seçməyi bacarmışlar. Bununla əlaqədər olaraq Parisdə yayımlanan "Droşak" ("Bayraq") adlı erməni qəzeti İranı ermənilərin ikinci vətəni olaraq tanıtmaqdadır.

İranda ermənilərin kompakt şəkildə məskunlaşdığı iri şəhərlər içərisində Tehran, İsfahan və Yeni Culfa xüsusilə fərqlənir. Hələ orta əsrlər dövründə bu şəhərlərin mərkəzi yerlərində ermənilərə məxsus kilsələr inşa olunmuşdur. Hal-hazırda İranda 12-si Yeni Culfada olmaqla ümumilikdə 120-dən artıq erməni kilsəsi mövcuddur. İrandakı erməni diasporuna məxsus erməni Apostol (qriqoriyan) kilsəsi Tehran şəhərində yerləşir və rəhbəri arxiyepiskop Artak Manukyandır. Digər bir erməni kilsəsi Cənubi İranda–İsfahan şəhərində yerləşir və kilsəyə arxiyepiskop Kornand Papayan rəhbərlik edir. Kilsə ilə yanaşı, 29-a yaxın erməni orta məktəblərində həftədə bir dəfə şagirdlərə erməni dili və tarixi dərsləri tədris olunur. Tehran və İsfahan Universitetlərində isə erməni dili və ədəbiyyatı fakültələri mövcuddur. Bundan başqa, Tehranda ermənilərə məxsus klublar, ictimai qurumlar və təşkilatlar fəaliyyət göstərməkdədir. Bu gün İranda ən böyük xtistian azlıq olan ermənilər digər azsaylı xalqlarla müqayisədə ən yaxşı durumdadırlar. Avropada, xüsusən də Amerikadakı erməni diaspor təşkilatları ilə İran erməniləri arasında sıx əlaqələr mövcuddur. Bundan başqa, İrandakı erməni icmasına məxsus "Alik" ("Dalğa"), "Araks" ("Bayraq") adlı qəzetlər və "Louys" ("İşıq") adlı jurnal nəşr olunmaqdadır. Eyni zamanda İranda yerli erməniləri özündə birləşdirən "Ararat İdman və Mədəniyyət Mərkəzi", "Daşnak Təşkilatı", "Kilsə Gənclik Təşkilatı", "Erməni Tələbə və Gənclər Birliyi", "Erməni Vəqfləri", "Erməni Mədəniyyəti Dərnəyi" və s. kimi humanitar təşkilatlar mövcuddur.





İranda daşnakların siyasi fəaliyyəti başlıca olaraq türk dünyasına, ilk növbədə, Türkiyə və Azərbaycana qarşı yönəlmişdir. Daşnaklar və mühacir ermənilər burada hakimiyyətə gəlmiş Pəhləvi xanədanının şovinist, paniranizm və ya panariyanizm əhvali-ruhiyyəsindən məharətlə istifadə etməyə çalışır, onu daha da qızışdırırdılar.

İranla yanaşı, ermənilərin daha çox miqrasiya etdiyi Yaxın Şərq ölkələri arasında Suriya mühüm əhəmiyyətə malikdir. Orta əsrlər dövründən başlayaraq Suriya ərazilərinə qonşu ölkələrdən çoxsaylı erməni miqrant axınları baş verdi. 1375-ci ildə Kilikiyanın Məmlüklər dövləti tərəfindən ilhaqı nəticəsində buradakı 40 min erməni Sisdən Hələbə köçürüldü. Onlar Suriya və Fələstində yaşayan müasir erməni əhalisinin əcdadlarıdırlar.

I Dünya müharibəsinin ən şiddətli vaxtlarında Osmanlı hökuməti imperiyanın şərq ərazilərində yaşayan və terrorçuluq fəaliyyəti ilə məşğul olan silahlı erməni dəstələrini Suriya, İorda-

niya, İraq və digər qonşu ərazilərə köçürdü. Digər tərəfdən, ermənilərin könüllü surətdə ən çox üz tutduğu ölkələr arasında öncül yerləri Livan, Kipr, Suriya təşkil edirdi. Nəticədə Suriyadakı ermənilərin sayında kəskin artım baş verdi. Əksəriyyəti Hələb, Dəməşq və Kasab şəhərlərində məskunlaşan mühacir ermənilər burada iri ticarət və sənaye məntəqələri yaratmağa müvəfəq oldular.

1915-ci il 27 may köçü zamanı Adana, Hələb, Maraşda yaşayan ermənilərin Suriyanın şərq ərazilərinə köçürülməsi nəticəsində bu ölkədə erməni diasporu formalaşmağa başladı. Ermənistanın keçmiş Xarici İşlər naziri Vardan Oskanyan Suriyanı tarixən diasporun mədəni mərkəzlərindən biri olduğunu, xüsusilə Hələb ermənilərinin diaspor daxilində mühüm rola malik olduğunu qeyd etmişdir. Oskanyanın fikrincə, suriyalı ermənilər Hələbin mədəniyyət, dini, təhsil və digər sahələrində çalışmaqdadırlar. Ermənilərə görə, Suriya erməni diasporu üçün əlverişli ölkələrdən biridir. Suriyadakı erməni diasporunun fəal üzvləri hökumətin yüksək vəzifələrində təmsil olunurlar. Bunlara misal olaraq Mihran Puzantiyan, Fathalla Asioun, Nikolas Djanjigiyan, Movses Der Kalousdiyan, Louis Hendieh, Krikor Eblighatiyan, Levon Ghazal, Simon Libardiyan və Sünbül Sünbülyanı qeyd etmək olar. Bütün bunlar Suriya parlamentində təmsil olunan deputatların bir qismidir. Parlamentdə təmsil olunan erməni deputatlar mütəmadi olaraq Türkiyə və Azərbaycana qarşı təxribatçı əməllərə əl atmaqdadırlar.

1990-ci illərdə Suriyadakı erməni icmasının ümumi sayı 150 min nəfərə yaxın idi. İcma üzvlərinin 75%-i Hələb şəhərində, 20%-i isə Hayy Əl Amanda (Şamda) və digər şəhərlərdə yaşayırdılar. "Ağos" qəzetinin keçmiş baş redaktoru Hrant Dinkin araşdırmalarına görə, bu gün Suriyanın Şam şəhərində 6 min, Hələbdə 60 min, bütün Suriyada isə 100 min nəfərə yaxın erməni yaşayır. Qeyd edək ki, Hələbdə erməni diasporunun dayaqları hələ ötən əsrin birinci yarısında formalaşmağa başladı. Şəhərdə özlərinə məxsus dərnəkləri, ibadətxanaları, məktəbləri olan er-





mənilər assimilyasiyaya məruz qalmadılar. İctimai fəallıqları ilə seçilən diaspor erməniləri xırda ticarət, tibb, vəkillik və memarlıq kimi müxtəlif sahələrdə çalışmaqdadırlar. Mərkəzi və Şərqi Anadoludan Hələbə köçən ermənilərin əksəriyyəti kənd təsərrüfatı və ticarətlə məşğul olmaqdadırlar. Hələbdə ən böyük kilsə Karasun Mamuq kilsəsidir.

XX əsrin 90-ci illərində Suriyadakı erməni təşkilatları aktiv fəaliyyətə başladı. Bu dövrdə Suriyada onlarla iqtisadi, siyasi və mədəni təşkilatlar yaranmağa başladı. Onların içərisində geniş şəbəkəyə və sosial dayağa malik olanı "Suriya Erməniləri İttifaqı"dır. İttifaqa çoxlu sayda müxtəlif səpkili təşkilatlar, cəmiyyətlər və ictimai birliklər cəlb olunmuşdur. "Suriya Erməniləri İttifaqı"nın əsas məqsədi buradakı ermənilərin sosial-iqtisadi və mədəni həyatlarındakı mövcud problemlərin aradan qaldırılması və onların cəmiyyətə sürətlə inteqrasiya olunmasına dəstək olmaqdır.

Livan Yaxın Şərq ölkələri içərisində erməni diasporunun ən güclü olduğu ölkələrdən biridir. Ölkənin qərb ərazilərinin dənizlə əhatə olunması, isti iqlimi və mühüm ticarət yolları üzərində yerləşməsi tarixin müxtəlif dövrlərində bir sıra xalqların buraya miqrasiyasına səbəb olmuşdur. Müxtəlif yerlərdən köçüb gələn və buranı özlərinə daimi məskən seçən xalqlardan biri də ermənilər idi. Məlumat üçün qeyd edək ki, XIX əsrin I yarısına qədər Livanda çox cüzi sayda erməninin yaşadığı haqqında məlumatlara rast gəlinir. Ermənilərin Livana kütləvi şəkildə miqrasiyası bir neçə əsr ərzində davam etmişdir. Müəyyən fasilələrlə həyata keçirilən miqrasiya prosesi davamlı xarakter almış və ölkənin bütün ərazilərini əhatə etmiş, ümumilikdə ölkənin demoqrafiq durumuna mühüm təsir göstərmişdir. Ermənilərin Livana miqrasiyası IV mərhələdə həyata keçirilmişdir.

XIX əsrin əvvəllərində ermənilərin Livana miqrasiyasının I mərhələsi başlandı. Digər Yaxın Şərq ölkələrində olduğu kimi, buraya köçüb gələn ermənilərin əksər hissəsi katoliklərdən ibarət idi. Katolik ermənilərin kütləvi köçünün əsas səbəbi bəhs

olunan dövrdə onların apostol ermənilәri tərəfindən sıxışdırılması idi. Daha çox şəhər və qəsəbələrdə məskunlaşan ermənilərin sosial tərkibi, əsasən, tacir və sənətkarlardan ibarət idi. Köç prosesinin I mərhələsi başa çatdıqdan sonra miqrant ermənilərin əksəriyyəti erməni dilini unudaraq daha çox ərəb və fransız dillərində ünsiyyətə üstünlük verirdilər. Miqrant ermənilər, həmçinin digər etnik qruplarla, xüsusilə də xristian maronitlərlə nigaha üstünlük verirdilər. Suriyadan qaçaraq Livanın dağlıq ərazilərində məskunlaşan maronitlərin ermənilər üzərində təpkisi bu dövrdən etibarən daha da gücləndi.

XIX əsrin sonlarından etibarən ermənilərin köç prosesinin II mərhələsi başlandı. Bu mərhələdə köç edən ermənilərin əksəriyyəti apostol ermənilərindən ibarət idi. Yeni gələn apostol erməniləri katolik ermənilərlə bir yerdə yaşamağın mümkünsüzlüyünü nəzərə alaraq digər ərazilərdə məskunlaşdılar. Eyni zamanda bu mərhələdə ermənilərdə milliyətçilik duyğuları daha güclü olduğundan onlar 1904-cü ildə Beyrutda ilk siyasi təşkilat yaratmağa müvəffəq oldular.

1915-ci ildə Şərqi Anadolu ərazilərindən 100 minlərlə erməni Livan, Suriya və İordaniya ərazilərinə köçürüldü. Bu, ermənilərin Livan ərazilərinə miqrasiyasının III mərhələsini əhatə edirdi. Bu dəfəki köç prosesi birbaşa Osmanlı dövlətinin nəzarəti altında aparıldığından daha çox məcburi məskunlaşdırma metodlarından istifadə olunurdu. Həmçinin bu mərhələdə miqrantlar hökumət tərəfindən bir sıra sosial güzəştlərlə də təmin edilmişdi.

XX əsrin əvvəllərində Livana üz tutan miqrant ermənilərlə yerli ərəblər arasındakı münasibətlər olduqca gərgin idi. Təkcə onu qeyd etmək kifayətdir ki, yolxucu xəstəliklərin ermənilər tərəfindən ölkə ərazisinə yayılmasından narahat olan ərəblər ölkəni idarə edən fransızlara qarşı mübarizəni daha da gücləndirdilər. Tibbi ləvazimatları vaxtında catdıra bilməyən fransızlar problemin aradan qaldırılmasında acizlik nümayiş etdirirdilər. Nəticədə Hələb və Mosulda 1916-cı ilin avqustundan 1917-ci





ilin avqust ayınadək 35 mindən çox erməni yolxucu xəstəliklərdən tələf olmuşdu. Bu, ümumilikdə, Hələb və Mosul kəndlərinin əhalisinin 50%-indən çoxu demək idi. Daha cox tələfat Suriyanın Rasul-Eyn adlanan ərazisində qeydə alınmışdı. Burada əhalinin 88%-i yolxucu xəstəliklərdən məhv olmuşdu.

Erməniləri özlərinə daha yaxın hesab edən fransızlar burada hakimiyyətlərini möhkəmləndirmək üçün onlardan bir alət kimi istifadə edirdilər. Beləliklə, rəhbər vəzifələrdə ermənilərin mövqeyi getdikcə daha da möhkəmlənməyə başladı. Ərəblər isə öz ölkələrində ikinci və yaxud da ən yaxşı halda üçüncü dərəcəli zümrə hesab olunurdu. Ermənilərə hər sahədə imkanlar yaradan fransızlar əlverişli, məhsuldar torpaq sahələrini də onlara həvalə edirdilər. Kənd təsərrüfatının müxtəlif sahələri ilə məşğul olan ermənilərə burada hər cür imkanlar yaradılmışdı. İlk illərdə iqtisadi durumu o qədər də yaxşı olmayan ermənilər qısa müddət ərzində ölkədə sosial vəziyyəti daha yaxşı olan zümrələrdən birinə çevrildilər. Siyasət meydanında olduqca zəif təsir bağışlayan ermənilərə 1915-ci ildən sonra seçkilərdə iştirak etmək hüququ verildi. Ermənilərlə yanaşı, kürdlər və çərkəzlər də bu imtiyazlardan yararlandılar.

Livanı xristianlaşdırmağa çalışan fransızların erməniləri ölkənin müxtəlif kənd və qəsəbələrində yerləşdirməsi nəticəsində ölkədəki xristian əhali müsəlman əhalisini üstələmiş, nəticədə xristianlar ümumölkə əhalisinin 55%-ni təşkil etmişdir. Bəzi bölgələrdə isə bu rəqəm 30%-dən 63%-ə qədər yüksəlmişdi. Bəhs olunan dövrdə Livanda məskunlaşan ermənilərdə Türkiyəyə və türk millətinə qarşı kin, nifrət hissləri yerli ermənilər tərəfindən coşqu ilə qarşılanmış və bütövlükdə erməni milliyyətçiliyi yeni bir mərhələyə qədəm qoymuşdur.

1926-cı ildə Suriyada Dürzi hadisələrinin alovlandığı bir zamanda erməni məhəllələrində də qarşıdurmalar baş verdiyi üçün yerli ermənilər qonşu Livan ərazilərinə miqrasiya etdilər. Bu, Livan ərazilərinə ermənilərin IV miqrasiya mərhələsini təşkil edir. Bu mərhələdə gələn ermənilər sosial, dini və linqvistik

baxımdan daha öncə gələn ermənilərdən tamamilə fərqlənirdilər. Yeni gələn ermənilərin əksəriyyəti katoliklərdən ibarət olsa da, burada az sayda protestant ermənilər də məskunlaşmışdı. Erməni miqrantların əksəriyyəti Şərqi Anadolu ərazilərindən gəldikləri üçün onlar türk, ərəb, fransız, erməni və kürd dillərində danışan müxtəlif qruplara ayrılmışdılar. Sosial baxımdan daha çox aşağı və orta təbəqədən olan ermənilərin ticarət və sənətkarlıq sahələri ilə məşğul olmaları dəniz sahili şəhərlərə yaxın ərazilərdə iri erməni məhəllələrinin yaranması ilə nəticələndi. Erməni icmaları arasında qurulan sıx əməkdaşlıq əlaqələri burada antitürk əhvali-ruhiyəsinin daha da alovlanmasına səbəb oldu. Daha çox daşnaklar tərəfindən sadə ermənilərə aşılanan antitürk, anti-Azərbaycan təbliğatı ermənilərin diaspor şəklində formalaşmasına güclü təkan verdi.

1924-cü ilin 31 avqustunda fransızlar tərəfindən erməni din xadimlərinə geniş səlahiyyət imkanları verilməklə yanaşı, bütün ermənilərə Livan vətəndaşlığı statusu verildi. 1928-ci ildə isə fransızlar erməniləri ölkənin əsas etnik ünsürlərindən biri olaraq qəbul etdilər. Etnik mənzərəsi rəngarəng olan Livanda erməni dini mərkəzləri formalaşdıqca yerli müsəlmanlarla ermənilər arasındakı münasibətlər daha da gərginləşməyə başladı. 1920-ci ildə Ermənistan XI Qırmızı Ordu birləşmələri tərəfindən işğal edildikdən sonra ölkəni idarə edən daşnakların bir qismi Livan və Suriyaya köç etdilər. Kommunist ermənilərin sərt qanunlarla ölkəni idarə etməsi sadə ermənilərdə dərin nifrət hisslərini alovlandırdı. Əhali ölkəni tərk edərək Yaxın Şərq ölkələrinə köç etdilər. Tarixçi A.Məmmədlinin qeyd etdiyi kimi, Sovet Ermənistanından qaçmış daşnaklar xarici ölkələrdə (Suriya, Livan, Misir) müxtəlif təşkilatların bayraqları altında birləşmişdilər. Müəllif erməni tarixçisi Ağayana istinad edərək yazır ki, XX əsrin 20-ci illərində irticaçı daşnak qüvvələrinin mərkəzlərindən biri olan "Milli Ocaq" Suriyada yerləşirdi.

XX əsrdə Livan daşnakları burada Mərkəzi Komitə yaradaraq, bütün erməniləri vahid mərkəzdə birləşdirməyə çalışırdılar. Hətta daşnaklar burada qurumun qəzetini də təsis etdilər. "Yeni Pünik" adlanan qəzetin müxtəlif nömrələrində mütəmadi olaraq daşnakların ümumtürk düşmənçiliyi ilə bağlı yazıları dərc olunurdu. Bəhs olunan dövrdə daşnaklar Livan ermənilərini müəyyən istiqamətlərdə təşkilatlandırmağa çalışırdılar. Daşnaklar elə başa düşürdülər ki, SSRİ qısa müddətdə dağılacaq və onlar yenidən Ermənistanda hakimiyyətə yiyələnəcəklər. Lakin bu baş vermədikdə daşnaklar taktikanı dəyişməyi qərara aldılar. Əsas məqsəd Livanda güclü struktura malik erməni disporunun yaradılmasına nail olmaq idi. İlk olaraq, ermənidilli məktəblərin açılması, daha sonra uzun müddət türk və ərəb mədəniyyətlərinin təsiri altında olan ermənilərdə əsl erməni milli keyfiyyətlərinin aşılanması prosesi aparılmalı idi. Bu işin ağırlığını hiss edən daşnaklar bütün mümkün vasitələrdən istifadə edərək sadə erməniləri öz keçmişlərinə bağlı olmağa çağırırdılar. Bu istiqamətdə sürətli iş aparan daşnakların əlində geniş mətbəə sistemi, qəzet və jurnallar var idi. Maliyyə qurumlarının bu işə dəstək olması da biləvasitə daşnaqların erməni icmaları daxilindəki mövqelərini daha da gücləndirmişdi. Bu yolla mövqelərini gücləndirən daşnaklar ölkənin siyasi həyatında daha aktiv rol oynamaqda idilər. 1926-cı ildən başlayaraq ermənilərin kompakt şəkildə yaşadığı bölgələrdə keçirilmiş seçkilərdə daşnakların dəstəklədiyi namizədlər qələbə qazandılar. 1954-cü ildə Daşnaksütyun partiyası Antilyasdakı Kilikiya Katalikosluğu üzərində hakimiyyətini bərqərar etmiş və beləliklə, ölkə daxilində siyasətlə din arasında müəyyən bağlılıq yaradılmışdır. Əslində, o vaxta qədər də kilsənin erməni milli kimliyinin qorunması istiqamətində daşnaklarla birgə fəaliyyəti sıx surətdə bağlı olmuşdur. Bu bağlılığı yaradan əsas amil türk düşmənçiliyi idi və erməniləri vahid mərkəzdə birləşməyə sövq edirdi.

Ötən əsrin əvvəllərindən başlayaraq daşnaklar idarəetmə sistemində də bir sıra üstünlüklərə nail oldular. Türk tarixçisi Sedat Laçıner bu barədə yazır: "...erməni məhəllələri və onları idarə edən yerli özünüidarəetmə orqanlarına seçkilərdə erməni-

lər qələbə qazanmış, qanunverici orqana öz təmsilçilərini göndərə bilmişdilər. Erməni gəncləri lap körpə yaşlarından etibarən əsassız iddialarla yetişdirilmiş və onlarda daha çox ümumtürk düşmənçilik duyğuları alovlandırılmışdır. Nəticədə burada yetişən erməni gəncliyi dünyanın müxtəlif yerlərinə səpələnmiş erməni gəncliyindən daha radikal və daha sərt olmuşdur. Ən radikal ermənilərin və erməni terror dəstələrinin çıxdığı yerlərdən biri də Livan olmuşdur.

XX əsrin başlanğıcından etibarən Livandakı siyasi proseslərdə erməni diasporuna məxsus siyasi partiyalar da yaxından iştirak etməyə başladılar. Burada erməni icmasının siyasi və mədəni inkişafına xidmət etmək məqsədilə üç siyasi partiyanın-Daşnaksütyun, Hnçaq və Ramqavar partiyalarının regional şöbələri yaradıldı. Qeyd edək ki, Livanda ilk erməni siyasi partiyası olan Daşnaksütyun 1901-ci ildə Beyrut Amerikan Universiteti tələbələri tərəfindən fəaliyyətə başladı. Qısa zaman müddətində Daşnaksütyun Livan parlamentində təmsil olunan ən mütəşəkkil erməni partiyasına çevrildi. Daşnaksütyun partiyası ilə yanaşı, Hnçaq partiyasının da fəaliyyətini qeyd etmək lazımdır. Bu partiya funksionerlərinin fikrincə, əsas məqsəd Türkiyəyə və Azərbaycana qarşı təzyiqləri daha da gücləndirmək və hər iki türk dövlətindən torpaq əldə edərək Ermənistana birləşdirməkdir. Digər bir siyasi partiya olan Ramqavar isə daha çox "liberallığını" qoruyub saxlamağa çalışmış, sosial və mədəni sahələrin inkişaf etdirilməsi ideyasını dəstəkləmişdir.

1934-cü ildə Livan parlamentinə keçirilmiş seçkidə Ramqavar partiyasından 1, 1937-ci ildəki seçkidə isə Daşnaksütyun partiyasından 1 nəfər millət vəkili seçilmişdir. 1943-cu ildə keçirilmiş seçkidə isə 1 nəfər Ramqavar, 1 nəfər Daşnaksütyun partiyasından olmaqla cəmi 2 millət vəkili parlamentdə mandat qazanmışdır. Son zamanlar Livan parlamentində təmsil olunan erməni deputatların sayı 6-ya yüksəlmiş və onların əksəriyyəti qriqoriyan məzhəbinə mənsubdurlar. Qeyd etmək lazımdır ki, Ermənistan parlamentinin keçmiş sədri Babken Araksyan erməni





diasporunun "Ermənistan-Yaxın Şərq diasporu" üzrə əlaqələndiricisi seçildi. Bundan sonra məhz onun topladığı və Livan parlamentinə təqdim etdiyi sənədlər əsasında spiker Nabih Berrinin səyi nəticəsində "erməni soyqırımı" adlandırılan bədnam qətnamə qəbul olundu. 2001-ci il dekabrın 28-də Beyrutda Ermənistan-Livan-Suriya diasporlarının "Müdafiə birliyi" adlı təşkilatı təsis olundu. 2002-ci il yanvarın 16-da bu birliyin "Apostol" adlı hərbi qanadı quruldu.

XX əsrin 70-ci illərində Livanda davam edən daxili-siyasi qeyri-sabitlik, ABŞ-ın İran və Suriyaya qarşı yeni, daha sərt sanksiyaların tətbiq etməsi və hadisələrin 1975-1977-ci illərdə vətəndaş müharibəsi səviyyəsinə yüksəlməsi digər etnik qruplar kimi erməniləri də narahat etməyə başladı. Livan tarixinə "fəlakətli illər" kimi daxil olan bu dövrdə on minlərlə erməni Livanı tərk etmək məcburiyyətində qaldı. Maraqlıdır ki, Livanda vətəndaş müharibəsi başlamamışdan öncə buradakı erməni icmasının sayı 170 min nəfər idisə, müharibədən sonra bu rəqəm 100 min nəfərə qədər azalmışdı. Belə demək mümkündürsə, 2 il ərzində ölkəni 70 min nəfərə yaxın erməni tərk etmişdir. Hal-hazırda Livanda erməni icmasının ümumi sayı 116 min 214 nəfərdən ibarətdir. Bunun 88 min 601 nəfəri qriqoriyan, 20 min 259 nəfəri katolik və 7 min 354 nəfəri protestan ermənidir. Bəzi mənbələrə görə, Livanda 200 minə yaxın erməni yaşamaqdadır. Livanda ermənilərin daha sıx məskunlaşdıqları yer Bourj Hammound ərazisidir. Müasir dövrdə Livanda daşnaklara məxsus çoxsaylı mədəniyyət mərkəzləri, idman klubları, dərnəklər mövcuddur. Bunlara misal olaraq Homenetmen İdman Klubunu, Hamazkaine Mədəniyyət Mərkəzini, Livan Ermənilərinə Yardım Dərnəyini qeyd etmək olar. Burada sadə və imkansız erməni ailələrinə müxtəlif səpkidə yardımlar edilir, onların asudə vaxtlarının səmərəli təşkili üçün hər cürə imkanlar yaradılır. Daşnaklarla yanaşı, burada Hnçaq partiyasına məxsus çoxlu sayda mərkəzlər də fəaliyyət göstərməkdədir.

1920-1943-cü illər ərzində Fransanın mandatı altında olan Livandakı bütün erməni siyasi təşkilatları, partiyaları, dərnəkləri və onların əsas fəalları kilsə məclislərində yaxından iştirak edirdilər. 1948-ci ildə Livandakı erməni siyasi birlikləri iki bir-birinə zidd, əks qütblərdə qərarlaşmağa başladılar. Bu isə ölkədəki erməni güclərinin daha da zəifləməsinə gətirib çıxardı. Kilsə daxilindəki qütbləşmə digər təşkilatlara nisbətən daha da dərinləşmişdi. İki il davam edən gərgin mübarizədən sonra, nəhayət, 1958-ci ildə Kilsə Camaat Məclisində təmsil olunan 19 üzvdən 11-i baş verən qarşıdurmaların qarşısının alınmasında acizlik göstərməsini bəhanə edərək Kilikiya Katalikosu I Zarehə (1956-1958) müxalif mövqedə dayanaraq onu vəzifəsindən uzaqlaşdırdılar. Nəticədə Livandakı Qriqoriyan kilsəsi daşnakların nəzarəti altına keçmiş oldu. Bundan sonra daşnakların Beyrutdakı mövqeləri getdikcə güclənməyə başladı və kilsə ilə olan munasibətlər tədricən nizama salındı. Qriqoriyan kilsəsinin ermənilər arasındakı artan nüfuzundan təşvişə düşən Antilyas Katalikosluğu Avropa və ABŞ-dan sosial, iqtisadi və maliyyə yardımları almağa başladı. Beləcə, Kilikiya Erməni Kilsəsi Daşnaksütyunla əməkdaşlıq edərək həm Eçmiədzin Katalikosluğunun hakimiyyətindən kənarda qalmış erməni kilsələrinin mərkəzi rolunu oynamağa çalışmış, həm də digər erməni partiyalarının ikinci plana düşməsinə səbəb olmuşdur.

Livandakı diaspor təşkilatlarının təhsil sahəsinə yönəltdikləri maliyyə yardımları nəticəsində burada müxtəlif profilli 28 erməni məktəbi fəaliyyətə başladı. Onlardan ən böyükləri "Malenkton və Ayk Arslanyan", "Yeqişe Manukyan", "Müqəddəs Ripsime", "Darui-Ovakimyan" məktəbləri idi. Orta məktəblərlə yanaşı, Livanda fəaliyyət göstərən Beyrut Amerikan Universiteti diaspor fəaliyyətinin mühüm mərkəzlərindən birinə çevrilmişdir.

Afrikanın şimal-şərbində yerləşən və qədim dövlətçilik mərkəzlərindən biri olan Misirə müxtəlif vaxtlarda dünyanın bir çox ölkələrindən davamlı şəkildə əhali axınları baş vermişdir.





Misiri özlərinə vətən seçən xalqlardan biri də ermənilər olmuşdur. Ermənilər buraya orta əsrlər dövründən başlayaraq köç etmiş etnoslardan biridir.

XVI əsrin əvvəllərində Misir (1518-ci ildə) Osmanlı imperatorluğunun təsiri altına düşdükdən sonra bir neçə min erməni Anadoludan Misirə köç etdi, bəziləri də dinlərini dəyişdirərək müsəlman oldu. Tarixçi Simion Lexatsiyə (Polşalı Simion) görə, 1615-ci ildə Qahirədə 200 erməni ailəsi yaşayırdı. Erməni məhəlləsində (Bab əl Armani) Müqəddəs Sarkis və Müqəddəs Minas Şapeli kilsələri ilə yanaşı, erməni qəbristanlığı da yerləşirdi.

XVIII əsrin ortalarında Misirin bir çox şəhərləri mühüm ticarət mərkəzlərinə çevrildi. Bu məqsədlə Avropalı tacirlər Misirdə yaşayan erməni, yunan və suriyalı tacirlərin xidmətindən faydalanmağa çalışırdılar. Bu dövrdə Misirin İskəndəriyyə şəhəri mühüm ticarət mərkəzinə çevrildi və erməni maqnatlar 1792-ci ildə burada kilsə və məktəb inşa etdilər.

Fransa Burjua İnqilabından sonra (1789-1794) Misir fransız və ingilis müstəmləkəçilərinin rəqabət meydanına çevrildi. Misir ermənilərinin sosial inkişafında ölkə başçısı Məhəmməd Əlinin (1769-1849) mühüm xidmətləri olmuşdur. Erməni tarixçisi E. Melkonyan yazır ki, bəhs olunan dövrdə sürətlə varlanmaqda olan erməni sərraflar sayəsində Qahirə və İskəndəriyyədə erməni icmalarının formalaşması, mədəni-maarif və digər cəmiyyətlərin tam şəbəkəsinin yaradılması prosesinə başlandı.

XIX əsrin I yarısında Misirdə sənətkarlıq sürətlə inkişaf etməkdə idi. Yerli ermənilər zərgərlik, dərzilik, silah alveri və digər sənət sahələrində öncül yerləri tutmaqda idilər. Qahirədə Xan əl Xəlili bazarında çalışan zərgərlərin böyük bir qismi ermənilərdən ibarət idi. Maraqlıdır ki, Məhəmməd Əli Paşanın baş sərraflığına Yegizar Bedrosyan, 1818-1847-ci ildə isə Aleksandr Minasyan rəhbərlik edirdi. Erməni sərraflar, eyni zamanda 1837-ci ildə Qahirədə Misirin ilk bankını da açdılar.

Göründüyü kimi, ermənilər bəhs olunan dövrdə Misirdə istənilən sahədə aparıcı yerlərdə təmsil olunurdular və ölkənin

əsas gəlir mənbələrini nəzarətə götürmüşdülər. Artıq XIX əsrin II yarısında Misirdə erməni mülkədar-zadəgan aristokratiyası formalaşmaqda idi.

XIX əsrin II yarısında ermənilər Misirin müxtəlif şəhər və kəndlərinə sürətlə yayılmağa başladı. Tacir və sənətkar qruplarından ibarət dəstələr burada müxtəlif sənət sahələri ilə (pinəçi, dülgər, zərgər, bənna) məşğul olurdular. Qısa zaman müddətində burada xırda erməni icmaları formalaşmağa başladı. İlk illərdə ermənilər burada ticarət evləri və karvansaralar tikməyə başladılar. Ticarət evlərinə yaxın yerlərdə isə kilsələr inşa olunmaqda idi. Məhəmməd Əli Paşa dövründə Misirin müxtəlif bölgələrində qriqoriyan və katolik erməni kilsələri inşa olunmaqda idi.

I Dünya müharibəsi illərində Misirdəki erməni əhalisinin ümumi sayı 13 000 nəfərdən ibarət idi. 1927-ci ildə əhalinin siyahıyaalınması zamanı erməni əhalisinin sayı 4 000 nəfər artaraq 17 000-ə yüksəlmişdi. Əhalinin əksəriyyəti Qahirə, İskəndəriyyə, Zaqoziq, Asyut, Giza, Port Səid və Asvan şəhərlərində yaşayırdı. XX əsrin 30-40-cı illərində ərəb ölkələrində yeni erməni diaspor təşkilatları yaranmaqda idi. Soyuq müharibə illərində Yaxın Şərqdə ərəb millətçiliyinin alovlanması və Əbdül Nasir hökumətinin milliləşdirmə siyasətindən təlaşa düşən, həmçinin 1947-1948-ci illərdə Sovet Ermənistanının "Ana Vətənə dönüş" çağırışlarına aldanan 4000 erməni Misiri tərk etdi. Nəticədə 1950-ci illərin əvvəllərində Misirdəki ermənilərin sayı təxminən 40 nəfərə qəzər azaldı. 1952-ci ildə Kral Faruka qarşı üsyandan ehtiyat edən ermənilər Misiri tərk etməyə başladılar. 1956-cı il Misir-İsrail müharibəsi, Əbdülnasirin sosializmin tərənnümü, azlıqların hüquqlarının məhdudlaşdırılması ilə bağlı siyasəti geniş vüsət aldı. Xüsusi mülkiyyətin dövlətin nəzarətinə keçməsi nəticəsində ermənilər ölkəni kütləvi surətdə tərk edərək ABŞ, Kanada, Avstraliya, Braziliyaya köç etdilər. Nəticədə Misirdəki erməni əhalisinin sayında kəskin azalma baş verdi və 12 min nəfərə qədər azaldı. Görkəmli türk tarixçisi Esat Urasın qeyd etdiyi kimi, bəhs olunan dövrdə 36 min nəfərlə ermənilər Misir əhalisi





arasında yunanlardan sonra ikinci sırada yer almışdır. Erməni kilsələrinə məxsus torpaqlar da milliləşdirmə təhlükəsi ilə üzləşdi.

XX əsrin 90-cı illərində Misir ermənilərinin əksəriyyəti Avropa ölkələrinə, Şimali Amerikaya, Avstraliyaya, az da olsa, Ermənistana köç etdi. 2008-ci ildəki siyahıyaalmaya görə ölkə, ərazisindəki erməni əhalisinin sayı 15000-17000 nəfər arasında müəyyən edilmişdi. Müasir dövrdə Misir erməniləri daha çox Qahirə və İskəndəriyyə şəhərlərində yaşayır.

Son illər Misirdə erməni iddialarını təbliğ edən bir neçə abidə (məsələn, İskəndəriyyə abidəsi) ucaldıldı. Müasir dövrdə Qahirədə Müqəddəs Qriqor Lusavoriç və Müqəddəs Minas kilsələri erməni iddialarını daha aktiv şəkildə müdafiə etməkdədir. Qahirədə Avediemn Müqəddəs Asdvadzadzin və Müqəddəs Tereza, İskəndəriyyədə isə Ararat Hiğutyun erməni katolik kilsələri fəaliyyət göstərməkdədir. Qahirədə və İskəndəriyyədə protestant erməni kilsələri və camaatı da, az da, olsa mövcuddur.

Ermənilər qəzetçilik işində xeyli irəli getməyə nail oldular. Erməni dilində qəzetlər nəşr olunmağa başlandı. Bu qəzetlərdən "Houssaper" daşnakların qəzetidir və 1913-cü ildə nəşrə başlamışdır. Ramqavarın "Aver" qəzeti isə 1915-ci ildə Qahirədə nəşrə başladı. Hnçaqlara aid "Tchahagir" qəzeti ən son çıxan qəzetdir və 1948-ci il-dən çap edilməkdədir. Bu qəzetlər bu gündə erməni dilində yayınlanmaqdadır. İlk iki qəzet gündəlik, digər ikisi isə həftəlik qəzetlərdir. Erməni qəzetləri Misirdə 1860-cı ildən nəşr olunmaqdadır və bir sıra ərəb qəzetlərində erməni jurnalistlərinin imzalarına rast gəlmək mümkündür.

XX əsrdə Misirdə erməni diasporuna məxsus bir çox xeyriyyə cəmiyyətləri və fondları yaranmağa başlandı. Xeyriyyə məqsədi ilə 15 aprel 1906-cı ildə "Yardımsevər", Boqos Nubar Paşanın vasitəçiliyi ilə "Haynakan", "Parekordzakan İuthanur Mintyun" ("Erməni Yardımsevərlər Birliyi"), 1915-ci ildə İskəndəriyyədə "Erməni Qızıl Xaçı", "Erməni Yardım Quruluşları Fondu" yaradıldı. 1920-ci ilə qədər fəallığı ilə seçilən bu təşki-

latlar 5 milyon Misir quruşu məbləğində yardım toplamağa müvəffəq oldular.

Müasir dövrdə Misirdə məktəblərlə yanaşı, bir çox dərnək və cəmiyyətlər də fəaliyyət göstərməkdədir. Oxusevərlər dərnəyi, Diqran Yergat Mədəniyyət Dərnəyi, Erməni Yardımsevər Birliyi, Misir Ermənilərı Mətbuat Dərnəyi, Erməni Sənətsevərlər Dərnəyi, Beynəlxalq Erməni Təhsil və Mədəniyyəti Dərnəyi, Erməni Mədəniyyəti Dostları Dərnəyi, Erməni Milli Fondu, Sevan Mədəniyyət Dərnəyi, Husaper Mədəniyyət Dərnəyi və digər dərnəkləri qeyd etmək olar. Bunlardan Misir Erməniləri Mətbuat Dərnəyi Misirdə ilk erməni mətbuat orqanıdır. Dərnək 1908-ci ildə Yervant Odyan tərəfindən fəaliyyətə başladı. Erməni Sənətsevərlər Dərnəyi isə 1920-ci ildə Qahirədə yaradıldı. Dərnəyin fəaliyyətində bir çox sənətkarları, yazarları-Vahan Tekeyan, rəssam O.Avedisyan, karikaturaçı A.Saruqxan, musiqiçi K.Aləmşah, A.Badmakıryan kimi irqçi, millətçi erməniləri görmək mümkündür.

Erməni Milli Fondu 1942-ci ildə Qahirədə V.Tekeyan, E.Papazyan və L.Gonanyan tərəfindən təsis edildi. Əsas məqsəd gündəlik və həftəlik qəzetlərdə antitürk təbliğatını gücləndirmək, həmçinin beyinləri irqçi-milliyətçi idealogiya ilə zəhərlənmiş erməni müəllimləri vasitəsilə erməni şagirdlərinin təxəyyülündə "barbar" türk obrazı formalaşdırmaqdır.

Yaxın Şərq ölkəsi olan Türkiyədə də azsaylı erməni icması mövcuddur. Qeyd edək ki, Türkiyə tarixşünaslığında türk-erməni münasibətlərinin yaranması səlcuq sərkərdəsi Çağrı bəyin 1015-1020-ci illərdə Şərqi Anadoluya kəşfiyyat xarakterli yürüşündə qeydə alınmışdır. 1299-cu ildə Osmanlı dövlətinin yaranması ilə ermənilər Sasani, Bizans imperiyası dövründə görmədikləri ədalət, haqq və hürriyyətə qovuşdular.

1326-cı ildə Bursa Osmanlı dövlətinin paytaxtına çevrildikdən sonra müxtəlif ərazilərdə məskunlaşan ermənilərin təşkilatlanması və dini mərkəzlərinin paytaxta köçürülməsinə icazə verildi. İstanbulun fəthindən sonra 1461-ci ildə Fateh Sultan





Mehmet ermənilərin Bursadakı dini mərkəzinin İstanbula köçürülməsinə razılıq verdi. Dini mərkəzin İstanbula köçürülməsi ilə Anadolunun müxtəlif yerlərində, xüsusən də ucqarlarında dağınıq halda yaşayan ermənilərin paytaxta axınını daha da sürətləndirdi. XVI əsrdə sultan II Mahmudun hakimiyyəti dövründə ümumölkə əhalisinin dəqiq sayının müəyyənləşdirilməsinə başlanıldı. Hesablamalara görə, müsəlman türklər əhalinin 80%-dən çoxunu, xristianlar 12,45%, ermənilər isə 6,23% təşkil etmişdi.

XVII-XVIII əsrlərdə Anadolunun şərqində və cənub-şərqində yaşayan ermənilər bu ərazilərdə türklərə nisbətən heç bir məntəqədə çoxluq təşkil etmirdilər. Ərzurum, Bitlis, Harput, Diyarbəkir, Ərzincan və Harrandakı şəhərlərdə və ətraf ərazilərdə əhalinin yalnız 39%-i erməni idi. Ermənilər ölkə iqtisadiyyatının, əsasən, ticarət və maliyyə sahələrində çalışdıqları üçün türklərdən daha yüksək rifah içində yaşayırdılar. Ermənilər Osmanlı dövlətində mövcud hüquq bərabərliyindən faydalanaraq hətta heç bir fərq qoymadan məmur vəzifələri, hərəmağası, vali, müfəttiş, səfir və hətta nazir təyin edilmişdilər. Mustafa Rəşid paşa, Əli və Fuad paşalar, hətta Midhət paşa erməni müşavirlərdən istifadə etmişlər. Həmçinin Osmanlı ermənilərindən 29-u paşa, 22-si nazir, 31 millət vəkili, 7-si səfir, 11-i baş konsul və konsul, 11-i universitet müəllimi vəzifələrini tutmuş, 142-si dövlətin digər mühüm orqanlarında yüksək vəzifələrə yüksəlmişdilər.

XIX əsrin əvvəllərindən başlayaraq Osmanlı dövləti daxilində erməni icması təşəkkül tapmağa başladı. Erməni icmaları daxilində bir qrup varlı, zəngin burjua nümayəndələri getdikcə güclənməkdə idi. Məhz bu kapitalistlərin əldə etdikləri külli miqdarda vəsaitləri hesabına diasporun mədəni, iqtisadi və siyasi sahələrdəki fəaliyyətində canlanma müşahidə olunmağa başlandı. Canlanma, xüsusilə, mətbəəçilik sektorunda daha qabarıq şəkildə nəzərə çarpmaqda idi. Qeyd edək ki, ilk türk mətbəəsinin qurulmasından 160 il əvvəl Venesiyada mətbəəçilik təhsili almış Sivaslı Apkar adlı keşişə 1567-ci ildə İstanbulda erməni mətbəəsi açmaq üçün icazə verildi. Maraqlıdır ki, Marseldə fəaliyyət

göstərən erməni mətbəəsinin Fransa kralı XV Luis tərəfindən bağlanmasına baxmayaraq, Osmanlı dövlətində erməni mətbəəsi inkişaf etməkdə idi. İstanbuldan başqa, İzmir (1759), Van (1859), Muş (1869), Sivas (1871) kimi şəhərlərdə də yeni erməni mətbəələri fəaliyyətə başladı. Bütövlükdə, 1908-ci ildə ölkədə erməni mətbəəsinin sayı 38-ə çatdı. 1862-cı ildə qəbul edilən "Erməni Milləti Nizamnaməsi" ilə ermənilər bir sıra imtiyazlar əldə etdilər. Bu geniş imtiyazlardan faydalanan ermənilər daha da təşkilatlanmış, yeni məktəblər açmış, qəzet və dərgilər çıxarmışdılar. İlk qəzetlərini 1839-cu ildə yayınlamağa başlayan Osmanlı erməniləri artıq 1866-cı ildə İstanbulda 16 adda qəzet çıxarırdılar. İstanbulla yanaşı, digər şəhərlərdə də (İzmirdə 3, Vanda 1, İzmitdə 1) müxtəlif səpkili qəzetlər yayınlanmaqda idi. Bu dövrdə İstanbulda müsəlmanların yalnız 8 qəzeti mövcud idi. Artıq 1910-cu ildə İstanbulda erməni dilində 5 qəzet və 7 dərgi nəşr olunurdu. 1923-cü ildə Türkiyə Cümhuriyyəti elan olunandan sonra ölkədəki erməni diasporuna məxsus qəzetlərin fəaliyyətində dinamika hiss olunmağa başlandı. Bu dövrdə 3 qəzetin ("Jamanak", "Mərmərə" və "Agos") fəaliyyəti xüsusilə fərqlənirdi.

Osmanlı dövlətində erməni diasporunun təşkilatlanması və strukturunun möhkəmləndirilməsi məqsədilə görülən tədbirlərdən biri də erməni məktəblərinin açılmasıdır. Ölkə daxilində ilk erməni məktəbi 1790-cı ildə Qumqapıda açıldı. Artıq 1880-ci ildə Türkiyədə 469-u Anadoluda olmaqla 500-dən artıq erməni məktəbi mövcud idi. Erməni tarixçisi Gevork Bağçıyan 1901-1902-ci illərdə İstanbul erməni patriarxlığının statistik məlumatlarına əsaslanaraq Osmanlı dövlətində 59513 oğlanın və 21713 qızın təhsil aldığı 803 erməni məktəbinin olduğunu və burada 2088 müəllimin dərs dediyini qeyd edir. Müəllif 1914-cü ildə Türkiyədəki erməni məktəblərinin sayının 2300-ə çatdığını da vurğulayır. Digər erməni tarixçisi E.Melkonyan isə qeyd edir ki, XX əsrin əvvəllərində Osmanlı dövlətində ən çox sayda məktəb (40-dan çox) İstanbul şəhərində fəaliyyət göstərirdi. I





Dünya müharibəsindən sonra yerli erməni əhalisinin mühacirəti nəticəsində İstanbulda erməni məktəblərinin sayı durmadan azalmış və 2003-cü ildə yalnız 19 məktəb öz fəaliyyətini davam etdirmişdir.

Missioner məktəblərində antitürk və antimüsəlman şüarlarla zəhərlənən erməni gəncliyi XIX əsrin 60-cı illərinin əvvəllərində Londonda hazırlanmış proqram əsasında ölkənin müxtəlif ərazilərində dövlət və hökumət əleyhinə qiyamlar törətməyə başladılar. Sonralar bu çıxışlar yalnız hökumətə qarşı deyil, eyni zamanda dinc əhaliyə qarşı yönəldildi. Qərb dövlətlərinin və erməni diaspor təşkilatlarının maddi və mənəvi dəstəyi sayəsində 1862-ci ildə Vanda, sonra isə Zeytun şəhərində erməni qiyamları təşkil edildi. Nəticədə yüz minlərlə dinc müsəlman əhalisi erməni vəhşiliyinin qurbanına çevrildi.

Osmanlı dövləti Rusiya başda olmaqla Qərb dövlətlərinin sürəkli təzyiqlərindən qurtulmaq və erməni qiyamlarının qarşısını vaxtında almaq məqsədilə 1839-cu ildə tənzimat haqqında fərman verdi. Qeyd etmək lazımdır ki, 1839-cu ilə qədər sultan fərmanları ilə ermənilərə bir çox imtiyaz və haqlar verilmişdir. Lakin 1839-cu il fərmanında erməni diaspor rəhbərlərini sevindirəcək önəmli müddəalar öz əksini tapmışdır. Həmin müddəalardan ən mühümləri aşağıdakılardan ibarətdir: 1. Erməni camaatı dini və dünyəvi işlərini aparmaq üçün bir rəis (patriarx) seçmə haqqına sahibdir; 2. Kilsə, xəstəxana, yetimxana, məzarlıq və buna bənzər dini və digər qurumların inşaası, baxım və idarəsi camaata aiddir; 3. Patriarx, dini və dünyəvi işləri aparmaq üçün məclislər təşkil edə və icra qərarları çıxara bilərdi; 4. Erməni camaatı məktəblər açmaq və ermənicə təlim-tərbiyə vermək haqqına sahibdir və s.

Osmanlı dövlətində erməni diaspor təşkilatlarını birləşdirən ən mühüm ünsürlər milli kilsə, siyasi partiya, mədəni dərnəklər idi.

Osmanlı dövlətində əmin-amanlıq içərisində yaşayan ermənilərin sayı haqqında müxtəlif fikirlər mövcuddur. Erməni

tədqiqatçısı A.Sanciyanın hesablamalarına görə, XIX əsrin başlanğıcında İstanbulda ermənilərin sayı 150 minə çatdı. Bu bəhs olunan dövrdə dünyada ən böyük erməni icması idi. Bir çox erməni və qərb tədqiqatçılarının (Hovanesyan, Pastırmacyan, Marcel Leart, Arnold Toynbi, Ludovic de Constenson, Viconte de Coursons, Clair Price və d.) iddialarına görə, I dünya müharibəsi ərəfəsində Osmanlı dövlətində 1,5 milyon erməni yaşayırdı ki, bunun da 77753 nəfəri İstanbulda məskən salmışdı. Osmanlı qaynaqlarında isə 1896-cı ildə Osmanlı dövlətində erməni əhalisinin ümumi sayının 1300000 nəfər olduğu qeyd olunmuşdur. 1927-ci ildə Osmanlı dövlətində əhalinin siyahıyaalınmasına görə, ümumi əhalisi 13 milyon nəfərdən ibarət olan Türkiyə Cümhuriyyətində 52000-i İstanbulda olmaqla təxminən 70000 erməni yaşayırdı. 1965-ci ildəki siyahıyaalmaya görə, ümumi əhalisi 55 milyon olan Türkiyə Cümhuriyyətində ümumilikdə 55000 erməni yaşayırdı. Müasir dövrdə Türkiyədə təxminən 80000-100000 arasında erməni yaşamaqdadır.

Son illər Türkiyədəki erməni diaspor təşkilatlarının antitürk fəaliyyətində aktivlik nəzərə çarpmaqdadır. Qondarma "erməni soyqırımı"nın dünya dövlətlərinə, beynəlxalq və regional təşkilatlara sırınmasında digər ölkələrdəki diaspor təşkilatları ilə yanaşı, Türkiyədəki erməni diaspor təşkilatlarının da mühüm xidmətləri vardır. Məhz bu çirkin əməllərini gizlətmədiklərinə və açıq-aşkar Türkiyəyə meydan oxuduqlarına görə Ərdoğan hökuməti tərəfindən bir neçə dəfə bu ölkədəki erməni icmasının Ermənistana deportasiya edilmələri ilə bağlı bəyanatlar səsləndirilmişdir. Hətta Ankara ilə İrəvan arasında iki həftədən bir Türk Hava Yollarına məxsus təyyarə reyslərinin də ləğv ediləcəyi ilə bağlı səsləndirilən fikirlər bu ölkədəki azsaylı erməni icmasını bərk narahat etmişdir.

XX əsrin 90-cı illərindən başlayaraq Yaxın Şərqdəki erməni diaspor təşkilatlarının möhkəm struktura malik olduğu ölkələrdə (İran, Suriya. Livan, Misir) antitürk təbliğatı daha geniş vüsət aldı. Bu ölkələrin açıq və yaxud da gizli formada erməni





diaspor təşkilatlarını maliyyələşdirməsi və bu gizli gücün birbaşa türk dünyasına qarşı yönəldilməsi prosesi öz nəticələrini verməyə başladı. Konkret desək, paytaxt və iri şəhərlərdə qondarma "erməni soyqırımı" abidələri ucaldıldı, qanunverici orqanlarda saxta sayqırımı cinayət aktı kimi qiymətləndirildi. Bu gün Yaxın Şərq ölkələrində güclü maddi imkanlara malik, yüksək səviyyədə təşkilatlanmış erməni diaspor təşkilatları mövcuddur ki, bu təşkilatlar da mütəmadi olaraq Azərbaycan əleyhinə aktiv şəkildə iş aparmaqdadırlar. Həmçinin diaspor təşkilatları durmadan Azərbaycan ərazilərini, tarixini, mədəniyyətini özününküləşdirir, Azərbaycan xalqı, dövləti haqqında mənfi imic formalaşdırır, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə təhrif olunmuş, yalan informasiyalar yaymaqla məşğuldurlar. Buna görə də ölkəmiz öz milli maraqlarını müdafiə etməkdə, eyni zamanda erməni təbliğatının qarşısını layiqincə almaqdadır.

### *2.3. Avropa ölkələrində erməni diasporu: təşkilati strukturu və fəaliyyət istiqamətləri*

Dünyadakı erməni diaspor təşkilatlarının güclü struktura və geniş fəaliyyət imkanlarına malik olduğu məkanlardan biri də Avropadır. Ermənilərin Avropaya miqrasiyası haqqında müxtəlif ehtimallar irəli sürülməkdədir. Əksər erməni tədqiqatçıların fikirlərinə görə, ermənilərin bu qitəyə gəlişi VII əsrdən başlamış XI əsrdə Səlib yürüşləri ilə daha geniş vüsət almışdır. Avropanın bir çox ölkələrinə (İngiltərə, Fransa, İtaliya, Yunanıstan, Kipr, Polşa) miqrasiya edən ermənilərin sosial tərkibi tacir və sənətkarlardan ibarət idi. XI-XV əsrlərdə Avropada təşəkkül tapmaqda olan erməni icmaları, əsasən, Osmanlı imperiyasının ayrı-ayrı əyalətlərindən köçüb gələn mühacirlərdən ibarət idi.

Orta əsrlər dövründən başlayaraq tayfalararası və dövlətlərarası münasibətlər, xüsusən də din və ticarət əlaqələri sürətlə inkişaf etməkdə idi. Səlib yürüşləri zamanı müsəlmanlara və islama qarşı nifrətin xüsusilə güclü olduğu bir dövrdə türklər Av-

ropada ən güclü islam döyüşçüsü kimi tanınırdılar. Bununla bağlı olaraq onlar səlib yürüşlərinin yaratdığı dini nifrətin obyektinə çevrildilər. Məhz bu dövrdən başlayaraq kilsələrdə "dəhşətli türk"ün gətirdiyi fəlakətlərdən qurtuluş diləyən dualar ucalırdı".

XVIII əsrdən etibarən Avropanın böyük dövlətləri tərəfindən Osmanlı imperiyasının ayrı-ayrı əyalətlərinə göndərilən missioner təşkilatların qarşısına qoyulmuş əsas vəzifə azsaylı xalqlar arasında şovinist əhvali-ruhiyyəni gücləndirmək, onlar arasında millətçilik toxumları səpməkdən ibarət idi. Ermənilərin belə missioner təşkilatlara meyilli olmaları digər azsaylı xalqlara nisbətən özünü daha qabarıq şəkildə büruzə verirdi. Missionerlər erməni toplumu arasında düşmənçilik toxumları səpən müxtəlif səpkili qəzet və jurnallar, üzərində qondarma erməni dövlətinin xəritəsi əks olunan əyani vəsaitlər yaymaqda idi. Təbii ki, belə dağıdıcı və cinayətkar əməllər Osmanlı hökuməti tərəfindən qəzəblə qarşılanır və onlara qarşı sərt tədbirlər həyata keçirilirdi.

XVIII əsrin sonlarında Avropanın siyasi mərkəzi olan Fransada burjua inqilabının baş verməsi və ictimai şüura inqilabi düşüncənin hakim kəsilməsi azsaylı xalqların buraya köçünü daha da sürətləndirdi. Bəhs olunan dövrdə Fransa ilə yanaşı, İngiltərə də miqrantlar üçün maraq doğuran ölkələrdən birinə çevrildi. Okean suları ilə əhatə olunan, mülayim iqlimi və zəngin təbiətə malik bu ölkəyə bir sıra xalqlar kimi ermənilər də dəfələrlə köç etmişlər. Qeyd edək ki, İngiltərə Yunanıstan, Kipr, Ukrayna, Polşa və Fransa kimi Avropa ölkələrinə nisbətən erməni icmasının sayca azlıq təşkil etdiyi ölkələrdən biridir. Bu gün sorğu və araşdırma mərkəzlərinin apardıqları araşdırmalara görə, İngiltərədəki ermənilərin ümumi sayı 15-20 min arasında müəyyən edilmişdir. İngiltərədəki erməni icmasının fəaliyyətini təhlil etdiyimiz zaman bu ölkənin öz sərhədlərini erməni diaspor təşkilatları üçün açıq elan etdiyini görmək mümkündür. ABŞ-da erməni lobbisinin güclənməsinə qədərki mərhələdə erməni diasporu öz mövqelərini London mərkəz olmaqla bir sıra iri şəhərlərdə möhkəmləndirmişdi. Buna baxmayaraq, bu gün İngiltərə





Avropa və Amerika qitələri arasındakı coğrafi mövqeyini və dünya ictimaiyyətinə təsir gücünü hələ də özündə saxlamaqdadır.

XVI-XVII əsrlərdə İngiltərəyə ermənilərin köçündə artım nəzərə çarpmağa başladı. 1688-ci ildə erməni tacirləri "əvəzsiz" xidmətləri sayəsində Kral fərmanı ilə mükafatlandırılıb "İngiltərənin Azad Vətəndaşları" statusuna malik oldular. İngilislərlə ermənilər arasında Hindistanda baş tutan ilk "uğurlu" əməkdaşlıq İngiltərənin bu ölkəni tərk etdiyi 1947-ci ilədək davam etmişdir.

XIX əsrdə İngiltərənin bir sıra iri şəhərlərində erməni diasporunun strukturu formalaşmaqda idi. Diaspor daxilində etnik və sosial problemlərin həllinə çalışan ermənilər qısa müddət ərzində təşkilatlanma işini daha da sürətləndirməyə başladılar. XIX əsrdə İngiltərəyə köç edən ermənilərin əksəriyyətini İstanbul və imperiyanın digər şəhərlərindən olan tacir və sənətkar qrupları təşkil edirdi. Erməni tacirlər İngiltərənin müxtəlif şəhərlərindən aldıqları malları Osmanlı bazarlarında satmaqla məşğul idilər. İngiltərədən Osmanlı bazarlarına daşınan mallardan ən qiymətliləri ipək, qumaş çeşitləri və müxtəlif metal hissələrdən ibarət idi. Erməni sənətkarlar yerli sənət nümunələrinə də eyni dərəcədə maraq göstərirdilər.

1830-1835-ci illərdə London, Liverpul və Maniçestrdə ümumi sayı 30-35 nəfərdən ibarət olan xırda erməni burjuaziyası meydana gəldi. 1862-ci ildə Maniçestrdəki ermənilərin sayı 30 nəfərdən ibarət idi. Göründüyü kimi, artıq XIX əsrin II yarısında Osmanlı-İngiltərə əlaqələri gücləndikcə erməni diasporunun maliyyə sütunları da formalaşmaqda idi.

XX əsrin 50-60-ci illərində İngiltərədə ermənilərin sayında hiss olunacaq dərəcədə artım qeydə alınmış və erməni icmasının sayı 5000 nəfəri ötmüşdür. Ötən əsrin 70-80-ci illərində ermənilərin sayı 3 dəfə artaraq 10 000 nəfəri ötmüşdür. Bəhs olunan dövrdə Livanda və İranda baş vermiş siyasi proseslər də bu işə az təsir etmədi. XIX-XX əsrlərdə erməni kilsəsinin İngiltərə er-

mənilərinin sosial-iqtisadi və siyası problemlərinin həllinə yönəlmiş fəaliyyəti müsbət nəticələrini verməkdə idi.

Bu gün İngiltərədəki erməni diasporu 15000-20000 nəfərdən ibarətdir və əhalinin əksəriyyəti London şəhərində və ətrafında yaşamaqdadır. Daha sıx məskunlaşma Londonun Ealing, Hounslav, Brent və Haringey bölgələrində qeydə alınmışdır. Londonla yanaşı, Liverpul, Maniçestr kimi iri sənaye şəhərlərində də minlərlə erməni yaşamaqdadır. Rəsmi məlumata görə, İngiltərəyə 1999-2001-ci illər ərzində gələnlərin sayında çox cüzi artım qeydə alınmışdır. Erməni mütəxəssislər isə bu rəqəmin hər il 400 nəfər arasında dəyişdiyini qeyd edirlər. Bu isə o qədər də inandırıcı görünməməkdədir.

I Dünya müharibəsinə qədərki dövrdə İngiltərədə Osmanlı imperiyasına qarşı başlanmış kampaniya iki mərkəzdən–Maniçestr və Londondan idarə olunurdu. Xüsusilə, Maniçestrdə işləyən erməni tacirlərin topladıqları sərvətin böyük bir qismi türk düşmənçiliyinə qarşı kampaniyaya yönəldilirdi. Londondakı Erməni Mərkəzi isə daha çox siyasi partiyalar və məclis ilə mətbuat arasındakı münasibətləri tənzimləməkdə idi.

İngiltərədə erməni icmaları formalaşdığı zamandan etibarən artıq bu ölkənin müxtəlif şəhərlərində bir sıra təşkilatlar, dərnəklər, kilsələr, cəmiyyətlər yaranmağa başladı. Bu dövrdə ingilis-erməni münasibətlərinin möhkəmlənməsində "İngilis-Erməni Asossasiyası"(1893), "Ermənistanın Dostları"(1897), "İnformasiya Bürosu"(erməni dilində), "Burean"(1896), "Londonun Birləşmiş Erməni Asossasiyası"(1898), "Britaniya Erməni Kommersiya Palatası"(1888) və digər təşkilatlar aktiv şəkildə fəaliyyət göstərirdilər. Bir detalı da qeyd edək ki, 1920-ci ildə təsis edilmiş "Britaniya Erməni Kommersiya Palatası" ingilis-erməni əlaqələrinin möhkəmləndirilməsində, ələlxsus da antitürk təbliğatının gücləndirilməsində maraqlı idi.

XX əsrdə İngiltərədə fəaliyyət göstərən diaspor təşkilatlarının əksəriyyəti müxtəlif ölkələrdə təsis edilmiş təşkilatların, siyasi partiyaların regional şöbələri idi. Belə diaspor təşkilatları





arasında 1986-cı ildə təsis edilən Erməni İnformasiya və Tövsiyə Mərkəzi(CAİA)nin fəaliyyəti daha qabarıq şəkildə əks olunmaqdadır. Bir kitabxanası və mədəniyyət mərkəzi olan dərnək fəaliyyətini dövlət və özəl təşkilatların (London Borough Grants Scheme, City Parachial Vakfı, Tudor Trust) maliyyə dəstəyi ilə həyata keçirməkdədir.

Yazılı mətbuatda ən diqqət çəkən mətbuat orqanı CAİA-nın yayınladığı "Armenian Volce"dir. İngiltərə ermənilərinin maraq dairəsində olan bu dərgi ölkənin ermənilər yaşayan bütün yerlərinə göndərilməkdədir. İldə dörd nömrəsi çıxan dərgi ingilis dilində yayınlanmaqdadır. Qəzetin müxtəlif səhifələrində Ermənistanın işğalçılıq siyasəti ört-basdır edilir, Dağlıq Qarabağ ərazisi əzəli erməni yurdu kimi təbliğ edilir, ermənilərin Dağlıq Qarabağda guya soyqırıma məruz qaldığı, tarixi-memarlıq abidələrin azərbaycanlılar tərəfindən məhv edildiyi və s. məsələlər dezinformasiya şəklində Avropa cəmiyyətinə sırınır.

Erməni təşkilatlarından biri də 1886-cı ildə Londonda təsis edilmiş "Erməni Vətənpərvərlər Dərnəyi"dir. "İngilis-Erməni Dərnəyi" və "Erməni Vətənpərvərlər Dərnəyi"nin fəaliyyəti başlıca olaraq türk vəhşilikləri, qırğınları barədə Avropa ictimaiyyətində rəy formalaşdırmağa yönəldilmişdir. Qeyd edək ki, İngilis-Erməni Dərnəyinin üzvlərinin böyük əksəriyyəti ingilislərdən ibarətdir. Dərnəyin qurucusu Minas Teraz qoyulan hədəfə nail olmaq üçün siyasi manevrlərdən istifadə edərək Osmanlı dövləti tərəfindən zülm və işgəncələrə məruz qalmaları barədə avropalıları inandırmağa çalışırdı.

XIX əsrin sonu XX əsrin əvvəllərində mətbuatla yanaşı, diasporun strukturunu təşkil edən siyasi təşkilat və partiyaların fəaliyyətini xüsusi olaraq qeyd etmək lazımdır. Bəhs olunan dövrdə burada bəzi siyasi partiya və təşkilatların–Hnçaq (1887), Daşnaksütyun (1890), Aptak (1894-1897), Mart (1897), Hayastan (1888-1902), Nor Kiank (1898-1902) və Hamainkin (1894) antitürk, anti-Azərbaycan fəaliyyətini xüsusilə qeyd etmək olar.

İngilis cəmiyyətində yalan, əsası olmayan informasiyaların yayılmasında bu siyasi partiyaların mühüm rolu vardır.

İngiltərə Avropa ölkələri arasında ən az terrora məruz qalan ölkə olsa da, burada da türk səfirlərinə qarşı terror aktları həyata keçirilmişdir. 1975-ci ildə bu ölkədəki türk səfirliyi qarşısında bomba partlayışına görə ASALA məsuliyyəti öz üzərinə götürmüşdü. Xoşbəxlikdən heç bir tələfat qeydə alınmamışdır. Digər bir terror aktına cəhd isə 15 sentyabr 1983-cü ildə çanta ilə dolu bombanın partlamadan öncə aşkar edilməsidir. İngiltərə polisi bu dəfə də baş vermiş hadisəyə görə ASALA-nı günahlandırmışdır.

XX əsrin 90-cı illərindən başlayaraq erməni diasporunun antitürk fəaliyyətində aktivlik hiss olunmaqda idi. Dövlət bu işə birbaşa və ya dolayı yolla olsa da, dəstək verməkdədir. 2000-ci ildə parlamentə təqdim olunan sənəddə 1915-ci il hadisələri soyqırımı aktı kimi qiymətləndirilir və faciə nəticəsində 1,5 milyon günahsız ermənının türklər tərəfindən qətlə yetirildiyi qeyd edilirdi. Lakin hökumət sənədin parlament səviyyəsində müzakirəsinə kəskin etirazını bildirmiş, ən sonda sənəd məclisin gündəliyindən çıxarılmışdır.

Avropada erməni diasporunun daha güclü olduğu ölkələrdən biri də Fransadır. Avropanın siyasi mərkəzi sayılan Fransa iqtisadi potensialına görə yalnız Almaniyadan geridə qalır. Qeyd edək ki, fransızlarla ermənilər arasında ilk münasibətlər 1630-cu ildə İstanbuldakı katolik rahiblər tərəfindən qurulmuş və ermənilərə "əgər katolik olarsanızsa, Fransanın hər cür himayəsinə qavuşacaqsınız" kimi vədlər verməklə onları katolikliyə dəvət edirdilər. Hətta katolikliyi qəbul etmiş ermənilərə Fransa vətəndaşlığı da vəd edilmişdir.

Fransada ilk erməni izlərinə XIX əsrin əvvəllərində təsadüf edilir. Bu dövrdən başlayaraq Fransaya meyilli olan ermənilər kiçik qruplar şəklində buraya köç etməyə başladılar. Bu qrupların az bir qismi müharibədən sonra öz torpaqlarına geri dönmüş, yerdə qalanlar isə diasporun sütunlarını formalaşdırmışdır. Qeyd





edək ki, Fransada ermənilərin məskunlaşması 1811-ci ildə bir qrup ermənının katolik məzhəbinə keçməsilə başlamışdır. Bu hadisə qriqoryan ermənilərlə düşmənçiliyə gətirib çıxardığına görə katolik ermənilər vəziyyətdən çıxış yolu kimi Fransanın himayəsinə keçməkdə görmüşdür. Fransaya erməni köçü 1915-ci ildən etibarən daha da sürətlənmiş, xüsusilə Ermənistanın SSRİ-yə birləşdirilməsi və Lozanna konfransına qədər davam etmişdir.

Ölkədə erməni əhalisinin artımı 1921-ci ildə erməni əsilli Osmanlı vətəndaşlarının daha sıx yaşadığı Adana bölgəsini tərk etməklə başlamış, bölgədəki ermənilərin əksəriyyəti fransız gəmiləri ilə Marselə köç etmişdir. Hatayın 1938-ci ildə Türkiyəyə birləşdirilməsi ilə bölgədəki ermənilərin əksəriyyəti Fransaya köç etdi. 1946-cı ildə Fransa müstəmləkəçiliyindən azad olan Suriya və Livan ermənilərinin böyük əksəriyyəti də Fransada məskunlaşdı. Erməni tədqiqatçısı E. Melkonyanın fikrincə, 1920-ci ildə Fransada ermənilərin sayı 60 minə çatmışdı, onlar Marsel-Paris dəmiryolunun hər iki tərəfində, eləcə də müxtəlif şəhərlərdə məskunlaşmışdılar. Sonradan ermənilərin əhəmiyyətli hissəsi Marseldə, Lionda, Parisdə və onların yaxınlığındakı şəhərlərdə cəmlənmişdi. 1925-1938-ci illər ərzində 63 000 erməni Suriyadan, Livandan, Türkiyədən, Yunanıstandan və Sovet Ermənistanından Fransaya köç etmişdir. Beləliklə, 1921-1946-cı illərdə təxminən 100 min erməni Fransaya köç etmiş, mühacir ermənilərin böyük bir qismi Fransanın ən böyük 3 şəhərində və məhəllələrində (Paris, Lion və Marsel, Alfortville, Mousons-Alfort və İssy-es-Monlineaux) məskunlaşmışdır. Fransanı seçən ermənilər XIX əsrdən etibarən bu ölkədə aktiv şəkildə rol oynayan erməni ticarət koloniyasının təşkilində yaxından iştirak etməkdə idi.

1946-cı il hadisəsindən sonra Ermənistan SSR-dən, 1950-ci illərin əvvəllərində Fələstin və Şərqi Avropadan, 1975-ci ildə Livan və İrandan, 1980-ci il hərbi çevrilişindən sonra Türkiyədən, 1988-ci il zəlzələsindən sonra Ermənistandan Fransaya ermənilərin kütləvi köçü başladı. Yeni gələn erməni mühacirlər

nəticəsində bu ölkədəki erməni icmalarının sayında ciddi artım qeydə alınmışdır.

Fransa müasir dövrdə Avropada ən güclü erməni diasporunun mövcud olduğu ölkələrdən biridir. Bir məsələni qeyd etmək lazımdır ki, xaricdəki erməni diasporunun ümumi sayı 5-6 milyon nəfərdir. Hal-hazırda Fransadakı ermənilərin sayı 450-500 min arasında müəyyən edilmişdir. Bu gün Avropaya köç edən ermənilərin böyük əksəriyyəti Fransaya üz tutmaqdadır.

Fransada erməni diasporunun təşəkkülü və formalaşması XIX əsrin əvvəllərinə təsadüf edir. Erməni tədqiqatçısı E. Melkonyanın qeyd etdiyi kimi, Fransa imperatoru I Napoleon 1810-cu ildə Parisin Şərq Dilləri Məktəbində Ermənişünaslıq kafedrası açılmasına nail olmuşdur. 1843-1914-cü illərdə 120-dən çox erməni tələbə şəhərin müxtəlif universitetlərinin diplomlarını almışdılar. Türk tarixçisi Yusuf Halaçoğlu isə Marseldəki erməni mətbəəsinin Fransa kralı XV Luis tərəfindən bağlandığını qeyd edir.

Fransadakı erməni icmasının ilk aktiv fəaliyyəti 1880-ci ildə Marseldə Mıkırtıç Portakalyan tərəfindən başlanmışdır. Portakalyan 1870-ci ildə Vandakı məktəbini inqilab toxumları saçan bir mərkəzə çevirmiş, 1878-ci ildə dini kollec açmış, sonralar siyasi məqsədlərə xidmət etdiyinə görə Fransaya qaçmışdır. Marselə gələn Portakalyan burada mətbəə və "Erməni Birliyi" adlı dərnək, 1885-ci ildə "La Armenia" adında isə qəzet çıxarmağa müvəffəq oldu. Erməni dilində həftədə iki dəfə yayınlanan və Osmanlı dövlətinə girişi qadağan edilən bu qəzet London və gizli yollarla Anadoludakı abunəçilərinə göndərilirdi. Portakalyanın fəaliyyətindən əvvəl Marseldə ermənilərin heç bir dərnəyi yox idi. Erməni cəmiyyətlərinin fransızlar tərəfindən dəstəklənməsini müəllif belə şərh edir: "Bu cür propaqandalardan təsirlənən bəzi dövlət adamları ermənilərin lehinə fəaliyyətini daha da artırdılar. G.Klemanso, A.Frans, J.Jaures kimi nümayəndələr "Fransa Müdafiə Komitəsi"ni quraraq minlərlə erməninin türklər tərəfindən öldürüldüyü iddiasını başda fransızlar olmaqla bütün





Avropa ictimaiyyətinə yaymağa başladılar. Yazıları ilə böyük marağa səbəb olan bu dövlət məmurları "zavallı erməni", "qətliamçı türk" şüarlarının güclənməsində əhəmiyyətli rol oynamışdır. Müəllifin qeydlərindən də göründüyü kimi, erməni cəmiyyətinin dırnaqarası başbilənləri yaxşı anlayırdılar ki, vətən və dövlət axtarışlarında yalnız öz gücləri ilə arzuladıqlarına nail ola bilməyəcəklər.

Fransadakı erməni diasporunun strukturunu diaspor ermənilərinin yaratdıqları çoxsaylı təşkilatlar şəbəkəsi təşkil edir. Bu təşkilatların bəziləri ilə digər qitələrdəki diaspor təşkilatları arasında sıx əlaqələr qurulmuşdur. Bu ölkədəki diaspor təşkilatları elmi institut və araşdırma mərkəzləri, qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etməkdədirlər. Müxtəlif ideologiyalara malik bu təşkilatları bir-birinə bağlayan başlıca amil diaspordakı ermənilərin assimilyasiyasının qarşısını almaq, erməni gənclər arasında Ermənistana sonsuz məhəbbətin aşılanmasını təmin etmək idi. Bu gün Fransada heç bir siyasi partiyaya bağlı olmadan fəaliyyət göstərən 300-dən artıq erməni dərnəyi mövcuddur. Bu dərnəklər arasında Fransız Erməni Gəncliyi Hərəkatı (Mouvement de la Jeunesse Armenienne de France. JAF) fəal şəkildə gənclər arasında türk düşmənçiliyini yaymaqla məşğuldur. Diaspor təşkilatları içərisində xüsusi çəkiyə malik olan Erməni Çalışmaları və Araşdırma Mərkəzləri isə bu ölkədəki nüfuzlu universitetlərin nəzdində fəaliyyət göstərməkdədir.

Fransada erməni diasporunun strukturunda siyasi partiyalar xüsusi əhəmiyyət kəsb edir. Erməni diasporunun təşkilati strukturuna siyasi partiya adı altında fəaliyyət göstərən Erməni İnqilab Federasiyası (Daşnaqsütyun), Sosial Demokrat Hnçaq Partiyası və Erməni Liberal Demokrat Partiyası (Ramqavar) daxildir. 1930-cu illərdən etibarən bu partiyalarla bağlı olaraq, Osmanlıda mövcud olan bütün erməni təşkilatları Fransaya köçürülmüşdür. Qeyd edək ki, Erməni İnqilab Federasiyası (Daşnaksütyun) diaspor ermənilərinin ən böyük, aktiv siyasi partiyasıdır və Antilyas kilsəsinə bağlıdır. Partiyanın Parisdəki mərkəzi ofisi

digər təşkilatların da mərkəzi kimi fəaliyyət göstərir. Partiya "Droşak" adlı qəzet nəşr etdirdiyi üçün Droşak Komitəsi kimi də tanınmaqdadır. Bu gün Daşnaksütyun partiyası qarşısında duran əsas hədəflər aşağıdakılardan ibarətdir:

1. Azad, müstəqil, birləşmiş Ermənistan yaratmaq. Birləşmiş Ermənistana Sevr müqaviləsi ilə müəyyənləşdirilmiş Ermənistanın əraziləri, eləcə də Naxçıvan, Qarabağ və Cavaxetiya daxildir;

2. Türkiyə tərəfindən ermənilərə qarşı törədilmiş "genosid"in beynəlxalq səviyyədə tanınması, işğal olunmuş torpaqların qaytarılması və erməni xalqına təzminat verilməsi;

3. Dünyaya səpələnmiş ermənilərin "Birləşmiş Ermənistan"a qaytarılması;

4. Ermənistan dövlətçiliyini möhkəmləndirmək, demokratiyanı və qanunun aliliyini təmin etmək, insanların iqtisadi vəziyyətini yaxşılaşdırmaq və sosial ədaləti bərpa etmək.

Fransada fəaliyyət göstərən digər erməni siyasi partiyası Sosial Demokrat Hnçaq Partiyasıdır. Dağlıq Qarabağla bağlı məsələdə millətlərin öz müqəddəratını təyin etmək prinsipindən çıxış edən partiya Qarabağın ya müstəqil olmasını və ya Ermənistana birləşdirilməsini münasib həll variantı hesab edir.

Digər bir qurum isə 1921-ci ildə yaradılmış Ramqavar Partiyasıdır. Partiya dini mövqe cəhətdən Eçmiədzin kilsəsinə meyillidir. Ramqavarlar Türkiyədən torpaq almanın imkansızlığını qəbul edir və ermənilərin vətəni olaraq əvvəllər Sovet Ermənistanını, hazırda isə indiki Ermənistanı qəbul edirlər.

Siyasi partiyalarla yanaşı, Xeyriyyə Fondları və KİV diasporun gücünü müəyyən edən əsas faktorlardandır. Belə xeyriyyə cəmiyyətlərdən "Mor Seround", "Fransa Ermənilərinin Mavi Xaçı", "Erməni Milli Xeyriyyə Birliyi"ni və digərlərini qeyd etmək olar. 1906-cı ildə Qahirədə təsis edilən "Erməni Milli Xeyriyyə Birliyi" 1910-cu ildən etibarən Marseldə fəaliyyətini davam etdirməkdədir. Avropada 22 min üzvü olan təşkilat son dərəcədə güclü maliyyə resurslarına malikdir. Qeyd edək ki, 1990-





cı illərdə təşkilatın sərmayəsinin həcmi 700 milyon franka yüksəlmişdi və bu məbləğ bir təşkilat üçün kifayət qədər yüksək bir rəqəmdir.

XX əsrin əvvəllərində Fransada ermənilərin Osmanlı imperatorluğundan köçünü dəstəkləmək məqsədilə Daşnaksütyun partiyasının dəstəyilə 1900-1908-ci illərdə "Pro Armenia" adlı dərgi təsis edildi. Fransanın yüksək vəzifə tutmuş nümayəndələrini də öz ətrafında birləşdirən "Pro Armenia" dərgisi ermənilərin müstəqillik hərəkətlərinə dəstək verilməsində əhəmiyyətli rol oynamışdır. Bu gün Fransada erməni dilində 3 aylıq ("Ermənistandan xəbərlər", "Fransa-Ermənistan", "Azad Jurnal"), iki həftəlik jurnal ("Achkhar", "Leftre de İ UGAB") və iki gündəlik qəzet ("Gamk" və "Haratach") yayınlanmaqdadır. Jurnallar fransız və ya fransız-erməni dillərində, qəzetlər isə yalnız erməni dilində yayınlanmaqdadır. Göründüyü kimi, KİV-ə tam nəzarət etməyə çalışan ermənilər bu yolla Fransada müəyyən mövqelər qazanmağa can atırdılar. Tarixçi B.Nəcəfov bunu ən azı ictimai rəyi "əzabkeş erməni xalqına" tərəf döndərməkdə əhəmiyyətli rol oynamış "Pro Armenia" ("Ermənistan uğrunda") qəzetinin Parisdə nəşr olunmasında görür.

Bu gün Fransadakı erməni diasporu həm siyasi, həm də təşkilati baxımdan digər ölkələrdəki diasporlardan tamamilə fərqlənir. Bunu Fransaya köçüb gəlmiş ermənilərin bu ölkənin həyat tərzinə uyğunlaşmasında heç bir maneə ilə üzləşməmələri ilə izah etmək olar. Lakin ermənilərin assimilyasiyaya uğraması və Ermənistanla əlaqələrinin getdikcə kəsilməsi, habelə erməni gəncləri tərəfindən "soyqırımı"n unudulması hazırda erməni diasporunu narahat edən ən vacib məsələlərdən biridir. Beyrut, Şam və Əlcəzairdən köçmüş ermənilər istisna olmaqla Livan, İran, İstanbul əsilli ermənilərin əksər hissəsi assimilyasiya ilə üzləşdilər. Hətta bu ölkədəki türk və kürd dillərində danışan Anadolu ermənilərini də onların sırasına daxil edə bilərik. Sadəcə Anadolu erməniləri içərisindən Aruvil, İs le Mulniyo, Alfort-

vil adlı yoxsul bölgələrdə yaşayanlar mühafizəkar xristianlar kimi qalmaqdadırlar, yəni onlar öz tarixi keçmişlərinə bağlıdırlar.

Fransada türk-erməni qarşıdurması ötən əsrin 70-80-ci illərindən etibarən daha da kəskinləşdi. Məhz bu dövrdə bir sıra terrorçu qruplaşmalar türk diplomatlarını qətlə yetirməklə Fransa-Türkiyə münasibətlərini daha da gərginləşdirməyə çalışırdılar. Bəhs olunan dövrdə Paris Avropada başlıca terror yuvasına çevrilmişdi. Burada Türkiyəyə qarşı cinayətlər törətməkdən yorulmayan və terror fəaliyyəti ilə məşğul olmaqla ictimaiyyətdə çaşqınlıq yaratmaq məqsədi güdən onlarla terrorçu təşkilat yaranmaqda idi. Belə təşkilatlara misal olaraq "Erməni Milli Hərəkatı"nı, "Fransız Erməni Həmrəyliyi"ni, "Torpaq və Mədəniyyət Dərnəyi"ni və s. misal göstərmək olar. Qeyd edək ki, 1991-ci ildən etibarən Fransadakı erməni diaspor təşkilatları "Yer və Mədəniyyət Təşkilatlarının Beynəlxalq İttifaqı"("Union İnternationale des Organisations Terre et Culture" (UİOTC) adlı Federasiyada birləşmişlər.

XX əsrin 70-ci illərində qondarma "erməni soyqırımı" qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə dünyanın bir sıra iri şəhərlərdə abidələr ucaldıldı. Fransada ilk erməni "soyqırımı" abidəsi 1971-ci ilin aprel ayında Marsel şəhərində erməni kilsəsinin bağçasında yerləşdirildi. Fransa abidə yarışında digər dövlətlərdən geridə qalmaq istəməmiş, əksinə, bu cür abidələrin ucaldılmasına hərtərəfli dəstək nümayiş etdirmişdir. Bu gün Fransada qondarma "erməni soyqırımı" ilə bağlı 34 adda abidə, xaç, meydan adları və s. mövcuddur.

SSRİ-nin süqutundan sonra müstəqillik əldə edən Ermənistan Respublikasına (1991-ci il sentyabrın 23-də) rəhbərlik etmiş cinayətkar ünsürlər beynəlxalq aləmdə ermənilərin tez-tez zülm və haqsızlıqlarla üzləşmələri barəsində sərsəm fikirlər səsləndirməkdədirlər. Erməni lobbistləri hər seçki öncəsi qondarma "erməni soyqırımı" iddialarını gündəmə gətirməklə ən sonda "soyqırımı"n Fransa Senatı tərəfindən tanınmasına nail olmuşdur. Belə ki, 1998-ci il 29 mayda Fransa Senatının Alt Palatasında





keçirilmiş iclasda az sayda millət vəkilinin qaldırdığı "erməni soyqırımı" müzakirə edilmiş və 29 səslə qərar qəbul edilmişdir.

2001-ci il yanvarın 29-da Fransa prezidenti Jak Şirak ölkə parlamentinin "Osmanlı imperiyasında 1915-ci il erməni soyqırımı haqqında" 18 yanvar tarixli qətnaməsini qəbul etdi. Hətta erməni lobbisinin təsiri ilə Sosialist və Xalq Hərəkatı partiyası Məclisə "soyqırımı" rədd edənlərin cəzalandırılması təklifi ilə çıxış etdi. Məclisin "soyqırımı"n inkarına görə cəza verilməsi ilə bağlı qəbul etdiyi qərardan dərhal sonra Türkiyə hökuməti ölkədəki bir sıra fransız şirkətlərini bağladı və bu ölkə ilə iqtisadi əlaqələri məhdudlaşdırdı. Dərhal fransız şirkətlərinə qarşı iqtisadi sanksiyalar tətbiq edildi, fransız malları küçələrə səpildi. Siyasi partiya liderləri Fransa ilə əlaqələrin tamamilə kəsilməsini, ölkədə fəaliyyət göstərən Fransa səfirliyinin bağlanmasını, fransız dilinin tədrisinə son qoyulmasını tələb etdilər. Hətta Fransanın sona qədər Ermənistanı müdafiə etməsi bu ölkənin Türkiyə ilə bağladığı 240 milyon dollar həcmində kontraktı zərbə altında qoymuş oldu.

Avropadakı erməni diasporunun coğrafiyasını əhatə edən ölkələrdən biri də Almaniyadır. XIX əsrdə Almaniyaya çar Rusiyası və Osmanlı imperatorluğundan bir neçə yüz erməni tələbə və tacir qrupu köç etdi. Diaspor rəhbərləri təşkilatlanma prosesini sürətləndirmək məqsədilə hətta almanlardan külli miqdarda maliyyə vəsaiti topladılar. Bu işdə 1860-cı ildən etibarən Berlində fəaliyyətə göstərən və erməni uşaqlarını təhsilə cəlb edən "Erməni Yevangelis Birliyi"nin fəaliyyətini qeyd etmək lazımdır. Bəhs olunan dövrdə fəaliyyətə başlayan daha bir diaspor təşkilatı "Protestant Erməniləri Dərnəyi" elmi işçilər və teoloqlar tərəfindən dəstəklənirdi. 1885-ci ildə Leypsiqdə ilk "Erməni Tələbə Dərnəyi" fəaliyyətə başlamış, 1896-cı ildən etibarən bu cür təşkilatların sayında artım qeydə alınmışdır. Kilsə, müxtəlif qeyri-hökümət təşkilatları və "Alman Yardım Dərnəyi" Osmanlı imperatorluğunda yaşayan ermənilərə xristian olduqları üçün yardımlar etməkdə idi.

Almaniyanın müxtəlif şəhərlərində xeyriyyə məqsədi ilə yaradılan və bu ölkədə yaşayan ermənilərə tibbi və sosial sahələrdə yardımlar edən alman missioner təşkilatları meydana gəldi. Belə təşkilatlardan biri olan və mərkəzi ofisi Frankfurt-Maynda yerləşən "Alman Xeyriyyə Cəmiyyəti" Türkiyədə missionerlik fəaliyyəti üçün Almaniya Xarici İşlər Nazirliyindən 40 min marka almışdı.

I Dünya müharibəsi başa çatdıqdan sonra Osmanlı imperiyasından çoxlu sayda erməni mühacir bu ölkəni tərk edərək Almaniyanın iri şəhərlərində (Leypsiq, Hamburq, Drezden, Berlin və s.) məskunlaşdı. Qeyd etmək lazımdır ki, ermənilərin Almaniyada məskunlaşması 3 mərhələdə həyata keçirildi. Birinci mərhələ, 1915-1916-cı illərdə ermənilərin Osmanlı imperatorluğundan ABŞ, Fransa, Almaniya və Yaxın Şərq ölkələrinə köçlərini əhatə etməkdədir. Bu dövrdə çox az sayda erməni Almaniyaya qaçqın statusunda gəlmiş və müxtəlif şəhərlərdə məskunlaşmışdılar. 1939-1950-ci illəri əhatə edən II mərhələ II dünya müharibəsi illərində SSRİ-dən əsir alınan ermənilərin Almaniyada ABŞ-ın işğal altında olan bölgələrə gətirilməsi dövrünü əhatə edir. SSRİ-dən gətirilən ermənilərin bir qismi müharibədən sonra ABŞ-a köç etmiş, bir qismi isə Almaniyada qalmışdır. 1960-1990-cı illərin sonuna qədər davam edən III mərhələdə iqtisadi və siyasi səbəblərlə əlaqədar çoxlu sayda erməni miqrant Berlin, Hamburq, Leypsiq və digər iri sənaye şəhərlərində məskunlaşdı.

XX əsrin əvvəllərində Azərbaycan, Gürcüstan və Rusiyada yaşayan ermənilərin bir qismi Almaniyaya köç etdilər. Onlar 1914-cü ildə burada təsis edilmiş Xalq Maarifi Muzeyində "Alman-Erməni Dərnəyi"nin fəaliyyətini daha da genişləndirmiş, erməni mədəniyyətinin Almaniyada tanıdılması, alman-erməni əlaqələrinin fəallaşdırılması istiqamətində bir çox qəzet və jurnallar təsis etmiş, konfranslar təşkil etmişlər. Elə həmin ildə, yəni 16 iyun 1914-cü ildə Berlində "Alman-Erməni Dostluq Cəmiyyəti" yaradıldı və iki dildə "Oxo" adlı jurnal təsis edildi.





Türkiyədə alman missionerləri tərəfindən yaradılan ilk dərnəklər "Alman Şərq Missiyası" və "Alman Erməni Cəmiyyəti"dir. Hər iki dərnəyə Avropada ermənilərin bir nömrəli müdafiəçisi, Almaniyada erməni diasporunun əsas hamisi Johannes Lepsius rəhbərlik edirdi. O, 1896-cı ilin yazında Potsdamda yaratdığı və müxtəlif yerlərdə yetimxana, xəstəxana və əczaxana açaraq ermənilərə yardım göstərən Alman Şərq Missiyasına, həmçinin 1914-cü ildə Berlində Xalq Maarifi Muzeyində təsis etdiyi və eyni məqsədlərə xidmət edən "Alman Erməni Cəmiyyəti"nə rəhbərlik etmişdir. Bunlarla yanaşı, Alman Protestan Xeyriyyə Cəmiyyətinin, Berlində təsis edilmiş Alman Protestant Missionerlərinin Şərq Nümayəndəliyinin yararadılması və fəaliyyətində Johannes Lepsiusun xüsusi xidmətləri olmuşdur. Bu təşkilatlar erməniləri məsum bir xalq olaraq tanıtmağa çalışır, ermənilər üçün alman yardım və dəstəyini nümayiş etdirməyə çalışırdılar.

Almaniyada erməni diasporu strukturundan biri də geniş fəaliyyət imkanlarına malik cəmiyyət və dərnəklərdir. Belə dərnəklərə misal olaraq "Abovian" (Bonn), "Arpa Erməni Mədəniyyət Dərnəyi" (Hagen), "Erməni Qadınlar Dərnəyi" (Baden-Württlemberg), "Erməni Mədəniyyət Dərnəyi" (Köln), "Erməni Beynəlxalq Mədəniyyət Mərkəzi"ni (Frankfurt) qeyd etmək olar. Bu dərnəklər 1995-ci ildə Almaniyada yaradılmış Erməni Mərkəzi Şurasında birləşmişlər.

1923-cü ildə Berlində "Erməni Koloniyası Dərgisi", 1965-ci ildə Hamburq "Erməni Mədəniyyəti Dərnəyi" fəaliyyətə başladı. 1975-ci ildən etibarən Köln, Frankfurt, Ştutqard və Münhen şəhərlərində geniş şəbəkəyə malik onlarla erməni cəmiyyət və dərnəkləri yaranmış, 1980-ci illərin əvvəllərində bu dərnəklərin sayında kəskin artım nəzərə çarpmışdır.

Almaniyada təsis edilən Elmi Araşdırmalar Mərkəzlərindən biri də Boxum şəhərində fəaliyyət göstərən "Erməni Ziyalılar Dərnəyi"dir. 120 üzvü olan dərnəyin sıralarına daxil olanlar, əsasən, Almaniyanın ali məktəblərində təhsil alan tələbələr və

elmi dərəcə almış ermənilərdən ibarətdir. Təşkilatın üzvlərini, əsasən, erməni təssübkeşliyi birləşdirir. İdarə Heyəti tərəfindən yönəldilən qurum bütün fəaliyyətini Ermənistana yardım məqsədilə qurmuşdur. Dərnək qondarma erməni tarixinin, ədəbiyyatının əcnəbi dillərə tərcüməsində göstərdiyi xidmətlərə görə, Ermənistan prezidentinin fəxri diplomu ilə təltif edilmişdir.

Hal-hazırda Almaniyanın müxtəlif əyalətlərinə səpələnmiş, ümumi sayı 42 mindən bir qədər artıq olan erməni icmasının təxminən 15 mini Ermənistandan, digərləri isə Türkiyə, Livan, İran və İraqdan köçüb gələnlərdən ibarətdir. Ən sıx erməni əhalisi (19,2%) iqtisadi cəhətdən inkişaf etmiş Şimali Reyn, Vestifaliya əyalətində yerləşmişdir. Almaniyada əsas işçi qüvvəsinə çevrilmiş miqrantların bəzilərinin övladlarının burada yüksək təhsil aldıqlarını görmək mümkündür.

Erməni diasporu ilə Ermənistan Respublikası arasında əlaqələrin qurulması 1991-ci ildə SSRİ-nin dağılması və Ermənistanın müstəqilliyini elan etməsindən sonra mümkün oldu. Lakin bu dövrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin getdikcə dərinləşməsi nəticəsində yüzlərlə erməni ailəsi qaçqın statusunda Almaniyanın müxtəlif şəhərlərində yerləşdilər. Yeni gələn ermənilərin əksəriyyəti uzun müddət Almaniyada yaşamağı düşünür, lakin Ermənistanla olan siyasi, iqtisadi, mədəni əlaqələrin daha da inkişaf etdirilməsini vacib hesab edirdilər.

Erməni diasporunun maliyyə resurslarını ölkəsinin sosial-iqtisadi inkişafına yönləndirən Ermənistan rəhbərliyi ilk olaraq 1992-ci ildə təsis edilmiş və mühacir ermənilər tərəfindən maliyyələşdirilən "Hayastan Erməniləri Fondu"("Hayastan All Armenian Fund")nun imkanlarından faydalanmağa başladı. Fondun rəhbərləri də öz növbəsində Ermənistana göndərdiyi pullarla ölkənin iqtisadi inkişafına təsir etməyə başladı. Məlumat üçün qeyd edək ki, Ermənistan prezidenti bu təşkilatın İdarə Heyətinin sədridir. 2006-cı ildə Almaniyadan Ermənistana göndərilən pulların ümumi həcmi 10 milyon avro təşkil etmişdir. Fondun Nizamnaməsində təşkilatın əsas məqsədi Ermənistanın və qondarma "Dağlıq Qarabağ Respublikası"nın inkişafına təkan vermək, iqtisadiyyatına yatırımlar qoymaqdan ibarətdir. Yarandığı gündən bu günə qədər təşkilatın Ermənistana və Dağlıq Qarabağa yatırdığı investisiyaların həcmi 160 milyon dollardan artıqdır. "Bir millətbir gələcək" devizini əldə rəhbər tutan fondun Braziliyada, Uruqvayda, İngiltərədə, Fransada, İsveçrədə, Hollandiyada, Avstriyada, Almaniyada 12 regional mərkəzi, İsveçdə, Rusiyada, Livanda və Avstraliyada yerli nümayəndəlikləri fəaliyyət göstərir.





Avropanın cənubunda–Balkan yarımadasında yerləşən Yunanıstan və Kipr adası da ermənilərin mühacirət etdiyi strateji yerlərdən biridir. Ermənilərin adaya kütləvi köçü 1909-cu il Adana hadisələrindən sonra daha da sürətləndi. İngiltərənin müstəmləkəsinə çevrilmiş Kiprə üz tutan ermənilər türk məhəllələrində məskunlaşma istəyini açıq-aşkar bəyan edirdilər. O illərdə Kiprə gələn ermənilərin ümumi sayının 8 min nəfərdən ibarət olduğu qeyd edilmişdir. Ermənilər, əsasən, Lefkoşada, bir qismi də Mağosa ətrafında kompakt şəkildə məskunlaşmışlar.

Kiprdə azlıqda qalan erməni icması II dünya müharibəsindən sonra təşkilatlanmağa başladı. Məsələn, 60-cı illərdə burada bir sıra müxtəlif profilli təşkilat və dərnəklər yarandı. "Erməni Gənclər Birliyi", "Erməni Mədəniyyət Dərnəyi", "Erməni Milli Xeyriyyə Cəmiyyəti" bu təşkilatların içərisində fəallığı ilə seçilirdi. Adada erməni dilində bir məktəb fəaliyyət göstərir, Kipr radiosunda isə erməni dilində verilişlər hazırlanırdı. Həmçinin adada erməni diasporuna məxsus bir Araşdırma Mərkəzi də fəaliyyət göstərir. Melkonyan İnstitutu adlanan Araşdırma Mərkəzi Hnçaq partiyasının tam nəzarəti altında fəaliyyət göstərməkdədir. "Erməni Gənclər Birliyi" daşnakların təsiri altında fəaliyyətini bu gün də davam etdirməkdədir.

29 aprel 1982-ci ildə Kiprin yunan parlamenti "1965-ci ildə erməni xalqına qarşı soyqırımı türk rejimi tərəfindən təşkil olunmuş şəkildə gerçəkləşdirilmişdir" qənaətini bəyan etdi. 20 ildən sonra Cənubi Kipr Parlamenti 25 aprel 2002-ci il tarixli ic-

lasında qondarma "erməni soyqırımı"nı anma tədbiri təşkil etmiş, həmin parlamentdə erməni icmasını təmsil edən Petros Kalayciyan hər bir erməni adından millət vəkillərinə öz təşəkkürünü bildirmişdi. Bu gün Ermənistan hökumətinin dəstəyi ilə adanın yunan hissəsində "Paros" adlı dərgi nəşr edilməkdədir.

Kiprdən fərqli olaraq Yunanıstan ərazilərinə erməni axınları XIX əsrin sonlarına təsadüf edir. Qeyd edək ki, XIX əsrin sonlarından başlayan yunan-erməni əməkdaşlığı I dünya müharibəsi və sonrakı illərdə ən yüksək səviyyəyə çatdı. 1923-cü ildə İsveçrənin Lozanna şəhərində keçirilən konfransda yunanların erməniləri aşkar şəkildə dəstəkləməsi, hətta Yunanıstanda çoxlu sayda miqrant ermənininin yerləşdirilməsi dediklərimizi bir daha təsdiqləmiş olur.

I Dünya müharibəsindən sonra yunan-erməni əməkdaşlığı yeni bir mərhələyə qədəm qoydu. Bu illərdə Yunanıstanın iri şəhərlərində məskən salan ermənilərin sayında kəskin eniş qeydə alındı. 1927-ci ildə Yunanıstandaki erməni əhalisinin ümumi sayı 42 min nəfər olduğu halda, 1928-ci ildə bu rəqəm 33 min 634 nəfərə, 1938-ci ildə 28 minə, 1940-cı il 26 min 527 nəfərə, 1950-ci ildə 9 minə qədər azaldı.

XX əsrin II yarısından başlayaraq Yunanıstan hökuməti erməni icmasına hüquq və azadlıqlarını müdafiə etmək məqsədilə bir sıra şəhərlərdə (Afina, Pire, Selanik, Lefkoşa) "Erməni Camaatı Komitəsi" adlı təşkilatın şöbələrinin yaradılmasına razılıq verdi. Bu komitə 1965-ci ildən etibarən aktiv fəaliyyətə başladı. Aprel ayından etibarən türklər əleyhinə kampaniya başladılmış, bütün Afina küçələri mitinq və nümayişlərə səhnə olmuşdur. İki mindən artıq erməni Afinadakı Theotokos kilsəsinə toplaşmış, daha sonra izdihamlı kütlə naməlum əsgər abidəsi önünə əklil dəstəsi qoyaraq dağılışmışdır.

2003-cü il 24 aprel tarixində Yunanıstan Parlamentinin sədri Apostos Kaklamanlis qondarma "erməni soyqırımı"nın 88-ci ildönümü ilə əlaqədar olaraq Afinada keçirilmiş nümayişdə iştiarak etmiş, Türkiyəni sərt şəkildə tənqid edərək "Türkiyə





soyqırımı qəbul etməlidir", "bu qara ləkədir" kimi sərsəm fikirlər səsləndirməkdən belə çəkinməmişdir.

Avropadakı erməni diasporunun coğrafiyası İsveçrə, Hollandiya, Belçika, İtaliya, İspaniya, Polşa, Slavakiya, Bolqarıstan, Macarıstan, Serbiya, Pribaltika (Latviya, Litva, Estoniya) və Skandinaviya ölkələrini (Norveç, İsveç, Finlandiya) də əhatə etməkdədir. Mərkəzi Avropa ölkəsi olan İsveçrədə də az saylı erməni diasporu (3000-5000) fəaliyyət göstərməkdədir. Aİ-nin mərkəzi qərargahının Brüsseldə yerləşməsi ermənilərin Belçikaya axınına səbəb olmuşdur. Bu gün Belçikada 3500-5000 arasında azsaylı erməni icması fəaliyyət göstərir. Digər Avropa ölkəsi olan Hollandiyada azsaylı erməni diasporu təşkilatlanmış şəkildə fəaliyyət göstərməkdədir. 2006-cı ilin məlumatına görə, Hollandiyadakı ermənilərin sayı 6000-9000 arasında müəyyən edilmişdir. 2001-ci ildə Assen şəhərində "erməni soyqırımı"nı simvolizə edən abidənin qoyulmasına icazə verilmişdir. 21 dekabr 2004-cü ildə Hollandiya parlamenti qondarma "erməni soyqırımı" mövzusunda müzakirələrə başladı və uzun müzakirələrdən sonra soyqırımı tanıyacaq qərar qəbul edildi.

Avropanın cənub ölkəsi olan İtaliyada erməni icması sayca azlıq təşkil (2000) etsə də, türk diasporuna nisbətən güclü struktur və şəbəkəyə malikdir. Buna səbəb dini bağların mövcudluğu və İtaliya ilə ticarətdə erməni tacirlərin təsiri olmuşdur. Qeyd edək ki, İtaliyada erməni diasporunun təşəkkülü XIX əsrin əvvəllərinə təsadüf edir. İtaliyada ilk monastr olan Mekhitarists Venesiyada San Lazzaro adasında inşa edilmişdir. Hal-hazırda burada diasporun strukturlarından kitabxana, muzey, mətbəə, məktəb, araşdırma mərkəzləri və s. fəaliyyət göstərməkdədir.

XX əsrin sonlarında Fransada olduğu kimi, İtaliyada da qondarma "erməni soyqırımı" ilə bağlı sənəd Məclisin gündəliyinə daxil edildi. 1998-ci ildə sənədin müzakirəsi bu və ya digər səbəblərdən təxirə salınmış, lakin 2000-ci ildə Fabio Mussi tərəfindən yenidən gündəmə gətirilmiş və səs çoxluğu ilə qərar qəbul edilmişdir. 23 noyabr 2006-cı ildə paytaxt Romada qon-

darma "erməni soyqırımı"nı əbədiləşdirmək məqsədilə abidə ucaldılmış və açılışda şəhərin bələdiyyə sədri və digər dövlət rəsmiləri də iştirak etmişdir. Digər bir "soyqırımı" abidəsi isə Milanda erməni kilsəsinin bağçasında qoyulmuşdur. Türkiyə hökuməti qərara və abidələrin qoyulmasına kəskin etirazını bildirmiş, bu kimi addımların iki ölkə arasındakı əməkdaşlıq əlaqələrinə kölgə salacağına eyham vurmuşdur.

İtaliya ilə yanaşı, Slavakiyada da azsaylı erməni diasporu mövcuddur. I Dünya müharibəsindən sonra erməni miqrantların üz tutduğu ölkələrdən biri də Slavakiya olmuşdur. Az saylı erməni icmasının mövcud olduğu bu ölkədə diasporun strukturu, əlaqələri və antitürk fəaliyyəti digər Avropa ölkələri ilə müqayisədə bir qədər zəif təsir bağışlamaqdadır. Avropa Birliyinin üzvü olan Slavakiya qondarma "erməni soyqırımı"nı tanıyan sayca 16-cı ölkədir. 2004-cü ilin 17 dekabrında Slavakiya Milli Məclisi qondarma "erməni soyqırımı"nı tanıyan qərar qəbul etdi. Türkiyə hökuməti qərara kəskin etirazını bildirdi, Xarici İşlər naziri Abdulla Gül qərarın qəbul olunmasında müxalifətin günahkar olduğunu qeyd etdi.

Pribaltika ölkələrindən Latviya, Litva və Estoniyada da azsaylı erməni diasporu mövcuddur. Dörd milyondan artıq əhalisi olan Litvada təxminən 1000 nəfərə yaxın erməni icması fəaliyyət göstərməkdədir. Xüsusilə hər ilin mart-aprel aylarında diasporun fəaliyyətində nəzərəçarpacaq dərcədə aktivlik hiss olunmaqdadır. Bu aylarda diaspor fəalları paytaxtın müxtəlif küçə və prospektlərində türk dünyası əleyhinə mitinq və yürüşlər keçirməklə yanaşı, konsert, rəsm sərgisi və konfransların təşkilində xüsusi fəallıq nümayiş etdirməkdədirlər. 13 dekabr 2005-ci ildə ölkə parlamenti tərəfindən qondarma "soyqırımı" iddialarının qəbul olunması Litva-Türkiyə münasibətlərinə zərbə vurmuşdur. Qeyd edək ki, Litva parlamentinin 141 millət vəkilindən 55-nin iştirakı ilə müzakirələr keçirilmiş, səsvermədə iştirak edən 55 deputatın 48-i qərarın lehinə səs vermişdir.





Digər Pribaltika ölkələrində də (Latviya və Estoniya) analoji qərarların qəbul edilməsi təhlükəsi hər an reallığa çevrilə bilər. Belə ki, Estoniya Xarici İşlər naziri Urmas Paetin "Postimus" qəzetinə verdiyi açıqlamasında Türkiyənin "erməni soyqırımı"nı tanımasının vacibliyi vurğulanmışdır. Bununla yanaşı, Latviya prezidenti Vayra Vike Freibergın 2005-ci ilin oktyabr ayında İrəvana səfəri zamanı İrəvan Dövlət Universitetində etdiyi çıxışında Türkiyənin AB-nə girmədən öncə, bəzi nöqsanların aradan qaldırılmasının vacibliyi qeyd edilmişdir. O, həmçinin ermənilərə keçmişdən daha çox gələcəyə inamla baxmağı tövsiyə etmişdir. Düzdür, ölkə prezidenti çıxışında öz ölkəsində qondarma "erməni soyqırımı"nın qəbul edilməsi barədə söhbət açmamış, ancaq bu hadisənin hər an baş verə biləcəyi ehtimalını da istisna etməmişdir.

Müasir dövrdə Latviyada 3 min nəfərlik güclü erməni diasporu fəaliyyət göstərməkədir. Ölkədəki erməni icmasının əksəriyyəti (2500 nəfər) paytaxt Riqa şəhərində məskunlaşmışdır. Latviyadakı azsaylı erməni diasporu hələ XX əsrin əvvəllərindən etibarən buraya üz tutmuş və sosial həyata uyğunlaşmağa başlamışdır. Bu dövrdən başlayaraq Latviyada erməni diasporuna məxsus bir neçə kilsə, məktəb, müxtəlif profilli dərnəklər, araşdırma mərkəzləri, qəzet və jurnallar, restoranlar fəaliyyət göstərməkdədir. Müasir dövrdə təkcə paytaxt Riqada 20-dən artıq erməni restoranı fəaliyyət göstərməkdədir. Eyni zamanda burada erməni icması tərəfindən fəaliyyəti yüksək qiymətləndirilən "Ararat" (Ağrı dağı) adlı qəzet də yayınlanmaqdadır. Qəzet qonşu Litva və Estoniyada da geniş oxucu kütləsinə malikdir. Latviya ilə bağlı maraqlı məsələlərdən biri də bu ölkənin Ermənistan Respublikasının müstəqilliyini tanıyan ilk ölkə olmasıdır. Halhazırda ABŞ, Kanada, Fransa ilə yanaşı, Latviya Parlamentində də güclü erməni lobbisi mövcuddur. Erməni lobbisi hətta sağçı millət vəkilləri tərəfindən də dəstəklənməkdədir. Təəssüf ki, maraq qrupları arasında parlamentin sədri İngrida Uderin də adı hallanmaqdadır. Birbaşa diaspor və lobbinin səyləri nəticəsində

2006-cı ilin 24 aprelində çox sayda sərgi, konfrans, nümayişlər keçirilmiş və bu azmış kimi parlamentdə də qondarma "erməni soyqırımı"nın qəbul edilməsinə cəhdlər edilmişdir. Sənədə 100 millət vəkilindən sadəcə 15-i dəstək vermişdir. Sənədə imza atan millət vəkillərindən 11-i sağçı, 4-ü isə solçu rus millət vəkilləri olmuşdur. Göründüyü kimi, erməni lobbisi bu uğursuzluqdan heç də ruhdan düşməmiş, əksinə, parlamentarilərlə bu sahədə təbliğati işlər daha da gücləndirilmişdir.

Ermənilərin Polşa ərazilərində məskunlaşması XII-XIII yüzilliklərə təsadüf edir. Ermənilər toplum halında ölkənin Komenetsk-Podolsk, Lvov, Lutsk, Muqilyov-Podolsk, Sutsin, Seret, Zamust, Yassı, Akkerman və başqa şəhərlərində yaşayırdılar. Onların nə zaman xristianlığı qəbul etmələri barədə dəqiq məlumat yoxdur. Lakin əhalinin əsas hissəsinin xristianlığın erməni-qriqoriyan qoluna mənsub olduğu bəllidir. Əhalinin buraya Krımdan, Şimali Qafqazdan, Azərbaycandan və Şərqi Anadoludan müxtəlif zamanlarda köçüb gəldikləri ehtimal olunur. I Dünya müharibəsi və 1915-ci il Köç qanunundan sonra ermənilərin Polşaya miqrasiyası kütləvi xarakter aldı. Əhalisinin sayına görə Şərqi Avropanın ən böyük ölkəsi olan Polşa ilə Türkiyə arasında tarixi bağlar ənənəvi xarakter daşımaqdadır.

Polşada erməni diasporunun antitürk fəaliyyəti XX əsrin 90-cı illərindən etibarən aktivləşməyə başladı. Ölkədəki erməni lobbisi dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı daha da dərinləşdirməkdə maraqlıdır. Bəhs olunan dövrdə digər Avropa ölkələrində olduğu kimi Polşa parlamentində də qondarma "erməni soyqırımı" iddiaları müzakirə olundu. 19 aprel 2005-ci ildə parlamentdə keçirilən gərgin müzakirələrdən sonra sənəd səs çoxluğu ilə qəbul edildi. Türkiyə Xarici İşlər Nazirliyi qərarı sərt şəkildə tənqid etdi, Polşa Məclisinin bu əsassız qərarı qınandı və rədd edildi. Qərara Türkiyənin müxtəlif dövlət və qeyri-hökumət təşkilatlarının, siyasi partiyaların cavabı özünü çox gözlətmədi. TBMM-nin sədri Bülənt Arıncın təlimatı ilə 9-13 may 2005-ci il tarixlərində Türkiyəyə rəsmi səfəri planlaşdırılan Polşa-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun proqramı rədd edildi. Polşa parlamentinin Xarici Əlaqələr Komissiyasının rəhbəri ilə yanaşı, geniş tərkibdə nümayəndə heyyətinin 25-30 may 2005-ci il tarixləri arasında Türkiyəyə nəzərdə tutulan səfəri də TBMM tərəfindən rədd edildi.





Şimali Avropa ölkələri də (Norveç, İsveç, Finlandiya) erməni diasporunun coğrafiyasını əhatə etməkdədir. XX əsrin ortalarından etibarən yarımadaya köçüb gələn ermənilərin əksəriyyəti sahilboyu ərazilərdə məskən salaraq burada dəniz ticarəti və sənətkarlıqla məşğul olurdular. Müasir dövrdə Skandinaviya ölkələrinin hər birində ümumilikdə 1000-2000 nəfərlik erməni icması mövcuddur.

Skandinaviya ölkələrindəki erməni diaspor təşkilatlarının antitürk fəaliyyəti XX əsrin 90-cı illərindən etibarən aktivləşməyə başladı. Qeyd edək ki, İsveç parlamentində 31 mart 2000-ci ildə qondarma "erməni soyqırımı" müzakirə edilmiş və qərar səs çoxluğu ilə qəbul edilmişdir. Parlamentin Xarici Əlaqələr Komissiyası tərəfindən hazırlanan raportda 1915-ci il hadisələri cinayət aktı kimi dəyərləndirilmiş və "genosid" faktı pislənmişdir. Qərarın qəbul edilməsində bu ölkədəki Soyqırımı Tanıma Komissiyasının mühüm rolu olmuşdur. Təəssüf doğuracaq məsələ ondan ibarətdir ki, bir əsr bundan qabaq baş vermiş hadisələrə bu qədər önəm verildiyi halda, 1 milyondan artıq Azərbaycan vətəndaşının məcburi köçkün vəziyyətində yaşaması, torpaqlarının 20%-nin 20 ildən artıqdır ki, erməni silahlı birləşmələri tərəfindən zəbt edilməsi, eyni zamanda Ermənistanın Türkiyə, Gürcüstan və Azərbaycana qarşı ərazi iddiaları, erməni terroru və s. barəsində bir dəfə də olsun müzakirə və dinləmələr keçirilməmişdir. Dünyadakı mövcud ikili standartlar təcavüzkarın cəzalandırılması və mühakiməsinə mane olmaqdadır.

Baltik dənizinin cənubunda yerləşən Danimarka da erməni diasporu üçün önəmli ölkələrdən biridir və burada azsaylı erməni diasporu mövcuddur. Bəzi qaynaqlara görə, burada 1000-3000 arasında xırda erməni icması mövcuddur. Bu günə kimi bir

sıra Avropa ölkələri kimi Danimarka parlamenti də qondarma "erməni soyqırımı"nın müzakirəsindən imtina etmişdir. Bu ölkənin Xarici İşlər naziri Per Stig Moellerin 11 oktyabr 2008-ci ildə mətbuata verdiyi açıqlamasında məsələnin tarixi problem olduğu qeyd edilmiş və problemin tarixçilər tərəfindən həqiqi araşdırılmasının vacibliyi vurğulanmışdır.

Nəticədə XX əsrdə bir sıra aparıcı Avropa ölkələrində güclü sosial-iqtisadi və siyasi dayaqlara malik erməni diaspor təşkilatları formalaşmış, böyük dövlətlərin hərtərəfli himayəsi ilə əhatə olunmuşdur.

### *2.4. Amerika ölkələrində erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyəti. Erməni diasporunun dövlət strukturlarında yeri və rolu*

XVII əsrin sonu XVIII əsrin əvvəllərindən etibarən Şimali Amerika ərazilərinə Avropa ölkələrinin marağı artmağa başladı. Yeni qitənin daha cəlbedici və füsünkar olması ilə bağlı yayılan xəbərlər bütün Avropa ölkələrində böyük marağa səbəb oldu. Yeni qitəyə marağın artmaqda olduğunu görən şəhər şuraları müxtəlif ölkələrlə iqtisadi sahədə əlaqələrin qurulmasında maraqlı idilər. Xüsusilə, bu dövrdə Şimali Amerikada ən böyük liman şəhərinə çevrilən Boston şəhər şurası dünyanın müxtəlif bölgələri ilə, o cümlədən Osmanlı imperatorluğunun bir sıra dəniz şəhərləri ilə ticarət əlaqələrinin genişləndirilməsində maraqlı idi. Bu istiqamətdə Boston şəhər şurası hətta bir sıra qanunlar da qəbul etdi. Amerika koloniyaları ilə Osmanlı imperatorluğu arasında münasibətlər ikitərəfli ticarət əlaqələrinin qurulması ilə başlandı. 7 may 1830-cu il türk-amerikan ticarət müqaviləsinin 3-cü maddəsinə görə, amerikan tacirləri Osmanlı imperiyası ərazilərində sərbəst ticarət etmək hüququ əldə etdilər. Nəticədə türk-amerikan ticarət müqaviləsi, bir tərəfdən, amerikan tacirlərə Türkiyə bazarlarına sərbəst çıxış əldə etmək imkanı verirdisə, digər tərəfdən, Osmanlı ermənisinə də Amerika bazarlarına daxil





olmaq imkanı yaradırdı. Beləliklə, 7 may 1830-cu il ticarət müqaviləsinin 3-cü maddəsinə əsasən, Osmanlı erməniləri daimi olaraq Amerikanın əlaltısına çevrilmiş oldu. Bundan sonra ermənilərin Boston-İzmir limanlarında ticarətlə məşğul olmaları nəticəsində həm İzmirdə, həm də Bostonda varlı erməni burjuaziyası meydana gəldi. Amerikan tacirlərinin himayəsi altında varlanan İstanbul və Anadolu erməniləri də 1810-cu ildən başlayaraq Şimali Amerikaya köç etməyə başladılar və bir müddətdən sonra Amerika vətəndaşlığını qəbul etdilər.

Osmanlı imperatorluğundan Amerikaya gedən ermənilərin ikinci qrupu xırda ticarətlə məşğul olanlardan ibarət idi. Onlar birinci qrup kimi təhsilli deyildilər və missionerlər tərəfindən qulluqçu kimi işlədilirdilər. 1890-cı ilin axırlarında miqrasiya edən üçüncü qrupun əksəriyyəti kəndlilər və fermerlərdən ibarət idi. Beləliklə, 1869-1890-cı illərdə 1401, 1890-1895-ci illərdə 5500 erməni Amerikaya miqrasiya etdi. Onların sayı 1908-ci ildə 3300, 1910-cu ildə 5500, 1913-cü ildə 9355-ə yüksəldi. Nəticədə I dünya müharibəsi ərəfəsində Amerikadakı erməni koloniyalarında ermənilərin ümumi sayı 50 min nəfəri ötdü. Amerikaya üz tutan ermənilərin sayından təlaşa düşən ABŞ və Osmanlı hökuməti birgə bir sıra əngəlləyici tədbirlər həyata keçirdilər.

XIX əsrin 30-40-cı illərindən etibarən aktiv fəaliyyətə başlayan ABŞ-dakı diaspor erməniləri burada bir sıra təşkilatlar, dərnəklər yaratmağa başladılar. Buna misal olaraq 1810-cu ildə Bostonda yaradılmış Xarici Missiyalar üzrə Amerika Komitəsini qeyd etmək olar. Təşkilatın yaradılmasında əsas məqsəd burada yüksək təlim görmüş erməni gənc missionerləri Anadoluya göndərməklə ümummilli erməni hərəkatına ("Hay Dad") təkan vermək idi. Türk tarixçisi Şenol Kantarcı bu haqda yazır: "Türkiyəyə "erməni məsəsləsi"nin toxumlarını ABŞ bu təşkilat vasitəsilə 1820-ci ildə səpmişdir.

XIX əsrdə ABŞ erməniləri türklərlə müqayisədə daha iki böyük üstünlüyə malik idi. Bu barədə görkəmli Amerika tarixçiləri Castin və Karolin Makkartilər yazırdı: "Birincisi, XIX əsrin

II yarısında çoxlu erməni ABŞ-a mühacirət etdiyi üçün böyük Amerika şəhərlərində onların icmaları var idi. İkinçisi, Amerika missionerlərinin hesabatları ermənilər üçün Amerikada çox yaxşı mühit yaratmışdı. Beləliklə, ermənilərin Amerikadakı imici ermənilərin özləri və dostları tərəfindən formalaşdırılırdı".

I Dünya müharibəsinə qədərki dövrdə ABŞ-dakı erməni əhalisinin 60%-i Massaçusets, Nyu-York, Rhode İsland, Connecticut, Nyu-Cersi və Pensilvaniya ətrafında məskunlaşmışdılar. Boston, Nyu-York və Filadelfiyada məskunlaşan ermənilərin sosial tərkibində bərbər, qəssab, pinəçi və dərzilərin sayında kəskin artım qeydə alınmışdı. Məhz bu illərdə Los-Anceles şəhərində erməni zərgərlərinin ümumi sayı 30%-ə qədər artmışdı.

I Dünya müharibəsindən sonrakı dövrdə ermənilərin ABŞ-a köçündə kəskin artım baş verdi. Bu barədə türk tarixçisi Hasan Kundakçı yazır: "Birinci dünya müharibəsindən sonra köç prosesi daha da sürətləndi. Nəticədə Kaliforniyadakı ermənilərin sayı 600 minə, Nyu-Yorkda 100 minə və Bostonda isə 50 minə qədər yüksəldi.

XX əsrin II yarısından başlayaraq ABŞ-a erməni köçləri daha geniş vüsət aldı. 1970-ci illərin ortalarında ABŞ-dakı erməni icmasının sayı 350-400 min nəfər, 1990-cı illərdə isə 700 min nəfər təşkil etmişdir. 2001-ci ilin məlumatlarına görə, ABŞ-dakı erməni diasporunun ümumi sayı 800 min nəfər müəyyənləşdirilmişdir. Müasir dövrdə ABŞ-dakı ermənilərin sayı 800 minlə 1 milyon nəfər arasında müəyyən edilmişdir. Bu da təxmini olaraq Ermənistan daxil olmaqla, dünyadakı erməni əhalisinin 9%-nə bərabərdir. Miqrant ermənilərin 45%-i Nyu-England və Orta Atlantik əyalətində, 15%-i Miçiqan, İllinois, Ohayo və Vaşınqtonda, 25%-i Kaliforniyada yaşamaqdadır. Ermənistanı daxil etməsək, ABŞ-da yaşayan ermənilərin sayı, erməni diasporunun təxminən 40%-nə bərabərdir ki, bu da olduqca böyük bir rəqəmdir. Bunların içərisində on min fizika mütəxəssisi, beş min vəkil, iki min universitet müəllimi, minlərcə mühəndis, həkim, iş adamı, yüzdən artıq milyonçu yaşamaqdadır.





ABŞ-dakı diaspor ermənilərini iki qrupa bölmək olar: birinci qrupa ABŞ-da doğulan erməniləri, ikinci qrupa isə başqa ölkədə doğulub, sonradan ABŞ-a köç edənləri aid etmək olar. Maraqlıdır ki, ABŞ ermənilərinin 43%-i ABŞ, 27,5%-i Ermənistan, 10,4%-i Livan, 8,6%-i İran, 1,5%-i Türkiyə, 1%-i Suriya, 1%-i Fransa doğumludur. Türk tarixçisi Cemalletin Taşkıranın qeyd etdiyi kimi, bu iki qrup arasında hər hansı bir qarşıdurma yaşanmasa da, bəzi siyasi və mədəni mövzularda yaxınlaşma və dəyərləndirmə fərqi mövcuddur. Həmçinin ABŞ-da dolğulan ermənilər daha az ingilis və erməni dillərində qəzet və jurnallar oxuduqları halda, köç yolu ilə gələn ermənilərdə bu cür yayınları oxuyanların sayı daha artıqdır. ABŞ-da doğulan ermənilər bir kilsəyə bağlı olmağı erməni toplumu üçün qaçılmaz hal kimi dəyərləndirərkən, köç yolu ilə gələn ermənilər bunu məqbul hesab etmirlər.

ABŞ-dakı erməni diasporunun təşəkkülü və formalaşması prosesi iki əsr müddətində (XIX-XX əsrlər) mərhələli şəkildə davam etmişdir. Birləşmiş Ştatlarda erməni diasporunun formalaşması prosesini şərti olaraq aşağıdakı mərhələlərə bölmək olar:

–XIX əsrin əvvəllərindən başlayaraq əsrin sonlarına qədərki dövr;

–XIX əsrin sonlarından I dünya müharibəsinin başlanmasına qədərki dövr;

–ermənilərin Şərqi Anadolu ərazilərindən köçürülməsindən 1920-ci ilə qədərki dövr;

–Ermənistan SSR yaranmasından 1965-ci ilə qədərki dövr;

–1965-ci ildən 1991-ci ilə qədərki dövr;

–müstəqillik dövrü.

XIX əsri sonu XX əsrin əvvəllərindən etibarən ABŞ-da erməni diaspor təşkilatlarının regional şöbələri fəaliyyətə başladı. 1903-cü ildən başlayaraq ABŞ-ın bir sıra şəhərlərində 36, 1907-ci ildə 48 və 1914-cü ildə 77 daşnak komitəsi yaradıldı. Araşdırmalar göstərir ki, erməni miqrantlardan toplanan maliyyə

vəsaitləri hesabına antitürk əhvali-ruhiyyəli tədbirlər, toplantılar keçirilməkdə idi.

I Dünya müharibəsindən sonra qüdrətli dövlətə çevrilmiş ABŞ dünyanın gələcək taleyini müəyyən edən güclər arasında ilk yerdə qərarlaşmışdı. Məhz bu mövqeyi nəzərə alan diaspor ermənilər bu ölkədəki fəaliyyətlərini daha da gücləndirərək ABŞ prezidentlərindən ümumerməni milli hərəkatına maddi və mənəvi dəstək olmalarını xahiş etmişlər. Həmçinin yaranmış əlverişli şəraitdən maksimum dərəcədə faydalanmağa çalışan diaspor erməniləri Konqresin gündəliyinə bir sıra məsələlərin salınmasına da cəhd göstərmişdilər. Nəticədə ilk dəfə olaraq 1921-ci ildə ABŞ Konqresində ermənipərəst konqresmenlər tərəfindən müzakirəyə çıxarılan qondarma "erməni soyqırımı" və bununla bağlı uzunmüddətli dinləmələr uğursuzluqla nəticələnmişdir. Lakin uğursuzluqlara baxmayaraq, bunu ABŞ-dakı erməni diasporunun cüzi nailiyyəti kimi də qeyd etmək olar.

II Dünya müharibəsinin başa çatması və ABŞ-ın qalib dövlətlər sırasında yer alması erməni diasporunun fəaliyyətində yenidən canlanmaya səbəb oldu. Bəhs olunan dövrdə beynəlxalq münasibətlər sistemində baş verən bir sıra dəyişikliklər-"Soyuq müharibə"nin başlanması, Qərb dövlətlərinin SSRİ-yə qarşı vahid cəbhədə birləşməsi, həmçinin Ermənistan SSR-in Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları və digər amillər Türkiyə-ABŞ əlaqələrinin möhkəmləndirilməsi üçün əlverişli şərait yaratdı. "Soyuq müharibə" çərçivəsində 1947-ci ildə ABŞ Türkiyəyə külli miqdarda maliyyə vəsaitinin ayrılmasını nəzərdə tutan Trumen dokrinasını həyata keçirdi. Trumen doktrinası Türkiyədə sovet təsirinin qarşısının alınmasına yönəlmişdi. Göründüyü kimi, Trumen doktrinasının həyata keçirilməsindən qorxuya düşən diasporun fəal üzvləri 4 may 1947-ci ildə Nyu-Yorkda toplanaraq Dünya Erməniləri Konqresini çağırmış, BMT vasitəsilə Türkiyə ermənilərinin hüquqlarının pozulduğunu bir daha dünya dövlətlərinin diqqətinə çatdırmışlar. Eyni zamanda toplantıda ermənilərin Türkiyədən torpaq və təzminat tələbləri də öz əksini tapmışdır.





Qondarma "erməni soyqırımı"nın 50-ci ildönümü ilə əlaqədar olaraq dünyanın bir sıra ölkələrində daha izdihamlı mitinq və nümayişlərin keçirilməsinə başlanıldı. İlk dəfə olaraq sovet hökumətinin razılığı ilə Yerevanın mərkəzi meydanlarının birində ABŞ ermənilərinin təşəbbüsü ilə "soyqırımı" abidəsi ucaldıldı. Məhz bu hadisə ABŞ-dakı diaspor ermənilərini daha da ruhlandırmış, qarşıda duran məsələlərin həllinə yol açmışdır.

XX əsrin 70-ci illərini bütövlükdə, ABŞ-dakı erməni diasporunun fəaliyyətində yeni bir mərhələnin başlanğıcı kimi qəbul etmək lazımdır. 22 dekabr 1973-cü ildə Los-Ancelesdəki türk konsulunun və konsul köməkçisinin vəhşicəsinə qətlə yetirilməsi, həmçinin 1973-cu il Santa-Barbara şəhərində baş vermiş terror hadisəsi ilə bu ölkədəki türk diplomatlarına, missiyalarına və təşkilatlarına qarşı erməni terrorunun miqyası daha da genişləndi. Nəticədə, 1973-1985-ci illər arasında Türkiyə sərhədlərindən kənarda 45 nəfər vəhşicəsinə qətlə yetirilmişdir. Bunlar içərisində öldürülən türk vətəndaşlarının sayı 34 nəfərdir. Öldürülənlərdən 4 nəfəri Türkiyənin digər ölkələrdəki səfirləri, altı nəfəri baş konsul və konsul, yerdə qalanlar isə səfirlik və konsulluqların əməkdaşlarıdır. Vəhşicəsinə qətlə yetirilmiş türk diplomatlarının əsas təşkilatçısı ASALA erməni terror təşkilatı və təşkilatın regional şöbələridir.

XX əsrin sonlarında qondarma "erməni soyqırımı" məsələsinin ermənipərəst konqresmenlər tərəfindən Konqresin gündəliyinə salınmasına cəhdlər edildi. Belə ki, 21 sentyabr 2000-ci ildə Təmsilçilər Məclisi İnsan Haqları Alt Komitəsi qondarma "erməni soyqırımı"nın tanınması ilə əlaqədar qərar qəbul etdi. Qərar daha sonra Təmsilçilər Məclisinin Ölkələrarası Əlaqələr Komitəsindən də keçərək Senatın müzakirəsinə göndərildi. Dövlət başçısı Bill Klinton və Müdafiə naziri Henri Şheltonun təzyiqləri nəticəsində Təmsilçılər Məclisinin gündəliyinə salınmış dinləmələr təxirə salındı.

XX əsrdə ABŞ-da erməni diasporunun strukturuna siyası partiyalar, tədqiqat mərkəzləri, radio və televiziya kanalları və digər kütləvi informasiya vasitələrinin (qəzet, jurnal, dərgi və s.) şöbələri, həmçinin maliyyə fondları və s daxil idi. Bəhs olunan dövrdə ABŞ-da erməni diaspor təşkilatlarının himayəsi altında yaradılan qurumlar aşağıdakı istiqamətlər üzrə fəaliyyət göstərməkdədir:

Məzun təşkilatları, Erməni Araşdırmaları və Tədqiqat Mərkəzləri, idman təşkilatları, mədəniyyət təşkilatları, nigah xidmətləri təşkilatları, xeyriyyə təşkilatları, siyasi və ictimai işlər təşkilatları, dini təşkilatlar, sosial xidmət təşkilatları, tələbə təşkilatları (kollec və universitetlər), Gənclər təşkilatları, erməni kilsələri, qəzetlər (gündəlik və həftəlik), erməni araşdırmaları dövrü nəşrləri, məktəblər, şənbə və bazar günü məktəbləri, təhsil təşkilatları, fondlar, Ermənistanda təhsil proqramları, seminariyalar və teoloji məktəblər, təşkilatlar və tədqiqat kitabxanaları, xalq kitabxanaları, məktəb kitabxanaları, kollec və universitet kitabxanaları, kilsə və seminariya kitabxanaları, xüsusi kitabxanalar, özəl kitabxanalar, kitab köşkləri və kitab mağazaları, kilsə kitab köşkləri, kitab nəşriyyat evləri, musiqi və videoyazı studiyaları, radio proqramları, televiziya proqramları, təqaüdlər, qrantlar, kreditlər, bülletenlər, nəşrlər, jurnallar. Müasir dövrdə bu təşkilatlarla yanaşı, daha çox siyasi fəaliyyətlə məşğul olan partiyalardan Erməni İnqilabçı Federasiyası-Daşnaksütyunun, Şərqi Amerika Hnçaq Sosial Demokrat Partiyasının, həmçinin Milli Erməni Amerikan Cümhuriyyət Məclisinin fəaliyyətini xüsusilə qeyd etmək lazımdır.

ABŞ-da iki əsrə yaxın müddətdə antitürk təbliğatı aparan erməni diaspor təşkilatları arasında ən mütəşəkkili 1984-cü ildə yaradılmış Amerika Erməni Assambleyasıdır (Armenian Assembly of Amerika-AAA). Assambleya 1972-ci ildə Vaşınqtonda yaradılmışdır. Vaşınqton mərkəz olmaqla Assambleyanın Nyu-York, Los-Anceles, Boston, İrəvan və Azərbaycanın işğal olunan Xankəndi şəhərlərində şöbələri mövcuddur. Assambleya





mütəmadi olaraq erməni məsələsi ilə bağlı ictimaiyyəti məlumatlandırır, Amerika ermənilərinin siyasi proseslərdə iştirakını təmin edir. Amerikada erməni diasporunun lobbiçilik fəaliyyətini həyata keçirən bu təşkilatın sadəcə 1994-cü il büdcəsindəki qeydlərə əsasən icraedici və qanunverici orqanlarla münasibətlərin qurulmasına 272.870 dollar xərcləndiyi qeyd edilmişdir. Lakin təşkilatın dolayı lobbizmə ayırdığı məbləğin 7 milyon dollardan çox olduğu bildirilir. Təşkilatın əsas mətbuat orqanları "Ermənistandan gündəlik xəbər raporu"(Daily News Raport from Armenia), "Ermənistan bu həftə" (Armenian This Week), "Assambleya bu həftə" (Assembly This Week), "Ermənistandan aylıq xəbərlər" (Monthly Digest of News from Armenia) və sairdir.

Müasir dövrdə ABŞ-da Amerika Erməni Assambleyasının əsas qollarından olmaqla ən güclü erməni-amerikan siyasi qurumu olaraq fəaliyyət göstərən Erməni Milli Komitəsi bu ölkədəki diaspor ermənilərinin pozulmuş haqqlarının bərpası istiqamətində fəaliyyət göstərməkdədir. Eyni zamanda təşkilat Türkiyə başda olmaqla Azərbaycan əleyhinə fəaliyyətini davam etdirməkdə maraqlıdır. Ermənilər bunu, guya, tarix boyu türksoylu xalqlar tərəfindən etnik-milli təmizləmə siyasətinə məruz qalmaları, ərazilərinin əksəriyyətinin türksoylu xalqlar tərəfindən zorla mənimsənilməsi, buradan davamlı olaraq müxtəlif vaxtlarda kütləvi surətdə küçürülmələri ilə əsaslandırmağa çalışırlar.

Amerika Erməni Assambleyası ilə yanaşı, ABŞ-da fəaliyyət göstərən mühüm siyasi qurumlardan biri də Daşnaksütyun partiyasıdır. Daşnaklar bütün Amerikada "Amerika Erməni İnqilabı Komitəsi" adı altında təşkilatlanmışlar. ABŞ-dakı erməni diasporunun fəal üzvlərinin yarıdan çoxu bu təşkilatda birləşmişlər. Mərkəzi qərargahı Bostonda yerləşən partiya ABŞ-da ən qədim erməni təşkilatlarından biridir. Təşkilatın başlıca mətbuat orqanları ermənicə yayınlanan "Daşnaksütyun", "Asberaz", "Hayrenik"(Ana Vətən)dir. Həmçinin ingilis dilində çıxan

"Hayrenik" qəzeti ilə üç ayda bir çıxan "Erməni İcmalı" dərgisi də daşnak məqsədlərinin yayılmasını həyata keçirməkdədir.

Daşnaksütyun partiyası ilə yanaşı, ABŞ-da fəaliyyət göstərən ən böyük siyası partiyalardan Ramqavar və Hnçaq Sosial Demokrat Partiyalarını da qeyd etmək lazımdır. Ramqavar partiyası "Erməni Demokrat Liberal Partiyası" adı altında təşkilatlanmışdır. Partiyanın mərkəzi qərargahı Massaçusets ştatında yerləşir və başlıca yayın orqanları ermənicə gündəlik nəşr edilən "Bayker", ingilis dilində həftədə iki gün yayınlanan "Miror-Spectator" adlı qəzetlərdir. Hnçaq Partiyası "Amerika Sosial-Demokratik Hnçaq Partiyası" adı altında təşkilatlanmışdır. Mərkəzi qərargahı Nyu-Yorkda yerləşən partiyanın başlıca yayın orqanı gündəlik ermənicə yayınlanan "Eritassard Hayasdan" qəzetidir. Partiyanın əsas məqsədi erməni xalqının milli maraqlarını layiqincə qorumaq, ermənilərin tapdalanmış haqqlarının müdafiəsini təşkil etmək, eyni zamanda türk millətinin nüfuzunu aşağılamaqdan ibarətdir.

ABŞ-dakı erməni diasporunun əsas ideoloji mərkəzi funksiyasını yerinə yetirən Araşdırma Mərkəzlərinin fəalliyyəti sistemli şəkildə həyata keçirilməkdədir. Müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərən bu təşkilatlar diasporun gələcək planlarının müəyyənləşdirilməsində, həyata keçiriləcək məsələlərin sistemli şəkildə sintez və analiz olunmasında mühüm əhəmiyyət kəsb edir. Ümumerməni milli hərəkatına ("Hay Dad") bu və ya digər formada dəstək verən araşdırma mərkəzlərindən aşağıdakıların adlarını xüsusilə qeyd etmək lazımdır:

"Amerika-Erməni Beynəlxalq Universiteti"; "Ermənistan Siyasi Təhlil, Tədqiqatlar və Planlaşdırma İnstitutu"; "Stres və Genosid Tədqiqatları üzrə Erməni-Amerika cəmiyyəti"; "Ermənistan Milli və Beynəlxalq Araşdırmalar Mərkəzi"; "Ermənistan Film Fondu"...

Müasir dövrdə informasiyanın kütləviliyi və əhəmiyyəti günü-gündən artmaqdadır. KİV-in yaradılması və maddi-texniki bazasının təkmilləşdirilməsi, həmçinin xeyriyyə fondlarının bu





işə külli miqdarda maliyyə vəsaitləri xərcləməsi erməni diasporunun antitürk fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil edir. Diqqəti cəlb edən mühüm məsələlərdən biri də ABŞ-ın ən nüfuzlu nəşrlərindən olan "Nyu-York Tayms" qəzetinin səhifələrində erməni diasporunun uğurları və antitürk fəaliyyətinin bu və ya digər tərəflərinin işıqlandırılmasıdır. Burada Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və ətraf rayonların erməni əraziləri olduğu haqqında saxta faktlar yerləşdirilməkdədir.

ABŞ-da erməni diasporu tərəfindən təsis olunmuş ən qədim qəzet 1899-cu ildə erməni dilində nəşr edilən "Hayrenik Weekly" qəzetidir. 1908-ci ildə Kaliforniyada erməni və ingilis dillərində nəşr edilən "Asbaraz Armenian Daily" qəzeti də xüsusi mövqeyə malikdir. Bu qəzetlərlə yanaşı, 1922-ci ildə Massaçusetsdə təsis edilmiş "Bakiar Monthly" və eyni tarixdə Kaliforniyada yaradılmış "Nor Or Semi-Weekly" qəzetləri də fəallığı ilə seçilməkdədir. Qəzetlərlə yanaşı, digər dövri nəşrlərin fəaliyyəti də diasporun diqqət mərkəzindədir. Bu gün ABŞ-da təxminən 17 adda dövri nəşr fəaliyyət göstərməkdədir. Bunlardan 5-i Kaliforniyada, 3-ü Nyu-Yorkda, 4-ü Massaçusetsdə, 2-si Ohayoda, digərləri isə Vaşinqton, Miçiqan və İllinoisdə nəşr olunmaqdadır. Dövri nəşrlərin 4-ü erməni və ingilis dillərində, digərləri isə yalnız ingilis dilində yayınlanmaqdadır.

Tədqiqat göstərir ki, erməni diasporunun kino təbliğatı incəsənət çərçivəsindən çıxaraq siyasi məqsədlərə xidmət edir. Tam olaraq diaspor tərəfindən maliyyələşən filmlər türkçülük, azərbaycançılıq əleyhinə yönəlməklə nifrət, kin hissləri aşılamaqdadır. Demək olar ki, erməni diasporunun himayəsi ilə çəkilmiş filmlər qondarma "erməni soyqırımı"na həsr edilmişdir. 1988-ci ildən etibarən Azərbaycanı da hədəfə alan diasporun "Ararat", "Həsrət", "Erməni davası", "Unudulmuş soyqırım", "Tarixi Ermənistan", "Amerika erməniləri" və digər filmlərinin adlarınımı qeyd etmək olar.

XX əsrin əvvəllərində erməni diaspor təşkilatlarının aktiv fəaliyyəti sayəsində daşnakar okeanın o tayında "mələk" simasında təbliğ olunurdu. I Dünya müharibəsi başa çatan kimi daşnaklar burada "Müstəqil Ermənistanın Amerika Komitəsi"ni təsis etdilər və bu komitə vasitəsilə Ermənistanın müstəqilliyini möhkəmləndirmək əvəzinə Azərbaycanı və Gürcüstanı Amerika siyasi dairələrinə terroru himayə edən dövlətlər kimi təbliğ edirdilər. Bu barədə Cəmil Həsənli yazır: "Ona görə, ABŞ-da Azərbaycan haqqında həqiqətin yayılmasına, Amerika siyasi dairələrinin Azərbaycan haqqında təsəvvürlərinin düzgün formalaşmasına böyük zərurət duyulurdu. Lakin Amerikada fəaliyyət göstərən "Müstəqil Ermənistanın Amerika Komitəsi"nin sədri, Birləşmiş Ştatların Berlində keçmiş səfiri Ceyms Cerard "əzabkeş xristian ermənilərin", "xristian məbədlərinin" xilas edilməsini bütün vasitələrlə amerikanlara təlqin edirdi. Polşa tarixçisi Tadeuş Svyatoçovski ABŞ-dakı erməni diasporunun lobbiçilik fəaliyyətinə nəzər salaraq XX əsrin sonlarında Ermənistanın İsraildən sonra əhalisinin sayına görə ABŞ-dan ən çox iqtisadi dəstək alan ikinci dövlət olduğunu qeyd edir.

Birləşmiş Ştatlarda erməni diasporunun inkişafında, fəaliyyətinin daha da güclənməsində diaspordakı nüfuzlu şəxslərin böyük rolu olmuşdur. Siyasi hakimiyyət elitasında erməni əsilli və ermənilərə rəğbət bəsləyən şəxslərin kifayət qədər təmsil olunduğu bu ölkədə diaspor təşkilatları özlərini çox sərbəst hiss edirlər. Diaspordakı nüfuzlu şəxslərdən olan Stevi Derunyan 1952-ci ildə Nyu-York şəhərindən Konqresə üzv seçilmiş ilk erməni mənşəli Amerikalıdır. 1978-ci ildə isə Şarl Paşayan adlı bir erməni Kaliforniyadan Nümayəndələr Palatasına üzv seçilmişdi. Bu vaxta qədər o, bir müddət orduda strateji informasiya xidmətində çalışmışdır. Həmin dövrdən başlayaraq ermənilər ABŞ dövlət aparatında bir sıra məsul vəzifələr tutmağa başlamışdılar. Prezident Cimmi Karterin vaxtında Riçard Manukyan adlı bir erməni mühüm dövlət vəzifəsinə–əsərləri qoruma xidmətinin rəhbəri təyin edilmişdir. 1980-ci illərdə ermənilərin Birləşmiş





Ştatlarda ən nüfuzlu nümayəndələrindən biri Corc Dükməcyan olmuşdur. Kaliforniya valisi olan Corc Dükməcyan səkkiz il bu vəzifədə işləmiş və 1991-ci ildə vəzifəsindən getmişdir. Tarixçi E.Məmmədov bu barədə yazır: "1982-1990-cı illər ərzində Kaliforniya ştatının valisi olmuş Dükməcyan daha əvvəl də Kaliforniya Əyalət Məhkəməsində çalışmış və Prezident Ronald Reyqanın seçki kampaniyası zamanı "Erməni Əsilli Amerikalı Seçicilər Komitəsi"nə rəhbərlik etmişdir. Dükməcyanla eyni vaxtda 70-ci illərdən başlayaraq erməni lobbisinin digər fəal nümayəndəsi Kaliforniya Ştat Məclisinin nümayəndəsi Uolter Karabyan olmuşdu. Bu dövrdə Karabyan Kaliforniyada Türkiyənin əleyhinə fəal surətdə ictimai rəyin yaradılması funksiyasını yerinə yetirməyə çalışmışdır.

Birləşmiş Ştatlarda ən aktiv erməni icmasının mövcud olduğu Kaliforniya ştatının indiki ali məhkəməsinin 7 üzvündən ikisi ermənidir: onlardan biri-Armen Arabyan, ilk dəfə hakim vəzifəsinə 1972-ci ildə ştatın o vaxtki valisi Reyqan tərəfindən təyin edilmiş, sonra isə ali məhkəmənin tərkibinə düşmüşdür; Merlin Bekster (Dazaryan) valinin yanında beş il yüksək vəzifədə işləmiş, sonra bu tərkibə daxil olmuşdur.

Erməni diasporunun nüfuzlu üzvlərindən biri də ABŞ-ın BMT-dəki daimi nümayəndəsinin sabiq müavini Set Mumcyandır. O, BMT-nin insan hüquqları komissiyasında ABŞ-ı təmsil etmişdir. Digər bir erməni Eduard Cərəcyan ABŞ-ın Moskvadakı səfirliyində üçüncü katib işləmişdir. 1991-ci ilin yayından isə o, ABŞ dövlət katibinin müavini olmuşdur. 1972-ci ildə prezident Nikson üçün çalışmış Ken Xaçikyan Reyqanın prezident seçkisində "mirzə" vəzifəsində işləmişdir. Maraqlıdır ki, Ağ evdə humanitar elmlər üzrə milli proqram və siyasət şöbəsinə Armen Taşdikyan adlı bir erməni rəhbərlik edir. Armen Taşdikyan əvvəllər sənət və ədəbiyyat şöbəsinin müdiri olmuşdur.

Amerika Erməni Milli Komitəsi (AEMK- The Armenian National Committee of America-ANCA) ermənilərin Amerikada dolayı lobbiçiliklə məşğul olan ən böyük və nüfuzlu siyasi quru-

mudur. Amerikada və dünyadakı bütün erməni diaspor təşkilatları ilə əməkdaşlıq şəraitində işləyən təşkilat Amerika ermənilərini maraqlandıran geniş miqyaslı məsələlərlə məşğuldur. Təşkilatın fəaliyyəti, ilk növbədə, Azərbaycan və Türkiyə əleyhinə yönəlmişdir. Komitə bir çox istiqamətlərdə-Ermənistan dövlətinin iqtisadi və demokratik inkişafını təmin etmək, Dağlıq Qarabağın öz müqəddəratını təyin etməsi hüququnu dəstəkləmək, ABŞ-ın Dağlıq Qarabağa birbaşa köməyini təmin etmək, qondarma erməni genosidinin tanınmasına nail olmaq, Türkiyə və Azərbaycanı Ermənistana qarşı blokadanı aradan qaldırmağa təhrik etmək üçün aktiv şəkildə lobbiçiliklə məşğuldur. Eyni zamanda komitə federal, ştat və yerli seçkilər zamanı Amerika ermənilərini maraqlandıran məsələlər ilə bağlı namizədlərin fikirlərini öyrənir və seçiciləri namizədlərin mövqeləri ilə tanış olmağa səsləyir. Hətta ABŞ-da seçkiqabağı kampaniya çərçivəsində erməni diasporunun fəaliyyəti haqqında AR XİN-nin arxivində saxlanılan sənəddə prezident seçkisində respublikaçılar partiyasının seçkiqabağı kampaniyasında erməni diasporunun nümayəndələri tərəfindən maliyyə dotasiyalarının verilməsi prosesinin aktivləşdiyi qeyd edilir. Həmçinin sənəddə "Arminian Uikli"nin 15 yanvar 2000-ci il tarixli məlumatına əsasən, erməni mənşəli 100-dən çox amerikalı tərəfindən Corc Buşun seçkiqabağı fonduna əhəmiyyətli vəsaitlərin qoyulduğu haqqında məlumat verilir. Sənəddə respublikaçıların kassasına 300 min dollardan çox vəsait daxil edən Detroyddan olan daşınmaz əmlak ticarəti üzrə iri agent Maykl Kocayan tərəfindən "Buş-2000" kampaniyasının fonduna 100 min dollar məbləğində vəsaitin daxil edildiyi öz əksini tapmışdır.

1991-ci ildə müstəqillik əldə edən Ermənistanın Azərbaycana təcavüzü daha da genişləndi. Ermənistan işğalçılıq siyasətini beynəlxalq ictimaiyyət qarşısında ört-basdır etməkdən ötrü, əlbəttə, erməni lobbisinin imkanlarına arxalanırdı. ABŞ-dakı erməni lobbisi isə öz növbəsində yaranmış yeni vəziyyətdən məharətlə istifadə etdi. Onların "Azərbaycanın əsarətindən azad olmağa çalışan məğrur Qarabağ (erməni) xalqının əzab-əziyyətə düçar olması" və "Ermənistanın blokadası" haqqında uydurduqları miflər ictimai şüura çox sürətlə sırındı. Bunun üçün Ağ Evə, Konqresə, KİV-ə təzyiq vasitələrindən istifadə olunurdu. Konqres isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Qafqaz regionu barədə məlumatları bu və ya digər dərəcədə erməni lobbistlərin vasitəçiliyi ilə əldə edirdi.





Erməni diasporunun davamlı təzyiqləri nəticəsində 1992-ci ildə ABŞ prezidenti Corc Buş "Azadlığı Müdafiə Aktı" adlı qanun layihəsini Konqresin müzakirəsinə verdi. Bu qanunun əsas məqsədi ABŞ tərəfindən keçmiş SSRİ respublikalarına göstərilən müxtəlif yardımları tənzimləmək və sistemləşdirməkdən ibarət idi. Nümayəndələr Palatasında müzakirələr zamanı ermənipərəst lobbistlər qanunun mətninə 907 nömrəli bölmənin salınmasına nail oldular. Qanun layihəsi Nümayəndələr Palatasında qəbul olunduqdan sonra Senatın müzakirəsinə verildi. 100 senatordan yalnız 4-ü bu düzəlişin əleyhinə səs verdi. "907-ci düzəliş"in Konqresdə qəbul edilməsini ABŞ-ın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində paradoksal mövqe tutması ilə əlaqələndirmək olar. ABŞ prezidenti başda olmaqla icraedici aparatın "907-ci düzəliş"ə qarşı çıxmasına baxmayaraq, qətnamə uzun illər erməni lobbisi və ermənipərəst konqresmenlərin ciddi səyi nəticəsində öz qüvvəsində qaldı. "907-ci düzəliş" açıq-aşkar torpaqlarının 20%-ni itirmiş və 1 milyondan artıq qaçqın və məcburi köçkünü olan Azərbaycana qarşı ədalətsiz münasibətin ifadəsi idi. 1998-ci ildə ABŞ Dövlət katibi Madlen Olbraytın Nümayəndələr Palatasının ayrılan məbləğlər üzrə Komitəsinin sədri B.Livinqstona ünvanladığı məktubunda "907-ci düzəliş"in Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Adminstrasiyanın bitərəfliyinə nail olunmasına, Azərbaycanda geniş iqtisadi və hüquqi islahatların aparılmasına, eləcə də Şərq-Qərb enerji nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə səyləri dəstəkləməyə mane olduğundan ABŞ-ın maraqlarına zərər vurur. "907-ci düzəliş" 1992-ci ildə qəbul edildiyi anda onun mü-

əllifləri tərəfindən nəzərdə tutulan məqsədlərə nail olmağı nəinki təmin etməmiş, eləcə də bizim məqsədlərimizi də təhlükə qarşısında qoymuşdur. Bu məktubda mən yenidən Sizi ABŞ qanununun yararsız və səmərəsiz bölməsinin-Azadlığın Dəstəklənməsi Haqqında Akta "907-ci düzəliş"in Konqres tərəfindən ləğv edilməsinə çağırıram.

Erməni diasporunun səyləri nəticəsində "907-ci düzəliş"lə yanaşı, qondarma "erməni soyqırımı"nın Konqres tərəfindən tanınması prosesi daha da sürətlənməkdədir. Ermənipərəst konqresmenlər tərəfindən dəfələrlə Nümayəndələr Palatasının gündəliyinə salınmış məsələ qızğın müzakirələrə yol açmışdır. Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı"na həsr edilmiş müzakirələr haqqında qısa hesabatında, xüsusilə F.Pallone (Nyu Cersi), B.Şerman (Kaliforniya ştatı) və C.Kennedinin (Massaçuset ştatı) çıxışlarının daha çox aqressiv xarakter daşıdığını görmüş oluruq. Hesabatda konqresmenlərin Radanoviç tərəfindən təklif edilən (21.03.1997) qondarma "erməni soyqırımı" haqqında Qətnaməsinin ən yaxın zamanda ABŞ Konqresi tərəfindən qəbul edilməsi açıq-aşkar israr edilmişdir. Konqresmen A.Pallone öz çıxışında Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi ilə bağlı ABŞ prezidentinin siyasətini də kəskin şəkildə tənqid etmişdir. O göstərdi ki, ABŞ ATƏT-in 1996-cı ilin dekabr sammitində Azərbaycanın ərazi bütövlüyünü, Dağlıq Qarabağın Azərbaycana məxsus olmasını tanımış, bununla yanaşı, Dağlıq Qarabağın öz müqəddəratını həll etmək hüququnu tanımamışdır. Ermənipərəst konqresmen hesab edir ki, ABŞ-ın münaqişənin həllinə bu cür münasibəti birmənalı şəkildə dəyişilməlidir.

XIX əsrin əvvəllərində Osmanlı ərazilərində saysız-hesabsız missioner mərkəzləri meydana gəlməkdə idi. Amerika missionerləri ilk dəfə Osmanlı imperiyasına Xarici Missiyalar üzrə Amerika Müvəkkillər İdarəsi tərəfindən göndərilmişdilər. Şimali Amerikanın ən böyük ölkəsi olan Kanadadan buraya gələn ilk missionerlər qrupunun tərkibi tacir və sənətkarlardan ibarət idi.





Osmanlı imperiyasından Kanadaya gedən erməni qruplarına missionerlər rəhbərlik edirdilər. Onlar erməni tələbələrinin və erməni protestantların Amerikaya səfərlərini maliyyələşdirirdilər. Beləliklə, ABŞ və Kanadada mövcud olan bugünkü erməni icmalarının əsası qoyulmuş oldu. Onların ardınca 1840-cı illərdə tələbələrdən ibarət növbəti dəstə Kanadaya getdi. Onlar buraya daha çox dini təhsil arxasınca gəlmişdilər. Ermənilərin inqilabçı təşkilatları Amerikada olan ermənilər arasında kütləvi iş aparır və bu məqsədlə oradan olduqca böyük maliyyə yardımları daxil olurdu. Bundan başqa, ermənilər Osmanlı imperiyasına Amerika pasportu ilə qayıtmaq imkanına malik idilər. Bu ermənilər Siyahıların (xarici vətəndaşların Osmanlı qanunları ilə məhkum olunmasına yol verməyən razılaşmalar) verdiyi üstünlüklərdən istifadə edərək öz məqsədlərinə çatmaq üçün daha açıq fəaliyyət göstərə bilərdilər. Eləcə də Amerikada olan ermənilər Amerika ictimai rəyinə böyük təsir göstərirdilər. Miqrant ermənilər daha çox Montreal və Toronto bölgələrində məskunlaşmaqda idilər. Erməni tarixçisi E. Manukyanın fikrincə, XIX əsrin sonunda ermənilərin Kanadaya kiçik miqyasda mühacirəti başladı. Ontario əyalətinin sənaye cəhətdən inkişaf etmiş Brantford, Sent-Katarins, Hamilton və digər şəhərlərində yalnız iki minə yaxın erməni yaşayırdı. Bunlar, əsasən, ABŞ-da olduğu kimi, qazanc məqsədilə gəldiklərini düşünən gənclər idi.

Kanadaya ilk gələn ermənilərlə yeni gələn ermənilər arasında narazılıqlar getdikcə güclənməkdə idi. Yeni gələn ermənilər, əsasən, Asiya və Avropanın bir sıra ölkələrindən (Livan, Suriya, İordaniya, Misir, İran) miqrasiya etməkdə idilər. I Dünya müharibəsi zamanı Osmanlı imperiyası ərazilərindən çoxlu sayda erməni Kanadaya miqrasiya etdi. Bu illərdə ölkəyə gəlib məskunlaşanlara "köklü Kanadalı ermənilər" də deyirdilər. Köç prosesi II dünya müharibəsindən sonra yenidən sürətlənməyə başladı. Belə ki, 1965-2000-ci illərdə Kanadaya axın edən ermənilər, əsasən, Monreal, Laval, Toronto, Xeymbuc, Vankuver və digər şəhərlərdə məskunlaşmışlar.

Bu gün Kanadanın müxtəlif bölgələrində yaşayan ermənilərin statistik göstəricilərinə nəzər yetirdikdə burada 60 min erməninin yaşadığını görmüş olarıq. Kanadada 2001-ci ildə əhalinin siyahıyaalınması zamanı 40 505 nəfər erməni qeydə alınmışdır. Son dövrlərdə aparılan araşdırmalar nəticəsində Kanadada 50-100 min nəfərə yaxın erməninin yaşadığı bildirilir. Bu gün ermənilərin böyük əksəriyyəti iqtisadi cəhətdən daha çox inkişaf etmiş Monreal və Toronto şəhərlərində yaşayırlar.

XIX əsrin əvvəllərindən etibarən buradakı erməni diaspor təşkilatları arasında təşkilatlanma prosesi genişləndi. Bəhs olunan dövrdə erməni icmalarının strukturu və əlaqələri daha da möhkəmlənməkdə idi. Məhz bu dövrdə ilk dəfə erməni icması burada "Qəriblər evi" təşkil etmiş və vaxtaşırı bir yerə toplaşaraq istək və adətlərinə uyğun olaraq tədbirlər keçirmişlər. 1988-ci ildə "Vətən yaddaşlarda" cəmiyyəti yaradılmış və bu qurumda fəaliyyət göstərən ermənilər Dağlıq Qarabağ və Ermənistan Respublikasına aid məsələlər ətrafında müzakirələr aparmışdır. Cəmiyyətin 9 nəfərdən ibarət Komitə üzvləri həmin ərəfədə fəallıqları ilə seçilirdilər. Eçmiədzin kilsəsi fəal Komitə üzvlərinin bəzilərini xidmətlərinə görə təsis etdiyi ordenlə təltif etmişdir.

Kanadada erməni diasporunun əsas təşkilatlarından biri də Erməni Araşdırmaları Mərkəzidir. Bu təşkilatın Kanadanın Kvebek şəhərində 2, Ontario şəhərində 1 regional mərkəzi mövcuddur. Bu mərkəzlər, daha çox universitetlərin nəzdində fəaliyyət göstərirlər. Erməni Araşdırmaları Mərkəzinin yaradılması və fəaliyyətinin əsas qayəsi qondarma "erməni soyqırımı" problemini elmi şəkildə araşdırmaq və bunun üçün konfranslar, panellər təşkil etməkdir. Erməni Araşdırmaları Mərkəzi, eyni zamanda erməni dili, geopolitik tarixi, ədəbiyyatı, mədəniyyəti ilə bağlı araşdırmalar aparmaqla məşğuldur.

Erməni mətbuatında daha çox "erməni məsələsi"nin meydana gəlməsində Qərb dövlətlərinin dəstəyi, yeni erməni diaspor təşkilatlarının yaranması, strukturu və antitürk fəaliyyəti işıqlandırılmaqdadır. Kanadada nəşr olunan qəzetlər gündəlik və həftəlik olaraq yayınlanmaqdadır. Qəzetlər və digər mətbuat orqanları burada fəaliyyət göstərən Hnçaq və daşnak təşkilatları tərəfindən dərc edilməkdədir. Bu gün Kanadanın Kvebek ştatında "ABAKA Erməni Həftəsi", "Horizon Erməniləri Həftəsi" və digər bir neçə adda qəzet nəşr olunmaqdadır. Bütövlükdə, Kanadada ermənilərə məxsus qəzet, bülleten, qısa xəbər bülleteni və jurnalların ümumi sayı 118 ədəddir. Bunlara misal olaraq "Abaqa" ("Gələcək"), "Orizon", "Nor Ayk", "Pourastan", "Toronto A.G.B.U.", "Gantegth", "Kanada Armenian Press"si qeyd etmək olar.





Müasir dövrdə Kanada ABŞ və Fransa ilə müqayisədə erməni diasporunun nisbətən zəif təşkilatlandığı ölkələrdən biridir. Kanadada erməni diasporunun fəaliyyətində aktivlik 1990-cı illərdən etibarən nəzərə çarpağa başladı. Ermənilərin aktiv antitürk fəaliyyəti aparmasının əsas səbəblərindən biri də burada türk diasporunun zəif təşkilatlanması idi. Parlamentə keçirilən seçkidə erməni diasporunun namizədi Sarkis Asaduryanın millət vəkili seçilməsi prosesi bir qədər də gərginləşdirdi. Sarkis Asaduryan Kanada hökumətinə yəhudi soyqırımı ilə bağlı konfransın keçirilməsinin labüdlüyünü xatırladır, bununla bağlı Soyqırımı Muzeyinin yaradılmasını təklif edirdi. Onun bu təklifləri Kanada hökuməti tərəfindən təpki ilə qarşılandı.

XX əsrin 90-ci illərində Kanada Parlamentində ilk dəfə soyqırımı iddiaları gündəmə gətirilmiş və parlamentin qəbul etdiyi ilk qərarda 1915-ci il hadisələri ermənilərin istəklərinin əksinə olaraq "faciəvi olaylar" kimi qəbul edilmişdir. Bundan öncə, 1980-ci ildə Kanadanın Kvebek və Ontario əyalət parlamentlərində erməni iddialarını dəstəkləyən qərarlar qəbul edilmişdi. 1999-cu ildə Kanadada Yəhudi Holokost muzeyinin açılışı zamanı daşnaklar muzeyin bir tərəfində qondarma erməni soyqırımı guşəsinin yaradılmasına çalışırdılar. Daşnaklarla yanaşı, Kipr yunanları da burada yer almaq niyyətində idilər.

2001-ci ildə Asaduryan parlamentə qondarma "erməni soyqırımı"nın tanınması ilə bağlı sənəd təqdim etdi. Lakin bu

sənəd parlamentarilərin böyük əksəriyyətinin etirazı ilə qarşılandı və gündəlikdən çıxarıldı. 2004-cü ildə həmin sənəd yenidən parlamentin gündəliyinə salındı, uzun sürən gərgin müzakirələrdən sonra 68 səs əleyhinə, 153 səs lehinə olmaqla qərar qəbul edildi. Qərarın qəbulunda Kanada Erməni Milli Komitəsi (ANCC) son dərəcə aktivlik nümayiş etdirdi. Qəbul edilmiş sənəddə "Senat 1915-ci il erməni soyqırımını tanıyır və insanlığa qarşı faciəni qınayır" kimi sərsəm ifadələr əksini tapmışdır. Türkiyə hökuməti Məclisin bu qərarını pisləmiş, Kanada firmalarının Türkiyədəki fəaliyyətinə qadağa qoyulmuşdur. Qərardan sonra 2008-ci ilin dekabr ayında Kanadanın ən böyük şəhəri olan Torontoda "Tarixdə və günümüzdə Soyqırım" adlı dərsin məktəblərdə seçmə fənn kimi keçirilməsinə başlanıldı. Məsələyə Kanadadakı türk diaspor təşkilatları sərt şəkildə etirazını bildirmiş, bununla digər müsəlman ölkələrinin də dəstəyini qazanmışdır.

2006-cı ildə Kanadada yeni iqtidara gələn mühafizəkar baş nazir Stephen Harper 24 aprel açıqlamasında erməni "soyqırımı" ifadəsini işlətdi. Beləliklə, ilk dəfə olaraq Kanada hökuməti tərəfindən "soyqırımı" kəlməsi işlədildi. Türkiyə hökuməti qərara kəskin şəkildə etirazını bildirdi. Həmçinin Türkiyə hökuməti Kanada hökumətinin diqqətinə ölkəsində ən şiddətli terror hadisəsinin türk səfirliyi qarşısında törədildiyini çatdırdı. Türkiyənin qərara digər bir təpkisi də Kanadanın bu ölkədəki səfirinin Ankaraya çağırılması oldu. Eyni zamanda 17-24 may tarixlərində Kanadada (Alberta) keçirilən NATO toplantılarına Türkiyənin qatılmaması incikliyin başqa bir formada təzahürü idi.

Cənubi Amerika ölkələrində erməni diasporunun təşkilatlanma və formalaşma prosesi Şimali Amerika ölkələrinə nisbətən bir qədər gec başladı. XIX əsrin ortalarından etibarən Yaxın Şərq regionundan, Osmanlı imperiyası ərazilərindən köçüb gələn ermənilər qitənin Argentina, Braziliya, Uruqvay, Çili kimi ərazicə böyük ölkələrində məskən salırdılar. 2008-ci ilin statistik məlumatlarına görə, Argentinada erməni diasporunun ümumi sayı 80-100 min, Braziliyada 20-25 min, Uruqvayda 15-19 min, Çilidə min nəfər qeydə alınmışdır. Bununla yanaşı, Nikaraqua, Qvatemala, Peru, Kuba, Kolumbiya, Venesuela kimi ölkələrdə də azsaylı erməni icmaları mövcuddur. Lakin bu ölkələrdəki erməni icmalarının fəaliyyəti nisbətən zəif təsir bağışlayır.





Cənubi Amerika ölkələrindəki mövcud erməni icmalarının fəaliyyəti bir çox cəhətləri ilə Qərb ölkələri ilə bənzərlik təşkil edir. Ermənilərin bir qismi Marsel-Buanos-Ayres marşurutu ilə Cənubi Amerika ölkələrinə miqrasiya etmişlər. Ermənilər ilk olaraq Argentinanın (Buanos-Ayres, Kordova), Uruqvayın (Montevidoe) və Brazilyanın (San-Paulu, Rio-de Janeyro) ən böyük şəhərlərində, eləcə də Venesuela və Çilidə məskunlaşmışdılar. Əsasən, Şərq ölkələrindən, eləcə də yenicə kommunist ideologiyasının bərqərar olduğu bir çox Avropa ölkələrindən Cənubi Amerika ölkələrinə ermənilərin mühacirəti davam edirdi. Proses 1960-cı illərdən başlayaraq səngimiş və yalnız 1990-cı illərin əvvəllərindən etibarən geniş vüsət almışdır.

Erməni tarixçilərinin və xarici ölkələrdə dərc olunan erməni mətbuatının yazdıqlarına görə, Cənubi Amerikaya ermənilərin ilk gəlişi Uruqvaydan başlamışdır. İlk dəfə buraya gələrək məskən salan ermənilər daha çox paytaxt Montevideoda yaşamağa üstünlük verirdilər. Azsaylı ermənilər burada bir küçədə yığcam şəkildə məskunlaşmış və bir müddətdən sonra yaşadıqları küçəni "Armeniya" adlandırmışlar. Ermənilər Uruqvay ermənilərini Cənubi Amerikaya ilk ayaq basanlar, "qədimdən gələnlər" kimi tanıyırlar.

Ermənilərin Uruqvaya miqrasiyasını 3 dövrə bölmək olar:

1.1800-cü illərdə gələnlər;

2.1915-1921-ci illərdə gələnlər;

3.XX əsrin sonlarında gələnlər.

Qeyd etmək lazımdır ki, 1969-cu ildə Uruqvayda 2 milyondan artıq əhali qeydə alınmışdır. Hal-hazırda Uruqvayda əhalinin ümumi sayı 3,5 milyon nəfərdən artıqdır. Verilən məlumatlara görə, bəhs olunan dövrdə Uruqvayda ermənilərin ümu-

mi sayı 10 min nəfərə yaxın idi. Bu gün Ermənistanın diaspor təşkilatının rəsmi sənədlərində, Uruqvayda 19 000 erməni yaşadığı qeyd olunur. Müasir dövrdə Uruqvay əhalisinin 85%-i şəhərlərdə yaşayır. Yerli əhalinin 10%-i metislər, zəncilər və mulatlardan ibarətdir. Ermənilər isə burada azlıq təşkil edirlər. Xristianlıq ölkədə hakim din olduğundan ermənilər burada daha rahat şəkildə hərəkət edirlər.

XIX əsrin sonlarında Uruqvayda erməni diasporunun özəyi artıq xırda-xırda icmalar şəklində formalaşırdı. İcmaların sosial tərkibi daha çox tacir və sənətkarlardan, həmçinin missioner təşkilatlar tərəfindən buraya oxumağa göndərilən tələbələrdən ibarət idi. Erməni ideoloqu G.G.Pirumyan "Diaspordakı daşnaqlar" adlı əsərində diasporun sosial tərkibi haqqında yazırdı: "Koloniyaları olmayan və yüz minlərlə erməni kəndlisinin yaşadığı Türkiyə xaric, Avropa və Amerika koloniyalarının sosial tərkibi burjuaziya və ticarətçilərlə yanaşı, erməni tacirləri, otel xidmətçiləri, satıcı və onların ətrafında olan doktorlar, vəkillər, hər cinsdən iş adamı; budur erməni köçkünlərinin əsas xarakterik fiqurları.

XX əsrin əvvəllərində Uruqvayda ermənilərin ilk siyasi təşkilatları yaranmağa başladı. 1921-ci ilin aprelində burada Kommunist partiyasının şöbəsi yarandı və daha çox partiyanın erməni əsilli üzvləri ilə sıx əlaqələr quruldu. Bu gün digər Latın Amerikası ölkələrində olduğu kimi, Uruqvayda da Cənubi Amerika Erməni Milli Komitəsi bütün diaspor təşkilatlarını vahid mərkəzdən idarə etməkdədir və bu istiqamətdə digər ölkələrdəki diaspor təşkilatlarının dəstəyini qazanmaqdadır.

XX əsrin 60-cı illərindən etibarən bütün dünyada olduğu kimi Uruqvayda da antitürk təbliğatı genişlənməyə başladı. 20 aprel 1965-ci ildə paytaxt Montevideoda qondarma "erməni soyqırımı" rəsmi şəkildə tanındı və hətta 1915-ci il hadisələri zamanı "tələf" olanların xatirəsinə abidə də ucaldıldı. Bu addımı atmaqla Uruqvay qondarma "erməni soyqırımı"nı dünyada rəsmi şəkildə tanıyan ilk dövlət kimi tarixə düşmüş oldu. Bu azmış kimi 1975-ci ildə erməni kilsəsinin bağçasında soyqırımı abidəsi ucaldıldı.





2004 və 2005-ci illərdə Uruqvay Parlamenti erməni iddialarını tanıyan yeni qərarlar qəbul etdi. Bu dövrdən etibarən Uruqvayda erməni diasporunun antitürk fəaliyyətində aktivlik hiss olunmağa başladı. 2005-ci ilin oktyabr ayında Uruqvay Parlamentinin Təmsilçilər Məclisinin 70 üzvünün iştirakı ilə yayınladığı bəyanatda Türkiyəni Ermənistanla diplomatik əlaqələr qurmağa və Ermənistanla bağlı qalan sərhədlərin açılmasına çağırışlar edildı.

Müasir dövrdə yəhudi diasporunda olduğu kimi, Uruqvaydakı erməni diasporunda da Vətənə geri dönüş romantizmi hakimdir. Ermənistanı heç görməmiş və ya turist səyahəti ilə görmüş olan bir çox erməni üçün vətən tez-tez gözəlləşdirilməkdə və gerçəkləşməmiş xəyal və ümidlər üçün həsrət yuvasına çevrilməkdədir.

Son zamanlar Uruqvayda erməni lobbisinin fəaliyyətində türk dünyasına,ələlxsus da Azərbaycanın ərazi bütövlüyünə, Dağlıq Qarabağa qarşı yeni "siyasi əməliyyat" hazırlanmışdır. 2011-ci ilin sentyabrında Uruqvayın Xarici İşlər naziri doktor Luis Dağlıq Qarabağın müstəqilliyini tanıyacaqları barədə sərsəm fikirlər də səsləndirmişdir.

Təbii-coğrafi şəraiti, sahəsi və əhalisinin sayına görə Cənubi Amerikada ikinci böyük dövlət olan Argentinada ermənilərin məskunlaşma prosesi bir neçə onilliklər ərzində davam etmişdir. Ölkəyə ermənilərin ilk gəlişi XX əsrin əvvəllərinə təsadüf edir. Bəhs olunan dövrdə Argentinada 40 minə yaxın erməninin yaşadığı haqqında məlumat verilir. Xüsusilə, 1923-1938-ci illərdə ölkəyə xeyli miqdarda erməni köçüb gələrək burada "Armeniya" adlı qəzet nəşr etdirmiş və məktəblər açmışdılar. Nəticədə qısa zaman müddətində, paytaxt Buanos-Ayresdə 30 mindən artıq erməni məskunlaşmışdı. Yerdə qalan 10 min ermənının isə ölkənin müxtəlif şəhər və qəsəbələrində yaşadığı haqqında məlumatlar mövcuddur. Qeyd edək ki, ermənilər buraya italyan,

litvalı və ukraynalılarla birlikdə gəlmiş və müəyyən müddətdən sonra onlarla qaynayıb-qarışmışlar. Bu dövrdən başlayaraq ermənilər öz dillərini itirməyə başladılar. Yalnız yaşlı ermənilər, az da olsa, öz dillərində danışmağa üstünlük verirdilər. Ölkədə hakim dil ispan dili olduğundan ermənilərin əksəriyyəti bu dildən ünsiyyət vasitəsi kimi istifadə edirlər.

XX əsrin 30-cu illərində Argentinada erməni diasporunun strukturu formaşmağa başladı. Burada ilk erməni təşkilatı 1937-ci ildə yaradılmış "Cənubi Amerikada Birinci Erməni Patriarxallığı" adlı cəmiyyət idi. Sonrakı dövrlərdə, daha dəqiq desək, 1986-cı ildə "Argentina Ermənilərinin Milli Qurultayı"ndan sonra isə proses daha da sürətləndi. Erməni diasporunun fəal üzvləri 1961-1980-ci illərdə Buanos-Ayresdə "Yercanik huys" ("Xoşbəxtlik ümidi") adlı jurnal nəşr etdirdilər. Bununla yanaşı, paytaxt Buanos-Ayresdə "Erməni Mərkəzi" fəaliyyət göstərirdi ki, burada toplaşanların da böyük əksəriyyəti erməni həyat tərzinə üstünlük verirdilər. Bu dövrdə təsis edilmiş yeni qurumlara misal olaraq "Argentina-Erməni Mədəniyyət İnstitutu", "Erməni Mədəniyyət Cəmiyyəti", "Erməni Məsələsini Cənubi Amerikada Tanıtma Mərkəzi"ni və s. qeyd etmək olar. Təşkilatalar təsis edildikləri tarixdən etibarən xüsusi olaraq Türkiyə və türklük əleyhinə geniş təbliğat işi aparmaqdadırlar.

Bütövlükdə, Rusiya, Yunanıstan, Livan kimi ölkələrdəki diaspor təşkilatları bəhs olunan dövrdə Şimali və Cənubi Amerika ölkələrindəki erməni təbliğatını başlatmaq, dəstəkləmək və idarə etmək siyasətini həyata keçirirdi.

Hal-hazırda Argentinada ermənilərin sayı barədə KİV-də müxtəlif rəqəmlərə rast gəlinir. Ölkə üzrə erməni diasporunun ümumi sayı bəzi erməni mətbuatında 80 min, bəzilərində isə 130 min nəfər göstərilir. Ermənilərin daha çox məskunlaşdıqları şəhərlər isə Buanos-Ayres və Kardobadır. Bu şəhərlərdə məskunlaşan ermənilərin əksəriyyəti Osmanlı dövründə Anadoludan və Suriya bölgəsindən köç edənlərdən formalaşmışdır. 1947-1954-cü illərdə Suriya və SSRİ-dən gələn çoxsaylı erməni Argentina-





nın müxtəlif şəhərlərində məskunlaşdı. Köçüb gələn ermənilərin 75%-dən çoxu paytaxt Buanos-Ayres və ətrafında məskunlaşdı ki, bu da onların fəaliyyətini bir qədər də asanlaşdırdı.

Müasir dövrdə Argentinadakı erməni diaspor təşkilatlarının fəaliyyətində bir canlanma hiss olunmaqdadır. Antitürk təbliğatını lazımi səviyyədə qurmuş erməni diasporu təşkilat, dərnək və siyasi partiyaların imkanlarından maksimum dərəcədə faydalanmaqdadır. Yüksək təbliğat və psixoloji təsirə malik bu qurumların cəmiyyət tərəfindən dəstəklənmə proqramı işlənib hazırlanmışdır. Proqram təşkilatlanma+hərəkətlilik, təşkilatlanma+kampaniya, kampaniya+təşkilatlanma zəncirvari ideya təbliğat işinin həyata keçirilməsindən ibarətdir. Bu fəaliyyətin, ilk növbədə, elm, təhsil və digər tədqiqat mərkəzlərində, rabitə-informasiya vasitələrində və beynəlxalq təşkilatlarda həyata keçirilməsi nəzərdə tutulmuşdur. Argentinada erməni diasporunun daha da güclü olmasına çalışan qüvvələrə dövlət təşkilatları tərəfindən açıq və gizli formada dəstək verilməkdədir. Argentina parlamentinin 2003-cü ildə qondarma "erməni soyqırımı"nı tanıması bunu bir daha təsdiq edir.

XX əsrin 60-90-cı illərində Argentinanın bir sıra iri şəhərlərdə qondarma "soyqırımı" abidələri ucaldılmağa başlandı. Paytaxt Buanos-Ayresdə ilk soyqırımı abidəsi 1961-ci ildə, ikinci soyqırımı abidəsi isə 1985-ci ildə inşa edildi. Bu proses sonrakı illərdə də davam etdirildi və nəticədə 1990-ci ildə Buanos-Ayresdə Anma Hovuzu, 1996-cı ildə Kardoba şəhərində soyqırımı abidəsi ucaldıldı.

XX əsrin 80-90-cı illərindən başlayaraq Argentinada fəallaşan erməni lobbisinin aktiv fəaliyyəti nəticəsində hökumət 1985, 1994, 2004 və 2005-ci illərdə 1915-ci il olaylarının "soyqırım"ı olaraq qeyd olunduğu deklerasiya və qərarlara imza atmışdır. 17 aprel və 19 iyun 1985-ci ildə Argentina Məclisinin qəbul etdiyi qərarlarda BMT-nin qondarma "soyqırım"ın beynəlxalq aləmdə tanıdılması məqsədilə çağırışlar etməsi tövsiyə olunmuşdur. 31 mart 2004-cü il tarixli Argentina Milli Senatının

hazırladığı deklorasiyada 1915-ci il hadisələri "XX yüzilin ilk soyqırımı" kimi tanınmış, daha sonra 1,5 milyon ermənin Türkiyə tərəfindən 1915-1918-ci illər arasında öldürüldüyü iddia edilmişdir. 2006-cı ilin oktyabr ayında Argentina Təmsilçilər Məclisinin 24 aprel tarixini "erməni soyqırımı" gününə xalqlar arasında sayğı və sevgi günü" elan etməsi Türkiyənin haqlı narazılığı və təzyiqləri ilə üzləşdi. Türkiyə XİN-nin bəyanatında bu kimi halların iki ölkə arasında inkişaf etməkdə olan əməkdaşlığa böyük zərbə vuracağı qeyd olunmuş və Senatdan müzakirələrə son qoyulması tələb edilmişdir. Ancaq Senat 13 dekabr 2006-cı ildə səs çoxluğu ilə qərar qəbul etmiş və hətta 24 apreli erməni əsilli tələbələr və iş adamları üçün milli tətil günü elan etmişdir. Qərarın qəbul edilməsinə Türkiyənin cavabı özünü çox gözlətmədi və sabiq baş nazir Rəcəb Tayib Ərdoğan Argentina Prezidenti Nestor Kirchnerə ünvanladığı məktubda Türkiyənin baş verən hadisələrə görə narahatlığını bildirmiş və qərarın ləğv edilməsini tələb etmişdir. Lakin bu tələblərin nəticəsiz qalması Türkiyə hökumətini dərindən sarsıtmış və xalqlar arasında inciklíyin əsası qoyulmuşdur. Türkiyə dövləti tərəfindən atılmış ilk ciddi addım nazir Mehmet Aydının bu ölkəyə edəcəyi işgüzar səfərin təxirə salınması idi. Maraqlısı ondan ibarətdir ki, 2006-cı il 24 apreldə düzənlənmiş anım tədbirinə Buanos-Ayres baş patriarxı Kardinal Jorge Mario Bergoglio rəhbərlik etmiş və Türkiyə hökumətini ilkin şərt olmadan 1915-ci il olaylarını "soyqırım"ı olaraq tanımağa çağırmışdır.

Cənubi Amerikanın geniş əraziyə, təbii-coğrafi şəraitə və gözəl iqlimə malik ən böyük ölkəsi olan Braziliya da çoxmillətli ölkələr siyahısındadır. Burada iqtisadi həyat sürətlə inkişaf etdiyindən qonşu ölkələrdən, habelə okeanın o tayından müxtəlif vaxtlarda əhali axını baş vermişdir. Buranı özlərinə məskən seçən xalqlardan biri də ermənilərdir. Avropa və Amerika ölkələrində dərc edilən bir sıra mətbuat səhifələrində ermənilərin buraya ilk dəfə Uruqvay və Belçikadan gəldiyi qeyd olunurdu. Erməni mətbuatının verdiyi məlumata görə, ermənilərin Braziliyada məskunlaşma tarixi 1890-ci illərdən sonrakı dövrə təsadüf edir. O zaman buraya ilk ayaq basan erməniləri "pionerlər" də adlandırırdılar.





Birinci dünya müharibəsindən, eləcə də ermənilərin Şərqi Anadolu ərazilərindən digər ərazilərə köçürülməsi nəticəsində onların müəyyən bir hissəsi Latın Amerikası ölkələrinə, o cümlədən də Braziliyaya köçüb gəldilər. 1924-cü ildə Braziliyada ilk Konstitusiya qəbul olunandan sonra bir çox ölkələrdən buraya əhali axını başladı. Bəhs olunan dövrdə Braziliyaya Fransa, Livan, Türkiyə və Suriyadan gəlmiş mühacir ermənilərin əksəriyyəti pinəçilik, dərzilik, dəri aşılama, aşpazlıq, paltaryumaqla məşğul olurdular. Ermənilər ilk olaraq San-Pauluda, daha sonra isə digər şəhərlərdə (Altıno, Ozasko, Prezidente) məskunlaşmağa başladılar.

Müasir dövrdə Brazilyada erməni diaspor təşkilatları tərəfindən portuqal və erməni dillərində bir neçə adda qəzet və jurnal nəşr olunur. Bunlara misal olaraq "Hayastanı dzaynı" ("Ermənilərin səsi"), "Tribun Armeniya" ("Erməni Tribunası"), "Dziadzan" ("Göy qurşağı") və s. göstərmək olar.

1950-1960-cı illərdə aparılan hesablamalara görə, Brazilyadakı erməni icmasının sayı 12 min, hal-hazırda isə 40 min nəfərdir. Bu gün bəzi məlumatlara əsasən, Braziliyanın Xarici İşlər Nazirliyində milliyyətcə erməni olan 12 diplomat çalışır. 2007-ci ildə İrəvanda Braziliya səfirliyinin açılışından sonra iki ölkə arasındakı mövcud əlaqələr daha da genişlənmişdir. Nəticədə Ermənistanın Gümrü şəhəri ilə Braziliyanın Ozaska şəhəri qardaşlaşmış şəhərlər elan edilmişdir. Ozaskada Eçmiədzin kilsəsinin maliyyə dəstəyi ilə "Xaçkar" abidəsi qoyulmuşdur. Eyni zamanda "Zarqatsman Arsalyus" kilsəsində erməni məktəbi də fəaliyyətə başlamışdır. San-Paulu şəhərindəki meydanlardan birinə "Ermənistan" adı verilmiş və burada erməni klubu açılmışdır. 2012-ci ildə San-Pauluda "Ermənilərin izləri Braziliyada" adlı elmi konfrans və sərgi təşkil edilmişdir. Eyniadlı tədbir İrəvanda da təşkil edilmişdir.

Ermənilərin bu ölkədə təsis etdikləri "Brazilahayer" təşkilatının topladığı ianələr hesabına din xadimlərinin məsləhətilə Dağlıq Qarabağın Ağdərə rayonunda məktəb inşa edilmişdir. Məktəb inşa olunsa da, burada şagirdlərin sayının azlığı açıq-aşkar hiss olunur. "Brazilahayer" təşkilatı Ermənistan Respublikası və Dağlıq Qarabağın erməni icmasına vəsait ayırmağı oranın vətəndaşı olmaqdan daha üstün hesab edir. Məhz buna görədir ki, son illərdə Braziliyadan Ermənistana bir nəfər də olsun erməni köç etməmişdir.

Cənubi Amerikanın qərbində yerləşən Çilidə də erməni diasporu təşkilatlanmış halda fəaliyyət göstərir. Ümumi sayları min nəfərdən artıq olan erməni diaspor nümayəndələri "Cənubi Amerika Erməni Milli Komitəsi" ətrafında birləşmişdir. Lobbiçiliklə məşğul olan bu təşkilat 5 iyun 2007-ci ildə Çili Parlamentində qondarma "erməni soyqırımı" ilə bağlı müzakirələr keçirmiş və nəticədə Senat hökuməti Soyqırımı tanımağa çağırmışdı. Qeyd edək ki, həmin sənəd Sosialist Partiyasının üzvü Ricardo Nunies tərəfindən hazırlanmışdı. Xüsusilə sənəddə "Türk Hökuməti erməniləri 24 aprel 1915-ci ildə həbs etməyə başladı və bu torpaqlarda yüz illərdir yaşayan 1,5 milyona qədər ermənini 1915-1923-cü illərdə məhv etdi" kimi sərsəm ifadələr yer almışdır. Qərarda bir sıra dövlətlərin qondarma "erməni soyqırımı"nı tanımaları xatırladılaraq analoji addımın Çili hökuməti tərəfindən də atılması vacib hesab edilmişdir. Qərar qəbul olunduqdan sonra Türkiyə Çili hökumətinə etirazını bildirmiş və qərarın hər iki ölkənin mövcud əlaqələrinə ağır zərbə vuracağı xatırladılmışdır.

Beləliklə, istər Şimali Amerika, istərsə də Latın Amerikası ölkələrindəki erməni diaspor təşkilatlarınının strukturu, fəaliyyəti və əlaqələri Qərb ölkələrindəki diaspor təşkilatları ilə müqayisədə daha dinamik və çevik xarakter daşıyır. Eyni zamanda bu təşkilatlar Azərbaycan və Türkiyəyə qarşı terrorçu, təxribatçı fəaliyyətlərini daha da genişləndirməkdə, malik olduqları bütün təbliğat mexanizmindən maksimum dərəcədə yararlanmaqdadırlar.





## *2.5. Cənub-Şərqi Asiya ölkələrində və Avstraliyada erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyəti*

Asiya qitəsinin cənubunda yerləşən və əhalisinin sayına görə yalnız Çindən geridə qalan, çoxmillətli, dini mənsubiyyətinə görə rəngarəng Hindistana ermənilərin nə zaman və necə gəldikləri haqqında əlimizdə dəqiq məlumatlar yox dərəcəsindədir. Lakin ilk erməni tacirinin təxminən 780-ci illərdə Malabar limanına ayaq basdığı haqqında bir çox mənbələrdə məlumatlara rast gəlmək mümkündür. Sonrakı əsrlərdə buraya köç edən tacir və sənətkarlardan ibarət kiçik erməni dəstələri başlıca olaraq sənətkarlıq, ticarət və sələmçiliklə məşğul olur, satış bazarları ilə məşhur iri şəhərlərə, ticarət yollarının kəsişdiyi məntəqələrə üstünlük verirdilər. Göründüyü kimi, digər xalqlar kimi ermənilərin də Hindistana mühacirəti, ilk növbədə, iqtisadi, dini və siyasi amillərlə bağlı olmuşdur. XV-XVI əsrlərdə Hindistanda daş-qaş və gümüş ticarəti ermənilərin əlində cəmləşmişdi.

Mənbələr göstərir ki, ermənilərin Hindistana kütləvi axını XVI əsrə təsadüf edir. Bu dövrdə ticarət sahəsində əlverişli mühitin yaradılması məqsədilə erməni tacirləri ticarət evləri inşa edirdilər ki, bunların əsasında da erməni icmaları formalaşırdı. Erməni ticarət evləri, əsasən, ələ keçirdikləri (Surat və Madras) kapitulyasiya bölgələrində genişlənməkdə idi. Erməni tacirlərinin ticarət marşurutları İran və Hindistandan Portuqaliya və Fransaya qədər uzanırdı. Qeyd edək ki, portuqaliyalı dənizçi Vosqo de Qama 1498-ci ildə Hindistanda olarkən orada xırda erməni toplumuna rast gəlmişdir. Babur imperiyası dövründə bu ölkədəki azsaylı erməni toplumuna bir sıra imtiyazların verilməsilə onların sosial vəziyyəti daha da yaxşılaşdırıldı.

XVII əsrin əvvəllərindən etibarən Hindistan və digər Cənubi-Şərqi Asiya ölkələrinə qarşı qarətçilik siyasəti yürüdən İn-

giltərə üçün ermənilər çox yaxşı vasitəçi ola bilərdi. Bölgəni çox yaxşı tanıdıqları və dil problemi olmadıqları üçün ermənilər ingilislərə könüllü surətdə yardım etməklə İngiltərənin şərq ticarətində mühüm pay sahiblərinə çevrilmişdilər. Ermənilərin Şərqlə ticarətində başlıca yeri ipək, qumaş və ədviyyat məhsulları üstünlük təşkil edirdi. Beləliklə, ermənilər İngiltərə ilə Hindistan arasındakı ticarətdə daha çox Maniçestr-Kəlkütta xəttində önə çıxmağı bacardılar. Bəhs olunan dövrdə ermənilərin ingilislər üçün başlıca xidməti Osmanlı ərazilərindən keçən beynəlxalq quru ticarət yollarının ingilislərin nəzarəti altındakı Ümid burnuna doğru uzanan dəniz yolları ilə birləşdirmək idi. Bunun əvəzində ermənilər öz təhlükəsizliklərini ingilislərə həvalə etmişdilər. XVII əsrin sonlarında (1688) erməni tacirlərinin yuxarıdakı "xidmətləri" də nəzərə alınaraq Kral fərmanı (Royal Charter) ilə təltif edilmiş və "İngiltərənin azad vətəndaşları" (Free Citizens of England) statusuna layiq görülmüşlər. İngilis-erməni əməkdaşlığı 1947-ci ilə–Hindistanda ingilis ağalığının sona çatdığı dövrə kimi davam etmişdir. Bundan sonra ermənilərin əksəriyyəti bu ölkəni tərk etmək məcburiyyətində qalmışlar. Hal-hazırda İngiltərə ermənilərinin erməni kilsəsi ilə əməkdaşlığı sayəsində Hindistandakı erməni varlığını davam etdirməyə çalışmaqdadırlar.

Ermənilər Hindistanın, əsasən, Şimal və Qərb ərazilərində, Benqaliya sahillərində, Mədrəs, Dehli, Aqra və Kəlkütta şəhərlərində məskən salmışdılar. Bu gün Hindistanın Qərbi Benqaliya əyalətinin paytaxtı, Şərqi Hindistanın ən böyük şəhəri, mədəniyyət və ticarət mərkəzi Kəlküttədə 150 nəfərdən artıq xırda erməni icması mövcuddur. Qeyd edək ki, Hindistandakı erməni icmasına məxsus ilk kilsə Əkbər şahın (1556-1602) dövründə açıldı. Kəlküttədəki erməni icmasına məxsus ilk kilsə isə XVIII əsrin əvvəllərində inşa edilmişdir. 1965-ci ildə inşa edilmiş Müqəddəs Ohannes erməni kilsəsi Qərbi Benqaliyadakı ikinci böyük xristian kilsəsidir. Bütövlükdə, bu gün Hindistanda erməni icmasına





məxsus 5 kilsə mövcuddur ki, onlardan da 3-ü Kəlküttədə yerləşir.

XIX əsrin ortalarında ticarətdə bir sıra uğurlar qazanmış ermənilər ləl-cəvahirat, dəyərli daş-qaş, qumaş məhsullarının Hindistan, Çin və digər Uzaq Şərq ölkələrinə satışında ön plana çıxmışdılar. "Ost-Hind" şirkəti Hindistana girişini asanlaşdırmaq üçün 1688-ci ildə ermənilərlə müqavilə bağladı. Müqaviləyə görə, ermənilər öz mallarını heç bir ödəniş etmədən ingilis gəmiləri vasitəsilə daşınmasına nail olurlar. Bu yolla ermənilərin Hindistanda məskunlaşma prosesi daha da sürətləndi.

Ermənilərin məskunlaşdıqları ərazilərdən biri də ölkənin qərbində yerləşən Malabar sahilləridir. Hələ XV əsrdə portuqaliyalılar Malabara gəldikləri zaman erməni əsilli Tomas Cana adlı bir erməni keşişinə rast gəlmişlər. Qumaş ticarəti ilə məşğul olan keşiş şəxsi hesabına Malabarda bir məktəb və xaricində kilsə (1668-ci ildə) tikdirmişdir. "Müqəddəs Tomasın xristianları" adlı bu kilsə Hindistandakı ilk xristian kilsəsindən biridir. XV əsrdə portuqaliyalılar tərəfindən Müqəddəs Tomas kilsəsinə bağlı minlərlə xristian katolik məzhəbinə daxil edilmişdir. Qeyd edək ki, hələ VIII əsrdən başlayaraq Mədrəsə gələn ermənilər bu şəhərdə 1504-cü ildən sonra burada xırda icmalarda birləşməyə başladılar. Portuqaliyalı səyyah Alberto de Mandelso 1638-1640-cı illərdə şəhərə gəldiyi zaman erməni tacirlərə rast gəldiyini qeyd edir.

Hindistanda ilk erməni mətbəəsi 1772-ci ildə erməni icmasının ən varlı üzvlərindən biri Yakop Şahamiryan tərəfindən Mədrəsdə açıldı. Bir müddət sonra Mədrəsdə keşiş Aratun Şumovan tərəfindən ikinci mətbəə də açıldı. 16 oktyabr 1794-cü ildə burada "Azdarar" ("Xəbərçi") adlı erməni dilində ilk qəzet çap edildi. Qəzet 1796-cı ilin fevral ayında maddi çətinliklərlə əlaqədar olaraq fəaliyyətini dayandırdı. Bütövlükdə, 1794-1863-cü illər ərzində Mədrəsdə 11 adda ermənidilli qəzet yayınlanırdı ki, onlardan da ən çox oxunanı 1845-ci ildən çap edilən "Araratyan" qəzetidir. Qəzet və dərgilər Mədrəsdə erməni məhəlləsində

yerləşən "Armenian Street" ("Erməni küçəsi") mətbəsində çap edilirdi.

XVIII əsrdə mətbəə işinin inkişafı kitab çapının genişlənməsinə şərait yaratdı. Erməni gənclər arasında erməniçiliyin əsaslarını özündə əks etdirən "Təşviq" adında ilk ideoloji kitab 1772-ci ildə Mədrəsdə çap edilmişdi. Şumovanyan tərəfindən yazılan kitab 1789-cu ildə erməni dilinə tərcümə edilmişdir.

Bu gün Mədrəsdə "Armenian Street"də yerləşən Müqəddəs Məryəm ana kilsəsi isə 1772-ci ildə keçmiş erməni məzarlığının yanında inşa edilmişdir. Əlavə edək ki, kilsənin yanında türbə də inşa edilmişdir. Hindistandakı erməni icmasının öndə gələn simaları Khojah Petrus Voskandan əlavə Şahamir Şahamiryan, Hagop Şahamiryan, Ağa Samuyel Mığırdiç, Marat və Edvard Paphael gəlməkdədir. İcmanın tanınmış, zəngin erməniləri olan bu insanlar öz sərvətlərini Hindistandakı erməni diaspor təşkilatlarının təşəkkülü və inkişafına xərcləməklə xidmət etmişdir. Qeyd edək ki, Murat Rafaelyan məktəbi Ağa Samuyel Mığırdiç Murat və Edvard Paphael tərəfindən inşa edilmişdir.

1780-ci illərdən başlayaraq burada ingilis-erməni qarşıdurmaları erməniləri bu əraziləri tərk etməyə məcbur etmişdir. Bir çox ermənilər Mədrəsi tərk edib Nigapatanı, Seringapatanı və Masulipatanı şəhərlərində məskən saldılar, yerdə qalanların bir qismi isə yenidən Mədrəsə qayıtdılar. Masulipatanda məskunlaşan ermənilər şəhərdə kisə inşa etdirsələr də, XIX əsrin ortalarında buradan İndoneziya və Malayziyaya köç etdilər. XX əsrin əvvəllərində Mədrəsdə yaşayan ermənilərin sayı 25-30 ailədən ibarət olmuşdur. Bu gün şəhərdə kilsəyə baxan erməndən başqa erməni qalmamışdır. Qeyd edək ki, Cənubi Hindistanın ən böyük şəhəri Heydərabadda bir çox erməni məzarlığı mövcuddur.

XIX əsrdən etibarən Hindistanda erməni diasporunun strukturu artıq formalaşmağa başladı. Məhz bu dövrdə erməni sahibkarlar tərəfindən yeni-yeni məktəblər, kolleclər, idman klubları, siyasi təşkilatların şöbələri və s. yaranmağa başladı. Belə təhsil müəssisələrindən biri Erməni Kolleci və Xeyirsevərlər Akademiyasıdır ki, burada İran, İraq və Ermənistandan gələn gənclər təhsil alırdılar. Erməni Milli Xeyirsevərlər Dərnəyinin hesablamalarına görə, 1961-ci ildə kollecdə təhsil alan şagirdlərin sayı 206 nəfər olduğu halda, 1998-ci ildə bu rəqəm 6 nəfərə düşmüşdü. 2014-cü ilin məlumatlarına görə, 60 şagirdin təhsil aldığı məktəbdə sadəcə iki hindistanlı erməni qalmış, digər 58 erməni şagird isə İran, İraq və Ermənistandan gələnlərdən təşkil olunmuşdu. Qeyd etmək lazımdır ki, Hindistanın Kəlküttə şəhərində indiyə qədər fəaliyyət göstərən digər təhsil müəssisəsi olan Erməni Humanitar Gimnaziyası Yeni Culfadan (Nor Cuqa) olan varlı tacirlərdən birinin vəsiyyətinə əsasən 1821-ci ildə yaradılmışdır. Həmçinin 1815-ci ildə Bombeydə, 1821-ci ildə Kəlküttədə fəaliyyətə başlayan erməni kolleclərində başlıca olaraq gənclərdə təhsilə marağın daha da artırılması, erməni dili və ədəbiyyatının təbliği və antitürk təbliğatı sistemli şəkildə tədris olunurdu. 1890-cı ildə burada ilk erməni idman klubu da fəaliyyətə başladı.

Məlumat üçün bildirək ki, XIX əsrin sonunda təkcə Kəlküttədə 33 nəfər erməni vəkil fəaliyyət göstərirdi. Məhz bu dövrdən başlayaraq burada çox böyük sərmayə sahibləri və bankir erməni zümrəsi meydana gəldi. 1813-cü il Britaniya parlamentinin qərarı və 1857-ci il Sipahilər üsyanından sonra ticarət sektorunun hökumətin nəzarətinə keçməsi ilə erməni əhalisinin sayında kəskin azalma qeydə alınmış, xüsusilə Hindistan və Pakistanın müstəqil dövlətlərə çevrilməsindən sonra ermənilərin əksəriyyəti Avstraliyaya və ABŞ-a köç etdilər. Hal-hazırda bir milyarddan artıq əhalisi olan Hindistanda bütün xristianların ümumi sayı 2,4%-dir.

Ermənilərin Hindistanda kütləvi şəkildə məskunlaşdığı şəhərlərdən biri də Aqradır. Moğol imperatorluğu dövründə ipək yolları üzərində yerləşən paytaxt Aqranı böyük bir ticarət mərkəzinə çevirən Əkbər şah erməniləri bu şəhərə dəvət etmişdir. Əkbər şah erməni icmasının təhlükəsizliyi üçün hər cür

şərait yaratmış, hətta öz vəsaiti hesabına ermənilərə bir kilsə (1562-ci ildə) də tikdirmişdir.

Bu gün Əfqanıstan ilə Hindistan arasında yerləşən mühüm ticarət mərkəzi olan Kəşmirdə də azsaylı erməni icması mövcuddur. Maraqlıdır ki, Əkbər şahın baş tərcü-məçisi olmuş Domingo Pires adlı erməni şahın əmri ilə 1579-cu ilin sentyabr ayında Goa limanına portuqaliyalılarla dini mövzuların müzakirəsinə göndərilmişdi. Əkbər şahın ermənilərə olan bu xoş münasibəti, etibarı nəticəsində Aqra şəhəri ermənilər üçün önəmli bir mərkəzə çevrilmişdir. Əkbər şahın fərmanı ilə digər əcnəbilərin şəhərə girişi qadağan edilmiş, bütün əhalidən illik 10%-lik vergi alındığı halda, ermənilər idxal və ixrac etdiyi mallara görə vergi ödəməkdən azad edilmişdilər. Hətta Cahangir şahın hakimiyyəti dövründə xalqdan illik 15%-lik vergi alındığı halda, erməni tacirlərdən yalnız 5%-lik vergi tələb olunurdu.

Moğol imperatorluğunun ikinci ən böyük şəhəri Dehli 1739-cu ildə Nadir şahın hücumları nəticəsində dağıntılara məruz qalmış və şəhərdəki azsaylı erməni icması buranı tərk etmək məcburiyyətində qalmışdır. Hal-hazırda 15 milyondan artıq əhalisi olan şəhərdə azsaylı erməni icması mövcuddur.

1722-ci ildə əfqan tayfalarının dağıdıcı basqınları Yeni Culfa (Nor Cuqi) sakinlərinin köç etməsinə gətirib çıxardı. Onlar Hindistan, İndoneziya, Birma və digər ölkələrdə məskən salaraq, mövcud icmaların inkişafına təkan verir və ya yeni icmalar yaradırdılar.

Cənub-Şərqi Asiya ölkəsi Birmada ermənilərin ilk məskunlaşma prosesi geniş vüsət aldı. Qeyd etmək lazımdır ki, XVII əsrdə Birma ilə Mədrəs adasındakı ticarət ermənilərin əlində cəmləşmişdi. İngilislərin 1750-ci ildə Birmaya nəzarəti ələ keçirməsi nəticəsində ermənilərin mövqeləri xeyli sarsıldı. Bəhs olunan dövrdə ermənilərin Sumatra və Çin dənizi adalarında məskunlaşması da qeydə alınmışdır. Sinqapurun bir sıra əraziləri ingilislər tərəfindən (1819) işğal edildikdən sonra ermənilərlə ingilislər arasındakı münasibətlər tədricən yaxınlaşmağa başladı.





Bu gün Avstraliyanın Sidney şəhərində 10 min, Melbrunda isə 3 min 500 nəfərdən ibarət azsaylı erməni icması mövcuddur. Həmçinin Adelaidə, Perth və Brisban şəhərlərində ümumilikdə 15 mindən artıq erməni icması mövcuddur.

Ermənilərin Hindistan və digər Cənub-Şərqi Asiya ölkələrindən fərqli olaraq Avstraliyaya kütləvi şəkildə köçü XX əsrin 60-cı illərinə təsadüf edir. Bəhs olunan dövrdə Misir və Suriyadakı qeyri-sabit vəziyyət, 1975-ci ildə Livanda vətəndaş müharibəsinin alovlanması və digər səbəblərdən bu ölkələrdən Avstraliyaya kütləvi surətdə erməni köçü başlandı. Maraqlıdır ki, Avstraliyaya ilk ayaq basan ermənilərin sosial tərkibi yalnız tacir və sənətkarlardan ibarət olduğu halda, sonrakı illərdə (Misir, Suriya, Livan) müəllim, həkim və mühəndislərdən ibarət erməni dəstələri də köç etmək məcburiyyətində qaldılar. Miqrant ermənilər buradakı siyasi sabitlikdən mümkün qədər yararlanaraq iri şəhərlərdə məskən salırdılar. Ermənilər, əsasən, Cənubi Galler bölgəsində və Sidneydə kompakt şəkildə məskunlaşdılar. 2006-cı il Avstraliyada əhalinin siyahıyaalmasına görə, qitədəki türklərin sayı (59.404 nəfər) Kiprli türklər də daxil olmaqla 61 min, süryani və kaldanilər 24.505 nəfər, ermənilər isə 15.191 nəfər təşkil etmişdir. Hal-hazırda Avstraliyada 30 min nəfərdən ibarət erməni icması mövcuddur.

Avstraliyada erməni diasporunun sturukturu XX əsrin 80-ci illərində daha da möhkəmləndi. Məhz bu dövrdə qitənin müxtəlif şəhərlərinə səpələnmiş erməni icmalarına məxsus iri təşkilatlar, dərnəklər və s. meydana gəlməyə başladı. Belə qurumlara misal olaraq Avstraliyadakı ən böyük erməni diaspor təşkilatı olan "Armenian National Committee of Australianı" (ANCA) qeyd etmək lazımdır. ANCA Avstraliyadakı erməni icmasına hərtərəfli dəstək olmaqla yanaşı, diaspor təşkilatları qitənin siyasi həyatına aktiv şəkildə qatılması və bu ölkə ilə Ermənistan arasında mədəni, iqtisadi və təhsil sahələrində yaxın əlaqələrin qurulmasında maraqlıdır. Qondarma "erməni soyqırımı"nın dünyada tanıdılmasını qarşısına məqsəd qoyan ANCA bu mövzuda

Macquire Universiteti Soyqırım Araşdırmaları Mərkəzi ilə birlikdə fəaliyyət göstərməkdədir. Belə ki, 1997-ci ildə Güney Galler Əyalət Parlamentində qondarma "erməni soyqırımı"nı pisləyən qərar qəbul edildi. Parlamentin digər qərarı ilə 5 mart 1999-cu ildə paytaxtın mərkəzi meydanlarından birində erməni soyqırımı abidəsi qoyuldu. ANCA Ermənistan və Avstraliya parlamentariləri arasında əlaqələrin qurulmasında maraqlıdır. Bu istiqamətdə ilk addım 2001-ci ilin avqust ayında atıldı və Ermənistan-Avstraliya parlamentlərilərindən ibarət Dostluq Qrupu yaradıldı.

Avstraliyadakı digər güclü diaspor təşkilatlarından biri olan "Avstraliya Erməni Xeyriyyə Təşkilatı" (Armenian General Benevolet Union of Australia (AGBU) 1960-cı ildən fəaliyyət göstərməkdədir. Təhsil sahəsində təkmilləşən bu təşkilat digər sahələrdə də öz fəaliyyətini genişləndirməkdədir. Erməni kilsəsinin imkanlarından ya-rarlanmağa çalışan təşkilat erməni icmasının Avstraliyaya inteqrasiya olunmasında, milli kimliyin qorunmasında önəmli bir vasitəçiyə çevrilməkdədir. Erməni icması Avstraliyada öz mövcudluğunu qoruyub saxlamaq üçün kilsə tikintisini bu gün də davam etdirməkdədir. Media sektorunda da mühüm mövqelərə yiyələnmiş Avstraliya erməniləri 1994-cü ildən yayınlanan, həftədə 2,5 saat yayın edən ARM TV adında bir televiziya kanalına da malikdirlər.

Avstraliyadakı erməni diaspor təşkilatlarının özünəməxsus xüsusiyyətindən biri də siyasi təşkilatlanma işinin yüksək səviyyədə qurulmasıdır. Erməni diaspor təşkilatları arasında güclü sosial-iqtisadi dayaqlara malik Daşnaksütyun və Ramqavar-Azatakan partiyaları terrorçuluq fəaliyyətilə məşğul olmaqla mənfur, iyrənc məqsədlərinə mərhələ-mərhələ nail olmaqdadırlar. 1970-ci illərin ortalarından etibarən erməni terrorçu təşkilatları türk diplomatlarına, missiyalarına və təşkilatlarına qarşı açıq-aşkar terror aktları həyata keçirdilər. Cinayəti törədən terrorçu təşkilatlar, o cümlədən Ermənistanın Müstəqilliyi üçün Erməni Gizli Ordusu-ASALA, JCAG öz qəddar cinayətlərini ört-basdır etməyə çalışırdılar. 17 dekabr 1980-ci ildə Sidneydə Şarik Arıyak və Engin Severin ölümü ilə nəticələnən cinayət aktı Erməni Soyqırımı Ədalət Komandoları adlı terrorçu təşkilat tərəfindən həyata keçirildi. Qanlı terror aktı Türkiyədə kütləvi etirazlara səbəb olsa da, Avstraliya mətbuatı heç nə olmamış kimi diqqətini buradakı türk və erməni icmaları arasındakı gərginliyin daha da alovlandırılmasına yönətmişdi.





Avstraliya dövləti ilə Ermənistan arasında ilk diplomatik münasibətlər 15 yanvar 1992-ci ildə quruldu. O zaman iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin yenicə qurulmasına baxmayaraq, ikitərəfli münasibətlərdə zəif dinamika nəzərə çarpırdı. Hətta Avstraliya ilə qondarma "Dağlıq Qarabağ Respublikası" arasında qeyri-qanuni olaraq görüşlər keçirildi. 3 iyun 1999-cu ildə qondarma "DQR"-in Mədəniyyət, İdman və Gənclər naziri Armen Sarkisyanın bu ölkəyə səfərindən əsas gözləntilər Avstraliyanın bölgəyə investisiya qoyuluşu ilə bağlı idi. Göründüyü kimi, Avstraliya hökuməti terrorçu, tanınmamış qondarma "DQR"-sı ilə əlaqələr qurmaqla, ilk növbədə, beynəlxaql hüququn prinsiplərini kobud şəkildə pozmuş, eyni zamanda Azərbaycana qarşı açıq-aşkar etinasızlıq nümayiş etdirmişdir.

Yeni Güney Galler parlamenti 25 oktyabr 2012 tarixində qəbul etdiyi qərarla qondarma "Dağlıq Qarabağ Respublikası" daxil olmaqla bütün xalqların öz müqəddəratını təyin etmək haqqını tanıdığını bildirmiş və Federal Hökumətdən qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyinin tanınmasını istəmişdir.

Ermənistanın Xarici İşlər naziri Edvard Nalbandyan bu qərarın Dağlıq Qarabağın beynəlxalq aləmdə tanınması yolunda cığır açacağını bildirmişdi. Maraqlıdır ki, Ermənistan Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınmasını istədiyi halda, özü bunu indiyə qədər tanımamışdır. Başlıca səbəb kimi Ermənistanın "DQR"-in müstəqilliyini tanıyacağı təqdirdə Azərbaycan Minsk qrupundan imtina edəcək, gərginlik artacaq və çox güman ki, müharibə yenidən başlayacaqdır. Azərbaycan hökuməti

bununla bağlı Avstraliya hökumətinə nota vermiş, cavabında hökumətin Dağlıq Qarabağı müstəqil ölkə kimi tanımadığını, əksinə, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını qeyd etmişdi.

Avstraliyadakı erməni diaspor təşkilatlarının dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığında başlıca məqsəd qondarma "erməni soyqırımı"nı tanıtmaq, Ermənistanın da bu prosesdə iştirakını təmin etmək, qondarma "DQR"-in müstəqilliyinə nail olmaqdan ibarətdir. Bu günə qədər qondarma "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanınması məsələsi Avstraliyada müxtəlif səviyyələrdə müzakirə edilmişdir. Belə ki, 1915-ci il olaylarına abidələrin qoyulması və soyqırımı iddiaları ilə əlaqədar ilk qərar 1997-ci ildə Yeni Cənubi Galler Parlamentində qəbul edilmişdir. Qərarda "erməni soyqırımı" və digər soyqırımlar pislənmiş və soyqırımların inkar edilməsi qınanmışdır. Həmçinin qərarda 1,5 milyon ermənininin əsrin ilk soyqırımı qurbanlarına çevrildiyi 24 aprel gününün Yeni Güney Gallerdə anılması məqsədilə Federal hökumətdən "erməni soyqırımı"nın rəsmən tanınması tələb olunmuşdur. Ikinci qərar 10 il sonra digər əyalətdə Güney Avstraliyada Əyalət Parlamenti tərəfindən 30 aprel 2009-cu ildə qəbul edilmişdir. Bu qərarla sadəcə ermənilərin deyil, eyni zamanda rum (Pont), süryani və Kiçik Asiyanın digər xalqlarının soyqırıma məruz qaldığı iddia edilmiş və qınanmışdır. Qəbul edilmiş qərara Türkiyənin təpkisi özünü çox gözlətmədi. Türkiyə Xarici İşlər Nazirliyinin açıqlamasında bunun erməni diasporu və lobbisinin davamlı təzyiqləri nəticəsində edildiyini və türk-Avstraliya xalqları arasında mövcud dostluq əlaqələrinə zərbə vuracağı öz əksini tapmışdı. Digər tərəfdən, Avstraliya səfiri Ankaraya çağrılaraq bu cür olayların baş verməsinə görə hökumətin haqlı olaraq narahatlıq hissi keçirdiyini vurğuladı. 1997-ci ildə Yeni Güney Galler Məclisi qondarma "erməni soyqırımı" iddialarını tanıyarkən bu qərarın qəbul edilməsi və parlamentin bağçasında soyqırımı abidəsinin qoyulmasına səy göstərən əyalət baş naziri Bob Carren yeni vəzifədə erməni məsələsinə qarşı çıxması və bu hadisənin tarixi bir müba-





hisə mövzusu olduğu və Avstraliya hökumətinin bununla bağlı hər hansı bir qərar qəbul etməyəcəyi fikri burada erməni diasporun ən güclü siyasi təşkilatı-Daşnaksütyunun bərk qəzəbinə tuş gəlmişdir.

Avstraliyadakı Türkiyə səfirliyi və Sidneydəki Türkiyə baş konsulluğu 1915-ci il hadisələri ilə əlaqədar apardıqları təbliğatlara baxmayaraq, Güney Galler parlamentinin öz qərarından imtina etməməsi Ankaranı bərk qəzəbləndirmişdi. Türkiyə Xarici İşlər Nazirliyinin 7 may 2013-cü ildə 133 saylı açıqlamasında Avstraliya hökumətindən qərarın ləğvinə dair qeydlər öz əksini tapmışdır. Avstraliya hökumətinin bu ilginc qərarına qarşı ölkədəki türk xalqları arasında birlik daha da möhkəmlənmişdi. Nəticədə 18 iyun 2013-cü ildə Türkiyə, Azərbaycan, Şimali Kipr və Mərkəzi Asiyanın türk respublikalarından gəlmiş mühacirlərdən ibarət 2000 nəfərlik qrup parlament binası önündə protest etmiş və "tarixi tarixçilərə buraxın", "Parlament qərar verəcək bir məhkəmə deyildir" kimi şüarlar səsləndirilmişdir.

2012-ci ildən etibarən Avstraliyada ermənilərə və Osmanlının digər xristian xalqlarına qarşı soyqırım törədildiyi iddiaları getdikcə güclənməkdədir. Bu məqsədlə 20 may 2012-ci ildə Cənubi Avstraliya Əyalətinin Salisbury şəhərində süryani, pontus rumları və qondarma "erməni soyqırımı" qurbanları üçün memorial abidənin açılışı olmuşdur. Tədbirdə hər üç icmanın ziyalıları, kilsə xadimləri və bəzi əyalət təmsilçiləri iştirak etmişdilər. Burada xristianlara qarşı törədilmiş cinayət halları kəskin şəkildə pislənmiş və dünya dövlətlərini bu kimi cinayət aktlarına biganə qalmamağa dair çağırışlar edilmişdir. Göründüyü kimi, Avstraliya dövləti Türkiyəyə və Azərbaycana qarşı antitürk, antimüsəlman maraqlarından çıxış edərək iki türk dövlətinin beynəlxalq imicinə, mövqeyinə sarsıdıcı zərbə vurmaqdadır. Lakin bu gün həm Türkiyənin, həm də Azərbaycanın yüksələn xətlə inkişafı onun maraqlarını sona qədər qorumaq və haqq səsini eşitdirmək imkanlarını daha da gücləndirməkdədir.

# III FƏSİL

## ERMƏNİ DİASPORUNUN ANTİTÜRK FƏALİYYƏTİNİN SİYASİ-STRATEJİ HƏDƏFLƏRİ

### *3.1. Erməni diasporunun antitürk fəaliyyətində qondarma "erməni soyqırımı" iddiaları*

Orta əsrlərin tarixi ziddiyyətləri ilə dolu olan Avropanın sosial-siyasi mənzərəsi artıq XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən daha da gərginləşdi. İri kapitalist dövlətlərin müstəmləkələr uğrunda apardıqları amansız mübarizə dünya müharibəsini qaçılmaz etdi. Antanta blokuna daxil olan dövlətlərin Üçlər İttifaqına qarşı vahid cəbhədə mübarizə aparması sonda birincilərin şəksiz qələbəsi ilə başa çatdı. Osmanlı imperiyası ərazilərində aparılan intensiv əməliyyatlar zamanı erməni millətçi ekstremistləri və onlara havadarlıq edən böyük dövlətlərin səyləri nəticəsində qoca, uşaq, cavan demədən 517 min 890 nəfərin həyatına son qoyulmuş və 100 minlərlə insanın taleyi haqqında məlumatlar bilərəkdən məhv edilmişdir. Son dərəcə amansızlıqla həyata keçirilmiş soyqırıma bu və ya digər formada rəvac verən böyük dövlətlər nəinki bu hadisələri qınamış, hüquqi-siyasi qiymət vermiş, cinayətkarlar öz layiqli cəzalarını almış, əksinə, hadisələrin mahiyyəti bilərəkdən ört-basdır etdirilmişdir. Bunun əksinə olaraq ermənilərin türklər tərəfindən məhv edilməsi kimi sərsəm iddialar ortalığa atılmış, 1915-ci il hadisələri "erməni soyqırımı" kimi dəstəklənmişdir. Bütövlükdə, yüz ildir ki, ermənilər dünya ictimaiyyətini 1915-ci il hadisələrini onlara qarşı törədilmiş "soyqırımı" olduğuna inandırmağa çalışırlar. Əfsuslar olsun ki, yüz ildir ki, Qərb ictimaiyyəti bu çirkin təbliğatın girdabına yuvarlanmış, alternativsiz, zərərli informasiyaların təsiri altına düşmüşdür.





Məlumdur ki, sultan hökuməti imperiyanın şərq ərazilərinin təhlükəsizliyini tam təmin etmək və nəzarəti gücləndirmək məqsədilə bir sıra qabaqlayıcı tədbirlər görməkdə idi. Osmanlı ərazilərinə qarşı ruslarla birgə dağıdıcı hücumlara hazırlaşan erməni dəstələrinə rəhbərlik edənləri zərərsizləşdirmək məqsədilə 1915-ci il aprelin 24-də DİN-nin sərəncamı ilə İstanbul və digər böyük şəhərlərdə erməni təşkilatları dərhal bağlanmalı, rəhbərləri isə həbs edilməli idi. Bu sərəncam əsasında 2345 nəfər həbs edildi. O dövrün şahidlərinin verdiyi ifadələrə əsasən, 600 nəfər erməni yazıçısı, şairi, jurnalisti, siyasətçisi, həkimi, vəkili, hüquqşünası, müəllimi, alimi və ruhanisi həbs edildi. Erməni hərəkatına rəhbərlik edən "beyinlərin" zərərsizləşdirilməsi ilə nəticələnən həbslər erməni millətçi ekstremistlərini bərk narahat edirdi. Məhz bu tarixdən etibarən ermənilər aprelin 24-nü qondarma soyqırımı günü kimi qeyd edirlər.

Görkəmli amerikan tarixçiləri Castin və Karolin Makkartilərin əsərlərində qeyd olunduğu kimi, 1914-1915-ci illərdə erməni qiyamına qarşı Osmanlı hökumətinin cavabı qiyamçı bölgənin sakitləşdirilməsində klassik Yaxın Şərq taktikasının-deportasiyanın tətbiqindən ibarət oldu. Van qiyamından sonra, 27 may 1915-ci ildə Osmanlı dövlətinə xəyanət etmiş qiyamçı ermənilərin imperiyanın cənub ucqarlarına köçürülməsini nəzərdə tutan "Sefer zamanında hökumətin icraatına qarşı gələnlər üçün ordu tərəfindən alınacaq önləmlər hakkında Geçici Kanun" qəbul edildi. Amerikalı hüquqşünas-tarixçi alim Samyuel A. Uimzin qeyd etdiyi kimi, yüz illər birlikdə yaşayandan sonra özlərini satqın və xain kimi aparanlara qarşı özünü müdafiə edən millətin yeganə çıxış yolu bu idi. Qərarın mətni 1 iyun 1915-ci ildə Takvimi Vekayidə dərc edildi. Qeyd edək ki, tarixşünaslığa "Köçürülmə haqqında" qanun kimi daxil edilən sənədin heç bir maddəsində erməni kəlməsi işlədilməmişdir. Halbuki bəzi Qərb və erməni müəlliflərin iddia etdikləri əsas məsələ, guya, hökumətin çıxardığı bu qanunun birbaşa ermənilərə şamil edilməsidir.

1918-ci ildə İstanbulun İngiltərə və müttəfiqləri tərəfindən işğal edilməsi, Osmanlı idarəetmə sisteminin tamamilə nəzarətə götürülməsi və İttihad və Tərəqqi hökumətinin ən fəal üzvlərinin qondarma "erməni soyqırımı" törətməkdə "təqsirkar" bilinərək Malta adasına sürgün edilməsi daxildəki gərginliyi bir qədər də artırdı. İngilislər ermənilərin "soyqırımı" iddialarını sübut etmək məqsədilə Osmanlı arxiv sənədləri və digər ölkələrin arxivlərini ciddi surətdə yoxladılar. Tarixçi S.Haciyevin qeyd etdiyi kimi, erməni millətçilərinin istifadə etdikləri başlıca "dəlil" Osmanlı imperiyasının Daxili İşlər naziri olmuş Tələt paşaya aid edilən saxta teleqramlar seriyası idi. İttihad və Tərəqqi hökumətinin 150 nəfərə yaxın yüksək rütbəlisini hərbi cinayətdə günahlandırmaq üçün Maltada həbsdə saxlayan ingilislər bu kobud saxtakarlığı rədd etdilər. Krallıq prokurorluğu ikiillik ciddi təhqiqatdan sonra kimi isə hərbi cinayətdə günahlandırmaq üçün əsas olmadığına görə ittihamdan imtina etdi və bu şəxslərin qondarma "erməni soyqırımı"nın təşkilində günahkar olmadıqlarını bir daha təsdiq etmiş oldu.

1919-cü ildə Paris sülh konfransında, sonra isə 20 noyabr 1920-ci ildən başlayaraq 23 aprel 1923-cü ilə qədər davam edən Lozanna konfransında erməni diasporunun fəal üzləri ilə yanaşı, onlara bu işdə havadarlıq edən İngilis-Erməni Komitəsinin erməniпərəst üzvləri Viscount Bryce, Qladston, Lord Robert Çörçil, Arnold Toynbi və digər fəal lobbistlərin apardığı yorulmaz mübarizə də heç bir nəticə vermədi. Qeyd edək ki, Lozanna konfransında Avropada geniş və güclü şəbəkəyə malik erməni diasporunun və lobbisinin davamlı təzyiqləri nəticəsində 20 noyabr 1922-ci ildən başlayaraq 4 fevral 1923-cü ilə qədər davam edən birinci dövrədə təşkil edilmiş ikitərəfli və üçtərəfli görüşlərdə başlıca olaraq "erməni yurdu", 23 aprel-23 iyul 1920-ci il tarixləri arasındakı ikinci dövrədəki görüşlərdə isə "soyqırımı" ilə bağlı məsələlər müzakirə edildi və Türkiyədən xarici ölkələrə köç edən ermənilərin geri dönməsi ilə bağlı türk hökumətinin razılığı alındı. Həmçinin Lozanna sülh konfransında erməni nümayəndə heyyətinə rəhbərlik etmiş Eçmiədzin katolikosunun səlahiyyətli nümayəndəsi Poqos Nübar paşa müharibə zamanı 700 min ermənininin başqa ölkələrə köç etdiyini, 280 mininin hələ də Türkiyədə yaşadığını bildirmişdi. Poqos Nubarın məruzəsindən aydın olmuşdur ki, müharibə və köçlər nəticəsində 320 min erməni tələf olmuş, 390 mini isə sağ qalmışdır. Onun digər iddiasına görə, Osmanlı hökuməti köçürülən ermənilərin təhlükəsizliyini lazımi səviyyədə təşkil etməmişdir. Lakin köçürülən ermənilərin yollarda qorunmaları, onlara edilən hücumların qarşısının alınması ilə əlaqədar DİN-dən Ərzurum Vilayətinə göndərilən şifrəli teleqram bu iddiaları tamamilə alt-üst edir. Teleqramda qeyd olunur ki, yolun uzun olmasına baxmayaraq, onların köçürülməsi, hərəkəti, mühafizəsi tamamilə dövlətin nəzarətindədir. Onlara qarşı hücum edən dəstələr isə ciddi şəkildə cəzalandırılacaqdır.

I Dünya müharibəsindən sonra sultan hökuməti köç etdirilmiş ermənilərin geri dönməsi haqqında "Geri Dönüş Qanunnaməsi"ni imzaladı. Nəticədə köçürülmüş on minlərlə erməni ailələri yenidən öz əvvəlki yurdlarına qayıtmaq imkanı əldə etdilər. Türk tarixçiləri geri dönənlərin sayının 500 mindən artıq olduğunu qeyd edirlər. Qısa müddət ərzində onların sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı hökumət tərəfindən bir sıra mühüm qərarlar qəbul edildi. Geri dönən ermənilərin ən yoxsul hissəsinə yardım edilməsi ilə bağlı DİN-dən Ankara vilayətinə göndərilmiş şifrəli teleqramda qeyd olunurdu ki, geri dönən ermənilərdən ən yoxsul olanlara digər köçkünlər kimi böyüklərə 3 quruş, uşaqlara 60 lirə pul verməyi və onların qidalanması, geyim məqsədilə 20 gün müddətində müavinətlərin verilməsi ilə bağlı qərar qəbul edilmişdir. Dövlət bu işə külli miqdarda maaliyə vəsaiti ayırmaqla problemin qısa vaxt ərzində həllinə çalışırdı. Lakin ölkəyə qayıtmaqdan imtina edən on minlərlə erməni dünyanın inkişaf etmiş digər kapitalist ölkələrinə üz tutdular.

Məlum olduğu kimi, 20-30-cu illər Avropa tarixşünaslığına "rəngli kitabların savaşı" kimi daxil olmuşdur. Bəhs olunan

dövrdə Qərb dövlətləri tərəfindən "erməni soyqırımı"na ədalət" adı altında aparılan çirkin kampaniya çərçivəsində yazılmış kitablar, çəkilmiş sənədli və bədii filmlər, çızılmış xəritələr sürətlə yayılmaqda idi. Əsassız erməni yalanları ilə zəngin olan nəfis tərtibatlı bu kitablar sürətlə Avropa ictimaiyyətində rezonans doğurmağa başladı. Xəyanətkar etnosun qərbdə ən böyük himayədarı olan ingilis imperializmi, başda ermənipərəst lobbist Arnold Toynbi olmaqla Türkiyəyə qarşı geniş miqyaslı psixoloji müharibəyə təkan verildi. 1916-cı ildə İngiltərə Xarici İşlər Nazirliyinin rəsmi yayınlar orqanı Lord Brisin başçılıq etdiyi "Ermənistanı Dirçəltmək Komitəsi" ilə birlikdə Türkiyədə ermənilərlə rəftar barədə yalançı şahidlərin hekayələrindən ibarət "Mavi kitab"ı nəşr etmişdir. Qeyd edək ki, "Mavi kitab"ı tanınmış alim və dövlət xadimi, Böyük Britaniyanın ABŞ-da keçmiş səfiri Ceyms Brays, dünya şöhrətli təbliğatçı və jurnalist Arnold Toynbi və yüksək rütbəli amerikan məmuru F.Masterman tərtib etmişdilər. Müəllifi olduqları "Mavi Kitab"ı yazmaqla onlar, Avropada ilk dəfə olaraq qondarma "erməni soyqırımı"nın törədildiyini "yalançı fakt"larla sübut etməyə cəhd göstərdilər. Onlar, ermənilərin əvvəlcə 600 min, sonrakı illərdə isə 1,5-2 milyon nəfərinin qətlə yetirildiyini iddia edirdilər. Tarixçi S.Hacıyev Toynbinin sonralar "Mavi kitabı"n hərbi təbliğat məhsulu olduğunu etiraf etdiyini qeyd edir. Göründüyü kimi, kitabın əsas müəllifləri ilə yanaşı, bəhs olunan dövr Qərbin tanınmış siyasətçi və diplomatları olan Edvard Qrey, lord Robert Sesil, Sprinq-Rays, senator Eli Rut və digərləri kitabın nəşri və erməniləri müdafiə kampaniyasında heç də müəlliflərdən az canfəşanlıq göstərmirdilər. Əslində, bu məşhur şəxslərə nə ermənilər, nə də ki onların uydurduqları saxta miflər lazım deyildi. Tanınmış Qərb tarixçisi Eriq Fayqlın təbirincə desək, onların başlıca məqsədi beynəlxalq ictimaiyyətin diqqətini qondarma "erməni soyqırımı""na yönəltməklə, ingilis hakim dairələrinin İrlandiyada törətdikləri kütləvi qırğınlardan yayındırmaq və ən başlıcası ABŞ-ın müharibəyə girməsini sürətləndirmək idi. Müharibədən sonra





Qərb dünyasının Bolduin, Askvit, Makdonald, Bakston kimi tanınmış siyasətçiləri dəfələrlə etiraf etmişdilər ki, "Mavi kitab" ABŞ-ın müharibəyə girməsini sürətləndirdi və bu işə ciddi təkan verdi. Müəlliflər isə külli miqdarda pul qazandılar, varlandılar və bütün dünyada tanındılar.

Minilliklər boyu özünü mədəniyyətin daşıyıcısı və hamisi kimi tanıtmış türk kimliyi artıq bəhs olunan dövrdən başlayaraq Avropada, eləcə də dünyada çirkin üsullarla alçaldılmaqda idi. "Mavi kitaba cavab" adlı əsərin müəllifi Türkkaya Ataöv həmin kitaba istinad edərək yazır: "Xristian bir toplum üçün müsəlman boyunduruğuna bağlı idarəçiliyin təsiri altında qalmaq olduqca təhlükəlidir. Türk irəliləməyə niyə bu qədər can atır? İrəliləməyə dönük ermənilərin bu qədər təqib olunması, cəzalandırılması bizlərdə iyrəncliklə qarşılanır.

Bəhs olunan dövrdə rəngli kitabların savaşı özünün kulminasiya nöqtəsinə çatmışdı. Sovet-türk-daşnak hökumətləri bir-birilərini ittiham etmək üçün bu üsuldan daha geniş şəkildə istifadə edirdilər. Belə ki, sovetlərin "Qızıl Kitab"ı daşnakların 1919-cu ildə Rastovda rus dilində nəşr etdirdikləri "Qırmızı Kitab"a cavab olaraq yazılmışdır. Daşnakların hazırladıqları "Qırmızı Kitab" isə İttihad və Tərəqqi hökumətinin hazırladığı "Bəyaz Kitab"a ("Erməni Komitelerinin Amal ve Harakati İhtilaliyesi" kitabı nəzərdə tutulur. T.C) cavab olaraq yazılmışdır. Qeyd edək ki, Paris sülh konfransına hazırlıq ərəfəsində erməni Qriqor Çalquşyan tərəfindən yazılan və daşnaklar tərəfindən yüksək səviyyədə qiymətləndirilən "Qırmızı Kitab" Avropa ictimaiyyəti üçün ingilis və fransız dillərində də nəşr edildi. Kitabda əsassız olaraq türklərin, azərbaycanlıların və gürcülərin barbar xalq olduğu vurğulanır və Avropa mədəniyyətinin davamı olaraq bölgədə yeganə sivil toplum kimi ermənilər təbliğ edilirdi. Burada türklərlə yanaşı, gürcü xalqının da təhqir edilməsinə cavab olaraq gürcü menşevik hökuməti 1920-ci ildə "Qırmızı Kitab"ı nəşr etdirdi. Gürcü Menşevik hökumətində Kənd Təsərrüfatı naziri postunu tutan P.P.Qeloyşvilinin imzasıyla işıq üzü görmüş ki-

tabda erməni vəhşilikləri pislənmiş, daşnakların türklərə və azərbaycanlılara, eləcə də etnik gürcülərə qarşı cinayətkar əməlləri çılpaqlığı ilə ifşa edilmişdir.

Bəzi erməni tarixçilərinin iddialarına görə, I Dünya müharibəsi dövründə Türkiyədə 1,5 milyon erməni soyqırımın qurbanı olmuşdur. Məlumdur ki, müharibə ərəfəsində Anadoluda 1,3 milyon nəfərdən çox erməni yaşamamışdır. Hələ 1830-cu ildə Osmanlı dövlətində keçirilmiş ilk siyahıyaalmaya diqqət yetirsək, Anadoluda 2 100 000 müsəlman, 400 000 xristianın yaşadığını görmüş olarıq. Həmçinin bəhs olunan dövrdə bir sıra Qərb müəlliflərinin əsərlərində və araşdırma mərkəzlərinin hesabatlarında Anadoludakı ermənilərin sayı barədə müxtəlif rəqəmlərə rast gəlmək mümkündür. Osmanlı rəsmi statistikasına görə, 1914-cü ildə Osmanlı əhalisi 18 520 016 nəfərdən ibarət idi və ümumi erməni əhalisi 1 294 851 nəfər təşkil edirdi. Bütövlükdə, erməni əhalisi ümumi əhalinin 6,9%-ni təşkil edirdi.

I Dünya müharibəsi ərəfəsində Anadoluda 1.161.169 nəfər qriqoriyan, 67.838 nəfər katolik, 65.844 nəfər protestant erməni yaşayırdı. Qeyd edək ki, bəhs olunan dövrdə Osmanlı əhalisinin ümumi sayı və bu əhali kütləsi içərisində ermənilərin sayı heç bir mübahisə obyekti ola bilməz. Çünki o zaman əhalini siyahıyaalan statistik şəbəkənin başında yəhudi, erməni, amerikan əsilli məmurlar dayanırdı. Məsələn, Osmanlı imperiyasında "erməni məsələsi"nin olduqca ciddi bir problemə çevrildiyi 1897-1903-cü illərdə statistik idarəyə Mıkırtıç Sinabyan adlı bir erməni məmuru başçılıq edirdi.

Görkəmli türk tarixçisi Kamuran Gürünün gəldiyi qənaətə görə, I dünya müharibəsi ərəfəsində bütün dünyadakı ermənilərin ümumi sayı 3 milyon nəfərdən ibarət idi ki, bununda çox az bir hissəsi Anadoluda yaşayırdı. Britaniya ensiklopediyasının 1910-cu il nəşrində dünyadakı erməni əhalisinin ümumi sayı 2.900.000, Türkiyədəki erməni əhalisinin isə 1.500.000 nəfər olduğu qeyd edilmişdir. İstanbul patriarxlığının 1912-ci ilə aid statistikasına görə, 6 vilayətdə (Ərzurum, Van, Bitlis, Harput, Diyarbəkir, Sivas) 1.018.000 erməni yaşayırdı. Qərb müəlliflərindən Hovanesyan isə bəhs olunan dövrdə Anadoludakı erməni əhalisinin sayını 1.5-2 milyon arasında qeyd edir. Digər erməni müəllifi Pastırmacıyana görə, 2 100 000 nəfər, Jacques de Morqana görə, 2 380 000 nəfər, Vahan Vartabetə görə, 1 263 000 nəfər, Constensona görə, 1 400 000 nəfər, Walkerə görə, 1,5-2 milyon nəfər, Ravensteinə görə, 760 000 nəfər, Clair Price görə, 1 500 000 nəfər, A. Powellə görə, 1 500 000 nəfər, Lynchə görə, 1 325 000 nəfər, Cuinetə görə, 1 475 000 nəfər təşkil edirdi.





Qondarma "erməni soyqırımı" mövzusunda bir sıra dəyərli əsərlərin müəllifləri olan türk tarixçilərinin əsərlərində 1915-1916-cı illərdə 600-700 minə yaxın ermənininin yerinin dəyişdirildiyi qeyd olunmuş, bu məqsədlə büdcədən külli miqdarda vəsait də ayrılmışdır. Bu barədə türk tarixçisi Kamuran Gürün yazır: 1915-ci ilin may ayının sonlarından başlayaraq 1916-cı ilin 16 fevralınadək davam etmiş və ümumilikdə 9 ay müddəti ərzində hökumət erməni köçkünlərinin işini asanlaşdırmaq üçün istənilən vasitələrə əl atmışdır. Bu məqsədlə 702 900 nəfərə qədər əhalinin köçürülməsi üçün ilkin olaraq büdcədən 25 milyon lirə xərclənmişdir. Müəllif 1916-cı ilin oktyabr ayının sonuna qədər 86 milyon lirə xərcləndiyini qeyd etməklə ilin sonuna qədər bu məbləğin 150 milyon lirəyə çatdığını qeyd etmişdir. Hökumətin qabaqlayıcı tədbirlərinə baxmayaraq, ölüm-dirim mübarizəsi aparan Osmanlı dövlətinin sərhədləri daxilində 2 milyon müsəlmanla yanaşı, 300 min nəfər ermənininin bir qismi xəstəliklərdən və pis hava şəraitindən ölmüşdür. Rus ordusu içərisində vuruşub ölən 180.000 erməni də bura daxildir. Həmçinin "Britannica Encyclopedia"nın 1918-ci ilki nəşrində ölən ermənilərin sayı 600 min olaraq qeyd edilir, 1968-ci ilin nəşrində isə bu rəqəm 1,5 milyon olaraq göstərilmişdir. Fransız tarixçisi Jord de Malevil bu barədə yazır: "Köçürmələr zamanı baş verən itkilər həm də Osmanlı ordusunun arxa cəbhəsindəki təchizat pozğunluğu və ardı-arası kəsilməyən erməni təxribatlarından qaynaqlanırdı. Məhz bu çətinliklərin və təchizatdakı pozğunluğun nəticəsində

cəbhədəki minlərlə türk əsgərləri də acından, lazımı tibbi yardımın çatışmamasından və yolxucu xəstəliklərdən ölürdülər". Eyni zamanda bir sıra Qərb müəlliflərindən Stenford Corc Şou, Eriq Fayql, Samyuel A. Uimz və digərləri 1914-1921-ci illərdə 2,5-2,7 milyon nəfər dinc müsəlman əhalisinin qətlə yetirildiyini qeyd edirlər. Göründüyü kimi, bütün qaynaqlar və çoxsaylı araşdırmalar birmənalı olaraq sübut edir ki, 1915-ci ildən bəri gündəmə gətirilən "erməni soyqırımı" iddiaları da 1878-ci ildən bəri müzakirəyə çıxarılan "erməni məsələsi" kimi, Qərb diplomatlarının ortaya atdığı siyasi yalandan başqa bir şey deyildir. Tarixçi Ş.Məmmədovun qeyd etdiyi kimi, bu yalan Qərb dövlətlərinə və ermənilərə I dünya müharibəsi və ondan sonrakı ilk illərdə, xüsusilə də Lozanna konqresi zamanı, özlərinin Osmanlı əhalisinə qarşı törətdikləri cinayətləri ört-basdır etmək, Türkiyə hökumətini sıxışdırmaq, yeni güzəştlərə məcbur etmək məqsədilə uydurulmuşdur.

Ermənilərin "soyqırımı" iddialarının yalan və uydurma olduğunu görkəmli Qərb tarixçilərindən Castin Makkarti, Karolin Makkarti, Stenford Corc Şou, Samyuel A.Uimz, Jorj de Malevil, Eriq Fayql və digərləri qəti şəkildə inkar etməkdədirlər. Beləliklə, 1915-ci il Anadoluda baş verən hadisələrin genosidlə heç bir əlaqəsinin olmadığı qənaətinə gəlmiş Castin və Karolin Makkartilərin fikrincə, Şərqi Anadoluda hökumət tərəfindən təşkil olunmuş hər hansı bir genosid olmamışdır. Osmanlıların hərəkətlərini nəzərə alaraq genosid haqqında əmrin mövcud olduğuna inanmaq çətindir. Niyə İstanbulda, İzmirdə, imperiyanın Avropa hissəsində, digər bölgələrdə yaşayan on minlərlə erməni genosidə məruz qalmamışdır? Onlar sağ-salamat qaldılar və heç bir yerə sürgün edilmədilər. Kimsə deyə bilər ki, osmanlılar bu barədə arzuolunmaz məlumatın yayılmasından çəkindikləri üçün həmin ermənilərə toxunmadılar. Lakin bu artıq baş vermişdi. Türklərin öldürülməsinə göz yuman Qərb mətbuatı öldürülmüş ermənilərin sayını olduqca şişirdərək yaymışdı. Əgər osmanlılar bütün erməniləri məhv etmək istəyirdisə, nə üçün onların sağ qalmasına imkan verirdilər. Ən inandırıcı sübut isə ondan ibarətdir ki, deportasiya olunmuşların çoxu sağ qalmışdı. Digər amerikan hüquqşünası Samyuel A. Uimz "Ermənistan terrorçu "xristian" ölkənin gizlinləri" əsərində də ermənilərin soyqırımı iddialarına tutarlı cavablar vermişdir. Müəllif yazır: "Osmanlı dövlətinin fərmanlarına nəzər saldıqda onların nə etmək istədiyi aydın görünür-erməniləri dinc üsullarla köçürərək yeni torpaqlarda məskunlaşdırmaq. Bu gün ermənilər "damğalayırlar" ki, erməniləri qırıb-çatmaq haqqında, guya, digər məxfi fərmanlar olmuşdur(burada "Andonyan sənədləri" nəzərdə tutulur-T.C). Tarix sübut edir ki, bu yalançı bir hay-küydür və ermənilərə kömək edilməsi üçün dünyanın xristian xalqlarından daha çox pul və yardım qoparmaq məqsədilə uydurulmuş əhvalatdan başqa bir şey deyıldir.

Təəssüflər olsun ki, ermənilərin qondarma soyqırımı iddiaları uydurma faktlara və çirkin saxtalaşdırmalara söykənir. Qondarma "erməni soyqırımı"nın müdafiəçilərinin əsas "dəlillərindən" biri Andonyan adlı bir ermənin ingilis və fransız dillərində nəşr etdirdiyi "Andonyan sənədləri"dir. Onun iddiasına görə, guya, 1915 və 1916-cı ilin əvvəllərində Tələt paşa tərəfindən Hələb valisinə erməniləri qırmaq tədbirlərinə dair göndərdiyi teleqramların "surətlərini" "Nəim bəyin xatirələri. Ermənilərin təhcir və qətli əmrinə dair türk sənədləri" adlı kitabında vermişdir. Erməni iddialarına görə, bu surətlər, guya, 1921-ci ildə Almaniyada Tələt paşanın qatili Tehliryanın məhkəmə prosesində çıxarılmışdır. Eyni zamanda digər bir iddiaya görə, guya, bu sənədlərin doğruluğunu təsdiq edən ekspertiza da yoxa çıxmışdır. Tarixçi B.Nəcəfovun fikrincə, əvvəla, bu "fotosürətlərin" mənşəyi dumanlıdır. İndiyə kimi heç kimə məlum olmayan Andonyan özü təsdiq edir ki, orijinallar ona Nəim bəy adlı bir türk qulluqçusu tərəfindən verilmişdir. Bu sənədlərdə qeydiyyat izləri yoxdur. Sənədlərin əsli isə yoxa çıxmış, yanğın zamanı yanaraq məhv olmuşdur. Lakin belə bir məlumatın yanğın zamanı məhv olması inandırıcı deyil, çünki Daxili İşlər Nazirliyindən göndəri-

lən məlumatlar 6 yerdə (Daxili İşlər Nazirliyinin mətbəəsi, teleqraf qeydiyyat dəftəri, teleqraf qəbul dəftəri, teleqramın alınması haqqında qeydiyyat dəftəri və valilik dəftəri) qeydiyyatdan keçirilirdi. Tarixçi B.Nəcəfov qeyd edir ki, "Fotosurətlərlə" səthi tanışlıq birmənəli nəticəyə gətirib çıxarır ki, bu kobud, bacarıqsız, tələsik saxtakarlıqdır. Andonyanın nümunə gətirdiyi "teleqramlar" Mustafa Əbdül Xaliq adlı birisi tərəfindən imzalanmışdır. Tarixçi S.Hacıyev bir mühüm məsələni qeyd edir ki, göstərilən uydurma "rəsmi teleqramlarda" müsəlman, yulian və qriqoryan təqvimləri qarışdırılmış və "Bismillah" sözü orfoqrafik səhvlərlə yazılmışdır.

XX əsrin 30-50-ci illərində beynəlxalq münasibətlər sistemində uzun illərdən bəri davam edən siyasi gərginlik nisbətən mülayimləşməyə başladı. Proses dünyanın bir-birinə əks olan sosial-siyasi sistemlərə bölünməsinin dərinləşməsi, həmçinin Şərq-Qərb ziddiyyətlərinin kəskinləşməsi ilə sistemlərarası qarşıdurmanın qüvvətlənməsi nəticəsində vaxtilə arxa plana keçmiş məsələlərin yenidən gündəmə gətirilməsilə davam etdi.

1962-ci ildə hökumət diaspordan İrəvana erməni tələbələrin gəlməsinə icazə verən qərar qəbul etdi. Burada diasporun əsas niyyəti gənclərin vətənlərini tanımaları və dillərini mühafizə etmələrinə dəstək olmaq idi. Daha çox Yaxın Şərq və Qərb ölkələrindən gəlmiş erməni gəncləri ermənistanlı gənclər üzərində böyük təsir imkanlarına malik olmaqla, bütövlükdə, milliyətçiliyin canlanmasına yardımçı oldular.

1965-ci ildə Ermənistanda uydurma "erməni soyqırımı"nın ildönümünün təntənəli şəkildə keçirilməsi SSRİ-Türkiyə münasibətlərində gərginlik yaratdı. Çünki mərkəzin icazəsi olmadan SSRİ-ni təşkil edən ucqar respublikalardan birində belə tədbirlərin keçirilməsi yolverilməz idi. Bu barədə tarixçi M.Qasımlı yazır: "Aprelin 20-də Yerevan Dövlət Universitetinin yeni binasında Ermənistan SSR Elmlər Akademiyasının və Universitetin uydurma "soyqırım"ın 50 illiyinə həsr edilmiş birgə elmi sessiyası keçirildi. Sessiyanı giriş sözü ilə EA-nın prezidenti V.Ambartsumyan açdı. Hüquq elmləri doktoru, professor A.Yesayan "Osmanlı imperiyasında erməni xalqının soyqırımı və beynəlxalq imperializm" adlı məruzə ilə çıxış etdi. Digər natiqlər də tarixdə heç bir zaman olmayan "erməni soyqırımı"ndan geniş söz açdılar. Aprelin 21-də Yerevanda incəsənət işçiləri evində Ermənistan ali məktəblərində təhsil alan xarici ölkələrdən olan erməni tələbələrin iştirakı ilə uydurma "soyqırım"a həsr edilmiş gecə keçirildi. Gecəni giriş sözü ilə Xaricdə Yaşayan Ermənilərlə Mədəni Əlaqələr Komitəsinin sədri V.Amazaspyan açdı. Sonra şair Gevorq Emin çıxış etdi. Daha sonra akademik A.Şaginyan, tələbələr A.Arabyan, M. Adamyan, T.Torosyan, şair S.Kaputikyan nitqində Osmanlı imperiyasını bu "faciəni" törətməkdə günahkar hesab edirdilər".

24 aprel 1965-ci ildə ilk dəfə olaraq İrəvanda siyasi gərginlik öz məcrasından çıxdı. Məhz həmin gün Yerevanın mərkəzi küçələrindən birində yerləşən A. Spandaryan adına Yerevan Dövlət Akademik Opera və Balet Teatrının binasında şəhər ictimaiyyəti nümayəndələrinin uydurma soyqırımla bağlı tədbiri keçirildi. Toplantının Rəyasət Heyətində Ermənistan rəhbərləri Q. Arutunyan, H.Arutunyan, E.Asatryan, O.Baqdasaryan, D.Draqunskiy, Y.Zarobyan, A.Kaçinyan, M.Melkonyan, Q.Ter-Qazaryan, B.Muradyan, S.Arakelyan, S.Poqosyan, nazirlər, yazıçı, şair və alimlər əyləşmişdilər. Bütün ermənilərin katalikosu I Vazgen də tədbirə dəvət alanlar sırasında idi. Tədbirdə, həmçinin Suriya, Fransa, Livan, İran və başqa ölkələrdən gəlmiş 200-ə yaxın diaspor ermənisi də iştirak edirdi. Tarixçi M.Qasımlı qeyd edir ki, Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin sədri H.Arutunyan toplantını açaraq bu günün bir daha təkrarlanmayacağı inamı ilə xatırlatdı, genosid siyasətini ittiham etdi. Məruzə edən Ermənistan EA-nın prezidenti V.A.Ambartsumyan çıxışında tez-tez "Sultan Türkiyəsinin müstəmləkəçiləri əvvəlcədən hazırladıqları planı həyata keçirdilər. Qərbi Ermənistanda erməni əhalisini kütləvi şəkildə məhv etdilər" kimi sərsəm fikirlər səsləndirdi. Bundan sonra iclas bağlı elan edildi. Ermənistan rəh-

bərliyi özünü mərkəzin tənqidlərindən qorumaq üçün xarici qonaqların Yerevandakı Lenin abidəsinə çələng qoymalarını təşkil etdi. Həmin gün sahəsi 200 hektardan çox olan Çiçernakabert parkında uydurma "erməni soyqırımı" qurbanlarının xatirəsinə ucaldılmış abidənin açılışı oldu. Bu zaman İrəvan küçələrinə çıxan dörd yüz mindən artıq erməni əbədi məşəl abidəsini ziyarət etdilər. Əvvəlcə, sakit məcrada davam edən nümayiş daha sonra nəzarətdən çıxmış, bir sıra obyektlərə ciddi ziyan dəymiş, qatı antitürk düşmənçiliyi ruhunda şüarlar səsləndirilmişdir. Nümayişçilərin əsas tələbləri Türkiyənin 1915-ci il hadisələrini soyqırımı aktı kimi tanımalı və Şərqi Anadolu torpaqlarının Ermənistana verilməsinə göz yummalı idi. Həmçinin nümayişdə "Qərbi Ermənistan, yəni Anadolu Ermənistanın olmalıdır!", "Dağlıq Qarabağ bizimdir", "Naxçıvan Ermənistan torpağıdır", "Ermənilər, 1915-ci ilin qisasını almaq vaxtıdır, birləşin!" və s. plakatlarla, şüarlarla təşkil edilən çıxışlar nümayişin əsl məqsədini açıqlayırdı. Əsassız və qatı millətçi hərəkatın ilhamçıları V.Ambarsumyan, O.Badalyan, S.Kaputikyan və başqaları idi. Nümayiş və mitinqlərin yatırılmasında keçmiş hökumət və dini rəhbərlərin qabaqlayıcı tədbirləri də bir nəticə verməmişdir. Yalnız güc strukturlarının işə qarışmasından sonra nümayiş dağıdılmış və bir sıra fəallar həbs edilmişdir. Maraqlıdır ki, erməni qəzetləri sonradan bu hadisəni yalnız matəm kimi deyil, "milli tarixin yaddaş səhifəsi" kimi qiymətləndirirdi. Ermənistan mətbuatında Q.Qaroyan, D.J.Kirakosyan, M.Nersisyan və başqalarının uydurma "soyqırım"a həsr olunmuş məqalələri çap edildi. Belə hərəkətlər Türkiyə tərəfdən narahatlıqla izlənilirdi. Əslində, SSRİ rəhbərliyinin bu məsələyə münasibəti heç də radikal olmamış, əksinə, bu tipli nümayişlərin keçirilməsinə gizli şəkildə dəstək verilmişdir. Doğrudur, bu hadisənin qeyd edilməsindən sonra Ermənistan KP MK-nın birinci katibi S.Zarobyan A.Koçinyanla əvəz edilsə də, millətçilik yenə də davam etdirildi. Ondan sonra Dəmirçiyanın dövründə daha kəskin anti-Azərbaycan siyasəti yeridildi. Maraqlıdır ki, uydurma genosidin 50 illi-





yinin keçirilməsinə hazırlıq dövründə "Böyük Ermənistan" uğrunda görülən tədbirlərdən biri də 40 milyon dollar dəyərində ianələrin toplanması oldu. Nəticədə 1975-ci ildə Beyrutda özünü Akopyan kimi təqdim edən marksist dünyagörüşlü bir Suriya ermənisinin başçılığı ilə "Ermənistanı azad etmək üçün gizli ordu"-ASALA təşkil edildi. O, Sovet dövlətinin nəzarəti altında olan Fələstin Azadlıq Təşkilatının bazasında təlim keçən terrorçu bir təşkilat idi. Həmin pula 70-ci illərdə terrorçu erməni təşkilatı ASALA yaradıldı.

1965-ci ilin "erməni məsələsi"ndə dönüş ili olduğu şübhəsizdir. Bu barədə türk tarixçisi Sedat Laçıner yazır: "1965-ci ilin yalnız Sovet Ermənistanı üçün deyil, bütün dünya erməniləri üçün önəmli bir dönüş nöqtəsi olmuşdur və dünyanın dörd bir yanında mitinqlər və nümayişlər təşkil edilmişdir. Bəhs olunan dövr qlobal miqyasda erməni kampaniyasının başlandığı və illər ötdükcə sürətləndiyi dövr kimi xarakterizə olunmaqdadır. Bu kampaniyanın güclənməsində Sovet Ermənistanı ilə birlikdə daha üç mərkəz (Livan, Kipr (Yunanıstan) və Həbəşistan) ön plana keçdi". Livan ermənilərin toplu və aktiv şəkildə fəaliyyət göstərdiyi bir yer olmaqla yanaşı, həmçinin buradakı liderlik erməni kilsələri içində qabaqcıl yerlərdən birinə sahibdir. Kipr və Həbəşistanda da bu məsələ ilə əlaqədar geniş təbliğat kampaniyasına başlandı. Əsl həqiqətdə isə bu çıxışlar Türkiyənin beynəlxalq nüfuzuna zərər vurmaqdan başqa bir şey deyildir. 24 aprel 1968-ci ildə iqtisadi cəhətdən olduqca ağır durumda olan Həbəşistanda da mitinq və nümayişlərin keçirilməsinə icazə verildi. Bəhs olunan dövrdə erməni kampaniyasına əsl sahib çıxan ölkə isə ABŞ və Avropadakı erməni diasporu olmuşdur.

Tarixçi B.Nəcəfovun qeyd etdiyi kimi, erməni "soyqırımı" haqqında mif ermənilər tərəfindən "əzabkeş erməni xalqı" barədə əfsanəni yaşatmaq üçün uydurulmuşdu. Bu mifdən istifadə edən ermənilər sonralar–1918-ci ildə qonşu xalqların, ilk növbədə, azərbaycanlıların torpaqları hesabına öz dövlətlərini yaratmağa müvəffəq oldular. Sonralar erməni "soyqırımı" haqqında

mif üç məqsəd üçün istifadə olunurdu: 1) növbəti ərazi iddialarını əsaslandırmaq üçün (bu gün Dağlıq Qarabağda olduğu kimi); 2) bütöv nəsilləri azərbaycanlılara, türklərə nifrət, intiqam ruhunda tərbiyə etmək üçün; 3) dünya ictimai fikrini azdırmaq (özü də uğurla) və bu pərdə altında özünün təcavüzkar niyyətlərini həyata keçirmək üçün.

Qeyd etmək lazımdır ki, erməni diaspor təşkilatları XX əsrin əvvəllərindən etibarən qondarma "erməni soyqırımı"nın tanınması üçün təbliğat kampaniyasına başlamış, ancaq 1960-cı illərə kimi müvəffəqiyyət qazana bilməmişdir. Bu barədə tarixçi H.Cabbarlı qeyd edir ki, 1965-ci ilə qədər qondarma "erməni soyqırımı" məhdud sayda tarixçilər və cəmiyyətin bəzi təbəqələri tərəfindən müzakirə olunurdusa, bu tarixdən etibarən rəsmi dövlət siyasətinə çevrilmiş, nəticədə İrəvanda qondarma "erməni soyqırımı" muzeyi açılmışdır.

1989-cu ilin noyabrında ABŞ senatı 1990-cı ili "erməni soyqırımı" ili elan etməyi bildirdikdə Strasburqdakı Şərq Tədqiqatları İnstitunun direktoru Pyer Dümon buna qarşı çıxdı. O, bənd-bənd, inandırıcı şəkildə, sənədlər, faktlar əsasında "soyqırımı" barədə erməni uydurmalarını ifşa etdi. O, arxiv sənədləri əsasında birmənalı şəkildə yekun qənaətə gəldi ki, erməni terrorçularının fəaliyyəti nəticəsində 60 minə yaxın dinc sakin-türk və kürd öldürülmüşdür. Bütövlükdə, "soyqırımı" iddialarından Türkiyəyə təzyiq göstərmək, onu bu və ya digər şəkildə güzəştə getməyə məcbur etmək məqsədilə istifadə edilməkdədir.

Erməni diaspor təşkilatlarının təşəbbüsləri nəticəsində qondarma "erməni soyqırımı" 1984-cü ilin aprel ayında Xalqların Daimi Məhkəməsinin Paris iclasında müzakirə olunmuş və qərar qəbul edilmişdir. Bu qərara görə:

–ermənilərin ümumi və xüsusi hüquqları beynəlxalq hüquq normalarına uyğun şəkildə qorunmalıdır;

–1948-ci il 9 dekabr tarixli "Soyqırımı Cinayətinin Xəbərdar Edilməsi və Cəzalandırılması Konvensiya"sında nəzərdə tutulduğu kimi, deportasiya və kütləvi qətliamlarla ermənilərin məhv edilməsi soyqırımı kimi qəbul edilir;





–Gənc Türklər hökuməti 1915-1917-ci illərdə həyata keçirdiyi soyqırımına görə məsuliyyət daşıyır;

–erməni soyqırımı, eyni zamanda beynəlxalq bir cinayətdir. Bu günkü Türkiyə dövlətinin Osmanlı dövlətinin varisi olmadığı iddia edilsə də, Türkiyə məsuliyyət daşıyır;

–bu məsuliyyətə görə Türkiyə soyqırımı qəbul etməli və ermənilərə dəyən ziyanı ödəməlidir;

–BMT və onun üzvləri bu barədə ermənilərə kömək göstərə bilər, Türkiyə və digər dövlətlərdən erməni soyqırımını qəbul etmələrini tələb edə bilər.

Qeyd edək ki, bu dövrdən etibarən Ermənistanın Türkiyəyə yönəlik siyasəti daha da kəskinləşmiş, bu ölkəyə qarşı yeni iddialar "4 T" gizli kodu altında irəli sürülürdü. Plana görə:

1."Tanıtmaq"–qondarma "erməni soyqırımı"nı dünyaya terror və siyasi təbliğat vasitəsilə tanıtmaq;

2."Tanıtdırmaq"–qondarma "erməni soyqırımı"nı dünyaya tanıtdırıldıqdan sonra Türkiyənin də tanıması üçün çalışmaq;

3."Təzminat"–dünyaya və Türkiyəyə qondarma "erməni soyqırımı"nı tanıtdıqdan sonra təzminat tələbi ilə çıxış etmək;

4."Torpaq"–son mərhələdə isə Türkiyədən torpaq tələb etmək. Tədqiqatçı H.Cabbarlının qeyd etdiyi kimi, "4 T Planı" Türkiyə, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünə qarşı yönəlmişdir və bu dövlətləri parçalamağı qarşısına hədəf kimi qoyur. Bu strateli plan sadəcə Daşnaksütyun Partiyasının siyasi hədəfi olmaqdan çıxmış, Ermənistan dövlətinin rəsmi ideologiyasına çevrilmişdir. Həmçinin müəllif bunun Ermənistanın müstəqilliyi haqqında üç əsas hüquqi sənəddə–"Müstəqillik Bəyannaməsi", "Müstəqillik Qərarı" və 1995-ci ildə qəbul edilən Konstitusiyasında əksini tapdığını qeyd edir. Burada erməni diaspor təşkilatlarının əsas məqsədi Türkiyəni bu cəfəng iddiaları tanımağa məcbur etmək, daha sonra külli miqdarda təzminatın alınmasına nail olmaq, ardınca isə Türkiyədən Şərqi Anadolu torpaqlarını

böyük güclərin sayəsində qoparmaqdan ibarətdir. Tarixçi C.Həsənlinin qeyd etdiyi kimi, ərazi iddialarından əlavə ermənilər təzminat tələbi də (19.130.982.000 frank) irəli sürmüşdülər. F.Kazımzadənin fikrincə, bu rəqəm fantastik olsa da, ermənilər onu almağa ümid bəsləyirdilər. Qeyd edək ki, ermənilər təzminat məsələsini bir daha 90-cı illərin sonlarında müzakirəyə çıxardılar. Ermənistan Elmlər Akademiyası Tarix İnstitunun əməkdaşı Stepan Stepanyanın fikrincə, Ankara "soyqırım" varislərinə 60 milyard dollar təzminat ödəməlidir.

Ermənilərin soyqırımı iddialarından biri də, guya, dünyada ilk dəfə soyqırıma məruz qalmalarıdır. C.Libaridiyan isə qeyd edir ki, erməni soyqırımının dünya tarixi baxımından önəmi ilk olmasında deyildir, çünki tarixdəki ilk soyqırım deyildir. Soyqırımın ermənilər üçün ən başlıca əhəmiyyəti, siyasi bir soyqırım modeli olmasındadır. Bütövlükdə, diaspor ideoloqlarının fikrincə, uydurma "soyqırım"ın tanınması son məqsəd deyildir, yalnız vasitədir. Diaspor bu hədəfə çatmaq üçün əsaslı bir şəkildə təşkilatlanmalıdır. İstər erməni diasporu, istərsə də Ermənistan ermənilərі üçün soyqırımı iddialarının ən mühüm xüsusiyyəti uzun illərdir ki, onların ruhlarını sakitləşdirən bir fəaliyyət prosesinə çevrilməsidir. Göründüyü kimi, qondarma "erməni soyqırımı"ndan başqa heç bir məsələdə erməni ictimai-siyasi rəyi bu qədər həmrəy deyil. Dağlıq Qarabağ problemi haqqında bəzən müxtəlif fikirlər səslənsə də, qondarma "emәni soyqırımı" haqqında cəmiyyətdə ciddi bir həmrəylik vardır. Qondarma "erməni soyqırımı" məsələsində Ermənistan əlindəki bütün təbliğat mexanizmlərindən və təzyiq vasitələrindən Türkiyəyə qarşı istifadə edir.

Beləliklə, son onillikdə dünyanın qaynar strateji bölgələrindən birinə çevrilmiş Yaxın Şərqdə başlıca güc mərkəzinə çevrilən Türkiyənin sürətli inkişafından qorxuya düşən beynəlxalq güclər də bu istiqamətdə səylərini daha da gücləndirməkdədirlər.





### 3.2. *Erməni terrorizmi diaspor fəaliyyətinin istiqamətlərindən biri kimi*

XIX əsrin 80-ci illərinin əvvəllərində böyük dövlətlərin ermənilərin xeyrinə apardıqları mübarizənin diplomatik mərhələsi, demək olar ki, sona çatmaqda idi. Bundan sonrakı mərhələdə çar Rusiyasının və Qərbin iri kapitalist dövlətlərinin bir-başa maliyyə dəstəyi ilə Osmanlı hökumətinə qarşı "erməni məsələsi"ndən daha rahat formada istifadə olunması üçün diasporun təşkilatlandırılması vacib məsələ olaraq qalırdı. Bəhs olunan dövrdə Qərbi Avropa ölkələri və çar Rusiyasında baş verən inqilabi yüksəlişin təsiri altında olan ermənilər artıq Qərb ölkələrində yaradılmış demokratik yönümlü cəmiyyətlərin təcrübəsindən istifadə edərək təşkilatlanırdılar. Lakin ilk dövrdən başlayaraq onlar Avropada olduğu kimi inqilabi-demokratik yönümlü təşkilatlar deyil, terror yuvaları yaratmağa başlayırlar. Bu işə Osmanlı imperiyasına daha yaxın məsafədə olan və iri neft mədənləri ilə zəngin Bakıda 1872-ci ilin fevralında iltizam sisteminin ləğv edilməsi ilə neft sənayesinin inkişafına təkan vermiş oldu. A.İ.Mantaşev, Q.M.Lianozov və s. kimi erməni kapitalistləri Azərbaycan nefti hesabına hədsiz sərvət toplayaraq milyonerlərə çevrildilər. Erməni təşkilat və komitələrin iqtisadi əsasını məhz bu pullar təşkil edirdi. A.İ.Mantaşev "Daşnaksütyun" partiyasına 1 milyon gümüş pul vermişdi ki, bu da 1 il ərzində (1907-ci il) partiyanın 165 min üzvünün üzvlük haqqına bərabər idi. Beləliklə, Azərbaycan nefti hesabına varlanan erməni kapitalistləri və ideoloqları öz məkrli planlarını mütəşəkkil surətdə həyata keçirmək üçün XIX əsrin II yarısından etibarən təşkilat və komitələr yaradırdılar.

Bir çox türk və erməni müəllifinin yazdığına görə, Osmanlı imperiyasında ermənilərin qurduğu ilk cəmiyyət 1860-cı ildə İstanbulda fəaliyyətə başlayan "Xeyirsevər cəmiyyəti"dir. Bu cəmiyyətin əsasını ermənilərin məşhur xadimləri X.Şişmakyan, M.Beşiktaşyan, N.Sivaçiyan, S.Taqavoryan və X.Katibyan qoy-

dular. İttifaqın əsas məqsədi Kilikiyanın yenidən yüksəlişi və inkişafı idi. Xeyriyyə təşkilatı olduğu halda, üzvləri gizli üsyan haqqında danışıqlarla da məşğul olurdular. Bu xadimlərdən bəziləri Zeytun üsyanında iştirak etmişdilər.

XIX əsrin 70-80-ci illərində Vanda "Araratlı", Muşda "Şərq", Ərzurumda "Millətçi qadınlar" terrorçu təşkilatları fəaliyyət göstərirdilər. Bu təşkilatlarla yanaşı, yeni-yeni erməni terrorçu cəmiyyətləri də yaranmaqda idi. Vanda "Qara Xaç" (1878-ci il), Ərzurumda "Vətənin müdafiəçiləri" (1881-ci il) cəmiyyətləri meydana çıxdı ki, onların da məqsədi ermənilərin silahlanması idi. 1882-ci ildə bu cəmiyyətlər ifşa olundu, üzvləri isə həbs edildi.

Şərqi Anadoluda inqilabçı ideyaları tərənnüm edən ilk terrorçu partiya isə "Armenakan" partiyası olmuşdur. 1885-ci ildə Mkrtıç Portakalyan tərəfindən yaradılan partiya inqilab yolu ilə ermənilərin özünüidarəsinə nail olmağı qarşısına məqsəd qoymuşdu. Araşdırmalar göstərir ki, M.Portakalyan 1885-ci ildə Fransaya gələrək "Ermənistan" qəzetini nəşr etdirməyə başlayır. Həmin ilin yayında o, 9 şagirdi ilə yenidən İstanbula qayıtmış və partiyanın təşkilati işlərini nizama salmağa çalışmışdır. Portakalyanın nəşr etdirdiyi "Ermənistan" qəzeti istər Osmanlı imperiyasında, istərsə də Rusiyada qadağan edilmişdi. "Armenakan" məqsədinə çatmaq üçün əhali içərisində geniş millətçi təbliğat aparmağı, hərbi təhsil verməyi, silahlı dəstələr təşkil etməyi, sonra Avropa dövlətlərinin münasibəti əlverişli olardısa, Türkiyə əleyhinə çıxış etməyi lazım bilirdi. Bu partiyanın fəaliyyəti Qafqazdakı Rusiya hakimiyyət orqanları tərəfindən şirnikləndirilirdi. Lakin "Armenakan" partiyası erməni əhalisinin geniş dairələrini cəlb edə bilmədi və onun fəaliyyəti yalnız Türkiyənin bir neçə şərq vilayəti ilə (Van, Vaskurakan) məhdudlaşdı. Daha fəal və kütləvi "Hnçak" və "Daşnaksütyun" terrorçu partiyalarının meydana gəlməsi ilə "Armenakan"ın nüfuzu son dərəcə aşağı düşmüş oldu.





Qeyd edək ki, "Hnçak" ("Zəng") partiyası 1887-ci ildə Cenevrədə Avetis Nazarbekyan və millətçi erməni tələbə mühacirləri tərəfindən təsis edildi və burada yetərincə rusiyalı erməni tələbələr (M.Vartanyan, X.Ohanyan, R.Xan-Azat, Q.Qafeyan və d.) də təmsil olunurdu. Partiyanın 1898-ci ildə nəşr edilmiş 9 bənddən ibarət proqramında sosial-demokrat prinsipləri, partiyanın məqsədləri, vəzifələri kifayət qədər dəqiq müəyyənləşdirilmişdi. Partiyanın qısa zaman kəsiyində İstanbul, Bafra, Merzifon, Amasiya, Tokat, Yozqat, Arapkir və Trabzonda şəbəkələri yaranmağa başladı. Partiyanın əsas məqsədi "Türkiyə Ermənistanı"nı qurmaq, burada rus (Qafqaz Azərbaycanına məxsus hissəsi, daha doğrusu Dağlıq Qarabağ ərazisi) və "İran Ermənistanı"nı (İranın nəzarəti altında olan Güney Azərbaycan əraziləri) birləşdirən müstəqil, böyük bir Ermənistan yaratmaqdı.

"Hnçak"ın proqramında qarşıya qoyulan məqsədlərə nail olmaq üçün təbliğat, təşviqat, terrorizm, təxribatçı təşkilatlar yaratmaq vəzifəsi qoyulmuşdu. Eyni zamanda bu təşkilatın proqramında türklər və kürdləri hər cür şəraitdə öldürmək, öz məqsədlərinə xəyanət edən ermənilərə heç vaxt rəhm etməmək, onlardan qisas almaq tələbləri də var idi.

1890-1892-ci illərdə "Hnçak" erməni terror təşkilatı 65 min silahsız müsəlmanı-türkləri və kürdləri məhv etmişdi. Sonralar məlum olduğu kimi, "Hnçak" dinc əhaliyə qarşı bu qanlı əməliyyatlara Türkiyə təbəəsi olan etnik erməniləri cəlb etmiş və onlardan xüsusi cəza dəstələri yaratmışdı. "Hnçak" terror təşkilatının erməni cəza dəstələrinin qurbanları arasında qocalar, qadınlar, uşaqlar da var idi.

XIX əsrin 90-cı illərində erməni terrorçu hərəkatının mruz qaldığı uğursuzluqlar "Hnçak"ın da parçalanmasını şərtləndirmiş oldu. Bu haqda B.Nəcəfov yazır: "Hnçak" partiyasını əqidəli soaial-demokratlar, inqilab işinə sadiq insanlar tərk etdilər. Onların bir hissəsi isə sonra RSDFP-yə qoşuldu. Digər tərəfdən, mümvəffəqiyyətsizliklərdən "hiddətlənmiş" "yumşaq" millətçilər, öz məqsədlərinə demokratik, zor işlətməmək yolu ilə nail ol-

maqdan əl üzənlər "Daşnaksütyun" partiyası ətrafında birləşərək, ifrat millətçi mövqelərə keçirdilər.

"Hnçak" təşkilatının yaradılmasından 3 il sonra, 1890-ci ildə Tiflisdə əsası qoyulan digər terrorçu təşkilat "Daşnaksütyun" ("İttifaq") özündən əvvəl yaranmış təşkilatların missiyasını davam etdirərək terrorizm ideyalarını daha radikal şəkildə meydana qoyur və bu günə qədər də bu ideyalar təkcə türk soylu və digər xalqlara deyil, o cümlədən ermənilərin özlərinə də böyük bəlalar gətirmişdir. Qeyd edək ki, burada da erməni milliyətçi qrupları birləşmişdi. Bu qrupları 3 əsas kateqoriyaya bölmək olar: birinci qrupa "Armenakan" partiyasının tərəfdarlarını, Peterburqda təhsil alan erməni tələbələrini aid etmək olar. Bu qrupun rəhbəri Konstantin Xatisyan idi və qrupun tərəfdarları "şimallı" adını almışdılar; ikinci və üçüncü qrupun əsas tərkib hissəsini inqilabçı sosialistlər təşkil edirdilər. Onlar Rusiyadakı çar rejiminə qarşı mübarizədə rus və gürcü sosialistləri ilə birləşməyə tərəfdar idilər. 1890-cı ildə Tiflisdə Xristifor Mikoelyan, Stepan Zaryan, Semyon Zavaryan hər üç qrupun arasında danışıqlar aparmış və bu qrupları birləşdirmişlər. Daha sonra partiyanın iki bürosu–Şərq və Qərb büroları yaradıldı. Şərq bürosu Girəsun, Diyarbəkir, Zaqafqaziya, Rusiya və İran, Qərb bürosu isə Balkanlarda, Amerika, Misir və digər qərb ölkələrində fəaliyyət göstərməli idi. 1892-ci ildə partiyanın "Droşak" adlı qəzeti nəşr edilməyə başlandı.

Yarandığı gündən türk soyundan olan millətlərə qarşı düşmənçilik və nifrət hissləri aşılayan Daşnaksütyun partiyası bu işdə ən iyrənc mübarizə və təbliğat üsullarından belə çəkinmirdi. Bu barədə 1909-cu il aprel ayının 15-də "Daşnaksütyun" partiyasının fəaliyyəti ilə əlaqədar Qafqaz canişini dəftərxanasından Bakı şəhər rəisinin ünvanına göndərilmiş məktubda ətraflı məlumat verilirdi. Məktubda qeyd edilirdi ki, "Daşnaksütyun", "Böyük Ermənistan"ı bərpa etmək məqsədi güdərək öz arzusuna çatmaq üçün əsas üsullardan biri kimi öz proqramında ümumi silahlı üsyan və özünün nizami ordusunu yaratmaq yolunu seçib.





"Daşnaksütyun" zinvorlardan ibarət öz ordusunu yaratmaq işinin əsasını hələ 16 il bundan əvvəl–1892-ci ildə özünün birinci qurultayı zamanı qoymuşdur. Partiyanın vəsaiti hesabına bu orduya zinvorlar cəlb etmək və onları silahlandırmaq işi bu günə qədər də müntəzəm surətdə davam etdirilir. Həmçinin qəbul edilmiş proqramda aşağıdakı məsələlərin tezliklə həyata keçirilməsi öz əksini tapmışdı: hərbi dəstələrin yaradılması, əhalinin silahlandırılması, xalqın inqilabi şüurunun möhkəmləndirilməsi, inqilabi komitələrin yaradılması və onların təhlükəsizliyinin təmin edilməsi, silahlı üsyan, hökumət nümayəndələrinin qətlə yetirilməsi, hökumət binalarının yandırılması və terror.

Cənubi Qafqazda azərbaycanlılara qarşı mümkün çirkin vasitələrdən istifadə edərək sosial bazasını zəiflətməyə çalışan "Daşnaksütyun" 1913-cü il oktyabrın 15-də Cenevrədə keçirilən növbəti qurultayında Şərq bürosunun müvəkkili, Berlin sakini Avetis Aqoronyanın təklifi ilə qəbul edilmiş qərarlardan birində qeyd edilirdi ki, "Panislamist emissarları adı altında Qafqaza öz adamlarımızı göndərməliyik ki, həmin adamlar təbliğat yolu ilə müsəlman əhalisi arasında Rusiyaya qarşı narazılıqlar yaratsın və onları üsyana təhrik etsin. Bunun nəticəsində də Rusiya hməti onlara qarşı repressiya tətbiq edər və müsəlman kütləri zəifləyər. Belə olarsa "Daşnaksütyun" Qafqazda özünün gələcək fəaliyyətində müsəlmanların müqaviməti ilə rastlaşmayacaq. Digər tərəfdən, ermənilərə qarşı Qafqaz müsəlmanları ilə Anadolu türklərinin birgə fəaliyyət göstərməsi təhlükəsi aradan qalxmış olar".

Geniş sosial şəbəkə, mürəkkəb daxili quruluş və güclü maliyyə sütunlarına malik "Daşnaksütyun" partiyasında sərt nizam-intizam hökm sürürdü. Partiya külli miqdarda vəsait sərf etməklə 100000 nəfərlik zinvor (əsgər) ordusu saxlayırdı. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində mühafizə edilən sənədlərin birində bu ordunun saxlanmasına 10 milyon rubl vəsait xərcləndiyi, həmçinin hər zinvorun ayda 30 rubl məbləğində məvacib aldığı qeyd olunmuşdu. Göründüyü kimi, artıq XX əs-

rin əvvəllərində "Daşnaksütyun" özünün ordusu, təbliğat aparatı, maliyyə sistemi olan "kiçik bir dövlətə" çevrilmişdi. Bu "dövlət" yalnız erməni maqnatlarının hesabına yaşamırdı. Bütün erməni əhalisindən gəlirlərinin 2%-i partiyanın hesabına yığılırdı.

XIX əsrin 90-cı illərində "Daşnaksütyun"un hazırladığı bu terrorçu dəstələr Osmanlı daxilində sabitliyi pozaraq dinc türk əhalisinə qarşı düşmənçiliyi qızışdırır, qarşıdurmalar yaradaraq öz məqsədlərinə addım-addım yaxınlaşırdılar. İmperiyanın şərq ərazilərində, müxtəlif şəhər və qəsəbələrdə zəncirvari şəkildə təşkil edilən erməni qiyamları nəticəsində yüz minlərlə dinc türk terrorun qurbanına çevrilir, ən yaxşı halda öz dədə-baba torpaqlarını tərk edərək daha sabit ərazilərə pənah aparırdılar. Bütövlükdə, erməni millətçi ekstremistləri və terrorçu dəstələri terror yolu ilə müsəlmanları qorxudub qaçırtmağa, qalmayanlara qarşı isə qırğınlar təşkil etməyə, bu yolla bölgədə ermənilərin üstünlüyünə nail olmağa çalışırdılar. Dinc əhalini qətlə yetirməklə kifayətlənməyən erməni terrorçu dəstələri Osmanlı sultanı və İran şahını öldürməyi, yaranacaq qarışıqlıqdan istifadə edərək "Böyük Ermənistan"ın müstəqilliyini elan etməyi planlaşdırırdılar. Terrorçular şaha bomba atmış, sultanın yataq otağına bomba qoymuşdular. Lakin xoşbəxtlikdən terrorçuların bu bəd əməlləri heç bir nəticə verməmişdir.

1904-cü ildə növbəti cinayətini həyata keçirməyə cəhd göstərən terrorçular sultan II Əbdülhəmidə qarşı terror əməli törətdilər. Sultan məsciddən çıxarkən onun avtomobilinin oturacağına saat mexanizmi olan bomba quraşdırılır. Lakin sultanın şeyxülislamla bir neçə dəqiqəlik söhbəti zamanı bomba işə düşərək partlamış, avtomobil yararsız hala düşmüşdür. Bu hadisə zamanı 26 nəfər ölsə də, son anda sultan terrorçuların yaxasından qurtula bilmişdir. Araşdırmalar nəticəsində terror ilə 42 nəfərin əlaqəsi olduğu ortaya çıxdı. Ancaq İngiltərə, Rusiya və Fransanın yardımı və müdaxiləsi ilə həmin şəxslər cəzalandırılmaqdan qurtuldular.





Beynəlxalq terror şəbəkəsinin regional qollarından biri kimi erməni terroru öz siyasi hədəflərini açıq-aydın şəkildə bəyan edirdi. Tarixi Osmanlı və Azərbaycan əraziləri hesabına "dənizdən-dənizə Böyük Ermənitsan"ı bərpa etmək, qonşu dövlətlərə qarşı əsassız ərazi iddiaları, qondarma "erməni soyqırımı"nı tanıtnaq əsas siyasi hədəflər sırasında yer almaqdadır. Bu siyasi hədəflərdən çıxış edərək antitürk fəaliyyətini daha da gücləndirən erməni terrorçu təşkilatları Osmanlı imperiyasında xəyali hədəflərə nail ola bilmədilər. Türkiyə dövlətinin gördüyü qabaqlayıcı tədbirlər və havadarlarından gözlədikləri açıq dəstəyi ala bilməyən erməni terrorçuları XX əsrin əvvəllərində fəaliyyətlərinin ağırlıq mərkəzini Cənubi Qafqaza keçirdilər və dərhal da ardı-arası kəsilməyən terror dalğası ilə hakimiyyət orqanlarını vahiməyə saldılar.

Erməni terrorçularının fəaliyyət səhnəsinin Cənubi Qafqaza keçirilməsi "əhalisi dinc və əmin-amanlıq içərisində yaşayan ölkəmizin tarixində ən bədbəxt" hadisə kimi qiymətləndirilməlidir. Çünki buraya gələn daşnaklar özləri ilə milli nifrət gətirdilər. Məhz daşnakların öz fəaliyyətlərini Cənubi Qafqaza keçirmələri ilə tez bir zamanda qanlı hadisələr zəncirinin başlanğıcı qoyuldu və çiçəklənən diyar, nifrət, zorakılıq, millətlərarası ziddiyyətlərlə dolu qaynar qazana çevrildi.

I Rus inqilabının məğlub olması və çarizmin əks-hücuma keçdiyi o illərdə erməni terrorçuları ən iyrənc əməllərindən əl çəkmədilər. Erməni terrorçu dəstələri Qarabağda, Tiflisdə, Bakıda, Yelizavetpolda, Zəngəzurda və digər ərazilərdə müsəlman türklərə qarşı milli qırğın siyasətini davam etdirdilər. Sosial dayaqlarını getdikcə itirməkdə olan Rusiya hökuməti Qafqazda xalqın narazılığının imperiya əleyhinə yönələcəyindən qorxurdu, məhz buna görə də iğtişaşlardan öz məqsədləri üçün istifadə etdi. Bu məqsədlə çar hökuməti xüsusi xəfiyyə şəbəkəsi qurmuşdu, həm də daşnaklardan öz xəfiyyələri kimi istifadə edirdi. Rusiya hökuməti, daşnaklardan nəinki Qafqazda, həmçinin İranda

və Osmanlı imperiyasının müxtəlif ərazilərində də bu məqsədlə istifadə edirdi.

2 fevral 1905-ci ildə Quba meydanında daşnaklar tərəfindən Ağarza Babayevin vəhşicəsinə qətlə yetirilməsi ilə Cənubi Qafqazda millətlərarası zəmində erməni-müsəlman qarşıdurması başlamış və fasilələrlə 1920-ci ilə qədər davam etmişdir. Bakıdakı varlı erməni maqnatların maliyyə dəstəyi sayəsində terrorçuların silah və geyim təchizatı tam təmin edilirdi. Maraqlıdır ki, bu qırğınların iqtisadi əsaslarını təhlil edən Bakının polismeysteri (polis rəisi) şəhərin bir çox ticarət və sənaye müəssisələrinin ermənilərin əlində olmasını, Neft Sənayeçiləri Qurultaylar Şurasında ermənilərin çoxluq təşkil etməsini, onların minlərlə fəhlələrin taleyini həll etməsini, müsəlman əhalisinə xor baxaraq özlərini daha mədəni və varlı xalq hesab etməsini qeyd edirdi. Göründüyü kimi, sərvətlərimizi talayaraq varlanan erməni maqnatlar əldə etdikləri külli miqdarda pulları azərbaycanlıların qətlinə, torpaqlarının zorla ələ keçirilməsinə sərf edirdilər.

Bakı ilə yanaşı, əyalətlərdə də terror aktları və qırğınlar kütləvi hal almışdı. Erməni terrorunun öndə gələn simaları olan Andranik, Dro, Amazasp, Lalayan, Sancan bəy Daniyelbəyov, Arsen Baqdasarov, Məlik Allahverdov, Artaşes Melkonyants, Gerasim Balayants və digərləri Qarabağda, İrəvanda, Zəngəzurda olmazın vəhşiliklər törədərək terrorun miqyasını daha da genişləndirirdilər. Təkcə Bakı şəhəri üzrə avqustun 20-dən-25-dək 83 nəfər yaralanmış, 64 yanğın hadisəsi törədilmişdi. Avqusun 25-28-də 7 nəfər ölmüş, 38 nəfər yanğından zərər çəkmiş, 3 nəfər yaralanmışdı.

I Dünya müharibəsindən sonra Daşnaksütyunun başlıca vəzifələrindən biri Türkiyə və Azərbaycan siyasi və ictimai xadimlərini qətlə yetirmək olmuşdur. Tarixçi S.Hacıyev yazır: "1920-ci ilin mayında və 1921-ci ildə bir neçə ay ərzində AXC-nin görkəmli xadimləri F.X.Xoyski və H.Ağayev Tiflisdə, Behbudağa Cavanşir isə Maltada ermənilər tərəfindən qətlə yetirildi.





A.Ziyadxanov, X.Rəfibəyov, H.Səlimov, N.Yusifbəyov və başqaları siyasi terrorun qurbanı oldular.

Müharibə başa çatdıqdan sonra Daşnaksütyun "Nemesis" ("Qisas") adlı xüsusi terrorçu qrup təşkil etdi. Vaxtilə Osmanlı dövlətinin Daxili İşlər naziri, daha sonra isə Hərbi naziri olmuş Tələt paşa 1921-ci il martın 15-də Berlinin izdihamlı Kurfurststendam küçəsində yüzlərlə adamın gözü önündə bu qrupun üzvü tərəfindən qətlə yetirildi. Siyasi təzyiqlər nəticəsində qatilin üzərində mühakimə prosesi, əslində, məzhəkəyə çevrildi. Berlin dairə məhkəməsi qatilə bəraət verdi. Məhkəmə üzvləri siyasi əlamətlərə görə seçilmişdilər və bütün proses boyu müttəhimin vəkili tərəfindən gizli hədələrə məruz qalırdılar.

Məhkəmə erməni terrorizminə bəraət qazandırmaqla terrorçuların sonrakı qanlı əməllərinə yaşıl işıq yandırmış oldu. "Nemesis" terror təşkilatının üzvləri yaranmış məqamdan istifadə edərək dünyanın müxtəlif ölkələrində Türkiyə və Azərbaycan dövlət xadimlərinə qarşı ardıcıl terror cinayətləri törətdilər. 1921-ci ilin martın 18-də Behbud xan Cavanşir İstanbulda, dekabrın 6-da keçmiş Xarici İşlər naziri Səid Həlim paşa Romada, 1922-ci il aprelin 22-də Bəhaəddin Şakir (keçmiş baş nazir) və professor Azmi Kamal Berlində, 1922-ci il aprelin 25-də Kamal paşa və onun müavini Sürəyya bəy Tiflisdə, 1922-ci il avqustun 4-də Ənvər paşa Buxarada qətlə yetirildilər.

XX əsrin 20-90-cı illərində diasporun külli miqdarda vəsaitləri hesabına daha da təşkilatlanan və güclənən erməni terror təşkilatları öz fəaliyyət prinsiplərində bir qədər dəyişiklik etmək məcburiyyətində qaldılar. Buna səbəb beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər, bölünmüş dünyanın yenidən bölüşdürülməsi uğrunda gedən amansız mübarizədə "erməni məsələsi"nin arxa plana keçirilməsi oldu. Maraqlıdır ki, erməni terroru nə ötən əsrin əvvəllərində, nə də sonlarında öz qurbanlarına qarşı eyni dərəcədə amansızlığı, vəhşiliyi ilə diqqəti çəkir, bu müddət ərzində onun siması əsla dəyişmirdi.

Erməni terrorizminin növbəti dalğası türk diplomatlarına, missiyalarına və təşkilatlarına qarşı amansız mübarizə ilə müşayiət olunurdu. Terrorçular ilk olaraq 1973-cü il yanvarın 27-də Los-Ancelesdə Türkiyə konsulu Mehmet Baydar və vitse konsul Bahadır Demiri amansızlıqla qətlə yetirdilər. Erməni terrorunun növbəti dalğası 1975-ci ildən başlayaraq daha dağıdıcı, planlaşdırılmış, mütəşəkkil və məqsədyönlü xarakter daşımağa başladı. 80-ci illərdə daha da artan terror hücumları nəticəsində dünyanın müxtəlif ölkələrində Türkiyənin maraqlarını qoruyan səfirlərin qətlə yetirilməsi adi hala çevrilmişdi. Türk tarixçisi Bilal Şimşirin qeyd etdiyi kimi, ermənilər, türk diplomatlarına qarşı dörd qitədə ard-arda 27 dəfə sui-qəsd təşkil etdilər. Bu illərdə təyyarələr dünyanın dörd bir tərəfindən Türkiyəyə şəhid diplomat cənazələri daşıyırdılar. Dünya diplomatiya tarixində buna bənzər ikinci belə bir cinayət aktı qeydə alınmamışdı. Bütövlükdə, bu sui-qəsdlərdə 34 şəhid və çoxlu sayda yaralı qeydə alınmışdı. Xarici İşlər nazirliyi bəhs olunan dövrdə mövcud personalın təxminən mində qırx və ya yüzdə dördə qədərini şəhid vermişdi. Bu həqiqətən də çox yüksək bir faiz dərəcəsidir. Verdiyimiz bu şəhidlərin elə də asan yetişmədiyini, seçmə diplomatlar olduqlarını da unutmamaq lazımdır.

Beynəlxalq terror təşkilatlarının təcrübəsindən yararlanan Daşnaksütyunun bu dövrdə çoxlu sayda terrorçu qruplaşmaları–Ermənistan İnqilab Ordusu, Yeni Erməni Müqavimət Hərəkatı, Ermənistanı Azad Etmək Uğrunda Yeni Ermənistan Hərəkatı, Ermənistan Azadlıq Təşkilatı, Erməni Soyqırımına Münasibətdə Ədalət Uğrunda Mübarizlər, Erməni Soyqırımı Ədalət Mühakiməsi Yaraqlıları və s. təşkilatlar yaradılır. 1972-1991-ci illər ərzində bu qruplaşmalar Türkiyə diplomatları, siyasətçiləri və iş adamlarına qarşı 300-dən çox terror aktı törətmişlər.

XX əsrin 70-90-cı illərində dünyanın aparıcı dövlətləri ilə yanaşı, Yaxın Şərqin bir çox ərəb ölkələri də erməni terroruna açıq və ya gizli şəkildə dəstək verir, bu və ya digər yollarla erməni diaspor təşkilatlarına havadarlıq edirdilər. Bu dövlətlərin





əksəriyyəti ölkələrindəki mövcud erməni diaspor təşkilatlarının gücü və mövqeləri sayəsində terrorçuluqdan öz məqsədləri üçün yararlanmaqdadırlar. Bu qəbildən olan ölkələr içərisində Livan xüsusilə diqqəti cəlb edir. 1975-ci ildə Beyrutda "Ermənilərin Gizli Azadlıq Ordusu" (ASOA) adlanan ən böyük terror təşkilatı yaradıldı. Təşkilatın banisi A.Akopyan uzun müddət ASALA-ya rəhbərlik etmişdir. Bu ölkədə ən müxtəlif millətçi və terrorçu qruplaşmaların, birbaşa olmasa da, dolayısı yolla terrora rəvac verən çoxsaylı təşkilatların, cəmiyyətlərin mənzil-qərargahları və şöbələri yerləşir. ASALA terror təşkilatının da mənzil-qərargahı və bir sıra strukturları Beyrutda yerləşməkdədir. Məhz bunların nəticəsidir ki, 1965-ci ildə Livan erməniləri Türkiyədən köç etdirilmələrinin 50 illiyi münasibətilə 24 apreli "erməniləri anma günü" elan etdilər.

ASALA terror təşkilatı başlıca olaraq Türkiyənin şərqini, İranın şimalını (yəni Cənubi Azərbaycanı), indiki Ermənistan, Azərbaycanın Naxçıvan Muxtar Respublikası və Dağlıq Qarabağ bölgələrini əhatə edəcək "Böyük Ermənistan" yaratmaq, həmçinin dünya ictimaiyyətinin uydurma "erməni soyqırımı"nı tanımasına nail olmağa çalışır. Bu terrorçu erməni təşkilatının 1986-cı il yanvarın 20-də yaydığı bəyanatda deyilirdi ki, 1975-ci il yanvarın 20-də erməni diasporunun həyata gətirdiyi ASALA bu gün ötən illərə nisbətən daha güclüdür, o bütün düşmənlərinə qarşı mübarizəni son damla qanına kimi davam etdirəcəkdir. Təşkilatın strateji hədəflərini həyata keçirməyin əsas vasitəsi kimi terror qəbul olunmuşdur. Livanla yanaşı, ABŞ, Yunanıstan, Cənubi Kipr, Fransa, İran və Suriyadakı erməni diaspor təşkilatları ASALA-ya dəstək verməkdədirlər. SSRİ-nin mövcudluğu dövründə ASALA Ermənistan SSR-dən bir platsdarm kimi istifadə edirdi. ASALA yaraqlılarının 1975-ci ilin yanvarında Beyrutda kilsələrin Ümumdünya Şurasının binasında keçirdiyi terror aktı erməni terror təşkilatlarının qanlı fəaliyyətində yeni mərhələnin başlanmasından xəbər verirdi.

ASALA-nın çoxlu törəmə terrorçu qruplaşmaları -"Orli", "9 iyun", "3 oktyabr", "8", "88", "888", CJGA yaxud CSAQ (Erməni Soyqırım Ədalət Komandoları), FRA (Erməni İnqilabi Federasiyası), NRA (Yeni Erməni Müqaviməti), 9 iyun Qrupu, GSF (Fransa Sentyabr Qrupu) və s. yaradıldı. Bu təşkilatların əsas hədəfi ASALA-da olduğu kimi türk diplomatları idi. Sonralar onlar Türkiyə ilə dost münasibətlərdə olan və ASALA yaraqlılarını həbsdə saxlayan ölkələrin nümayəndələri və vətəndaşlarına qarşı çoxlu basqınlar etdilər. Bu barədə R.Sevdimalıyev statistikaya müraciət edərək qeyd edir ki, yalnız 1975-1985-ci illər ərzində ASALA qruplaşmaları dünyanın 21 ölkəsinin 38 şəhərində 110 terror aktı törətmişlər. Bunlardan 39-u silahlı basqın olmuş, 70-dən çoxu bomba partlayışları ilə müşayiət olunmuşdur. Bu terror əməlləri nəticəsində 42 türk diplomatı və digər ölkələrin 66 vətəndaşı yaralanmışdır.

XX əsrin sonlarında erməni terroruna siyasi havadlıq edən, maddi və mənəvi dəstək verən qurumlardan biri də "xaç atası" Erməni Qriqoryan (Apostol) kilsəsidir. Tarixçi Ş.Məmmədov bu barədə yazır: "Çox böyük maliyyə imkanlarına, sərt intizama və mərkəzləşdirilmiş təşkilati struktura, habelə dünyanın hər yerinə səpələnmiş diasporaya malik erməni kilsəsi özünün demək olar ki, təqribən 1700 illik bütün tarixi boyu terrorizmin baş qərargahı olmuşdur. Bunun bir çox obyektiv və subyektiv səbəbləri vardır. Birincisi, ermənilərin tarix boyu dövlətləri olmadığından bu funksiyanı kilsə oynamışdır və ona görə də bütün dünyaya səpələnmiş bu toplumu birləşdirmək qayğıları ilə kilsənin məşğul olması başa düşüləndir. İkincisi, öz məhdud milli və qrup mənafelərindən çıxış edərək, içərisində yaşadıqları dövlətə imkan düşən kimi xəyanət etmiş, hətta hərbi əməliyyatların aparıldığı zamanlarda belə düşmən tərəflə əməkdaşlıq etmişlər. Rəsmi məqamda olan erməni ruhaniləri isə həmişə bu xəyanətin önündə getmiş, dindaşlarına pis "nümunə" göstərmişlər. Dövlət orqanları buna qarşı lazımi tədbirləri gördükdə isə erməni ruhaniləri dindaşlarını terror və qiyamlara təhrik etmiş, "əzabkeş ermənilərə zülm





edilməsi" barədə hay-küy salmışlar. Bu halda layiq olduqları cavabı alacaqlarını əvvəlcədən bilən və bilməli olan erməni kilsə xadimlərini başa düşmək çətindir".

SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış Ermənistan çoxsaylı erməni diaspor hərəkatlarının və terrorçu təşkilatlarının ətrafına inteqrasiya olunduğu nüvə rolunu oynayır. Ermənistan dünya erməni fondları və təşkilatlarından nəhəng maliyyə yardımları alaraq özü də erməni terror təşkilatlarının sponsoru rolunu oynayır, onların fəaliyyətlərini planlaşdırır və əlaqələndirir. Bu gün Ermənistan, işğal edilmiş Dağlıq Qarabağ əraziləri, Rusiya Federasiyası və bir sıra başqa ölkələrdə tərkibində iş adamlarının, hərbiçilərin və terrorçuların olduğu "firmalar" fəaliyyət göstərməkdədir. "Tiqran", "Sxem-16", "Qafqaz cəbhəsi", "Qızıl xaçlar" və başqaları silah-sursat, radiaktiv materiallar, narkotik maddələr alveri ilə məşğul olur, əldə edilən külli miqdar qazancın bir hissəsini də terrorçulara ötürürdülər.

Beynəlxalq miqyasda geniş terror şəbəkəsinə malik olan və iri miqyaslı terror aktları törədən erməni terror təşkilatları Ermənistan hökuməti, diaspor təşkilatları və bir çox Qərb dövlətləri və erməni kilsəsi tərəfindən maliyyələşdirilir. Sirr deyil ki, tanınmış erməni terror təşkilatları özləri də qeyri-qanuni yollarla, silah və narkotik maddələrin satışı, insan alveri, işğal altında qalan Azərbaycan torpaqlarının talanması, qaçaqmalçılıq və s. yollarla külli miqdarda sərvət əldə etmişlər.

Beləliklə, dünyanın müxtəlif ölkələrində on minlərlə türkü amansızlıqla qətlə yetirən erməni terror təşkilatları və terrorçu Ermənistan Respublikası bütün dünyada beynəlxalq sülhü və sabitliyi pozmaqla Azərbaycan və Türkiyənin dövlət maraqlarına təhlükə törətməkdədir.

### 3.3. Ermənistan-diaspor əlaqələrinin fəallaşması və Azərbaycana qarşı birgə mübarizəsi (XX əsrin 90-cı illəri)

XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin iflasa uğraması ilə Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistandan ibarət müstəqil dövlətlər meydana gəldi. 1991-ci ilin 21 sentyabrında müstəqillik əldə etmiş Ermənistanda hakimiyyət uğrunda mübarizə daha da gücləndi. Bir sıra partiyalar hakimiyyəti ələ keçirmək üçün beynəlxalq aləmdə fəaliyyət göstərən ermənipərəst dairələrin birbaşa yardımından bəhrələndilər. Bəhs olunan dövrdə Ermənistanın daxili və xarici siyasətinə hakim olmağa can atan qüvvələrdən biri də xaricdəki erməni diaspor təşkilatları idi. Ermənistanda siyasi gərginlik prezidentliyə namizədliyi diaspor təşkilatları tərəfindən irəli sürülən və ABŞ tərəfindən dəstəklənən Levon Ter-Petrosyanın qələbə qazanması ilə tədricən səngimiş oldu. Prezident kürsüsündə əyləşən Ter-Petrosyan hakimiyyətinin ilk illərindən xarici siyasət strategiyasının istiqamətlərinin müəyyənləşdirilməsinə başladı. Qeyd edək ki, bu strategiyanın müəyyənləşdirilməsi 3 mühüm amil nəzərə alınmaqla həyata keçirildi:

1. Coğrafi mövqe; 2. İqtisadi amil; 3. Kadr potensialı.

Müstəqilliyin ilk illərində Ermənistanda iqtisadi və siyasi duruma nəzər saldıqda düşmən ölkənin heç də "şanslı" olmadığını görmüş oların. Qafqazın bu bufer ölkəsinin dənizlərə və mühüm ticarət mərkəzlərinə birbaşa çıxışı olmadığından dünyanın "qapalı" ölkələr siyahısında yer almaqdadır. Sovet dövründə Ermənistanı digər ittifaq ölkələri və İranla birləşdirən quru və dəmir yollarının önəmli bir hissəsinin qonşu ölkələrdən, o cümlədən Azərbaycandan keçməsi də Ermənistanın mövqelərini xeyli zəiflətdi. 90-cı illərin əvvəllərindən başlayaraq Ermənistanın Türkiyə, Gürcüstan və Azərbaycana qarşı ərazi iddialarını yenidən işə salması və beynəlxalq hüququn prinsiplərinə açıq-aşkar etinasızlığı, Azərbaycana qarşı elan olunmamış müharibəyə başlaması və s. onsuz da iqtisadi durumu acınacaqlı vəziyyətdə olan Ermənistanı yeni-yeni problemlərlə qarşı-qarşıya qoydu. Ölkədəki aclıq və səfalət, müharibənin yaratdığı dözülməz şərait səbəbindən yüz minlərlə erməni Ermənistanı birdəfəlik tərk edərək qonşu ölkələrə, o cümlədən Avropaya və ABŞ-a köç etmək məcburiyyətində qaldı.





Ermənistanın ilk prezidenti olan Levon Ter-Petrosyan ölkəsinin yuxarıda qeyd etdiyimiz problemlərini nəzərə alaraq qonşu dövlətlərlərlə münasibətləri bir qədər yumşaltmağa çalışırdı. Onun Türkiyə və İranla siyasi-iqtisadi və mədəni əlaqələri genişləndirmək planları Rusiya hakim dairələri tərəfindən birmənalı qarşılanmadı. Rusiyanın təzyiqlərinə baxmayaraq, prezident Ter-Petrosyan ölkəsinin gələcəyini, beynəlxalq aləmə çıxışını, ilk növbədə, qonşu ölkələrlə qurulacaq iqtisadi əlaqələrin möhkəmləndirilməsində görürdü. Əslində, belə bir siyasət Ermənistanın Rusiya ilə mövcud bağlarının zədələnməsi ehtimalını gücləndirsə də, ölkə daxilindəki bəzi dairələr tərəfindən dəstəklənməkdə idi. Ölkə prezidentinin Türkiyə ilə diplomatik əlaqələrin qurulmasının vacibliyi ideyası da bu qüvvələr tərəfindən müsbət qarşılandı. Prezident Ter-Petrosyan qısa zaman müddətində ölkəsindəki ictimai rəyi müsbət mənada öz xeyrinə dəyişə bildi. Tezliklə, iki ölkə arasında iqtisadi-siyasi və diplomatik əlaqələr bərpa olundu, hətta Türkiyənin dəstəyi sayəsində Ermənistan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına tamhüquqlu üzv qəbul olundu.

Bəzi tədqiqatçılar diasporun Ermənistan ilə münasibətlərinin istiləşməsini 1988-ci ilin dekabr ayında baş verən zəlzələ və Ermənistanın müstəqilliyini elan etməsi faktı ilə bağlasalar da, əslində, ikili münasibətlərin daha da yaxşılaşması 1945-ci ilə təsadüf edir. Diaspor erməniləri beynəlxalq aləmdə SSRİ-yə qarşı çıxmaqdansa, müharibədən sonra daha da güclənən bu ölkə ilə münasibətlərin inkişafının Ermənistana və diaspora daha faydalı olacağına inandıqları üçün taktikalarını dəyişdilər. Buna görə də ikinci dünya müharibəsindən sonra erməni diasporu SSRİ-yə qarşı fəaliyyətini əhəmiyyətli dərəcədə məhdudlaşdırdı.

Sovet hökumətinin dəstəyinə arxalanan xaricdəki ermənilər 80-ci illərin II yarısından etibarən Azərbaycan torpaqlarına, xüsusilə də Naxçıvana qarşı ərazi iddialarını yenidən intensivləşdirdi. Bu məqsədlə 1987-ci ildə ABŞ-da "Naxçıvanı Ermənistana birləşdirmək" təşkilatı, 1999-cu ildə İrəvanda "Naxçıvan qardaşları" cəmiyyəti, "Naxçıvan Ermənilərinin Milli Şurası" kimi təşkilat və cəmiyyətlər yaradılır, müxtəlif mətbuat orqanlarında Naxçıvanla bağlı saxta, heç bir elmi əsası olmayan, obyektivlikdən tamamilə uzaq olan yazılar dərc etdirirdilər.

1988-ci ilin əvvəllərində–SSRİ-nin süqutunun sürətləndiyi bir vaxtda xaricdəki erməni diaspor təşkilatları və onlara havadarlıq edən qüvvələrin dəstəyindən ilhamlanan ermənilər dünya ictimaiyyəti önündə öz çirkin əməllərinə haqq qazandırmaq üçün fevralın 28-də Sumqayıtda Eduard Robertoviç Qriqoriyanın fəal iştirakı ilə fitnəkarlıq törətdilər. Bu hadisələrin törədilməsindən bir neçə gün öncə varlı ermənilər əmlaklarını, xüsusən də əmanət banklarındakı pullarını götürüb şəhəri tərk etmişdilər. Ekstremist əhvali-ruhiyyəsi qəsdən qızışdırılan, hər an fitnəkarlıq baş verməsi təhlükəsi olan şəhərdə milisə nəinki odlu silah, heç adi dəyənək də gəzdirməyə icazə verilmirdi. Prokurorluq orqanları, general Karayevin komandanlığı altında şəhərə gətirilmiş hərbi hissə də hadisələrin ən gərgin vaxtı fəaliyyətsiz dayanmışdı. Törədiləcək fitnəkarlığı lentə almaq, elə səhəri gün hay-küylə bütün dünyaya çatdırmaq üçün əvvəlcədən cinayətlər baş verəcəyi planlaşdırılmış yerlərdə tele-fotooperatorlar yerləşdirilmişdi. Hadisələrin təşkilatçısı və başlıca icraçısı Eduard Qriqoryan şəxsən doqquz erməni öldürmüşdü. Ermənilərin törətdiyi bu faciə nəticəsində şəhərdə 32 nəfər, o cümlədən 26 erməni, 6 azərbaycanlı qətlə yetirildi. Baş vermiş fitnəkarlığın əsas təşəbbüskarlarından olan və xaricdəki erməni diaspor təşkilatları tərəfindən maliyyələşdirilən "Krunk" cəmiyyətinin fəaliyyətinə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1988-ci il 24 mart qərarı ilə xalqlar arasında nifaq salmaq kimi yolverilməz





bir fəaliyyətdə günahlandırılıb rəsmən qadağan edilsə də, yenə fəal iş aparırdı.

Sumqayıt iğtişaşlarının qarşısı alındıqdan sonra–1988-ci il mart ayının 1-də SSRİ Baş prokurorunun müavini A.F.Katusevin qərarına əsasən, SSRİ Baş Prokurorluğu tərəfindən cinayət hadisələri icraata götürüldü. SSRİ Baş prokuroru yanında mühüm işlər üzrə müstəntiq V.S.Qalkinin rəhbərliyi ilə 231 nəfərdən ibarət istintaq əməliyyat qrupu yaradıldı. Bu işi aparan istintaq qrupu Sovetlər ölkəsinin müxtəlif bölgələrindən ezamiyyə olunmuş hüquqşünaslardan, kriminalistlərdən. psixoloqlardan, səhiyyə işçilərindən ibarət idi. İstintaq-əməliyyat qrupunun tərkibinə Azərbaycan SSR-dən isə hüquq-mühafizə orqanlarının cəmi 43 nəfər əməkdaşı cəlb edilmişdir. İstintaqın gedişində müəyyən edilmişdir ki, 1988-ci il fevralın 27-29-da Azərbaycan SSR-in Sumqayıt şəhərində "xuliqanlıq" edən şəxslər tərəfindən kütləvi iğtişaşlar törədilmişdir. Bu iğtişaşlar nəticəsində 32 nəfər həlak olmuş, 400 nəfərdən çox adam müxtəlif dərəcəli bədən xəsarəti almış, 250 nəfərin mənzili hücuma məruz qalmış, dağıdılmış, 50-dən artıq mədəni-məişət obyektinə xəsarət yetirilmiş, 40-dan çox nəqliyyat vasitəsi sındırılmış, bir hissəsi yandırılmışdır. Dövlətə 7 milyon rubl məbləğində maddi ziyan vurulmuşdur. Göründüyü kimi, Sumqayıt hadisələri SSRİ təhlükəsizlik orqanları tərəfindən qabaqcadan hazırlanmış, xaricdəki erməni diaspor təşkilatları tərəfindən planlaşdırılmış ssenari əsasında ustalıqla həyata keçirilmiş dövlətimizə qarşı erməni təxribatının növbəti mərhələsi idi.

Ermənistan Azərbaycanın daxili işlərinə kobud müdaxilələrini daha da genişləndirərək xaricdəki erməni diasporunu da bu işə cəlb etdi. 16 iyun 1989-cu ildə SSRİ-nin Parisdəki səfirliyi önündə 100 minə yaxın diaspor ermənisi mitinq keçirərək Dağlıq Qarabağın Ermənistana verilməsini tələb edən şüarlar səsləndirdilər.

Ermənistan müstəqilliyinin ilk illərində Qərbin siyasi dəstəyini və iqtisadi yardımını almaq baxımından diasporla əmək-

daşlığa ehtiyac duymuş və onun imkanlarından bacarıqla istifadə etmişdir. 1990-ci illərin əvvəllərinə kimi diaspor maddi və mənəvi cəhətdən Ermənistanı dəstəkləmişdir. Ancaq bu tarixədək xaricdə fəaliyyət göstərən Daşnaksütyun, Hnçaq (Kilsə zəngi), Ramkavar-Azatakan (Liberal Demokrat) partiyalarının Ermənistanda yenidən siyasi fəaliyyətə başlamasından sonra Ermənistan-diaspor münasibətlərində bəzi problemlər ortaya çıxmışdır. Bunu diasporun xarici siyasətdə mövqeyini gücləndirməsi ilə əlaqələndirmək olar. Digər səbəblərdən biri də Ermənistanın ilk xarici işlər naziri Raffi Hovannesyanın və hökumətdə təmsil olunan bəzi vəzifəli şəxslərin diaspor əsilli olmasıdır. Buna baxmayaraq, prezident Levon Ter-Petrosyan vəziyyəti nəzarətdə saxlamağa çalışmış və bəzən diasporun fəaliyyətini, qismən də olsa, məhdudlaşdırmışdır.

XX əsrin 90-cı illərinin əvvəllərində diasporun iqtisadi, siyasi və kadr potensialından məharətlə istifadə etməsi, həmçinin iqtidardakı Ter-Petrosyan hökumətini davamlı təzyiq altında saxlamaq siyasəti hökuməti ciddi addımlar atmağa sövq etdi. Nəticədə 28 dekabr 1994-cü ildə Daşnaksütyun partiyasının mərkəzi qərargahı və yerli şöbələri bağlandı, partiyanın lideri Vahan Ovenesyan isə həbs edildi. Beləliklə, Ermənistan müharibə aparan bir ölkə kimi diasporun maddi və mənəvi dəstəyindən məhrum edildi. Həmçinin, 1995-ci ildə qəbul olunmuş Ermənistan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş ikili vətəndaşlığın ləğv edilməsi ilə bağlı müddəaya əsasən diaspor ermənilərı Ermənistan vətəndaşı olmaq, özlərini vətənin bir parçası kimi hiss etmək haqqından da məhrum edildi.

Hökumətin Türkiyə və Azərbaycana qarşı apardığı siyasəti heç də uğurlu hesab etməyən daşnaklar diaspor təşkilatlarının maddi və mənəvi dəstəyi sayəsində 1998-ci ildə ölkə prezidenti Levon Ter-Petrosyanı istefa verməyə məcbur etdilər. Hakimiyyəti dinc yolla ələ keçirən, əslən Dağlıq Qarabağdan olan Robert Köçəryan əsas diqqətini ilk növbədə, Petrosyan hakimiyyəti dövründə daşnaklar üzərinə qoyulmuş qadağaların aradan qaldırılmasına yönəltdi. İlk addım 1995-ci ildən həbsdə olan daşnak lideri Vahan Ovanesyan azadlığa buraxılması oldu.





XX əsrin 90-cı illərində iqtisadi və siyasi cəhətdən zəif ölkə olan Ermənistan diasporun maddi və mənəvi dəstəyinə ehtiyac duyduğundan bu qurumla münasibətləri daha da genişləndirməkdə maraqlı idi. Odur ki, 1998-ci ildə Robert Köçəryan prezident seçildikdən sonra Ermənistanın diaspor siyasətini yenidən nəzərdən keçirdi və qarşılıqlı münasibətlərə xüsusi əhəmiyyət verməyə başladı. Ermənistan daha çox xarici siyasətdə fəaliyyət sahəsini genişləndirmək və iqtisadiyyatını inkişaf etdirmək üçün diasporun potensialından faydalanmağa çalışırdı. Bu baxımdan dünya ermənilərinin təşkilatlanması və qarşılıqlı fəaliyyətin koordinasiya edilməsi üçün Köçəryanın təşəbbüsü və dəstəyi sayəsində üç dəfə Ermənistan-diaspor konfransı təşkil edildi. Əslində, diaspor özünü Ermənistana yaxın kimi göstərsə də, ikili münasibətlərdə hələ də aradan qaldırılması mümkün olmayan psixoloji maneələr qalmaqda idi. Tərəflər bərabər vəziyyətdə olmadıqlarından aralarındakı problemlərin həll edilməsi üçün təşkil edilən konfranslar da nəticəsiz qalmış, diaspor təşkilatlarının hərtərəfli olaraq Ermənistana təsir etmə təşəbbüsləri bu gün də davam etdirilməkdədir. Göründüyü kimi, Ter-Petrosyan hakimiyyətindən fərqli olaraq Robert Köçəryan iqtidarı müharibənin vurduğu ziyanı aradan qaldırmaq və güclü maliyyə qaynaqlarına malik diaspor təşkilatlarının Ermənistana ayırdığı yardımların dayanıqlılığı və davamlılığını təmin etmək istiqamətində səylərini daha da gücləndirməyə çalışırdı.

Diasporun Ermənistana artan təzyiqlərini bir qədər zəiflətmək məqsədilə Köçəryanın təşəbüsü ilə 1999-cu il sentyabrın 22-23-də İrəvanda "I Ermənistan-diaspor konfransı" keçirildi. Köçəryan bu konfrans vasitəsilə diaspor ermənilərindən ölkəyə ayırdıqları maddi yardım və sərmayə qoyuluşunu artırmağı, yaşadıqları ölkələrdə Dağlıq Qarabağla bağlı Ermənistanın mövqeyini müdafiə etməyi tövsiyə etdi. Diaspor ermənilərinin tələbi isə qondarma "erməni soyqırımı"nın tanıdılması istiqamətində

dövlətin daha fəal siyasət həyata keçirməsindən ibarət oldu. Türk tarixçisi Sedat Laçınerin qeyd etdiyi kimi, konfransda Ermənistan ilə diaspor arasında çoxdandır gözlənilən "bazarlıq" edildi. Gözlənildiyi kimi, diaspor təşkilatları Ermənistana iqtisadi yardım, investisiya, xaricdə lobbiçilik, tibb, təhsil, elm sahələrinə dəstək verəcək, qarşılığında isə Ermənistan da diaspora təşkilatlanma işinin sürətləndirilməsi, siyasi hədəflərin müəyyənləşdirilməsi, adət-ənənələrin və dilin mühafizəsi istiqamətində yardımlarını davam etdirəcəkdi. Həmçinin konfransda xaricdə yaşayan ermənilərin ümumi iş uğrunda görəcəyi işlər planlaşdırıldı və diasporun qarşısında duran vəzifələr müəyyənləşdirildı. Turizmin, elmin inkişafında, investisiyaların cəlb olunmasında erməni diasporunun iştirakına qərar verildi.

Bu müstəvidə onu da qeyd edək ki, "II Ermənistan-diaspor konfransı" 2002-ci il mayın 27-28-də İrəvanda təşkil edildi. Konfransın sonunda qəbul edilən sənəddə Osmanlı dövlətinin 1,5 milyon ermənini öldürməsi ilə erməni cəmiyyətinin yaralanması, ancaq buna baxmayaraq, ermənilərin osmanlının etnik təmizləmə siyasətinə qarşı mübarizə aparması öz əksini tapmışdır. Konfransda qəbul edilən sənəddə dünyanın bir çox ölkələrindəki müxtəlif siyasi və mədəni şərtlər altında fəaliyyət göstərən erməni diasporunun milli xarakterinin, adət və ənənələrinin, mədəniyyət və milli kimliyin qorunması və inkişaf etdirilməsinin əsas problem olması, dünyanın hər bir ölkəsində "erməni soyqırımı"-nın tanınmasının təmin edilməsi üçün qətiyyət göstərilməsi vurğulanmışdır: "Konfrans dünyanın müxtəlif ölkələrinin paytaxtında erməni xalqının həqiqətlərini qəbul edən dostlarının, beynəlxalq ictimaiyyətin soyqırım haqqında hər gün bir az da artan qətiyyətini sübut edən fəaliyyəti qarşısında məmnunluğunu ifadə edir". Həmçinin konfransda diaspor ilə münasibətlərin dərinləşdirilməsinin və genişləndirilməsinin vacibliyi bir daha qeyd edildi. Yekun sənəddə də bir fikir xüsusi vurğulandı ki, "Ermənistan Respublikası dünyada yaşayan ermənilərin dövlət quruculuğu prosesində iştirakını təmin etməyi qarşısına məqsəd qoymuşdur.





2006-cı il sentyabrın 18-20-də İrəvanda təşkil olunmuş "III Ermənistan-diaspor konfransı"nda müxtəlif ölkələrdən təxminən iki min nümayəndə iştirak etmişdir. Konfransda "XXI əsrdə milli dövlət və milli kimlik", "Diaspor-anavətən münasibətlərinin mexanizmi-ikitərəfli yol", "Vətənə dönüş və vahid milli kimlik məsələsi" və "2020-ci ildə diaspora baxış" mövzularında müzakirələr aparıldı. Əvvəlki konfranslarda olduğu kimi, bu konfransda da, diaspor nümayəndələri tərəfindən diaspor-Ermənistan münasibətlərini koordinasiya edəcək bir dövlət orqanının qurulmasının vacibliyi qeyd edilmiş, sonrakı illərdə belə bir orqan qurulmuşdur. Konfransda Ermənistan və diaspor arasında olduğu kimi, diaspor daxilindəki problemlərin də geniş və planlı əməkdaşlığa mane olduğuna dair fikirlər səsləndirildi. Diasporun Ermənistanın xarici siyasətində yaratdığı çətinliklərin digər amili də siyasi və hüquqi məsuliyyətinin olmamasına baxmayaraq, hökumətdən daha radikal xarici siyasət həyata keçirməyi tələb etməsidir. Dövlət adamlarının Ermənistanın real potensialını görməsinə baxmayaraq, diaspor bəzən hökumətdən imkansız olanı tələb edir.

Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan xarici siyasət sahəsində diaspor amilindən maksimum dərəcədə yararlanmağa cəhd göstərsə də, diaspor qurumlarının ölkənin xarici siyasətinin müəyyənləşdirilməsində liderlik istəyini zərərsizləşdirməyə çalışırdı. Tarixçi H.Cabbarlı bu barədə yazır: "Petrosyanın xarici siyasətdə diasporun güclü olmasına qarşı çıxmasının səbəbi diasporun, xüsusilə də Türkiyəyə qarşı qondarma "soyqırımı" və torpaq tələbi ilə bağlı daha radikal siyasət izləmə tələbi olmuşdur. Ter-Petrosyan qondarma "soyqırım"ın müzakirə edilməsinə qarşı çıxmasa da, bu amilin Türkiyə ilə iqtisadi, diplomatik və siyasi münasibətlər qurmağa mane olmadığı fikrini müdafiə etmişdir. Hakimiyyətdə olduğu illərdə qondarma "soyqırımı" mövzusu xarici siyasətdə prioritet məsələlər arasında olmamışdır. Petrosyan hakimiyyətinin ilk illərində işğalçı siyasət həyata keçirsə də, 1994-cü ildə atəşkəs müqaviləsi imzalandıq-

dan sonra "status kvo"nu qorumağa, daha sonra isə problemi hər iki tərəfin qəbul edə biləcəyi sülh müqaviləsi imzalayaraq həll et-məyə çalışmış, ancaq daxili və xarici güclər Petrosyana bu siyasətini həyata keçirməyə imkan verməmişdir.

Köçəryan Ter-Petrosyanın həyata keçirdiyi Türkiyə meyilli xarici siyasətin tam əksinə olaraq, qondarma "soyqırımı" iddiasını xarici siyasətin prioritet mövzuları sırasına daxil etməklə ikili münasibətləri daha da gərginləşdirmiş, "Qarabağ müharibəsindəki gərginliyi eyni sərtliklə Ermənistan xarici siyasətində əks etdirmişdir.

Ermənistan-diaspor əlaqələrinin dərinləşməsi və Azərbaycana qarşı birgə mübarizəsi 90-cı illərin sonlarından etibarən daha da gücləndi. Köçəryanın hakimiyyəti dövründə diasporda təşkilatlanmış bir sıra qruplar iqtisadi güclərini siyasi məqsədlər naminə istifadə etməyə başladılar. "Yardım" və "Özəlləşdirmə" adı altında Ermənistan iqtisadiyyatının diaspordan asılılığının gücləndirilməsinə çalışan bu qrupların fəaliyyəti ölkə daxilindəki bir sıra dairələrin hiddətinə səbəb oldu. Dərhal ermənicə yayınlanan "İravunk" qəzeti "iqtisadiyyatın tamamilə diasporu təmsil edən iş adamlarının əlində cəmləşməsi təhlükəsi"nə diqqət çəkmişdir. Digər bir qəzet "Orran" da bu məsələyə münasibət bildirərək diaspor ermənilərinin iki böyük probleminin olduğunu qeyd edirdi:

1. Ermənistana yatırılan investisiyaları necə qorumalı?

2. Ermənistanı kənardan sevməyə necə davam etməli. Qərbi Avropa və Şimali Amerikadan olan erməni maqnatlar maddi durumlarına görə Ermənistan iqtisadiyyatına daha çox müdaxilə etmək imkanına malikdirlər.

Bu gün diasporun Ermənistana iqtisadi və siyasi təsiri, eləcə də nəzarəti hələ də qalmaqdadır. Buna səbəb diasporun insan resursları və maliyyə mənbələrindən düzgün və səmərəli istifadə olunmasıdır. Təbii ki, gündən-günə artan maliyyə imkanları da insan resurslarını təkmilləşdirməyə imkan verir. Bu işlərin arxa-





sında Amerikada fəaliyyət göstərən aşağıdakı erməni maliyyə mərkəzləri dayanmaqdadır:

Ermənilərə Yardım Fondu (Fund for Armenien Relief), Hayastan Erməniləri Fondu (Hayastan AII Armenien Fund), Birləşmiş Erməni Fondu (United Armenian Fund, Lincy Fundation). Yeri gəlmişkən qeyd edək ki, Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan 1991-ci ildə yaradılmış "Hayastan Erməniləri Fondu"nun İdarə Heyətinin sədridir. Fondun Nizamnaməsində təşkilatın əsas məqsədi Ermənistanın və qondarma "DQR"-in inkişafina təkan vermək, xarici investorları Ermənistana cəlb etmək, "DQR"-in müstəqilliyini dünya miqyasında tanıtmaqdan ibarətdir. Yarandığı gündən bu günə qədər təşkilatın Dağlıq Qarabağa və Ermənistana yatırdığı investisiyaların həcmi 160 milyondan artıqdır. "Bir millət-bir gələcək" devizini əldə rəhbər tutan fondun Braziliyada, Uruqvayda, İngiltərədə, Fransada, İsveçrədə, Hollandiyada, Avstriyada, Almaniyada 12 şöbəsi, İsveçdə, Rusiyada, Livanda və Avstraliyada isə nümayəndəlikləri fəaliyyət göstərməkdədir.

Müasir dövrdə bir çox məsələlərin həllində Ermənistanla diaspor təşkilatları arasındakı mövcud ziddiyyətlərin aradan qaldırılması, bu qurumun daha sistemli və səmərəli fəaliyyət göstərməsi məqsədilə Xarici İşlər Nazirliyi nəzdində Diasporla Əlaqələr Deportamenti fəaliyyət göstərir. Qurum xaricdəki erməni icmalarının təşkilatlandırılması, diaspor təşkilatlarının həmin ölkələrin dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığının möhkəmləndirilməsi istiqamətində fəaliyyət göstərməkdədir. Qurumun antitürk fəaliyyəti erməni milli ideologiyası olan "Hay Dad" doktrinasına əsaslanır. "Hay" (erməni) və erməni dilində "Dadavarutyun" (məhkəmə) sözlərindən əmələ gələn "Hay Dad" erməni məhkəməsi və ya mühakiməsi anlamı kəsb etməkdədir. Maraqlıdır ki, 1991-ci ildən etibarən doktrina qeyri-rəsmi olaraq bütün hökumətlər tərəfindən qeyd-şərtsiz qəbul və tətbiq olunmuşdur. Erməni kilsəsi və ziyalıları tərəfindən əsrlərdir yaşadı-

lan, hər şeyə rəğmən həyata keçirilməsi vacib olan məsələlərin XIX əsrin sonu XX əsrin əvvəllərində doktrina halına salınmış "Hay Dad", bir növ, böyük dövlətlərin maraqlarına xidmət edirdi. Doktrinanın işlənib hazırlanmasında, istiqamətlərinin müəyyənləşdirilməsində Daşnaksütyun partiyasının mühüm rolu olmuşdur. "Hay Dad" doktrinasının təməl prinsipləri aşağıdakılardan ibarətdir:

1. Tarixi erməni torpaqlarının geri alınması və "Böyük Ermənistan" dövlətinin yaranması;

2. Tarix boyunca dünyanın müxtəlif bölgələrinə səpələnmiş erməni əhalisinin "doğma torpaq"lara qayıdışını təmin etmək;

3. Sosial dövlətin bərqarar olması. Qonşu dövlətlərə qarşı əsassız ərazi iddiaları, habelə etnik təmizləmə, terror, deportasiya, milli düşmənçilik də məhz bu təməl prinsiplərə söykənir. G.Libaridiyanın təbirincə desək, "Hay Dad" sadəcə böyük hədəflərə aparan bir doktrina deyildir. "Hay dad" kimlik böhranından cəmiyyət daxilində birliyə, fərqli millətlərdən olanlarla evliliklərə mane olacaq mexanizmlərin tapılmasından, universitetlərdə erməni tarixinin dərs kimi tədris etdirilməsinə, nəsillərarası anlaşılmazlıqlardan, türklərin soyqırım törətdiklərini inkar etmələrinə və soyqırımının beynəlxalq aləmdə tanınmasına kimi ermənilərlə əlaqədar hər şeyi özündə ehtiva edir.

Müasir dövrdə "Hay Dad" doktrinasının mərkəzi ofisi İrəvanda yerləşir. Daşnaksütyun partiyasının mövcud olduğu bütün ölkələrdə–ABŞ, Belçika, Rusiya, İran və Livanda regional büroları fəaliyyət göstərir. Tarixi keçmişi, siyasi və iqtisadi əlaqələri baxımından "Hay Dad" ABŞ bürosu daha geniş şəkildə fəaliyyət göstərir. "Hay Dad" büroları, xüsusilə dövlət orqanlarına, Senata, Təmsilçilər Məclisinə və seçkili orqanlara daha aktiv şəkildə inteqrasiya olunmaqdadırlar. 2004-cü ildə Senata və Təmsilçilər Məclisinə keçirilən seçkilərdə "Hay Dad" bürolarının dəstəklədiyi 202 namizəddən 199-u qələbə qazanmışdır.





Beləliklə, XX əsrin 90-ci illərinin əvvəllərində Ermənistan-diaspor əlaqələrinin fəallaşması bu ölkənin iqtisadi-siyasi cəhətdən bir qədər dirçəlməsinə səbəb oldu. Xaricdəki zəngin erməni diaspor təşkilatlarının Ermənistana yatırdığı sərmayələr, qondarma "Dağlıq Qarabağ Respublikası"na qanunsuz səfərlərin təşkili və digər amillər diasporun Ermənistana marağını daha da artırmışdır.

## NƏTİCƏ

XIX-XX əsrlərdə erməni diasporunun formalaşması və antitürk fəaliyyəti problemini əks etdirən mənbələrin araşdırılması, onların müqayisəli təhlili bir sıra nəticələri qeyd etməyə imkan verir.

İlk növbədə, bu gün möhkəm sosial-iqtisadi və maliyyə resursları ilə Ermənistan dövlətinin xaricdə əsas siyasi dayaqlarından birinə çevrilmiş erməni diasporunun formalaşması prosesinə təsir edən amillər, həmçinin bu istiqamətdə erməniçilik ideologiyası və erməni kilsəsinin rolu nəzərdən keçirilmiş, diasporun yayılma coğrafiyası, diaspor qurumlarının dövlət və QHT ilə əlaqələri, strukturu, maliyyə mənbələri geniş şəkildə tədqiq edilmişdir.

Erməni diasporunun formalaşması prosesi XIX əsrin əvvəllərindən başlamış və XX əsrin 90-cı illərinə qədərki dövrü əhatə etmişdir. Lakin diasporun formalaşmasına qədərki mərhələ erməni miqrasiyaları və koloniyalaşma prosesi ilə xarakterizə olunur. Koloniyalaşma prosesi erməni icmalarının təşəkkülü və formalaşmasına müsbət mənada təkan vermiş və icma daxili etnik və sosial proseslərin inkişafını daha da sürətləndirmişdir.

XVIII əsrin sonu XIX əsrin əvvəllərindən etibarən Hindistandan tutmuş ABŞ və Kanadaya qədər böyük bir coğrafiyada genişlənən erməni koloniyaları daxilində erməni icmalarının formalaşma prosesi daha da sürətlənmiş və nəticədə diasporun ilkin rüşeymləri meydana gəlməyə başladı. Nəticədə diasporun dinamikasında kəskin yüksəliş baş vermiş, strukturu və təşkilatlanma işinin keyfiyyətində bir sıra məqamlar ortaya çıxmışdır. Bu dövr ərzində dünyanın 70-dən artıq ölkəsində fəaliyyət göstərən çoxsaylı erməni diaspor təşkilatları və cəmiyyətləri yaradıldı. Müxtəlif məqsədlər üçün yaradılmış bu qurumların daxilində struktur işi daha da sürətləndirildi və nəticədə türk dünyasına qarşı çirkin





